ISSN-1680-1245

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
SUMGAYIT STATE UNIVERSITY

# ELMİ XƏBƏRLƏR
# НАУЧНЫЕ ИЗВЕСТИЯ
# SCIENTIFIC NEWS

***Sosial və humanitar elmlər bölməsi***
***Серия: Социальные и гуманитарные науки***
***Series for Social and Humanitarian Studies***

***Cild 14*** ***2018*** ***№ 4***

**Sumqayıt – 2018**

**Sumqayıt Dövlət Universiteti**
**Elmi xəbərlər. Sosial və Humanitar elmlər bölməsi**

## REDAKSİYA HEYƏTİ

**ELXAN HÜSEYNOV** — ***Baş redaktor***
*fəlsəfə üzrə fəlsəfə doktoru, professor, rektor*

**RAMAZAN MƏMMƏDOV** — ***Baş redaktor müavini***
*filologiya üzrə elmlər doktoru, professor,*
*elm və innovasiyalar üzrə prorektor*

**NİGAR İSGƏNDƏROVA** — ***Məsul katib***
*filologiya üzrə elmlər doktoru, professor*

### REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

#### *Dilçilik*

**Nizami Cəfərov** — *AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor*
**Aslan Bayramov** — *filologiya üzrə elmlər doktoru, professor*
**Buludxan Xəlilov** — *filologiya üzrə elmlər doktoru, professor*
**Sayalı Sadıqova** — *filologiya üzrə elmlər doktoru, professor*
**Böyükxanım Eminli** — *filologiya üzrə fəlsəfə doktoru **(məsul redaktor)***

#### *Ədəbiyyatşünaslıq*

**Avtandil Məmmədov** — *filologiya üzrə elmlər doktoru, professor **(məsul redaktor)***
**Fikrət Rzayev** — *filologiya üzrə elmlər doktoru, professor*
**Rafiq Əliyev** — *filologiya üzrə elmlər doktoru, professor*
**Məhərrəm Qasımlı** — *filologiya üzrə elmlər doktoru, professor*
**Sevinc Həmzəyeva** — *filologiya üzrə fəlsəfə doktoru, dosent*

#### *Tarix*

**Adil Baxşəliyev** — *tarix üzrə elmlər doktoru, professor*
**Əziz Məmmədov** — *fəlsəfə üzrə elmlər doktoru, professor*
**Həsən Sadıqov** — *fəlsəfə üzrə elmlər doktoru, professor*
**Şirxan Səlimov** — *tarix üzrə elmlər doktoru, professor **(məsul redaktor)***
**Zabil Bayramov** — *tarix üzrə elmlər doktoru, professor*

#### *İqtisad elmləri üzrə*

**Ziyad Səmədzadə** — *akademik*
**Arif Şəkərəliyev** — *iqtisad üzrə elmlər doktoru, professor*
**Hacıağa Rüstəmbəyov** — *iqtisad üzrə elmlər doktoru, professor*
**Şəfa Əliyev** — *iqtisad üzrə elmlər doktoru, professor*
**Albert Tağıyev** — *iqtisad üzrə fəlsəfə doktoru, dosent **(məsul redaktor)***
**Qalib Hüseynov** — *iqtisad üzrə fəlsəfə doktoru, dosent*
**Aynurə Yəhyayeva** — *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

#### *Pedaqogika, psixologiya, metodika*

**Fərrux Rüstəmov** — *pedaqogika üzrə elmlər doktoru, professor*
**Ramiz Əliyev** — *psixologiya üzrə elmlər doktoru, professor*
**Aytəkin Məmmədova** — *pedaqogika üzrə fəlsəfə doktoru **(məsul redaktor)***
**Fuad Məmmədov** — *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
**Sevər Mirzəyeva** — *psixologiya üzrə fəlsəfə doktoru*

**Təsisçi: Sumqayıt Dövlət Universiteti**
“Elmi Xəbərlər” jurnalı Azərbaycan Respublikası Təhsil Nazirliyinin 19.07.2004-cü il tarixli, 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.

**Учредитель: Сумгаитский государственный университет**
Журнал «Научные Известия» издается на основании приказа 46-16-3547/17 Министерства Образования Азербайджанской Республики от 19.07.2004-го года.
Зарегистрирован Министерством Юстиции Азербайджанской Республики.
Включен в список научных изданий Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

**Founder: Sumgayit State University**
The Journal of "Scientific News" is published due to the order № 46-16-3547/17 of the Ministry of Education of the Republic of Azerbaijan from 19.07.2004.
It has been registered by the Ministry of Justice of the Republic of Azerbaijan.
It has been included to the list of scientific publications of the Supreme Attestation Commission under President of the Republic of Azerbaijan.

Məqalələrin tərtibatı qaydaları ilə SDU-nun rəsmi saytında www.sdu.edu.az tanış olmaq olar.
С правилами оформления статей можно ознакомиться на официальном сайте СГУ www.sdu.edu.az.
Please, see the website SSU www.sdu.edu.az in order to be familiar with the proper design of the articles.

**© Sumqayıt Dövlət Universiteti, 2018**

**УДК 81`344.3**

# К ВОПРОСУ О ФОНОЛОГИЧЕСКОЙ ОРИЕНТИРОВАННОСТИ АРТИКУЛЯЦИОННЫХ КЛАССИФИКАЦИЙ ЗВУКОВ
## (на материале вокализма азербайджанского языка)

**МАМЕДОВ РАМАЗАН САЛАМ оглу**
*Сумгаитский государственный университет, профессор*
ramedov44@gmail.com

***Ключевые слова***: *звук, гласный, признак, артикуляционный, фонетический, дифтонг, монофтонг, фонологический, ориентированность, классификация*

Выделение особого вопроса, вынесенного в заглавие настоящей статьи, может показаться совершенно ненужным, даже надуманным. На первый взгляд тут никакой проблемы и нет: дать артикуляционную классификацию гласных означает описать все гласные звуки данного языка по их объективным артикуляционным признакам.

Однако, первый же вопрос: сколько гласных должно быть охарактеризовано? – ставит исследователя в тупик. Ведь практически «ни один человек ни разу в своей жизни не произнес дважды того же самого звука. То, что представляется одним и тем же, при детальном (объективном. – Р.М.) анализе окажется разным. Ответ: Да! может быть повторен в течение жизни одним лицом тысячи раз, и всякий раз [a] в этом слове отличается от всех других [a], произнесенных в этом же слове… Различие часто ничтожное, но оно всегда есть, а иногда оно и значительно» (1, с.8). Следовательно, количество гласных, которые должны быть классифицированы, в принципе не может быть установлено, если мы хотим дать **объективную** характеристику всех гласных данного языка.

Справедливо мнение о том, что «вопреки патриархальным фонетическим представлениям, классификация звуков до их системного анализа является в принципе неточной и до известной степени произвольной» (1, с.34). Тем не менее, степень этой произвольности, вероятно, имеет определенные более или менее объективные границы, вытекающие из того обстоятельства, что всякая фонетическая классификация с самого начала обладает фонологической ориентированностью. Другими словами, в любой фонетической классификации имплицитно присутствуют фонологические воззрения исследователя, строящего данную классификацию. Проявляется это, в частности, и в том, что в исследованиях звукового строя того или иного языка, особенно на первых порах его изучения, как правило, дается фонетическая характеристика именно фонологически существенных для данного языка звуков. Причем, это имеет место и в том случае, если исследователь не вполне осознает необходимости фонологической ориентации фонетического описания. Кстати, неслучайно поэтому первых создателей алфавитов называют стихийными фонологами: они должны были уметь отличать фонологически существенные для данного языка звуки от несущественных или менее существенных, чтобы лишь затем выбрать или придумать графемы для их обозначения на письме. О том, что они были именно стихийными фонологами, свидетельствует, между прочим, и тот факт, что ни в одном языке, пожалуй, мы не найдем исчерпывающего однозначного соответствия между графемами и фонемами данного языка.

Расхождения в фонетических описаниях, как правило, свидетельствуют об определенных расхождениях фонологических взглядов. С этой точки зрения несомненный

интерес представляет анализ современного состояния артикуляционной классификации азербайджанского вокализма.

Прежде всего, следует отметить, что фонетическое и фонологическое описание азербайджанского вокализма, как правило, композиционно четко не разграничены. Приятным исключением является, пожалуй, сочинение А.А.Ахундова. Отметим, кстати, что синтагматика и парадигматика звуковых единиц также не разграничены в азербайджанском языкознании.

Выделяются два типа расхождений в артикуляционных характеристиках азербайджанских гласных: 1) *расхождения в количестве гласных*, артикуляционная характеристика которых дается в исследованиях разных авторов, и 2) *расхождения в артикуляционной характеристике одних и тех же гласных.* Рассмотрим эти расхождения.

**1. Расхождения в количестве характеризуемых гласных** обусловлены оценкой фонологической ценности признаков «долгота-краткость» и «монофтонг – дифтонг». Исследователи, не признающие эти признаки в качестве фонемообразующими в системе азербайджанского вокализма, составляют большинство. Они ограничиваются артикуляционной классификацией 9-и гласных: [ a – o – u – ı – i – ü – e – ö – ə ]. (2)

Исследователи, считающие признак «долгота-краткость» фонемообразующим, но не принимающие таковым признак «монофтонг-дифтонг», дают классификацию 15-и гласных: 9 вышеуказанные краткие гласные и 6 долгие: [ i: - u: - e: -ə: - ö: - a: ]. (3)

И, насколько нам известно, только А.А.Ахундов считает признаки «долгота-краткость» и «монофтонг-дифтонг» фонемообразующими в системе азербайджанского вокализма и дает артикуляционную и акустическую классификацию 17-и гласных: кроме указанных 15-и, еще 2-х дифтонгов: [ou] и [öü] (4, с.73-95).

Заметим, что во всех описанных случаях выбор количества гласных при их чисто фонетическом описании строго соответствует фонологической позиции каждого исследователя. В этом, очевидно, проявляется осознанность необходимости фонологической ориентации фонетического описания.

Совершенно особое место занимает в этом плане работа А.М.Демирчизаде. С одной стороны, автор не признает долгие гласные и дифтонги в качестве самостоятельных фонем, относя их к числу вариантов кратких, точнее, нормальной долготы гласных фонем. С другой же стороны, в «Таблице классификации гласных азербайджанского литературного языка» (5,48) помещены не только 9 гласных нормальной долготы, принимаемые автором в качестве самостоятельных фонем, но и долгие гласные и дифтонги, а также три сверхкраткие гласные: [ i: – e: – ə: – ö – a: – u: – o: – ou – öü – i. – ı. – ü.]. Включенные в таблицу артикуляционной классификации гласных дифтонгов и сверхкратких (кратких, в терминологии автора. – Р.М.) гласных – новое в азербайджанском языкознании, и свидетельствует о начале нового этапа развития фонетической теории, когда объектом изучения становится многообразие модификаций фонем в речи.

Однако, включение в одну и ту же таблицу и основных видов фонем и их разнообразных аллофонов имеет некоторые недостатки. Во-первых, несколько теряется фонологическая направленность фонетической классификации гласных. Это осознано, видимо, и самим автором, о чем свидетельствует его стремление избежать возникающей неопределенности, что видно из его примечания к таблице: «Буквы, снабженные диакритическими знаками и заключенные в скобки, обозначающие долгие [:], краткие [.] и дифтонгные [⌒] варианты фонем, обозначенных в таблице буквами без диакритических значков и вне скобок» (5, с.48). Во-вторых, включение дифтонгов в таблицу, отражающую артикуляционную классификацию гласных, неправомерно и с чисто фонетической точки зрения: в отличие от монофтонгов, дифтонги не обладают стабильными признаками определенного подъема, ряда образования и лабиализованности-нелабиализованности. Не

случайно поэтому, что А.А.Ахундов, – единственный исследователь, причисляющий дифтонги [ou] и [öü] в разряд самостоятельных фонем, – не включил их в таблицу и ограничился их характеристикой в тексте (4, с.63-73; 92-94; 137-139). Примечательно, что А.М.Демирчизаде включил в таблицу всего два дифтонга из 13-и, об условиях произношения которых говорится на с.192-207 его книги. Не включил автор в свою таблицу также и долгие гласные [ı:] и [ü:], наличие в азербайджанской речи которых отмечено на с.195 и 202, а также сверхкраткие [ə.] [е.] [u.] [а.] (их наличие в азербайджанской речи отмечено на сс.52, 53, 59, 194, 197 и 198). Эти ограничения можно было бы считать обоснованными, если бы в таблицу включены были лишь те звуки, фонематическая самостоятельность которых является спорной. Но в таблице представлены и гласные [о: – i. – ü. – ı.], которые рассматриваются всеми исследователями как варианты соответствующих фонем <о – i – ü – ı >.

**2. Расхождения в артикуляционной характеристике одних и тех же гласных**

Расхождения в артикуляционной характеристике одних и тех же гласных разными исследователями азербайджанского вокализма еще более показательны. Казалось бы, артикуляционная характеристика гласных, основанная на экспериментальных данных (рентгенограммы), исключает саму возможность всякого разнобоя. Однако расхождения именно в этом вопросе как нельзя лучше свидетельствует о необходимости фонологической направленности всякого фонетического описания. Эти же расхождения свидетельствуют одновременно и о стихийном стремлении различных исследователей добиться фонологической ориентировки своего фонетического описания.

Проанализируем одно из расхождений и попытаемся раскрыть его причины: [ö] – это огубленный [е] или огубленный [ə]?

А.М.Демирчизаде характеризует гласный [ö] как «огубленный [е]» (5, 55). А.А.Ахундов, основываясь на показаниях рентгенографических снимков, в том числе и данных в работе А. М. Демирчизаде, и на характеристике гласных [е] и [ö] по другим артикуляционным признакам, данных самим же Демирчизаде, показывает непоследовательность автора и ошибочность его вывода. Сопоставляя характеристики гласных [е] и [ö], данные в работе А. М. Демирчизаде, А. А. Ахундов устанавливает, что и в описании самого Демирчизаде эти гласные различаются не по одному, а по трем признакам:

1) *По степени раствора, или по подъему.* [е] – полузакрытый, или гласный среднего подъема, а [ö] – открытый, или гласный нижнего подъема.

2) *По ряду образования.* [е] – гласный среднего ряда, а [ö] – гласный переднего ряда.

3) *По участию губ.* [е] – неогубленный гласный, а [ö] – огубленный.

«Таким образом, – заключает А.Ахундов, – насколько правомерно утверждение о том, что гласный «ö» - это огубленный полуоткрытый «е», если эти гласные резко различаются между собой по трем существенным различительным признакам (по месту образования, участию губ, вертикальному положению языка)?» (4, 81. Термины «полузакрытый» и «полуоткрытый» употреблены здесь как синонимы).

Коррелятом гласного [ö], т.е. противопоставленным ему только по одному признаку, является, по утверждению А.Ахундова, гласный [ə], поэтому [ö] может быть охарактеризован как огубленный [ə] (4, с.81).

Таким образом, два мнения: **1) [ö] – это огубленный [е] и 2) [ö] – это огубленный [ə]**. Какое из них правильно? Как справедливо показал А.Ахундов, вывод А. Демирчизаде не вытекает из его же описания этих гласных. Можно было бы подумать, что А. Демирчизаде оговорился, и поэтому правильно второе мнение: [ö] есть огубленный [ə]. Но у нас нет полного основания полагать, что А. Демирчизаде оговорился, так как он полностью сохранил всю характеристику звуков [ö], [е] и [ə] спустя 12 лет в своей работе 1972 г. и вновь повторил утверждение о том, что «[ö] есть огубленный [е]». Все это вряд ли случайно. Тогда

в чем же дело? Чем объяснить такое явное противоречие и непоследовательность А. Демирчизаде?

На наш взгляд, указанное противоречие является результатом попеременного проведения двух критериев, – фонетического и фонологического, – при описании данных гласных. **Утверждение, что гласный [е] является гласным среднего ряда и среднего подъема** («полузакрытым», «полуоткрытым»), **а гласный [ö] – гласным переднего ряда, нижнего подъема, основано на фонетическом подходе, утверждение же, «[ö] есть огубленный [е]», в имплиците имеет своим основанием фонологический подход**.

Отметим, что А. Ахундов непротиворечив потому, что в данном вопросе он последовательно руководствуется только фонетическим критерием: хотя объективно гласный [ö] занимает промежуточное положение по подъему между [е] и [ə], он все же ближе к [ə]. Точно так и по признаку ряда: гласный [ö], хотя и занимает промежуточное положение между гласными [е] и [ə], все же он ближе к [ə]. Поэтому есть все основания утверждать, что гласный [ö] – это огубленный [ə].

В этом рассуждении, казалось бы, нет никакого противоречия. Но, во-первых, что значит «ближе», «дальше»? Этот критерий настолько зыбкий, что полагаться на его объективность совершенно ненадежно. Как известно, «свои речевые навыки каждый постоянно контролирует по их акустическому результату; при этом возможны разные уклады речевых органов, дающих одинаковый акустический результат. И наоборот, иногда один и тот же уклад речевых органов в ротовой полости создает разные акустические единицы» (1, с.46. См. там же литературу по этому вопросу в сносках на с.45-47). Так, при одном и том же положении языка и растворе ротовой полости только лишь изменением положения губ, складывая их в трубочку и выпячивая вперед, и снимая трубочку их возвращением в нейтральное положение, можно произносить как гласные [ö] и [ə], так и гласные [ö] и [е]. **Поэтому с чисто артикуляционной точки зрения утверждение «[ö] есть огубленный [ə]» не имеет принципиального преимущества перед утверждением «[ö] есть огубленный [е]».** Решить же, имеет ли вообще какое-либо преимущество одно из этих двух утверждений и какое именно, можно лишь с фонологических, функциональных позиций. Однако, это тема для другой статьи. Здесь же уместно вспомнить высказывание Н.С.Трубецкого о том, что «звук языка можно определить только по соотношению с фонемой» (6, с.47).

## ЛИТЕРАТУРА И ПРИМЕЧАНИЯ

1. Панов М.В. Русская фонетика. М.: Просвещение, 1967. – 438 с.
2. См. работы: Алекперов А.К. Фонетическая система современного азербайджанского языка. Баку: Элм, 1971; Баскаков А.Н. Типологические особенности азербайджанского и русского языков. // Развитие национального-русского двуязычия. Отв.ред. Ю.Д.Дешериев, М.: Наука, 1976, с.105-128; Гаджиева Н.З. Азербайджанский язык. // Языки народов СССР, т.2, Тюркские языки. М.: Наука, 1966; Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I cild. Bakı: Nurlan, 2003, 450 s.; Исхаков Ф.Г. Характеристика отдельных гласных современных тюркских языков. // Исследование по сравнительной грамматике тюркских языков, ч. I, Фонетика. М.: Изд-во АН СССР, 1955, с. 60-114; Мельников Г.П. Несколько «почему» из области Азербайджанского вокализма. // Вопросы тюркологии. К 60-летию академика АН Азерб. ССР М. Ш. Ширалиева. Баку: Элм, 1971, с.196-208; Seyidov Y. Azərbaycan dili. Ali məktəblərin rus bölmələri üçün dərslik. Baki: Maarif, 1978, 288 s.; Сухотин А.М., К.К.Юдохин. О сокращении некоторых букв в ряде тюркских алфавитов. // Реформатский А.А. Из истории отечественной фонологии: Очерк; Хрестоматия М.: Наука 1970, с.157-162; Тенишев Э.Р. и др. Сравнительно-историческая грамматика тюркских языков. Фонетика. М.: Наука, 1984, 488 с.; Hüseynzadə M. Müasir Azərbaycan dili (fonetika,

morfologiya). Bakı: Maarif, 1963; Cəlilov F.A. Azərbaycan dilinin səs quruluşu. Bakı: 1982; Şirəliyev M.Ş. Azərbaycan dili orfoepiyasının əsasları. Bakı: Azərnəşr, 1970; Щербак Л.М. Сравнительная фонетика тюркских языков. Л.: Наука, 1970; Языки мира: Тюркские языки. М.: Индрик, 1997, 544 с. и др.

3. См. работы: Əfəndizadə Ə. Azərbaycan ədəbi tələffüzü haqqında. // Nitq mədəniyyəti məsələləri. Bakı: Elm, 1969, s.35-89; Əfəndizadə Ə.Orfoqrafiya-orfoepiya...(kompleks luğət). Bakı: Azərnəşr, 1989, 239 s.; Кязимов Ф.И. Гласные азербайджанского языка (методика экспериментально-фонетического исследования). // Учен.зап. 1-го Московского госуд. ин-та иностр. языков, т.8, 1954, с. 57-81. Xəlilov B. Ə. Müasir Azərbaycan dili: fonetika, yazı, əlifba, qrafika, orfoqrafiya, orfoepiya. Bakı: Çap Evi, 2013. – 310 s. и др.
4. Axundov A.A Azərbaycan dilinin fonemlər sistemi (fizioloji, akustik, statistik, fonoloji tədqiqat təcrübəsi). Bakı: Maarif, 1973, 303 s.
5. Dəmirçizadə Ə. Müasir azərbaycan dili (Fonetika, orfoepiya, orfoqrafiya). Bakı: Maarif, 1972, 308 s.
6. Трубецкой Н.С. Основы фонологии. М.: ИЛ, 1960, 372 с. Ср.: Звуки как объективный физический факт «являются элементами лингвистической системы лишь в той мере, в какой они выполняют функцию различителя значений. Материальное содержание таких фонологических элементов менее существенно, чем их взаимосвязь внутри системы» (Тезисы Пражского лингвистического кружка. // Звегинцев В.А.История языкознания XIX и XX веков в очерках и извлечениях, ч.II. М.: Учпедгиз, 1960, с.67-85). Ср. также: «Звуки речи можно понять, разграничить, классифицировать и объяснить только с точки зрения тех функций, которые они выполняют в языке. Артикуляторное и акустическое описание звуковой материи, а также описание ее с точки зрения слухового восприятия должны быть подчинены ее структурному анализу» (Якобсон Р.О.Избранные работы. М.: Прогресс, 1985, с. 87). Ср. еще: «Звук речи … вычленяется из речевой цепи только как языковая единица, как форма выражения фонемы» (Зирдер Л.Р. Общая фонетика. М.: Наука, 1979, с. 251).

## XÜLASƏ
## SƏSLƏRİN ARTİKULYATOR TƏSNİFATININ FONOLOJİ YÖNÜMLÜLÜYÜ MƏSƏLƏSİNƏ DAİR (azərbaycan dilinin vokalizm materialları əsasında)

***Məmmədov R.S.***

***Açar sözlər:*** *səs, sait, əlamət, diftonq, monoftonq, artikulyator, fonetik, fonoloji, təsnifat.*

Məqalə azərbaycan dilçiliyində saitlərinin fenetik təsnifatının icmalı verilir. Tədqiqata cəlb olunan saitlərin sayına və əlamətlərinə görə artikulyator təsnifatlarda müşahidə edilən fərqli yanaşmalar araşdırılır, fonetik təsnifatın bütün hallarda fonoloji yönümlü olduğu fikri irəli sürülür və əsaslandırılır.

## SUMMARY
## ON THE PHONOLYCY MANAGEMENT OF ARTICLES OF THE SUBSCRIPTION (based on the vocalism of the Azerbaijani language)

***Mammadov R.S.***

***Key words***: *sound, vowel, sign, dipton, monoftone, artikulyator, phonetics, phonology, orientation, classification.*

The article provides a summary of the phenomenological classification of the saiga in Azerbaijani linguistics. Different approaches observed in the artichoke classifications are studied according to the number and characteristics of the engraved works, and the idea that phonetic classification is phonological-oriented in all cases is justified and justified.

Daxilolma tarixi: İlkin variant 04.12.2018
Son variant 17.12.2018

**UOT 808.56**

# KİŞİ VƏ QADIN NİTQİNƏ GENDER YANAŞMA

**EMİNLİ BÖYÜKXANIM İBRAHİM qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
eminli.xanum@mail.ru

***Açar sözlər:*** *linqvistika, etnokulturologiya, gender, kişi və qadın nitqi, dialoq, feminizm*

Cəmiyyətin sosial mədəniyyəti insanların sosial aktivliyini tənzimləyir, əhalinin mədəni özünüdərkini, humanitar istiqamətlənməsini, dünyagörüşünü, onların davranışının və kommunikasiyasının sosial adekvatlığını müəyyən edir. Bu proseslərdə əsas yeri etnik mədəniyyət tutur.

Hələ qədim zamanlarda cinslərin qarışıqlı əlaqəsi probleminə müxtəlif şəkildə toxunurdular. Gender yanaşması filologiyada insan faktorunu daha dəqiq nəzərə almağa imkan verir. Dilin və onun daşıycısı olan cinsin arasındakı qarşılıqlı əlaqəsinin öyrənilməsi 2 dövrə bölünür ki, onların sərhədi XX əsrin 60-cı illəridir. 1. Bioloji determinizm – əsasən dağınıq faktorların müşahidələrinə əsaslanan, başqa elmlərlə əlaqəsi olmayan, qeyri-müntəzəm tədqiqatlar. 2. Əsl gender təlqiqatları – 60-cı illərdən başlayaraq geniş miqyaslı təbqiqatlar aparılır ki, bu, dilçiliyin praqmatik aspektinə marağın artması, sosial linqvistikanın inkişafı, cəmiyyətdə qadın və kişi rollarının ənənəvi bölgüsündə baş verən dəyişikliklərlə əlaqədardır, bu da linqvistik faktlara yeni işıqda baxmağa və yeni baxımdan şərh etməyə imkan verir. Keçid dövründə (XX əsrin I yarısı) bu sahədə ilk işlər Qərbdə yarandı. Bu german və roman dil qrupu bazası əsasında qadın və kişi nitqlərinin xüsusiyətlərinin ilk sistemli təsviri idi. Rusiyada bu proses bir qədər gec – 80-ci illərin sonu – 90-cı illərin əvvəlində inkişaf etməyə başladı. Hazırda cins fenomeni ilə əlaqədar dilin sistemli təsviri və dərk edilməsinə həsr olunmuş bir sıra əsərlər meydana çıxıb, genderin nəzəri modeli yaradılır və s. Qərbdə , əsasən, 3 istiqamət və ya yanaşma müəyyən olunur: birinci istiqamətin nümayəndələri qadın və kişi dilinin sırf sosial təbiətini müzakirə edirlər. Onların tədqiqatları elə dil fərqlərinə yönəldilib ki, onları cəmiyyətdə sosial hakimiyyətin bölüşdürülməsinin xüsusiyyətləri ilə izah etmək olar. Bu zaman «kişi» və «qadın» dili əsas dilin işlək törəməsi kimi müəyyən olunaraq, partnyorların sosial iyerarxiyanın müxtəlif pillələrində olduqdarı zaman işləndiyi göstərilir. İkinci – sosial-linqvist yanaşma – «qadın» və «kişi» dilini cinslərin dil davranışlarının xüsusiyyətlərinə qədər ixtisar edir. Bu istiqamətdə işləyən alimlər üçün statistik göstəricilər və ya orta parametrlərin müəyyən edilməsi əsaslı əhəmiyyətə malikdir, kişi və qadın nitq davranışları tiplərinin psixolinqvistik nəzəriyyəsi qurmaq üçün karkas rolunu oynayır. Üçüncü istiqamətdə əsas diqqət cinslərin dil davranışındakı müxtəlifliyin koqnitiv aspektlərinə verilir. Müxtəlifliyin miqdarının müəyyən edilməsi və onun göstəricilərindən istifadə ilə yanaşı, dil kateqoriyalarının koqnitiv linqvist modellərinin hazırlanması da mühüm sayılır. Qeyd etmək lazımdır ki, müasir elmi paradiqmada hər üç yanaşma bir-birini qarşılıqlı şəkildə tamamlayır. Ancaq cəm halında olan izahedici qüvvəyə malikdir.

Dilçilikdə gender tədqiqatları arasında feminist linqvistika və ya dilin feminist tənqidi xüsusilə seçilir. Bunun səbəbi onun fənlərarası yanaşmasıdır. Məhz bu zaman o həm də dilin gender tədqiqatlarının və davamçısı olduğu tənqidi linqvistikanın çarparlaşdığı yerdə durur. Elmi ədəbiyyatda onun yaranması üçün ekstralinqvistik və intralinqvistik səbəblər göstərilir. Ekstralinqvist səbəblər – bu, Qərbdə feminizmin populyarlığı, koqnitiv təkamülün çiçəklənməsidir. Məlumdur ki, kişilərin həmişə elmə, təhsilə və sosial həyatın başqa sahələrinə daha geniş şəkildə daxil olmaq imkanları olub. Qadınların koqnitiv fəaliyyəti isə ancaq analıq və

kişi vəzifələrinə əməl olunması ilə məhdudlaşır. Qadınların kişilərin biliklərinə yiyələnmək imkanından sonra onların koqnitiv həyatında böyük aktivlik, dinamiklik müşahidə olunur [ 1]. İntralinqvistik səbəblər – bu 50-60-cı illərdə psixolinqvistika, praqmatika, kommunikasiya nəzəriyyəsi və linqvistikanın özündə bir sıra yeni elmi istiqamətlərin meydana gəlməsidir. Feminist tənqidində 2 əsas istiqaməti müəyyən edirlər. Birincisi – dünyanın dil xəritəsində qadının obrazının diskriminasiyası tədqiq edilir və ya «dil sistemində qadınlara yönəldilmiş assimetriya». Bunun nümayəndələri belə hesab edirlər ki, dil dünyanı kişicəsinə görür və kişicəsinə qiymət dəyərləri hamıya «sırıyır». Dildə əks olunmuş qadın obrazı neqativ xarakteristikalarla təchiz olunub. Bu istiqamət həmçinin qrammatik kişi halını analiz edən işlərə də aiddir. Birinci istiqamətin mərkəzi obyektlərindən biri dilin leksikonu oldu ki, məhz onda qadınlara qarşı neqativ şərhlər aşkar əks olunub. Bu sahədə aparılan tədqiqatlar aşağıdakıları aşkar etdi: sintaktik səviyyədə uzlaşma uyğun nitq hissəsinin qrammatik halının forması üzrə gedir. «İnsan» və «kişi» eyniləşdirilir, bir sıra Avropa dillərində bu iki anlayış sadəcə olaraq, bir-birini əvəz edə bilər, qadın formaları isə adətən, kişi formalarından törəyir (rus dilində student-studentka, alman dilində də eyni şey mövcuddur). Bir çox Avropa dillərində qadın obrazına mənfi xüsusiyyətlər aid olunur. Kişiyə aid olan ifadələr qadının referentinə tətbiq ediləndə bu, onun nüfuzunu qaldırır, vəziyyət tərsinə olanda isə kişi cinsinin referenti xeyli alçalmış olur. Dilin feminist tənqidinin, ikinci «diskursiv» istiqaməti əvvəlki qədər genişdir. İkinci istiqamətin nümayəndələrinin diqqəti mətn arasındakı qarşılıqlı münasibətlər strukturunda diskursun bütün xüsuiyyətlərinin öyrənilməsinə cəmləşdirilib. Dilin feminist tənqidinin ikinci istiqamətinin tədqiqatlarını cəmləməklə demək olar ki, onlar nitqi davranışını qadın və kişi üslubunda fərqlərlə təsbit edirlər. Kişilər, adətən, istənilən məlumatı sürətli şəkildə qəbul edir, bu səbəbdən də qadınlara nisbətən daha tez reaksiya verirlər. Kişilər ilə müqayisədə qadınlar danışmağı daha çox sevirlər. Bu cür ünsiyyətlilik beyində məmnuniyyət mərkəzinin işi ilə bağlıdır. Qadınlar gün ərzində kişilərin istifadə etdiyi sözlərdən 3 dəfə artıq söz işlədirlər. Qadınlar təbiət baxımından ünsiyyətə, kişilər isə aqressiv davranışa meyillidir. Buna görə də kişilər daha çox davaya yol verirlər. Məhz kişilərin bu səbəbə görə uzun müzakirələrə davam etməmələri qadınları qıcıqlandırır. Məsələ isə ondadır ki, kişilərin nitqi zəif inkişaf etmişdir. Tədqiqatlara gorə, qadınlar ünsiyyət qurmaq üçün gün ərzində 20 min söz, mimika və jest istifadə edirsə, bu göstərici kişilərdə sadəcə 7 mindir. Qadınlar sual verməyə daha çox meyillidirlər. Suallar, adətən, necə olur-olsun, söhbəti davam etdirmək məqsədi ilə veilir, qadınlar həmişə söhbətin davam etməsində maraqlıdırlar. Həmsöhbətinin fikri ilə razı olmadıqlarını qadınlar çox vaxt açıq söz etirazı ilə deyil, sükutla bildirirlər. Bəzi məlumatlara görə, kişi ilə müqayisədə qadınlarda şifahi aqressiya üsulları yaddır. Verbal aqressiyanın «kişi» və «qadın» «interpretasiyaları da mövcuddur: qadınlar onu özünə qarşı hesab edir və ünsiyyəti qırmağa cəhd edir, kişilər isə buna söhbəti intensivləşdirmək üsulu kimi baxırlar. Qeyd olunub ki, qadınların sözünü kişilərdən çox kəsirlər. Qadınlarda daha təzyiqli nitq davranışı olsa da, replikalar daha nəzakətli olur. Qadın daha çox öz tələblərini «xahiş formasında təqdim etməyə» meyillidir. Söhbətlərin mövzuları, adətən, qəlib inkişaf edir, amma dəqiq müəyyənləşdirilmiş mövzulu söhbətlər də olur. Qadınlar, adətən, söhbət zamanı daha çox üzr istəyir. Kişilər üçün isə həmsöhbətin nitqini, ələlxüsus o, qadın olanda, şərh etmək xarakterikdir. Mübahisə etmək, həmsöhbətin rəyini təkzib etmək, şərhinə məhəl qoymamaq daha çox kişi diskursuna aiddir. Kişilər, adətən, söhbətdə dominantlıq etməyə, onun gedişini idarə etməyə, öz məqsədlərini birbaşa, eyhamsız deməyə çalışır və bu zaman konkret, həddindən çox nəzakətli söz formaları işlətmir. Dialoqda olan replikalar daha az şəxsi xarakter daşıyır. Kişilər söhbəti başlamağa daha çox meyillidirdlər, onların dialoqdakı replikaları daha çox, davametmə müddəti isə uzundur. Kişilər suallara söhbəti uzatmaq üçün bir vasitə kimi yox, informasiya mənbəyi kimi baxirlar. Söhbət zamanı onlar daha çox yaranmış problemləri həll etməyə və onlara aid məsləhətlər verməyə çalışırlar. Belə hesab olunur ki, qadın və kişilərin nitq üslubları hər şeydən əvvəl onların partnyorun daha əvvəl deyilən fikirlərə reaksiyası, hansı səviyyədə nəzərə alınması və bununla əlaqədar öz fikirlərini seçməsi və düzəlişlər etməsindən asılıdır. Kişilər daha çox öz əvvəlki

mülahizələrinə, qadınlar isə kommunikativ partnyorun mülahizələrinə istiqamətlənirlər. Bu halda əgər kommunikasiya üzrə partnyorun tematik fokusu onlarınkı ilə düz gəlmirsə, qadınlar ona uyğunlaşmağa çalışırlar, kişilər isə belə vəziyyəti söhbətin düşgün mətləbdən uzaqlaşması kimi qəbul edərək, öz fikirlərini əvvəlki tematik istiqamətə yönəltməyə davam edirlər. İnternet şəbəkəsində qadın və kişilərin kommunikasiya üzrə nitqlərinin son tədqiqatları belə bir maraqlı faktı aşkara çıxarmışdır: hətta tipik qadın imza vərəqələrində kişilər daha çox danışırdılar, onların elektron nitqləri və məktubları daha çox uzundur, bundan başqa, qadınlar öz məktublarına (mesaj) kişilərdən 5 dəfə az cavab alıblar. Nəzərdə tutmaq lazımdır ki, «dilçilikdə gender tədqiqatları feminist ədəbiyyatşünaslıqda olduğu kimi qoyulmuş problemin ölçüsündən asılı olaraq, filologiyanın dar çərçivələrinə yerləşmir və buna görə onları fənlərarası yanaşma olmadan təsəvvür etmək mümkün deyil.

Beləliklə, gender tədqiqatları elə bir elm sahəsidir ki, onun köməyi ilə bu və ya digər sosiumun xüsusi qadın və kişi rollarını necə müəyyən etməsi, formalaşdırması ictimai və şəxsi şüurda necə möhkəmləndirməsi, eləcə də bu bölgünün onlar üçün hansı nəticələr verəcəyi öyrənilir. Unutmayaq ki, kişi və qadın danışanda millət, susanda ədəbiyyat yaranır.

## ƏDƏBİYYAT


1. Gender: Tarix. Cəmiyyət. Mədəniyyət. Bakı: Qərb Universiteti, 2002. 465c.
2. Sosial və humanitar fənlərə gender nəzəriyyəsinin inteqrasiyası. // Elmi-praktiki konfransın materialları. Bakı: Qərb Universiteti NPM, 2001, 200 s.
3. Теория и методология гендерных исследований. Курс лекций / Под общ. ред. О.А.Ворониной, М.: МЦГИ - МВШСЭН - МФФ, 2001, 416 с.
4. Трофимова Е.И. Терминологические вопросы в гендерных исследованиях // Гендер: язык, культура, коммуникация. Доклады 2-й международной конференции, М., 2001, 178-188.



## РЕЗЮМЕ
## ГЕНДЕРНЫЙ ПОДХОД К МУЖСКОЙ И ЖЕНСКОЙ РЕЧИ
***Эминли Б.И.***

***Ключевые слова:*** *лингвистика, этнокультурология, мужская и женская речь, диалог, феминизм*

В статье рассмотрены языковые вопросы, связанные с гендером. Люди разного пола различаются тем, про что они говорят и в каких ситуациях. Ясно, что чисто женских и чисто мужских вариантов языка не бывает, а бывают стили, которые больше или меньше ассоциируются с мужским или женским поведением. Лингвисты знают, что женщины и мужчины различаются не только высотой голоса: и грамматика, и стилистика, и коммуникативное поведение — все это выдает пол говорящего.

## SUMMARY
## GENDER APPROACH TO MEN’S AND WOMEN’S SPEECH
***Eminli B.I.***

***Key words:*** *linguistics, ethnoculturology, men’s and women’s speech, dialogue, feminism.*

The article deals with language issues related to gender. People of different sexes differ in what they speak about and in what situations. It is clear that there are no purely feminine and purely masculine versions of the language, but there are styles that are more or less associated with male or female behavior. Linguists know that women and men differ not only by their pitch of voice: but also by grammar, style and communicative behavior – all these give out the sex of the speaker.



Daxilolma tarixi: İlkin variant 01.11.2018
Son variant 17.12.2018

УДК 81`372

# ЭВОЛЮЦИЯ СЕМАНТИКИ НАРЕЧИЙ В РУССКОМ ЛИТЕРАТУРНОМ ЯЗЫКЕ XVIII-XIX вв.

**РЗАЕВА ГЮЛЬШЕН ДАМИРГАН гызы**
*Азербайджанский технический университет, доцент*
*rzayev_fikret@mail.ru*

***Ключевые слова:*** *наречно-глагольные конструкции, семантическая структура, парадигматические ряды.*

В рассматриваемый период в наречно-глагольных конструкциях элементом языковой системы, осуществляющим структурно релевантную связь наречий с системой, выступает глагол. Семантическая многоплановость наречий связана с широтой окружения, которое взятое в целом отражает их семантическую структуру. Утрата семантической многоплановости и стабилизация окружения - два параллельных и взаимосвязанных процесса. Неопределенность отношений наречий и глаголов в наречно-глагольных конструкциях в рассматриваемый период отражает специфику данного этапа истории русского литературного языка. Дальнейшая эволюция вела к устранению многоплановости содержания указанных единиц, приобретению дифференциальных признаков членами парадигматических рядов и стабилизации окружения. Конкретно это проявлялось, с одной стороны, в детерминации окружения внутренней формой наречия, как его ближайшим этимологическим значением, с другой стороны, в постепенном отрыве значения наречия от его внутренней формы и формирования его семантической структуры под влиянием окружения и сферы употребления.

Семантическая многоплановость обеспечивала в исследуемый период почти абсолютную субституцию наречий вовсе, совсем, совершенно, вполне, отнюдь. В наибольшей степени на наречие вовсе по семантическому объему накладывается наречие совсем. Например, в значении "окончательно": совсем погряз, совсем исправилась; в значении "полностью"; совсем согласен, совсем положился; в значении "решительно": совсем отказал, совсем объявил и т.д.

Наречие вполне в основном в рассматриваемой период употребляется в соответствии с его этимологическим значением (завладеть вполне, удовлетворить вполне, помирились вполне), однако наблюдаются также случаи комбинаторного варьирования общего значения, иногда это производит впечатление многозначности, например, вполне налюбоваться, жить, сочувствовать и т.д.

Абсолютная субституция в рассматриваемый период характеризует отношения слов согласно и единогласно, которые сочетаются в это время не только с глаголами речи. В настоящее время лишь наречие согласно сохранило сложность семантической структуры.

В МАС оно зафиксировано в трех значениях, причем в первом значении оно соответствует прилагательному согласный в четырех значениях. [1]. Совершенно непонятно, как наречие в одном значении может соответствовать прилагательному в четырех и довольно разных значениях (1.Совпадающий, сходный; 2.Мирный, дружный, единодушный; 3.Согласованный, слаженный; 4.Стройный, гармоничный). Третье значение слова согласно

(соответственно, сообразно) конструктивно обусловлено; в этом значении оно выступает как предлог и требует после себя существительное в дательном падеже (как правило, это название определенных документов - договор, приказ, устав и т.п.). Окружение здесь двухместное, и если глагольное относительно широкое, то именное уже.

В исследуемый период не дифференцирована в плане семантики и дистрибуция наречия смертельное, смертно, смерть, насмерть, до смерти, мертвецки. Эти однокорневые слова в основном значении рассматриваются как наречия к прилагательным смертельный, смертный, существительное смерть в четвертом значении (просторечном) зафиксировано как наречие [1]. Все эти наречия обладают и переносным значением - "очень сильно". Насмерть, как правило, в настоящее время употребляется с глаголами типа перепугаться, поругаться и т..д., т. е. с глаголами, обозначающими отрицательные явления. Хотя в целом, видимо, дифференциация членов данного ряда носит стилистический характер. Если сегодня весьма низкой частотностью употребления обладает слово смертно, то в XYIII веке оно довольно устойчиво употребляется параллельно с другими членами ряда и очень часто с глаголом любить, влюбиться. Позднее оно постепенно вытесняется наречием смертельно. Интересно употребление наречий смертельно и мертвецки у А.С.Пушкина: у него встречаются сочетания смертельно пьяны и мертвецки влюблены, что говорит о том, что в рассматриваемый период не завершился еще процесс фразеологической закрепленности глаголов за соответствующими наречиями (ср. смертельно влюбиться, мертвецки пьян). Просторечное наречие смерть, как правило, в современном русском языке употребляется в препозиции с элементом как, например, смерть как хочется и т. д. Интересно его употребление без элемента как, например, смерть прозяб, смерть устал и т. д.

Необычность употребления наречия насмерть в рассматриваемый период была связана, по нашим наблюдениям, с тремя обстоятельствами: а) широтой сочетаемости, например, насмерть упиться, влюбиться, привязаться и т.д. б) возможностью употребления с глаголами несовершенного вида - насмерть ненавидеть; в) употреблением наречия насмерть при наречиях с конкретным значением, например, насмерть грустно (ср. смертельно грустно, или смертельная/смертная тоска). Наречие смертельно характеризуется и в данный период не семантической многоплановостью, а многозначностью. Оно встречается в двух значениях: 1. наречие смертельный, т.е. приводящий к смерти, физическому уничтожению; смертельно ранить, укусить, поразить, ударить и т.д.; 2. "очень сильно", например, смертельно влюбиться. В этот ряд входит также предложно-падежное сочетание до смерти, которое употребляется как в прямом значении с глаголами типа убить, избить, добить, побить и т.п., так и в метафорическом значении "крайне, очень", например, до смерти захвалить, скучно, опротивело, надоело. Следует отметить, что сегодня также окружение сочетания до смерти, во-первых, не отличается широтой, во-вторых, специализировано. Как правило, сочетание употребляется со словами скучно, опротивело, надоело, объединенными общим семантическим стержнем отрицательного состояния. Таким образом, упорядочение синонимического рода, состоящего из наречий смертно, смертельно, насмерть, смерть, до смерти идет по линии сужения окружения и стилистической дифференциации, грамматической специализации окружения (например, наречие насмерть в современном русском языке, как правило, употребляется с глаголами совершенного вида). Семантическая многоплановость при этом не всегда снимается во времени. Сужение окружения приводит также к фразеологической связанности значения. Кроме того, данный ряд соотносится с

наречиями очень, сильно, чрезвычайно, жестоко и т. д., отличаясь от последних большей конкретностью значения, обусловленной влиянием этимологического значения.

## ЛИТЕРАТУРА

1. Словарь русского языка: В 4-х т. / АН СССР, Ин-т рус. яз.; Под ред. А. П. Евгеньевой. 2-е изд., испр. и доп. М.: Русский язык, 1981-1984. (МАС).
2. Словарь Академии Российской по азбучному порядку расположенный, ч.1-6. СПб, 1806-1822 (САР).
3. Гусейнов Ф.Г. Русская фразеология (основные тенденции развития в XIX в.). Баку: АГУ, 1977.
4. Экскурсы в историю русской лексики. М.: Наука, 1978, 175 с.

## XÜLASƏ
## XVIII-XIX ƏSRLƏRDƏ RUS ƏDƏBİ DİLİNDƏ ZƏRFLƏRİN MƏNA DƏYİŞMƏSİ

***Rzayeva G.D.***

***Açar sözlər**: zərf-feil birləşmələri, semantik struktur, paradiqmatik cərgələr.*

XVIII-XIX əsrlərdə rus ədəbi dilində zərf-feil birləşmələrinin mənasının açılmasında əsas rol feilə məxsus idi. Məqalədə tədqiq olunan dövrə aid bədii və publisistik əsərlərdən müvafiq nümunələr gətirilir və təhlil olunur. Əldə edilən nəticələr dövrə aid luğətlərlə müqayisə olunur.

## SUMMARY
## EVALUTION OF ADVERBS' SEMANTICS IN RUSSIAN LITERARY LANGUAGE IN XVIII-XIX CENTURIES

***Rzayeva G.D.***

***Key words**: adverb-verb combination, semantic structure, paradigmatic rows.*

The main role belonged to verb explanation of meaning of adverb-verb combinations in Russian literary language in XVIII-XIX centuries. Proper examples have been given and analyzed in the article from artistic and publicistic works of researched period. Gained results have been compared with dictionaries of that period

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 13.11.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 398.91**

# ZƏLİMXAN YAQUBUN ƏSƏRLƏRİNDƏ ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

**İBAYEV NEMƏT ALIŞ oğlu**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim, fil.f.d.*
nemetibayev@gmail.com

***Açar sözlər:*** *Zəlimxan Yaqub, atalar sözü, məsəllər, folklor, poetiklik*

Məlumdur ki, xalq ədəbiyyatı milli ədəbiyyatımız üçün hər zaman zəngin bədii qaynaq olmuş və ədəbi əsərlərin yaranmasında müstəsna rol oynamışdır. Hər bir xalqın, hər bir millətin özünəməxsus milli dəyərləri vardır ki, bu dəyərlər də bir xalqı digər xalqlardan ayıran önəmli amillərdəndir. Bunların yaranmasında coğrafi məkanla yanaşı, xalqın mifoloji təfəkkürü və folkloru da mühüm rol oynayır. Tədqiqatçılar göstərir ki, bir xalqı öyrənmək üçün hər şeydən əvvəl həmin xalqın folklorunu dərindən öyrənmək lazımdır. Beləliklə, xalqın illər boyu formalaşan milli dəyərlərini, adət-ənənələrini, yaşam tərzini aydın bir şəkildə onun folklorunda görə bilərik.

Azərbaycan dünyanın ən zəngin folklor mədəniyyətinə malik ölkələrindən biridir. Milli ədəbiyyatımızın qaynağında məhz zəngin və dərin məzmunlu Azərbaycan folkloru durmaqdadır. Mifoloji-bədii dünyagörüşün izləri folklorda və klassik ədəbiyyatda indi də özünü büruzə verməkdədir.

Milli ədəbiyyatımızda folklorun ilkin nümunələri əmək nəğmələri, bayatılar sayılırsa, daha sonra nağıllar, lətifələr, atalar sözləri və zərbi-məsəllər, əfsanə və dastanlarla davam edir. Bütün bunlar oxucuda istər nağıllar və dastanlar, istərsə də atalar sözləri və məsəllərə marağı artırmaqla yanaşı, təfəkkür tərzinin inkişafı üçün də əlverişli zəmin yaradır.

Görkəmli şairimiz Zəlimxan Yaqubun yaradıcılığı bu baxımdan diqqəti cəlb edir. Ədibin yaradıcılığını dərindən idrak etmək üçün çağdaş poeziyamızla yanaşı, folklorumuzu, xüsusilə də aşıq yaradıcılığını mənimsəmək lazımdır. Çünki o elə uşaqlığından aşıq mühitində böyümüş, görkəmli el şairləri və məşhur aşıqların yaradıcılığından bəhrələnmişdir.

Folklor ənənələrimizi, qan yaddaşımız olan saz sənətini onun qədər dərindən bilən, aşıq yaradıcılığını onun kimi mükəmməl mənimsəmiş başqa bir çağdaş dövr şairimizi misal göstərmək çətindir. “Saz” poemasında ədəbiyyat tariximizdə ilk dəfədir ki, sazın ilahi mənşəyi barədə belə epik vüsətlə bəhs edilır. Poema saz havalarını canlı orqanizm, tərcümeyi-halı olan varlıqlar kimi şərh edir:

*Təklənib, qəmlənib yalqız olanda,*
*Çiçəyim saralıb gülüm solanda,*
*Qəlbim kövrələndə, gözüm dolanda*
*Sazdı ümid yerim, pənahım mənim.* [1, s.1, 184-185]

Və ya:

*Danış, telli sazım, sənindi meydan,*
*Olannan, keçənnən bir söhbət eylə!*
*Lələ gədiklərdə yalqız qalmısan,*
*Kərəmi xatırla, kəramət eylə!* [1, s.1, 189]

Qeyd etdiyimiz kimi, Z.Yaqubun yaradıcılığı folklora söykənir, ondan mənəvi qida alır. Belə ki, ədib əsərlərində folklorun aparıcı janrlarından olan atalar sözləri və məsəllərdən məharətlə istifadə edərək milli koloriti gücləndirir. Əsərlərində atalar sözləri və məsəlləri ümumi mətnlərlə poetik vəhdətdə saxlayaraq bədiiliyin gücünü artırır. Şair xalq arasında çox istifadə edilən “Dövlət quşu başına qonub [4]” məsəlini “Borçalıda qalan izlər” əsərində poetik formada belə ifadə edir:

*O ağır yerişi, o dağ duruşu*
*Görənin heyrətdən baxışı dondu.*
*Gəzdi göy üzündə bir dövlət quşu,*
*Faxralı kəndinin çiyninə qondu.* [2, s.2, 237]

"El məhəbbəti dağdan güc alar [4]" və "El gözündə ucalmaq" məsəllərini, Qoşqar dağ adını – oronimi də əlavə edərək poetiklik yaratmışdır:

*Dağlardan güc alan el məhəbbəti*
*Dünyanı başına yığa bilərmiş.*
*Nələrə qadirmiş eşqin qüdrəti*
*Bir mahal bir kəndə sığa bilərmiş!* [2, c.2, 238]

*Bir insan ki təbiətdən güc alıb,*
*Təbi dönüb bu dağların selinə.*
*El gözündə Qoşqar kimi ucalıb*
*Dərdi niyə gətirirdi dilinə?* [2, s.2, 242]

Və yaxud "Qəlbi dağa döndü" məsəlini o daha da poetikləşdirərək gözəl bir bədii lövhə yaratmışdır:

*Hörmət ilə şair qalxdı ayağa,*
*Salam aldı, salam verdi dostuna.*
*Qəlbi döndü min çeşməli bir dağa,*
*Elə bil ki, nur ələndi üstünə.* [2, s.2, 243]

"Göyçə dərdi" əsəsrində Z.Yaqub insanlığı alçaldan təqib-təzyiqə qarşı üsyan qaldırır, köləliyi pisləyir, bu mənəvi eybəcərliyə qarşı barışmazlıq hissi aşılayır. Bu əsəsrdəki səfərbərlik ruhu, vətəndaşlıq harayı, didərginlik ağrısı, vətəndə vətənsizlik dərdi atalar sözləri və məsəllərdən istifadə etməklə təsirli vasitəyə çevrilmişdir:

*Bu ahdan, bu ağrıdan*
*Sarsılmazmı zirvələr, yıxılmazmı qayalar?!*
*Adı qaçqın olanlar*
*Danışır yana-yana zülmünü, sitəmini.*
*Sakit dinləmək olmur*
*Elindən ayrılanın həsrətini, qəmini.*
*O zamandan özümə gələ bilmirəm qəti,*
*Sinəmə dağlar çəkib bir qaçqının söhbəti.* [2, s.2, 254]

Bu şeir parçasında "dağ çəkmək" idiomu poetik formada mükəmməl ifadə olunmuşdur.

*Ürəyini zaman-zaman*
*Sıxar qəmlər, didər kinlər.*
*Qisas qalmaz qiyamətə,*
*Fürsət gəzər didərginlər!* [2, s.2, 254]

Qeyd etdiyimiz bu şeirdə "Qisas qiyamətə qalmaz" zərbi məsəlindən ustalıqla istifadə etməklə, düşməndən yaxın zamanlarda qisasın alınacağını deyir.

*Danış deyirsən, oğul,*
*Pozdurar pərənimi, elimdən nə danışım?*
*Nə danışsam ağırdı,*
*Nə danışsam ölümdü, ölümdən nə danışım?*
*İçim məni yandırır,*
*Görən yoxdu tüstümü, çölümdən nə danışım?* [2, s.2, 277]

Və ya:

*Az özünü darıxdır, az qəlbini əz daha,*
*Sazla gəzdiyin yeri xəyalınla gəz daha.*
*Yüz fikir bircə borcu ödəyə bilməz daha,*
*Bu elə nisgildi ki, bitməz, Aşıq Müseyib!* [2, s.2, 279]

Gördüyümüz kimi, bu misralarda "İçərim özümü yandırır, çölüm özgəni", "Yüz fikir bir borcu ödəməz [4]" məsəllərindən bədii formada ustalıqla istifadə etmişdir.

"Göyçə dərdi" əsərində Zəlimxan Yaqub "Suda boğulan saman çöpündən yapışar [5]" atalar məsəlindən poetik formada istifadə etmişdir.

*Odda yanar, suda batar, sel aparar,*
*İnsan saman çöpünə də əl aparar,*
*Bərəkəti dolu döyər, yel aparar,*
*Doğma yurddan birdəfəlik ayrılanda!* [2, s.2, 272]

Beləliklə, əsərlərindən göründüyü kimi, Z.Yaqub xalq ədəbiyyatı örnəklərini hər zaman prioritet sayan şairlərimizdəndir. Şairin əsərləri mövzu və problematika baxımından müxtəlif olsa da, hamısı bir ideyaya, bir istiqamətə yönəlmişdir. Bu əsərlərdə bütün oxucuları düşünməyə vadar edən problemlərə toxunulmuşdur. Belə ki, bu əsərlərdə mənəvi-əxlaqi tərbiyə məsələləri, zəhmətkeşlik, vətəndaşlıq, vətən sevgisi kimi məsələlər atalar sözləri və məsəllər fonunda öz bədii əksini tapmışdır.

Məqalə Zəlimxan Yaqubun əsərlərində atalar sözləri və məsəllərin öyrənilməsi baxımından elmi əhəmiyyət kəsb edir. Məqalədə Zəlimxan Yaqubun folklorun aparıcı janrlarından olan atalar sözləri və məsəllərdən məharətlə istifadə edərək poetikliyin gücünü artırması faktlarla göstərilir.

Praktik baxımdan Zəlimxan Yaqubun əsərlərində atalar sözləri və məsəllərin öyrənilməsinin əhəmiyyəti vardır. Məqalədəki atalar sözləri və məsəllər oxucuda marağı artırmaqla yanaşı, təfəkkür tərzinin inkişafına da kömək edir.

## ƏDƏBİYYAT


1. Zəlimxan Yaqub. Seçilmiş əsərləri: 2 cilddə, I c. Bakı: Şərq-Qərb, 2006, 248 s.
2. Zəlimxan Yaqub. Seçilmiş əsərləri: 2 cilddə, II c. Bakı: Şərq-Qərb, 2006, 288 s.
3. Zəlimxan Yaqub. Özün basdırdığın ağaca söykən: 2 cilddə, I c. Bakı: Şərq-Qərb, 2010, 284 s.
4. www.testbook.az
5. www.wikiquote.org Azərbaycan atalar sözləri


## РЕЗЮМЕ
## ПОСЛОВИЦЫ И ПОГОВОРКИ В ТВОРЧЕСТВЕ ЗАЛИМХАНА ЯГУБА

***Ибаев Н.А.***

***Ключевые слова:*** *Залимхан Ягуб, пословицы, поговорки, фольклор, поэтичность*

В статье исследуются пословицы и поговорки в творчестве Залимхана Ягуба. Мастерски используя их в качестве заголовков для своих текстов «Поймать птицу счастья», «Народная любовь – великая сила», «Возвыситься в глазах народа», «Возмездие – не за горами», «Утопающий хватается за соломинку», поэт создает особый поэтический мир образов.

## SUMMARY
## PROVERBS AND SAYINGS IN THE WORKS OF ZELIMKHAN YAQUB

***Ibayev N.A.***

***Key words:*** *Zelimkhan Yaqub, proverb, sayings, folklore, poeticism*

Proverbs and sayings in the works of Zelimkhan Yaqub were researched in the article. The poeticism was indicated in the article which was created by Zelimkhan Yaqub by using sayings and proverbs like "Catch the bird of happiness", "People's love is a big power", "Soar in the eyes of people", "Revenge will not stay till doomsday", "A drowning man catches at a straw" etc.


| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 04.07.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 82`282**

# MİKAYIL MÜŞFİQİN YARADICILIĞINDA FOLKLOR MOTİVLƏRİ

**BAYRAMOV ASTAN ƏHMƏDXAN oğlu**
*Sumqayıt Dövlət Universiteti, Folklorşünaslıq ETL, professor*

***Açar sözləri:*** *folklor, poeziya, azadlıq, mübarizə, təbiət, xalq nağılı*

*Mikayıl Müşfiq – 110*

Azərbaycan ədəbiyyatının fəxri, görkəmli şair, həmişəyaşar şeirləri ilə şöhrət qazanmış Mikayıl Müşfiqin anadan olmasının 110-cu ili bu yaxınlarda tamam oldu. Onun yenilikçi bir şair kimi yüksək bədii dəyərlərə malik poetik biçimli, romantik ruhlu və ictimai məzmun daşıyan şeirləri ilə həmişə anılması təbiidir. Müşfiqin yaradıcılığı haqqında geniş tədqiqatları olan şair Gülhüseyn Hüseynoğlu yazır: "Narahat" bir sənətkar olan Mikayıl Müşfiq onu məşğul edən, düşündürən, nifrət və məhəbbətinə, kədər və sevincinə səbəb olan məsələlərin ecazkar ifadəsi üçün həmişə çırpınmış rəngarəng mövzulu, məzmunlu poeziyasında əlverişli poetik formaların da olmasına çalışmış, bu sahədəki axtarışını heç vaxt dayandırmamışdır [2, s.8].

Onun poeziyası musiqilidir, ahəngdardır, canlıdır. Məsələn, onun "Yağış" şeirini dinləyəndə qarşımızda canlı təbiət lövhəsi yaranır, göyün qaralması, buludun dolması, ildırımın şaqqıldaması, quşların yuvalarına girməsi, novalçalardan axan yağış suyunun şırıltısı bir kino lenti kimi qarşımızda canlanır; yağışın səsini duyur, damcılarının çilənməsini görürük:

*Yağış yağır, rəqs eyləyir gur damlalar,*
*Sıra-sıra, inci-inci nur damlalar.*
*Göydə iki qara bulud çatılaraq,*
*İldırımlar şaqqıldayır şaraq-şaraq,*
*Quşlar üçün yuvasına pırıl-pırıl,*
*Şırıldayır novalçalar şırıl-şırıl.*

Maarif, mədəniyyət, vətənpərvərlik, sevib-sevilmək, əmək, çalışqanlıq, azadlıq onun şeirlərinin əsas leytmotividir.

*Mənim azadlığım mənim işimdir,*
*Həyatım, qüvvətim, yüksəlişimdir.*
*Mənə öz əməyim, öz haqqım yetər,*
*Bir zəngin vətənim, bu xalqım yetər* [4, s.188].

Cəmi 29 il yaşamış şairin yaradıcılığı külli halda xalqın həyatı ilə sıx bağlıdır. O, Azərbaycan folklorunu və etnoqrafiyasını dərindən bildiyi üçün yaradıcılığında folklorun müxtəlif janrlarından (əfsanə, nağıl, oxşama, bayatı, atalar sözləri, mövsüm nəğmələri və s.) istifadə etmişdir. Məsələn, Abşeronda xalq arasında çox məşhur olan "Çoban" əfsanəsi əsasında poema yazmışdır. Poemada Çoban Dəmirdaşla Quşçu xanın qızının nakam məhəbbəti təsvir olunur. Bu məhəbbətin fonunda üsyankar gənclərin zalimə və zülmə qarşı mübarizə aparmaları, xalqla birlikdə zülmkar xana qalib gəlmələri göstərilir. Əsər faciəli sonluqla bitir. Xəzərin coşması, Səbayel şəhərini sulara qərq etməsi ilə nəticələnir. Hər iki gənc də sulara qərq olaraq həlak olurlar. Onlar həlak olsalar da, əməlləri bir örnək kimi yaşayır.

Əfsanədəki hadisələr Səbayel, Abşeron, Xızı, Quzğun dağı, Yarımca yaylası, Zığ və s. yerlərdə cərəyan edir. Şair bu poemada ictimai hadisələri önə çəkərək, ictimai zülm və ədalətsizliyə qarşı xalqla həmrəy olub, azadlıq əldə etməyin mümkünlüyünü göstərir.

Əsərin sonunda şair "Çoban" əfsanəsinin real həyatla bağlı olması barədə yazır:

*Bu bir əfsanədir, nağıldır, fəqət*
*Tarixdə azmıdır, böylə həqiqət?*
*Bağışla, oxucum, sual olarmı?*
*Həqiqət olmasa, xəyal olarmı*? [4, s.118].

Şairin mövzusu folklordan alınmış "Kəndli və ilan" nağılı əsasında yazılmış eyniadlı mənzum nağılı da maraqlıdır. Bu mənzumədə "İlan yenə ilandır" atalar sözlərində olduğu kimi göstərilir ki, kəndli Çolpan ilana hər gün çörək, ilan da ona qızıl verərək dostlaşırlar. Onun ailəsi cah-cəlal içərisində yaşayır. Bir gün Çolpan xəstələnir, oğlu Eldənizi ilanın yanına göndərir. Xəyanətkar ilan ilanlığını göstərərək Eldənizi sancıb öldürür. Beləliklə, İlan ilə Çolpanın dostluğu baş tutmur:

*Çolpanın qəlbi yandı,*
*Bir ocaq kimi yandı,*
*Dedi: - İlan ilandır,*
*İnsanlığa düşmandır* [2, s.344].

Colpan kəndlilərlə birləşib ilanın başını əzir, xəzinəni tapıb bölürlər. Bu nağılda da şair xalqı birliyə, zalımlara qarşı birgə mübarizəyə səsləyir.

Şair mövsüm mərasimini əks etdirən "Bayram axşamı" şeirində Novruz bayramındakı qapıpusma, falabaxma, Novruz tonqalından atlanmaq, bayram payı almaq və s ritualları etnoqrafik səpkidə, bədii-poetik üsulla təsvir edir. Bayramda daha çox uşaqların şənlənməsini göstərir:

*Bir sininin kənarında*
*Yaxılardı iki-üç şam.*
*Qarşımızda şəkərbura,*
*Noğul-nabat, püstə-badam.*

*Ocaq yaxıb, od qalayıb*
*Üzərində atlanardıq.*
*Oynayırdıq, yorulduqca,*
*Yorğunluğa qatlanardıq* [2, s.86].

Uşaq folklorunda geniş formada əks olunan və əski çağlara söykənən "Gün çıx, gün çıx, kəhər atı min çıx" mövsüm nəğməsini deyimini şair şeirin canına hopduraraq bayram ərəfəsində uşaq sevincinin hisslərini obrazlı şəkildə belə ifadə edir:

*"Gün çıx" deyə, "gün çıx" deyə,*
*Çalxanırdı sevincimiz.*
*"Kəhər atı min çıx" deyə,*
*Qışqırırdı ən dincimiz* [2, s.86].

Bayram ərəfəsində uşaqların təzə paltarla süslənmələri, əllərində məşəl dolanaraq bayram payı almaları, üskük fallarını icra etmələri inandırıcı tərzdə belə ifadə olunur:

*Əynimizdə təzə paltar,*
*Başımızda təzə papaq.*
*Odlu məşəl əlimizdə,*
*Dolanırdıq sokaq-sokaq.*

*Hələ üskü axşamları*
*Qiyamətdən nişanədir.*
*Oynamaqçün cocuqlara*
*Böylə günlər bəhanədir* [2, s.86].

Çox təəssüf ki, M.Müşfiqin Novruz bayramının təsvir və tərənnümünə həsr olunan bu şeiri "Novruz bayramı" ensiklopediyasına (Bakı: 2008) salınmamışdır.

Şairin "Üç sağlıq" şeiri bir uşağın ad gününə həsr olunmuşdur. Müğənni tarın melodiyasına uyğun olaraq klassik bayatılarımızdan gözəl örnəklər oxuyur. Elə örnəklər ki, hamını sehirləyir, hamını duyğulandırır.

*Qapıdan hürü gəlir,*
*Gözümün nuru gəlir.*
*Bu arxı kim arıdıb,*
*Su belə duru gəlir?*

*Bülbül uçdu qəfəsdən,*
*Gül açıldı həvəsdən.*
*Gözüm gözəldən doymaz*
*Qulağım incə səsdən [2,* s.*146].*

Məclis davam edir. Masabəyi ata və ananın da şərəfinə şeirlər deyir. Ananı "əbədiyyət çeşməsi"nə bənzədir. Daha sonra şair məclisdə iştirak edən bir qonağın dili ilə məclisin axarına uyğun olaraq poetik duyumlu daha bir neçə oxşama təqdim edir:

*Əlvan çiçəklər,*
*Zər kəpənəklər.*
*Kinli ürəklər,*
*Bu balama qurban!*

*Göydə ulduzlar,*
*Yerdə yarpızlar.*
*Avara qızlar*
*Bu balama qurban* [2, s.47].

Göründüyü kimi, şair elə oxşama nümunələri seçmişdir ki, ad günü qeyd olunan uşağın zövqünə, düşüncəsinə və yaşına uyğun xarakterik örnəklərdir. Bu oxşamalar həm də məclisdəkilərin alqışına səbəb olur. Təsadüfi deyil ki, folklorşünas P.Əfəndiyev belə oxşamaları nikbin laylalar sayır [6, s.258].

Şairin yaradıcılığı xalqın tərbiyəvi kodeksləri sayılan atalar sözləri və deyimlərlə də zəngindir. Şeirlərdəki mətnlərə uyğun olaraq "Çox bil, az danış", "Yolçu yolda gərək", "Adamın dili başına bəladır", "Keçən günə gün çatmaz" və s. atalar sözləri işlədilmişdir. Bu atalar sözlərindəki fikir insanı mənəvi saflığa, hər yerdə öz yerini bilməyə, dilinə sahib olmağa və s. çağırır. İnsanın əxlaqını cilalayaraq onu xeyirxah işlərə yönləndirir.

Şairin saz sənətinə, aşıq yaradıcılığına həsr etdiyi "Yeddi aşıq" şeiri də diqqətəlayiqdir. O, burada ozan-aşıq sənətinə yüksək qiymət verir: Aşıqları elin yaraşığı, bilikli və kamil sənətkar kimi təbii boyalarla təqdim edir:

*Onlar yeddi aşıqdı,*
*Ellərə yaraşıqdı.*
*Hamısının telli sazı,*
*İldırımdan avazı,*
*Fikirləri nur kimi,*
*Sözləri yağmur kimi,*
*Çıxmışlar bərkdən, boşdan,*
*Olmamışdan, olmuşdan.*
*Yaxşı xəbərdardılar,*
*Kamil sənətkardılar* [2, s.179].

Doğrudan da, belədir. Xalqın ruhunu, dilimizin zənginliyini, yaşam tərzimizi, təbiət və cəmiyyət hadisələrini aşıqdan başqa, kim yayardı el-el.

Şair azərbaycanlıların milli gələnəklərini əks etdirən tara qarşı çıxanlara "Oxu tar" şeirini, saza qarşı çıxanlara isə "Sındırılan saz" poemasını yazmışdır. O, "Sındırılan saz" poemasında aşıqları məclisin yaraşığı hesab edir. Səslərində elin gücü, arxalarının elə bağlı olduğunu təbii boyalarla, gözəl poetik misralarla təsvir edir. Aşıqları bülbüllə müqayisə edərək gözəl bir təzad yaradır:

*Gəl, mənim aşığım, gəl,*
*Məclis yaraşığım, gəl!*
*Səsində el gücü var,*
*Yel gücü, sel gücü var.*
*Arxan elə bağlıdır,*
*Bülbül gülə bağlıdır* [3, s.207].

Şairin uşaqlar üçün işlədiyi mənzum nağıllardan biri də "Şəngül, Şüngül və Məngül" mənzuməsidir. Uşaq folklorunda kökü çox qədimlərə gedən "Şəngülüm, Şüngülüm və Məngülüm" nağılını şair sənətkarlıqla, sadə və axıcı bir dillə nəzmə çəkmiş, keçinin timsalında mübariz və qorxmaz ana obrazı yaratmışdır. Elə ana obrazı ki, övladları yolunda canından belə keçməyə hazırdır.

Balalarının qurd tərəfindən yeyildiyini bilən Keçi dəmirçinin köməyi ilə buynuzlarını itiləyir və döyüşdə Qurda qalib gəlir. İti buynuzları ilə Qurdun qarnını yırtıb öldürür. Ölümqabağı qurd haray-həşir qoparsa da, Keçi ona aman vermir:

*Keçi güldü Qurda bir az,*
*Dedi: - Zülüm yerdə qalmaz...*
*Balalarını yeməyəydin,*
*Vay qurşağım deməyəydin* [2, s.137]!

Əlbəttə, M.Müşfiqin digər əsərlərində də folklorla bağlı örnəklər tapmaq mümkündür.

M.Müşfiqin şeirlərin dili də maraqlıdır. Onun şeirlərində dialekt sözlərlə yanaşı, 20-ci illərin şifahi və yazılı nitqinə uyğun olaraq, yaxmaq (yandırmaq), sokak (küçə), arıtmaq (təmizləmək), vaqıt (vaxt), yavru (körpə), arqadaş (yoldaş), cəlik (dəmir), yarın (sabah), həbsi (hamısı), nöyüt (neft), yabançı (yad), qaldırım (səki) və sözlərlə yanaşı, o dövr üçün xarakterik olan ray (rels), plakat, avtomat, parlaman, fontan və s. sözlər aktiv işlənmişdir. Bununla belə, türk dilində işlənən qrammatik formalar (alıyor, saçıyor, alınız, veriniz və s.) da şairin yaradıcılığında nəzərə çarpır.

Bütün bunlar o dövrün mədəni, ictimai-siyasi hadisələrinin təsiri ilə yaranan leksik elementlərdir.

## ƏDƏBİYYAT


1. Bayramov A.Ə. Oğuz elinin söz çələngi: Ağbaba folkloru. Bakı: 2017, 561 s.
2. Müşfiq M. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004, 350 s.
3. Müşfiq M. Seçilmiş əsərləri: 3 cilddə, I cild. Bakı: Avrasiya press, 2008, 241 s.
4. Müşfiq M. Seçilmiş əsərləri: 3 cilddə, II cild. Bakı: Avrasiya press, 2008, 244 s.
5. Müşfiq M. Seçilmiş əsərləri: 3 cilddə, III cild. Bakı: Avrasiya press, 2008, 250 s.
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2012, 504 s.


## РЕЗЮМЕ
## ФОЛЬКЛОРНЫЕ МОТИВЫ В ТВОРЧЕСТВЕ МИКАИЛА МУШФИГА

***Байрамов А.А.***

***Ключевые слова:*** *фольклор, поэзия, свобода, борьба, природа, народая сказка.*

В статье комментируются некоторые произведения из творчества Микайыла Мушфига. На конкретных образах анализируется мастерство использования разных жанров азербайджанского фольклора в его стихах и поэмах. Дается также информация об отношении поэта к ашугскому творчеству.

## SUMMARY
## FOLK MOTIFS IN MIKAIL MUSHVIG'S WORKS

***Bayramov A.A.***

***Key words:*** *folklore, poetry, freedom, struggle, nature, people, fairy tale.*

In the article some positive features of Mikail Mushvig's literary works are studied. Use of different Azerbaijan folk genres in his verses and poems is demonstrated on the poetic samples. His approach to ashug works, and information on the language of his poetry are revealed in the article.


| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 18.10.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 82.091**

# HÜSEYN İBRAHİMOV YARADICILIĞI AKADEMİK İSA HƏBİBBƏYLİNİN TƏDQİQATLARINDA

**ABUZƏRLİ ANAR RAMAZAN oğlu**
*“Naxçıvan” Universiteti, Tədris şöbəsinin müdiri*
*anar_abuzerov@mail.ru*

***Açar sözlər**: Naxçıvan ədəbi mühiti, ədəbi tənqid, Hüseyn İbrahimov, İsa Həbibbəyli.*

Naxçıvan ədəbi mühitində ədəbi tənqidin, o cümlədən nəsr tənqidinin inkişafında tanınmış Azərbaycan ədəbiyyatşünası, akademik, Əməkdar elm xadimi İsa Həbibbəylinin (Həbibovun) xüsusi xidmətləri vardır. Ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi əlaqələr sahəsində qiymətli tədqiqatları ilə tanınan İsa Həbibbəyli müasir ədəbi prosesin təhil olunub dəyərləndirilməsi sahəsində də ciddi işlər görmüş və görməkdədir. Görkəmli alimin bir neçə resenziyası və ədəbi-tənqidi məqaləsi xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına həsr olunmuşdur.

H.İbrahimovun 1983-cü ildə çap olunmuş “Bahar yağışı” romanı barədə bir sıra tənqidçi və ədəbiyyatşünaslar fikir söyləmişlər. Bunların sırasında İ.Həbibbəylinin “İstehsalat romanında mənəvi həyat” məqaləsi xüsusi yer tutur [12]. Məqalənin əvvəlində Hüseyn İbrahimovun yaradıcılığında bahar motivinin, əhvali-ruhiyyəsinin, rənglərinin özünəməxsus mövqeyinə diqqət yönəldən alim yeni romanı da bu kontekstdə nəzərdən keçirmişdir. Mövzusu qurub-yaradan zəhmət adamlarının həyatı və fəaliyyətindən götürülümüş bu romanda epik konfliktin bir qütbündə Arançay dəryaçasının tikinti rəisi Osman Məlikzadə və onunla birgə xalq malını mənimsəyən əlaltıları, digər tərəfdə isə yenilik ruhu, vətənə xidmət əzmi ilə çalışan mühəndis Yalçın İbrahimbəyli və onun kimi sağlam qüvvələr dayanır. Əsas obrazların bədii təcəssümünə bu konflikt müstəvisində nəzər salan İ.Həbibbəyli vurğulayırdı ki, müəllif birtərəfli yolla getməmiş, istehsalat mövzusunda olan romanda “bu mübarizənin gedişatını ənənəvi xeyir-şər, mənfi-müsbət vuruşlarından, çəkişmələrindən xilas etmiş, hadisələrin təbii məntiqinə, həyati əsaslarına meydan vermiş”, surətləri təkcə istehsalat mühitində deyil, hərtərəfli şəkildə canlandırmış, “mənəviyyatların, dünyagörüşlərin, vicdanların fərqini açmağa” nail olmuşdur. Başqa sözlə deyilsə, istehsalat romanında mənəvi həyat da özünün dolğun bədii təcəssümünü tapmışdır. “Bütün bunlar romanın kompoziyasının bütövlüyünə, xarakterlərin canlılığına, kolliziyaların aydınlığına mühüm zəmin yaratmış, əsərin sosial əhəmiyyəti ilə bir sırada bədii səviyyəsini də qüvvətləndirmişdir”.

Gərgin və maraqlı konflikti, dolğun obrazları ilə səciyyələnən, ədalətin, həqiqətin təntənəsi ilə yekunlaşan bu romanda ayrı-ayrı hadisə və məqamların bədii təcəssümü, eləcə də obrazların xarakterlərinin açılması prosesində yazıçının təbiət detallarından həm fonyaradıcı aspektdə, həm də simvolik paralellik zəminində məharətlə istifadəsi də tənqidçinin dəqiq müşahidəsindən yayınmamışdır.

Hüseyn İbrahimovun “Səhv edəndə” adlı kitabına həsr etdiyi məqalə də İ.Həbibbəylinin çağdaş ədəbi prosesə geniş elmi-nəzəri ümumiləşdirmə mövqeyindən yanaşmasının əyani göstəricisidir [13]. Hekayə, novella və kiçik povestlərdən ibarət həmin kitabı yazıçının çoxillik yaradıcılıq təcrübəsinin uğurlu bəhrəsi sayan İ.Həbibbəyli buradakı əsərləri birləşdirən ortaq cəhəti belə səciyyələndirmişdir: “Yazıçının qələmə aldığı çoxcəhətli əhvalat və obrazların mərkəzində əsasən bir meyar dayanır: Ləyaqət! Müəllif təsvir etdiyi hadisə və personajları qiymətləndirmə barometrinə çevirdiyi bu yüksək mənəvi keyfiyyəti aşkarlamaq niyyəti ilə hər dəfə yeni hadisəyə müraciət etmiş, aralarında müəyyən bənzəyiş olsa da, bir-birini təkrar etməyən vəziyyətlər yaratmışdır”. H.İbrahimovun kitabda verilmiş “İnam”, “Kənd həsrəti”, “Təmiz adam”, “Zərifənin

çiçəkləri", "Kərim əmi", "Səfər müəllimin qızı" və digər hekayələrini müfəssəl şəkildə təhlil edən tənqidçi yazıçının yaratdığı Yelmar Zərgərli, Qoşqar Çinarlı, Sabir, Fərrux, Eldar və s. obrazları da məhz bu kontekstdə dəyərləndirmişdir.

Hüseyn İbrahimov bir sıra satirik hekayələr də yazmışdır. Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, hekayələrdəki satira elementləri onları kitabda verilən satirik novellalarla doğmalaşdırmışdır. Alim yazırdı: "Azərbaycan satirik nəsrinin ənənələrindən yaradıcılılqla faydalanan H.İbrahimov indiki həyatımızda klassik novella "qəhrəmanları" ilə qarşılaşarkən "Sənə min rəhmət, Mirzə Cəlil", yaxud "Heyf, Mirzə Cəlil sağ deyil" kimi yerinə düşən, cəlbedici epiqrafların gur işığı altında ənənəvi gülüş obyektinin müasir vəziyyətini bacarıqla açıb göstərmişdir". Akademik İ.Həbibbəyli bu məqalədə Azərbaycan tənqidi realizminin böyük ustadı Mirzə Cəlilin satirik nəsri ilə H.İbrahimovun "Arxayın Məmməd", "Zırrama", "Day lazım olmadı", "Barıt" və s. əsərləri arasında apardığı müqayisəli təhlillər həm də ədəbi irs və varislik probleminin açılmamış qatlarına işıq salır. Xüsusən Mirzə Cəlilin Usta Zeynal və H.İbrahimovun yaratdığı Arxayın Məmməd obrazlarının bu aspektdə nəzərdən keçirilməsi diqqəti çəkir.

H.İbrahimovun "Göyərçinin məhəbbəti", "Baharın hekayəsi", "Kamalın ad günü", "Səhv edəndə" kimi povestlərində sosial-mənəvi problemlərin qoyuluşu və bədii həllini məqbul sayan məqalə müəllifi bu əsərlərin hər birinin əsas özəlliklərini qısa şəkildə, lakin çox dəqiq elmiliklə vurğulamışdır.

Hüseyn İbrahimovu çağdaş Azərbaycan nəsrinin tanınmış və istedadlı yaradıcılarından biri kimi yüksək qiymətləndirən İsa Həbibbəyli onun "Səhv edəndə" kitabının nəşri ilə əlaqədar yazdığı məqalədə bəzi tənqidi qeydlərini də bildirmişdir. Alim haqlı olaraq yazıçının "Aspirant" hekayəsindəki Fərəc obrazının mükəmməl olmadığını, "Kamalın ad günü" povestində isə süjetin bəzi məqamlarının stereotip ənənəvilik təəssüratı yaratdığını, həmçinin "Qapıçı" novellasında sonluğun hadisələrin məntiqi yekunu ilə birbaşa bağlılığının zəif göründüyünü nəzərə çatdırmışdır.

İ.Həbibbəylinin "Həyat eşqinin təsdiqi" məqaləsi [16] tanınmış sənətkarımız Hüseyn İbrahimovun "Əsrin onda biri" tarixi romanının nəşri ilə əlaqədar yazılmış resenziyadır. Tanınmış alim on ikinci əsrin məşhur Azərbaycan memarı Əcəmi Naxçıvaniyə həsr olunmuş bu romanı yazıçının yeni sənət uğuru kimi qiymətləndirmiş, daima qurub-yaratmaq əzmi ilə yaşayan, bütün varlığı ilə doğma elinə, torpağına bağlı olan memarın, eləcə də onun bir sıra müasirlərinin bədii obrazının, dövrü və mühitinin əsərdə əhatəli şəkildə təqdimini müsbət qiymətləndirmişdir. Resenziya müəllifi əsərin dilində işlənmiş bəzi alınmalara isə o qədər də ehtiyac duyulmadığını bildirib.

Akademik İsa Həbibbəylinin "Nəciblik" məqaləsi Hüseyn İbrahimovun hekayələrindən biri ilə eyniadlıdır [14]. Yazıçının anadan olmasının 75 illiyi ilə əlaqədar qələmə alınmış bu məqalə sadəcə yubiley təbriki deyil, şəxsiyyət, yaradıcılıq psixologiyası və mühit arasında əlaqələrin elmi şərhini verən, dəyərli nəzəri ümumiləşdirmələrlə maraq doğuran analitik yazıdır. Sənətkarın yaradıcılığına onun şəxsi xarakterinin, mənəvi aləminin, həmçinin fəaliyyət göstərdiyi mühitin ciddi təsir göstərdiyini qeyd edən İ.Həbibbəyli yazırdı: "Hüseyn İbrahimovun bir özünəməxsusluğu da onun ictimai fəaliyyəti bədii fəaliyyətlə əlaqələndirməyi bacarmasıdır. Bu, bədii yaradıcılığın psixologiyası ilə bağlı olan mühüm məsələlərdən biridir ki, bizdə hələlik az öyrənilmişdir. Hüseyn müəllimin təcrübəsi, keçdiyi yol həmin baxımdan zəngin material verir". Bunun ardınca H.İbrahimovun nəcib xarakteri, çalışdığı müxtəlif sahələr və vəzifələrlə onun həmin dövrlərdə qələmə aldığı əsərlərin tematika və problematikası arasında çoxşaxəli paralellikləri aşkarlayıb təhlil edən məqalə müəllifinin gəldiyi nəticələr, irəli sürdüyü fikirlər böyük əhəmiyyət daşıyır.

Akademik İsa Həbibbəylinin "Bahar yağışının aydınlığı" məqaləsi isə xalq yazıçısı Hüseyn İbrahimovun səksən illiyi ilə əlaqədar qələmə alınmışdır [15]. Məqalədəki elmi-nəzəri ümumiləşdirmələr, yazıçının əsərlərinin səciyyəvi ideya-bədii məziyyətlərinin dəqiqliklə müəyyənləşdirilməsi diqqəti çəkir. Hər şeydən öncə, H.İbrahimovun mənsub olduğu ədəbi nəslin ədəbiyyatımızdakı yeri və missiyası barədə deyilənlər maraq doğurur. İ.Həbibbəyli haqlı olaraq

yazırdı ki, ədəbiyyatda ciddi addımlarını ikinci dünya müharibəsindən sonra atan İmran Qasımov, Hüseyn Abbaszadə, Süleyman Vəliyev, Əzizə Cəfərzadə , Salam Qədirzadə və digərləri ilə bir sırada Hüseyn İbrahimov da "bədii yaradıcılığın ictimai mövzuların, ideoloji tələblərin məngənəsindən xilas olub, insan həyatı və mənəviyyatına, milli taleyimizdəki ağrı və qayğılara söykənməsi, yaxınlaşması, yön alması" üçün layiqli ədəbi xidmət göstərmişdir. Bu baxımdan akademikin aşağıdakı qənaəti də diqqətəlayiqdir: H.İbrahimovun mənsub olduğu ədəbi nəsil özündən əvvəlki yazıçılarla (Süleyman Rəhimov, Əli Vəliyev, Nağı Nağıyev və s.) Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edən altmışıncı illər ədəbi nəsli "arasında etibarlı mənəvi körpüdür. Bütövlükdə altmışıncı illər nəsli bu körpüdən keçərək ədəbiyyata gəlmişdir".

"Bahar yağışının aydınlığı" məqaləsində xalq yazıçısı Hüseyn İbrahimovun hekayə, povest və romanları barədəki ümumiləşdirmələr bütövlükdə müasir nəsr tənqidini zənginləşdirən, dolğunlaşdıran qənaətlərdir. Yazıçının "Şirin xatirə", "Kənd həsrəti", "Təmiz adam", "Qumralın məktubları" kimi hekayələrini "Azərbaycan ədəbiyyatının hekayələrdən düzəldilmiş nəhəng boyunbağısına məhz onun bəxş etdiyi mirvarilər" kimi dəyərləndirən tənqidçinin aşağıdakı fikirləri də ədəbi mətnlərin mahiyyətinə istinadən ortaya çıxmışdır: "Göyərçinin məhəbbəti", "Səhv edəndə", "Qu quşları öləndə oxuyurlar" və s. povestlərdə az qala ədəbi ənənənin əksinə olaraq , həyatı bütün təbiiliyi ilə yaşayan, düşünən, səhv edən, büdrəyən, aldanan, lakin çətin məqamda ayağa qalxmağı bacaran sıravi adamların həyatı, zəngin mənəviyyatı öz əksini tapmışdır. Bütün bunlar müəllifin hətta zor dönəmlərdə də ideoloji sxem və tələblərdən uzaqda dayanmasına, uzunömürlü əsərlər yazmasına şərait yaratmışdır".

Hüseyn İbrahimovun ədəbiyyatın şahmat taxtasında uğurlu roman gedişləri etməsini yaradıcılıq axtarışlarının tərkib hissəsi kimi yüksək qiymətləndirən tənqidçi İ.Həbibbəyli onun "Sabahın sorağında" əsəri barədə yazırdı: "Bu, kəndi yalnız təsərrüfat, əmək yarışı, yaxud sinfi çəkişmələr meydanı kimi təqdim edən, özündən əvvəlki romanların uzun illər ərzində yaratdığı, formalaşdırdığı qəlibləşmiş ideoloji təsəvvürləri yıxıb uçuran yeni romandır. "Sabahın sorağında" romanı paytaxtdan uzaqda yaranmış yeni bir "Böyük dayaq"dır (Mirzə İbrahimovin romanı nəzərdə tutulur-A.A.).

Hüseyn İbrahimovun romanlarında epik təsvirin genişliyi, çoxşaxəliliyi, mövzunun dərinlik və əhatəliliyi, millilik və xəlqilik, tarixilik və müasirlik keyfiyyətlərinin mühüm yer tutması barədə də söz açan tənqidçi bu əsərləri təkcə həcminə görə yox, qaldırdığı problemlərin dəyərinə, insan talelərinin laylı süxurlarının bir neçə qatını açıb "sökə" bilməsinə, zəngin surətlər aləminə görə janrın dəyərli nümunələri kimi yüksək qiymətləndirmişdir. "Günəş doğan yerdə" romanının mürəkkəb dövrün hadisələrindən daha çox bənzərsiz insan taleləri ilə yadda qaldığını, "Bahar yağışı"nda əqidələrin, mənəviyyatların çarpışmasının məharətlə təsvirini, "Əsrin onda biri" romanında sənətkar taleyi, zaman və şəxsiyyət probleminin bacarıqla həllini, "Böhtan" romanının isə repressiya törədənlərə ittiham, repressiya qurbanı olmuş Hüseyn Cavidin sənət və şəxsiyyətinə ədəbi ehtiram kimi təqdirəlayiq olduğunu yazan İsa Həbibbəylinin digər elmi müddəaları da dəqiq və inandırıcıdır.

Akademik İsa Həbibbəyli Hüseyn İbrahimovun yaradıcılığı barədə sonralar da bir neçə məqalə dərc etdirmişdir. Bu baxımdan onun "Şəxsiyyətin və sənətin vəhdəti" ("Ədəbiyyat qəzeti", Bakı, 2009, 12 iyun), Moskvada rusca çıxmış "Azərbaycanın xalq yazıçısı Hüseyn İbrahimov" («Международный научный журнал», M., 2008, № 2) və s. məqalələri xatırladıla bilər. Həmin məqalələrdə alim əvvəlki elmi-ədəbi düşüncələrini daha da dərinləşdirmiş və ümumiləşdirmişdir.

Əməkdar elm xadimi, professor Hüseyn Həşimlinın 1999-cu ildə yazdığı "Realizmin genişlənən üfüqləri" adlı məqaləsi isə daha çox Hüseyn İbrahimovun yaradıcılığının Azərbaycan ədəbiyyatında realizimin tarixi ənənələrinin yeni mərhələdə davamı və inkişaf xüsusiyyətləri, keçdiyi çətin yollar, qazandığı yeni keyfiyyətlər aspektində təhlili ilə maraq doğurur [11, s.65-70]. Məqalə müəllifi haqlı olaraq vurğulayır ki, Hüseyn İbrahimovun yaradıcılığı Azərbaycan realizminin son əlli ilinin enişli-yoxuşlu yolu ilə həmahəng və paraleldir. Ədibin realizmi

uzunmüddətli təkamül keçirmiş və əsərdən-əsərə püxtələşmişdir. H.İbrahimovun məharəti ondadır ki, sosializm ideologiyasının hakim olduğu zamanlarda yazdığı əsərlərdə də vulqar təsirlərdən mümkün qədər yan keçməyə çalışmışdır. “Sabahın sorağında” romanının yeni Azərbaycan nəsrinin təşəkkülü kontekstində qiymətləndirilməsi, əsərdəki “psixoloji təhlilin dərinliyi, adi adamların böyük qəlb təbəddülatlarının, mənəvi ağrılarının diqqət mərkəzinə çəkilməsi, sosioloji amillərlə müqayisədə mənəvi problemlərin qabarıqlaşdırılması” barədə deyilənlər bu baxımdan səciyyəvidir. “Bahar yağışı” romanı haqqında qənaətlər də realizmin dərinləşməsi kimi ümumiləşdirilmişdir: “Bahar yağışı” romanı ...hər şeydən əvvəl, realizmin dərinliyi və tənqidi pafosu ilə seçilir. Burada artıq konflikt kəskin ictimai qayə daşıyır: bir tərəfdə xalq, dövlət malını talayanlar, yüz cür yaramazlıqlar törədib öz mənfəətini hər şeydən üstün tutanlar, digər tərəfdə isə haqqın, ədalətin keşiyində dayanıb mənəvi təmizliyi özünə həyat amalı seçən, bu yolda əzablara qatlaşıb mübarizə əzmindən dönməyənlər dayanır” [11, s.67].

H.İbrahimovun “Əsrin onda biri” tarixi romanında gerçəklik və bədii təxəyyül barədə deyilənlər də bilavasitə ədəbi mətnin mahiyyətinə əsaslanır. Burada obrazların təqdimində romantik çalarların yer alması da nəzərdən yayınmamışdır. Eyni sözləri “Böhtan” romanı barədəki qənaətlərə də aid etmək olar.

Yazıçını məişət mövzusunda yazdığı çoxsaylı hekayə və povestlərdəki təbiilik, inandırıcılıq, həyatilik, təhkiyənin lirik notlarla müşayiət olunması, hadisəçiliklə bərabər müvafiq psixologizmin mövcudluğu da məqalədə nəzərə çatdırılmışdır. H.İbrahimovun satirik nəsr əsərlərində Azərbaycan tənqidi realizminin klassik ənənələrinə bağlılıq və ondan yaradıcılıqla bəhrələnmə barədə də H.Həşimli müvafiq dəyərləndirmələr aparmışdır. Yazıçının müstəqillik dövründə yazdığı əsərlərin realist estetika baxımından nəzər salınmış, əsas məqamlar vurğulanmışdır.

Hüseyn İbrahimovun yaradıcılığı barədə Naxçıvan ədəbi mühitinin bir sıra digər nümayəndələri də fikirlər söyləmişlər. Tanınmış şair Müzəffər Nəsirlinin 1969-cu ildə yazdığı “Yaradıcılıq yollarında” məqaləsi yazıçının sənət aləminə müfəssəl baxışla səciyyələnir. M.Nəsirli qələm dostunun nəsr və dramaturgiya sahəsində ciddi uğurları kimi “Sabahın sorağında” romanı, Ü.Hacıbəyova həsr etdiyi “Ölməz mahnılar” kinopovesti, həmçinin “İtirilən sağlıq”, “Torpağın övladları” pyesləri, onların ideya-bədii xüsusiyyətləri barədə yığcam elmi fikirlər söyləmişdir [21]. Fəttah Səmədoğlunun “Yazıçının şagirdlərə hədiyyələri” adlı məqaləsində isə əsas diqqət Hüseyn İbrahimovun uşaqların mütaliə, yaş səviyyəsinə uyğun olan “Rafiq və Tofiq”, “Kərim əmi”, “Tapmaca ustası”, “İngilis dili kitabı” və s. hekayələrinə, onlardakı nəcib əxlaqi qayəyə yönəldilmişdir. Məqalədə o da vurğulanırdı ki, yazıçının “Kərim əmi” hekayəsi Moskvada alman, ingilis, fransız dillərində nəşr olunan “Azərbaycan nəsri antologiyası”na da salınmışdır [23]. Şair Həsən Valehlə yazıçı Rafiq Babayevin birlikdə yazdıqları “Baharlı günlərin nağılları” məqaləsi isə H.İbrahimovun “Bahar yağışı” romanı barədə yığcam düşüncələrdən ibarətdir [9]. Məqalədə daha çox romanın obrazlarının əsas səciyyəsi barədə söz açılmışdır.

Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığına münasibət timsalında aparılan təhlillər göstərir ki, Naxçıvan ədəbi mühitində nəsr tənqidi özünəməxsus inkişaf xüsusiyyətlərinə malik olmuşdur.

## ƏDƏBİYYAT

1.Arif M. Qəhrəmanın sorağında. “Ədəbiyyat və incəsənət” qəz., Bakı, 1964, 16 oktyabr
2.Axundov Y. İstedadlı nasir. “Azərbaycan gəncləri” qəz., Bakı,1969, 22 may
3.Axundlu Y. Naxçıvan-yurdum mənim. Bakı: Sabah, 1997, 208 s.
4.Axundlu Y. Ədəbi mühit və sənətkar. Bakı: Adiloğlu, 2002, 186 s.
5.Axundlu Y. Əsrin onda biri. “Azərbaycan müəllimi” qəz., Bakı, 1988, 09 dekabr
6.Axundlu Y. Cavidə həsr olunmuş ilk roman. “Ədəbiyyat” qəz., Bakı, 1998, 18 sentyabr
7.Axundlu Y. Hüseyn Cavidə həsr olunmuş ilk roman. “Şərq qapısı” qəz., Naxçıvan, 1998, 17 oktyabr
8. Axundlu Y .Hüseyn Cavid haqqında ilk roman // Azərbaycan jurnalı, Bakı, 1999, № 4, s.174-176

9.Babayev R., Valeh H. Baharlı günlərin nağılları. "Yeni Ordubad" qəz., Ordubad, 1984, 16 fevral
10.Cavadlı C., Əbdülov M. Sabahın sorağında romanı haqqında. "Azərbaycan müəllimi" qəz., Bakı, 1964, 3 dekabr
11.Hüseyn İbrahimov-80 (təbriklər, məqalələr, xatirələr toplusu) / Toplayanı və redaktoru Hüseyn Həşimli. Bakı: Yurd, 1999, 126 s.
12.Həbibov İ. İstehsalat romanında mənəvi həyat. "Sovet Naxçıvanı" qəz., Naxçıvan, 1983, 21 dekabr
13.Həbibov İ. Kiçik janrın imkanları. "Sovet Naxçıvanı" qəz., Naxçıvan, 1986, 9 iyul
14.Həbibbəyli İ. Nəciblik. "Ədəbiyyat qəzeti", Bakı, 1994, 8 iyul
15.Həbibbəyli İ. Bahar yağışının aydınlığı. "Ədəbiyyat qəzeti", Bakı, 1999, 28 may
16.Həbibbəyli İ. Həyat eşqinin təsdiqi. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1988, 22 yanvar
17.Xalq yazıçısı Hüseyn İbrahimov (tərtib edəni Sarvan İbrahimov). Naxçıvan: Əcəmi, 2015. 376 s.
18.Xəlilov Q. Torpağa bağlılıq. "Ədəbiyyat və incəsənət" qəz., Bakı,1979, 15 iyun
19.İbrahimov H. Böhtan. Bakı: Şərq-Qərb, 1998, 286 s.
20.Mütəllimov T. Sabahın sorağında. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1964, 12 dekabr
21. Nəsirli M. Yaradıcılıq yollarında. "Kommunist" qəz., Bakı,1969, 23 may
22.Saraclı M. Xalq yazıçısı Hüseyn İbrahimovun yaradıcılığı. Bakı: Yazıçı, 1999, 132 s.
23. Səmədoğlu F. Yazıçının şagirdlərə hədiyyələri. "Azərbaycan pioneri" qəz., Bakı, 1969, 28 may
24. Səfərov Ş. Saçlar ağarsa da. "Ədəbiyyat və incəsənət" qəz., Bakı, 1989, 26 may

## РЕЗЮМЕ
## ТВОРЧЕСТВО ГУСЕЙНА ИБРАГИМОВА В ИССЛЕДОВАНИЯХ АКАДЕМИКА ИСЫ ХАБИББЕЙЛИ

***Абузерли А.Р.***

***Ключевые слова**: нахчыванская литературная среда, литературная критика, Гусейн Ибрагимов, Иса Хабиббейли*

Известный азербайджанский литературовед, академик, заслуженный научный деятель Иса Хабиббейли (Хабибов) имеет большие заслуги в развитии литературной критики, в том числе, и критики прозы. Известный своими научными исследованиями в области истории литературы, литературной теории и литературных отношений, Иса Хабиббейли занимался и анализом современных литературных процессов. Автор посвятил несколько рецензий и литературно-критических статей творчеству выдающегося народного писателя Гусейна Ибрагимова. В статье анализируется творчество Г.Ибрагимова и проводятся обобщения.

## SUMMARY
## HUSEYN IBRAHIMOV'S CREATIVE ACTIVITY IN THE RECEARCHES OF THE ACADEMIC ISA HABIBBAYLI

***Abuzerli A.R.***

***Key words**: Nakhchivan literary atmosphere, literary criticism, Huseyn Ibrahimov, Isa Habibbayli.*

Well-known Azerbaijani literary critic, academician, honored scientist Isa Habibbayli (Habibov) has special services in the literary criticism of Nakhchivan and the development of criticism of the prose. Known for his valuable researches in the field of literature history, literature theory and literary relations, Isa Habibbeyli has analyzed and evaluated the modern literary process. Several essays and literary-critical articles of the prominent scientist have been devoted to the work of national writer Huseyn Ibrahimov. In the article H.Ibrahimov's creativity has been analyzed and summarized.

Daxilolma tarixi: İlkin variant 18.09.2018
Son variant 17.12.2018

**UOT 82.091**

# "KİTABİ-DƏDƏ QORQUD" MÖVZUSU MİRƏLİ SEYİDOVUN YARADICILIĞINDA

[1]**CÜMƏNOV DƏYANƏT ALMAZ oğlu**
[2]**HÜSEYNOVA AYGÜN SABİR qızı**
*1-Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*2-Sumqayıt şəhər 34 saylı məktəb, müəllim*
cumanov73@mail.ru

***Açar sözlər:*** *Qazan, Qambecan, Baybecan, Aruz, Əkərək, Səkərək, Amran, Buğac, Qorqud, Absaq, Ozan*

Adlar milli-etnik tarixin, kimliyin, əski dünyagörüşün, etnopsixologiyanın daşıyıcılarıdır. Bu mənada "Kitabi-Dədə Qorqud"un antroponimikası azərbaycanşünaslıqla, Azərbaycan xalqının mənşəyi ilə bağlı bir çox problemlərin açılmasında əvəzsiz mənbədir. Tədqiqatlar dastandakı antroponimlərin tədqiqi tarixinin V.V.Bartolddan başladığını göstərir [1, s.12-38]. Bu sahədə H.Araslı, Ə.Ə.Dəmirçizadə, A.Y.Yakubovski, V.M.Jirmunski, Ş.Cəmşidov, T.İ.Hacıyev, M.Həkimov, K.Vəliyev, Anar, A.Qurbanov, F.Zeynalov, S.Əlizadə, K.Abdullayev, S.Əliyarov, Q.Qeybullayev, M.Adilov, A.Paşayev, Ə.Fərzəli, M.Çobanov, F.Xalıqov, F.Cəlilov və b. xidmətləri vardır.

M.Seyidovun yaradıcılığında "Dədə Qorqud" mövzusu həmişə diqqət mərkəzində olmuş, alim dastandakı antroponimlərə həm tarixi-linqvistik baxımdan, həm də mifoloji prizmadan yanaşmışdır. Alim elmi yaradıcılığında Azərbaycan xalqının soykökü ilə bağlı məsələlərinə aydınlıq gətirmək üçün tarixi və mifik səciyyə daşıyan Qazan, Ulaş, Oğuz, Qambecan, Baybecan, Qamğan, Əkərək, Səkərək, Buğac, Aruz, Əmran, Domrul, Bəkil, Basat, Qazlıq, Qorqud, Öləng, Xızır, Qağanqat, Absaq, Uğur, Quar, Ozan və s. kimi adların da sözaçımına nail olmuşdur.

Hələ 1968-69-cu illərdən Qazan xanın Dədə Qorqud boylarının ən əski obrazı, əvvəllər mifik dünya, sonralar tarixlə bağlı şəxsiyyət olduğunu, mifik dünyanın yurddaşı və Azərbaycan xalqının soykökündə duran qəbilə, qəbilə birləşmələrinin ibtidai təfəkkürü, çevrəyə münasibəti ilə sıx bağlı olmasını araşdıran M.Seyidov akademik V.V.Radlovun "Türk dilləri lüğəti"nə istinad edərək, kaz//qaz//qas fonetik variantlarının qırğız, saqay, koybal dillərində "yüksəklik", "ucalıq" anlamlarını nəzərə almış, "qaz" və "an" tərkiblərindən formalaşan "Qazan"dakı "an"ı feli sifət şəkilçisi kimi qəbul etmişdir: "Hər iki tərkibdən yaranmış Qazan – ucalan, yüksələn, ululaşan anlamındadır" [2, s.124]. Alim oğuzların soykökü ilə bağlı əfsanədə ulu baba Bulcaxanın Ortaq//Ortak//Kaztak//Qaztaq dağlarında yaylaları olması faktını və bu adın da "Qazan" adının sözaçımına yardım etməsini, "uca", "yüksək" anlamında başa düşülməsini də gərəkli dəlillərdən saymış, Musa Qağantaqlının "Ağvan ölkəsinin tarixi" əsərində tarixi-əfsanəvi rəvayətdə çoxsaylı orduya malik Qazan və Qor adlı iki qardaşın adlarının çəkildiyini, tarixçinin bu iki qardaşdan tarixi şəxsiyyət kimi danışdığını göstərmişdir. M.Seyidovun araşdırmalarından aydın olur ki, Qazan xanın adı belə onu mifik təfəkkürlə bağlı surət kimi qəbul etməyə imkan verir və o, tarixi şəxsiyyət kimi V-VI yüzilliklərdə Albaniyada – Ağvanda yaşamış, sonralar bu ad tarixi-toponomik yer adları kimi meydana çıxmışdır.

Xatırladaq ki, bu gün də Azərbaycan ərazisində "Kitabi-Dədə Qorqud" boylarının ən əski obrazı Qazan xanın adı ilə ilişgəli oronimlər kifayət qədərdir. İsmayıllı rayonunun İlxıçı kəndində Qazandərə, Şamaxı rayonunda Qazandağ, Ordubad rayonunda Qazangəldağ zirvəsi, Cəlilabad rayonunda Qazanqoşadağı, Ağcabədi rayonunun Hindarx kəndində Qazan təpə və s. Ancaq təəssüf

ki, bəzi tədqiqatlarda "qazan" tərkibli Qazandərə, Qazandağ və s. kimi toponomik adlar ev əşyalarının adları ilə əlaqədar metafor adlar kimi qəbul edilmişdir [3, s.47].

M.Seydiovun şərhindən bilmək olur ki, Baybecan adına VII yüzilliyin coğrafiya bilgini Anania Şiraqlının "Coğrafiya" əsərində "Qambecan" şəklində toponomik ad-yer, vilayət adı kimi rast gəlinir: "Qambecan əvvəlcə adam kimi işlənmiş, sonra bu adamın yaşadığı yer onun adını daşımışdır. Coğrafiya bilgininə görə, Qambecan vilayəti Ağvan – Alvan torpağında yerləşmiş və indiki Ağdaş rayonunu da əhatə etmişdir. Tarixdən bəllidir ki, o, bir çox yüzilliklər boyu bağımsız-müstəqil xanlıq olmuşdur. Bu vilayət, sözsüz ki, VII yüzillikdən qabaq Qambecanın adını daşımışdır" [2, s.126].

Alimə görə, "Qambecan" qam-şamanların Azərbaycan xalqının soykökündə duran qəbilə və qəbilə birləşmələrində tutduğu yeri, mövqeyi ilə bağlıdır və bu ad qamların hakim mövqedə durduqları çağda yaranmış, bu şəxsə qəbilənin baş qamı olduğuna görə "Qambecan" demişlər. "Kitabi-Dədə Qorqud" boylarından bizə bəlli Bayandır xanın, yəni baş xaqanın atası "Qamğan"ın şaman mənası verən "qam" və "xan", "qağan"dakı "ğan" tərkiblərindən yarandığını, sağır "nun"la deyilən "ğan"ın "ata" anlamını bildirərək, "qam" tərkibi ilə birlikdə "ata qam" (şaman) olmasını göstərən M.Seyidov Azərbaycan xalqının soykökündə duran ulu qəbiləbirləşmələrindən bir neçəsinin, o cümlədən hunların xristian, oğuzların islam, xəzərlərin yəhudi dinini qəbul etməsini, keçmiş qam-şaman dininə divan tutulmasını, baş qamların, şamanların qılıncdan keçirilməsini, qamçılıq-şamançılıqla bağlı yer, çay, şəxs adlarının xristian və islam dininin təsirinə məruz qalaraq dəyişdirilməsini, bu səbəblərdən "Qambecan"ın da "Baybecan" formasına düşməsini qeyd etmişdir. Rüstəm Kamal bu fikri davam etdirərək yazır: "Qamğan oğlu – ulu əski bir şəcərəyə işarədir. Bayandır xan yalnız tayfa başçısı, böyük xan deyil, həm də qam- şaman şəcərəsinin nümayəndəsidir" [4, s.13].

Aslan Bayramov Göyçə mahalında azərbaycanlılar yaşayan Babacan kənd adını, həmin ərazidə Babacan dərəsi toponimini, həmin dərədən axan Babacan çayı oykonimini, Şəmkir bölgəsində Babacan kənd adını "Kitabi-Dədə Qorqud"dakı Baybecanla əlaqəli olmasını qeyd etmiş və "Babacan" toponimini "bay+becan" kimi 2 hissədən ibarət olduğunu, "bay" tərkibindəki "y" səsinin düşməsi və ahəngə əsasən e-ə əvəzlənməsi nəticəsində "Baybecan"ın "Babacan" fonetik variantına keçməsini bildirmişdir [5, s.51-52].

M.Seyidov əski çağlarla bağlı "Kitabi-Dədə Qorqud"un "Uşun qoca oğlu Səkərəyin boyu"nda adları çəkilən Əkərək//Aqaraq və Səkərək//Saqaraq adlarının etimoloji təhlilini vermiş, bu toponomik adları əski türk dilləri ilə bağlamışdır. Müəllifə görə, Aqaraq//Əkərək "aq" və "araq" sözlərindən yaranmışdır ki, "araq" və onun fonetik variantı "arıq" bir çox türk dillərində, eləcə də Azərbaycan dilində "Aydan arı, sudan duru" atalar sözlərində "arı" şəklində işlənmişdir.

Akademik V.V.Radlovun qədim türk dilləri lüğətinə istinad edən alim bu sözün "müqəddəs", "təmiz", "pak", "yaxşıistər" anlamlarında olmasını xatırlatmış, "ag" və "araq//arıq//arı" sözlərinin birləşməsindən "uca", "ulu", "pak", "təmiz" mənalı "Aqaraq//Əkərək" ad-sözünün yaranması qənaətinə gəlmişdir. Qədim mənbələrdə, o cümlədən Anania Şiraqlının "Coğrafiya" əsərində "Aqaraq" adının qala, çay, azərbaycanlıların yaşadıqları yer adı kimi rast gəlindiyini göstərən M.Seyidov "Aqaraq"ın hələ VII yüzillikdən çox-çox qabaqlar mifik görüşlərlə bağlı obraz, müqəddəs başlanğıc, tanrı adı olması, sonralar çay, qala, yer, şəxs adı kimi işlənməsi mülahizələrini irəli sürmüş və bu adların kökünü V-VII yüzillikdən daha əvvəlki çağlarda araşdırmağı düzgün hesab etmişdir.

M.Seyidovun mülahizələrinin doğruluğunu təsdiq edən bir sıra tarixi faktlar vardır. 1995-ci ildə Bakıda nəşr olunan "Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası" kitabında Əştərək rayonunun Əkərək kəndində 1931-ci ildə 32 nəfər (1828-ci il qaçqınlığından sonra), Talin rayonundakı Əkərək kəndində isə 1931-ci ildə 601 nəfər, Görüş rayonundakı Əkərək kəndində isə 1931-ci ildə bir neçə azərbaycanlı yaşaması göstərilmişdir. Qeyd edək ki, Dərələyəzdə Əkərli, Borçalıda Əkərək, Dağıstandakı Əkərli kəndlərində də tarixən azərbaycanlılar yaşamışlar [5, s.65]. Naxçıvanın Sədərək

rayonunun adının etimologiyası ilə əlaqədar tədqiqatlarda Sədərək sözünün "Kitabi-Dədə Qorqud" eposundakı Səkrək adından yaranması mülahizələrinə də rast gəlinir [6, s.50-51].

Aslan Bayramov Əkərək toponiminin qədim tarixçilərdən Eqişe (V əsr), A.Şiraqlı (VII əsr), A.Lastevertsi (XII) və X.Samvelyanın "tarla", "çöl", "becərilən yer" mənasında açıqladıqlarını, M.Murzayevin son dövrlərdə yaşayan erməni tarixçilərinə uyaraq, bu sözü yunan mənşəli "aqro" sözü ilə bağlamağa çalışdıqlarını yazmış, Əkərək adının etimologiyası ilə bağlı fikirlərini belə ümumiləşdirmişdir: "Fikrimizcə, qədim erməni tarixçilərinin Əkərək toponimini əkinlə bağlamaları daha düzgündür. Doğurdan da, Əkərək leksik vahidinin kökündəki "ək" kəlməsi, istərsə də ona qoşulan ar, -ər, -ak, -ək şəkilçiləri türk dillərinə aid morfemlərdir(ək, ər, ək, əy, ər, ək) və s." [5, s.66].

Bizcə, "Əkərək" adını çağdaş dilimizin morfemləri ilə izah etmək, ona bugünkü dil modelindən yanaşmaq o qədər də düz olmazdı. Hər halda "Əkərək" sözünün keçib gəldiyi tarixi yol nəzərə alınmalıdır və M.Seyidovun qədim türk dilləri lüğətinə, sözün keçib gəldiyi yola əsaslanaraq, bu sözün "uca", "ulu", "pak", "təmiz" anlamlarında olmasına dair fikirləri daha inandırıcı görünür. Çünki əkinçiliklə, yer, əməklə bağlı qala, çay, şəxs adının yaranması ağlabatan deyil. Fəzlullah Rəşidəddinin "Oğuznamə" əsərində də "aqar" tayfasının adı çəkilir. Alban tarixçisi Gəncəli Kiraqos da öz "Şahnamə"sində türklərin içində aqar//əkər tayfa birliyini xatırlayır [7, s.58-59]. Deməli, bu adda çay, qala, yer, şəxs adı olduğu kimi tayfa adı da olmuşdur. Etnonimin toponimə, yaxud toponimin etnonimə çevrilməsi türk dillərində bir sistem kimi mövcud olmuşdur ki, bu da Oğuz, Bayat, Bayandır, Baybecan və s. kimi adlarda özünü göstərir.

"Kitabi-Dədə Qorqud"un IX boyunda adı çəkilən Əmran//İmran (Bəkil oğlu) antroponiminin taleyi də mübahisəli olmuşdur. M.Seyidovun araşdırmalarından aydın olur ki, bu ad nəşrlərdə İmran, Amran, Emran kimi verilmişdir. Dastan qəhrəmanlarının adının təmiz türk mənşəli olmasına əsaslanan alim "Əmran" antroponimini türk dillərində "dinclik, sülh, əmin-amanlıq" anlamlı "amıra", "amıran", "amırla", "amırlan" kimi ümumişlək sözlərlə əlaqələndirmiş, ərəb mənşəli "İmran"la "Əmran" adı arasında yaxınlığı mümkün saymamışdır [8, s.19-20].

Fikrət Xalıqov altay, teleut, qaraim, kuman və s. türk dillərində Amran köklü antroponimlərin mövcudluğuna əsasən alimin bu fikrilə razılaşmış, "...obrazın təbiətinə, peşəsinə, ictimai mövqeyinə uyğun ad seçilmişdir" [9, s.25] qənaətinə gəlmişdir. Ə.Tanrıverdiyev "... Hind-Avropa dillərinin hind dilləri budağındakı sanskrit ölü dilində sevmək anlamlı "amra" vahidlərinin fonetik (amrak, amra, ümran) və leksik-semantik oxşarlığı da onların bir kökdən olduğunu təsdiqləyir"[1, s.80] deməklə, M.Seyidovun mülahizəsini möhkəmləndirmişdir.

Buğac adının sözaçımı digər tədqiqatçılar kimi M.Seyidovu da düşündürmüş və bu adın verilməsi zamanı vəhşi buğanı yenməkdən savayı digər bir durumun da nəzərə alınmasını vurğulamışdır: "Deyəsən, burada başqa bir durum da göz qarşısına gətirilmişdir. Bizcə, oğlana ad qoyarkən onun yenilməzliyini, igidliyini, batırlığını, çox güclü olduğunu da unutmamışlar. Elə buna görə ona "igid", "çox güclü adam", "batır" demək olan "Buğa" adını vermişlər. Bizcə, "Buğac" adı "buğa" və "ac" tərkiblərindən yaranmışdır" [2, s.392].

Bilgin bununla "Buğac" adı haqqında deyilənlərə öz yeni münasibətini bildirmiş, bir sıra qaynaqlarda: Musa Qağanqatlının "Ağvan ölkəsinin tarixi" əsərində hun sərkərdəsi kimi adı çəkilən "Ağbuğa//Ağbuğı" adına, tarixdən bəlli olan sərkərdə adı "Qarabuğa"ya, XI yüzilliyin ensiklopedik bilicisi Mahmud Qaşğarlının "Divani-lüğətit-türk" əsərində Oğuzların yeddibaşlı əjdahaya – ilana "yelbuka" deməsinə Yusif Balasaqunlunun "Kutadqu-bilik" əsərində "Buğa" sözünün tanrı adı kimi çəkilməsi faktlarına əsaslanaraq, belə nəticəyə gəlmişdir ki, türk dillərində müxtəlif fonetik variantlarda olan "boğa//buqa//buğa//buka//bükə" sözlərində "batır", "igid", "qəhrəman", "çox güclü adam", "pəhləvan" anlamları vardır.

Həmçinin bu söz mifik təfəkkürlə bağlı yaxşı anlamda olduğu üçün türk xalqları onu şəxs adlarının tərkibində işlətmişlər. 2-ci tərkib "ac"ın türk dillərində "mərhəmət", "rəhm" anlamlarında olmasını, Azərbaycan dilində "rəhm etmək", "ürəyi yanmaq" mənalarında olan "acı" (maq) feilinin nə vaxtsa "ac" ismindən yarandığını ehtimal edən M.Seyidov 2 tərkibdən ibarət "Acal" kişi –

insan adındakı “ac”ı da “rəhm”, “mərhəmət” mənasında olan “ac”la bağlamış, “al” tərkibinin isə “uca” anlamını nəzərə alaraq “Acal” adının “uca”, “mərhəmətli” kimi başa düşülməsini düzgün saymış, hətta “alarvadı//alqarısı” sözlərində “al”ın günəşlə bağlılığını vurğulamış, “acal” (“ac+al”)ın da vaxtilə günəşlə bağlı mif olduğunu, sonralar zaman keçdikcə adiləşdiyini, XII yüzilliyin müəllifi Fəzullah Rəşidədində “acal”ın yüksək ad-titul kimi işləndiyini söyləmişdir.

Aslan Bayramov isə “Dədə Qorqud” dastanında adları çəkilən “Buğac” və “Buğacıq” adlarını “Buğa+c”, “Buğa+cıq” formasında quruluşca düzəltmə söz hesab edərək, “c” və “cıq” hissələrini kiçiltmə bildirən şəkilçilər kimi qəbul etmiş, Zəngəzurda, Qafan şəhəri yaxınlığındakı meşəlikdə 1919-cu ilə qədər Azərbaycan türkləri yaşamış Buğacıq adlı bir kəndin olduğu, ermənilərin həmin kəndi yandıraraq, əhalini qaçqın saldığı, həmin kəndin xarabalıqlarının hələ də qalması haqqında bilgi vermişdir [5, s.57].

Tədqiqatlarda “Buğac” adının sözaçımı ilə baglı başqa versiyalara da rast gəlinir: “Biz “Buğac”ı əvvəllər “Buğ xaç” kimi şərh etmişik. Başqa çalarları da görünür: Buğac//Buğaş – Buğa aşıran, yıxan, öldürən. Xaç isə elə bu adın bütövüdür. Belə ki, məhz belə igid “xaç” zirvəsinə qalxa bilərdi. (Bəlkə də “ac” şəkilçidir. Buğac - Buğa tək olan)” [10, s.63]. Sonra alim, hətta rus dilində “bık” adının da, türk mifologiyasında nəhəng ilanın, hətta səmada bulud və şimşək şəklində görünən əjdahanın – “buka”nın “buğ/a” kodundan törəməsi, “Buğa”, “Buğra”nın “güclü od” məzmunlu tanrı adı – “bağ”, “boq”un törəmələri olması fikrində qətiyyətlə dayanır.

M.Seyidov Şerbakın qələmə aldığı “Oğuznamə”dəki şəkildə Oğuzun atasının öküz kimi yox, buğa təsviri ilə verilməsini bildirmiş və zoomorfik onqonların başlıca olaraq döləndirən olduqlarını, buğanın türk xalqlarında zoomorfik onqon olduğunu, buğa şəkli çəkməklə onun yalnız onqon olmasını deyil, həm də “güclü”, “məğrur”, “pəhləvan” anlamlarında olmasını göz qarşısına gətirmək istədikərini qeyd etmişdir.

Tədqiqatçı bu etimoloji təhlilini əsaslandırmaq, qüvvətləndirmək üçün bir sıra dəlillər gətirmiş, əski türk dillərində işlənən “baş komandan”, “baş sərkərdə” mənalarında olan “başboğaz” sözündəki “boğ” tərkibini “buğa”dakı “boğ”//“buğ”la bağlı eyni söz saymış, “Başboğ”u “baş igid” kimi açıqlamışdır. Hətta erkək keçiyə də bir sıra türkdilli xalqlarda “buğa//buqa” deyildiyini xatırladaraq, buğ//boğ sözünün “buğa”dan başqa “igid, güclü, pəhləvan” anlamlarını bir daha təsdiqləmişdir.

Alimin araşdırmalarından aydın olur ki, A.Yoki və L.Bazeni “buğa”//“buqa” sözünün ilkin variantını “buqay” kimi qələmə vermiş, E.V.Sevortyan buğa səsi çıxaran musiqi alətinə bəzi türk dillərində “buqay” deyilməsini xatırlatmış, C.N.Şipova isə “buqay”ın XIV yüzillikdən qabaq rus dilində işlənməsi qənaətinə gəlmişdir. Mifik düşüncələrlə səsləşən “buqay”ın “buq” və “ay” birləşmələrindən yaranmasını açıqlayan M.Seyidov “buğ//buq//boq”u “igid”, “ay”ı “yaradıcı”, “insanı yaradan” anlamlarında olmasına əsaslanaraq, Oğuzun atası sayılan “Buğa”//“Buqay”ı türk xalqlarında zoomorfik onqon olmaq şərti ilə “yaradan, törədən igid” sanıldığını düşünmüşdür.

“Kitabi-Dədə Qorqud” qəhrəmanlarından Aruz adının mənası da M.Seyidovu çox düşündürmüşdür: “Bizcə, “Aruz” adı “ar” və “uz” tərkiblərindən ibarətdir. “Ar”... “kişi”, “insan”, “igid” deməkdir. Çox ehtimal ki, “uz” isə “işıq”, “yaruq”, “şua” mənalarında işlənir; çünki “uz” tərkibinə, adətən, işıqla bağlı “gündüz”, “ulduz” və bu kimi sözlərdə rast gəlirik. “Ulduz”, “gündüz” sözündəki “uz//üz” komponentinin türk dillərində “uz”, “ız”, “us”, “oz” (Altay dilində ulduza yıld-ıs, başqırdca yold-oz, qazaqca culd-uz, noqayca yuld-uz, tatarca yold-uz, tuvaca sıld-ıs, türkcə yıld-ız, türkməncə yıld-ız, özbəkcə yuld-uz, uyğurca yold-uz, xaqasca cılt-ıs, şorca cıl-ıs, yaqutca sul-us və s. deyilir) fonetik variantları vardır” [2, s.44].

Alimə görə, Aruz “işıq, od kişisi, od adamı” anlamındadır, “ar”ın “qırmızı”, “qırmızımtraq” mənaları “Aruz”u “qırmızı işıq” anlamına gətirir. Oğuzlar qırmızı işıq, yəni “aruz” deyərkən günəşi, ola bilsin ki, böyük odu göz qarşısına gətirirmişlər. Bilgin Basatın mifoloji anasının Qaba Ağac, yəni Dünya ağacı, atasının isə türk xalqlarında Günəşin bəlgəsi sayılan qağan Aslan olması ilə igidin dünyəvi atası olan odla, günəşlə bağlı od, işıq, qırmızı işıq adamı anlamında olan Aruz

arasında qanunauyğunluq görmüş, "Aruz" adını 2-ci ad saymış, onun ilkin adının da olması ehtimalını ağlabatan hesab etmişdir.

Bizcə, alimin fikirlərində böyük həqiqət var. Çünki xalqımızın tarixində, həyat və məişətində vaxtilə mövcud olmuş ikinci adalma ənənəsinin izləri folklor materiallarında özünü göstərir. Məsələn, "Əsli və Kərəm" dastanından bu adların sonradan verildiyi, yəni Kərəmin ilk adının Mahmud, Əslinin isə Məryəm olduğu məlum olur. "Aşıq Qərib" dastanında isə Qəribin əsl adı Rəsuldur, Şahsənəmin əsl adı Sənəmdir və 2-ci adı bu dastanda mifik obraz Xıdır-İlyas verir. Koroğlunun ilk adı Rövşəndir. "Şəms və Qəmər" dastanında isə Şəms oğlan paltarı geyən gündən adını Rövşən qoyur. "Dəli Çoban" dastanında Gülrux adlı qız çoban libası geyəndən sonra hamı onu "Dəli Çoban" kimi çağırır. Fikrimizcə, çağdaş dövrümüzdə ərə gedən qızın ərinin soyadını qəbul etməsi faktının kökündə də 2-ci ad məsələsinə yaxınlıq var. Xalq arasında da deyilir: "Qız idim – sultan idim, ərə getdim xan oldum.

"Kitabi-Dədə Qorqud" boylarından ilk adın ləğv olunub, yeni ad almaq ənənəsinə dair nümunələr kifayət qədərdir. 2-ci ad daimidir, cəmiyyətdə yalnız bu adla tanınmaq mümkündür: "Bəybura bəyin oğlunun birinci adı Bamsı, ikinci adı Beyrək olmuşdur" [11, s.117]. Basat, Qazan, Qabangüc, Buğac, Aruz və s. kimi adların uşaq doğularkən verilməsi gülüncdür, məntiqi deyil. Deməli, eposda öz əksini tapan adlar, əslində sonrakı adlardır. Əzizxan Tanrıverdi bir sıra eponim-ləqəblərin də Azərbaycan türkünün etnogenetik tarixində aparıcı rol oynadığını yazır: "...Kanqlı, Uşun, Elik, Qıpçaq, Dondar, Salur kimi etnonimlər "Kitabi-Dədə Qorqud"un antroponimlər sistemində eponim-ləqəb funksiyasındadır... Deməli, eponim-ləqəblərin tarixi-etimoloji prizmadan təhlili həm də etnogenezimizin tədqiqidir" [1, s.45].

Tədqiqatlarda tarixçi alim Q.Qeybullayev tərəfindən "Araz" hidromiminin qədim türk dillərində "sakit, dinc, xeyirxah, xeyirli" mənalarında olan ərəs//uras, oraz//uraz apelyativi ilə bağlı olması göstərilmiş, "bəxt, tale, səadət, xoşbəxtlik, uğurlu" anlamında olan aruz//uruz apetyativinin M.Seyidovun "Aruz işıq, od kişisi, od anlamındadır" mənaları ilə bir xətdə birləşməsi vurğulanmışdır. Əzizxan Tanrıverdi Dmanisi (Başkeçid) toponiminin mənşəyi ilə "Kitabi-Dədə Qorqud"da adı çəkilən Tuman qalası arasında bağlılıq görmüş, 1728-ci ildə yazılmış "Dəftəri-müfəssəli-əyaləti-Tiflis"də Dmanisi (Başkeçid) ərazisində "Uruz yaylası", "Uruz qışlağı" toponimlərinin adının çəkilməsinə əsaslanaraq göstərmişdir ki, Dmanisi rayonunun Oruzman (oruz+man/adam) kənd adı Uruz//Aruz antroponimi əsasında yaranmışdır. [1, s.59].

Beləliklə, aydın olur ki, etimoloji tədqiqatlarında da M.Seyidov həmişə xalqın tarixi, dünyagörüşü, maddi və mənəvi mədəniyyəti haqqında düşünmüş, dildə, sözlərdə, toponim, etnonim, antroponimlərdə yaşayan tarixi yaddaşı, mənəvi keçmişi bu günümüzə gətirmişdir.

## ƏDƏBİYYAT

1. Tanrıverdi Ə. "Kitabi-Dədə Qorqud"un söz dünyası. Bakı: Nurlan, 2006, 471s.
2. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.
3. Məmmədov N. Azərbaycanın yer adları. Bakı: Azərnəşr, 1993, 184 s.
4. Rüstəm Kamal. "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası. Bakı: Elm, 1999, 72 s.
5. Bayramov A. Qədim Oğuz ellərinin – Ağababa, Şörəyel və Pəmbək bölgələrinin yer-yurd adları. Sumqayıt, 1996, 250 s.
6. Bağırov İ. "Kitabi-Dədə Qorqud" və Naxçıvanda yer adları // Tarix, ictimaiyyət, coğrafiya tədrisi jur., 1972, № 1, s. 46-47
7. Bayramov A. "Kitabi-Dədə Qorqud" və Qafqaz . Bakı: Nurlan, 2002, 123 s.
8. Seyidov M. Azərbaycan-erməni ədəbi əlaqələri. Bakı: Elm, 1976, 178 s.
9. Xalıqov F. Azərbaycan onomalogiyası (folklor əsasında). Bakı: Müəllim, 2009, 242 s.
10. Fərzəli Ə. Dədə Qorqud yolu. Bakı: Azərnəşr, 1995, 360 s.
11. Ağayeva F., Əsgərova G., Ağayeva P. Azərbaycan folklor antroponimikası. Bakı: Maarif, 1997, 216 s.

12. Seyidov M. “Qızıl döyüşçü”nün taleyi. Bakı: Gənclik, 1984, 105 s.
13. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
14. Xəlilov P. Kitabi-Dədə Qorqud – İntibah abidəsi. Bakı: Gənclik, 1993,176 s.
15. Seyidov M. “Uğur” sözü haqqında bəzi qeydlər // Azərb.SSR EA Xəbərləri (İctimai elmlər seriyası), 1962, № 4, s. 147-159

**РЕЗЮМЕ**

**ТЕМА «КИТАБИ – ДЕДЕ КОРГУТ» В ТВОРЧЕСТВЕ МИРАЛИ СЕИДОВА**

***Джуманов Д.А., Гусейнова А.С.***

**Ключеые слова:** Газан, Гамбежан, Байбеджан, Аруз, Экерек, Секерек, Амран, Бугач, Горгуд, Абсаг, Озан

Имена являются носителями национально-этнической истории, этнопсихологии и отражают древнее мировоззрение и характер народа. В статье рассматриваются некоторые антропонимы и этнотопонимы, связанные с азербайджановедением, в исследованиях видного ученого Мирали Сеидова, посвященных дастану «Китаби – Деде Коргуд». Научно-теоретические мысли Мирали Сеидова по толкованию смысла исторических и мифических имен, как Газан, Гамбежан, Байбеджан, Аруз, Экерек, Секерек, Амран, Бугач, Горгуд, Абсаг, Озан и т.д. объясняются в сравнении с предположениями других ученых. В статье показано, что творчество ученого опровергает тезисы о том, что якобы «азербайджанцы и тюрки появились на Кавказе поздно и не являются коренным населением», приводятся доказательства обратного.

**SUMMARY**

**THE THEME OF "KITABI – DEDE KORGUT" IN THE WORKS OF MIRALI SEYIDOV**

***Jumanov D.A., Huseynova A.S.***

***Key words:*** *Qazan, Qambejan, Baybejan, Aruz, Akarak, Sakarak, Amran, Bughaj, Korkut, Absag, Ozan*

Names are the carriers of national-ethnic history, identity, ancient outlook and ethnopsychology. In the article the connection was clarified of some anthroponyms and ethnotoponyms of “Kitabi-Dede Korkut” with Azerbaijani studies in the researches of well-known scholar Mirali Seyidov. The scientific-theoretical thoughts of the scientist were comparatively explained with the views of other scholars about interpretation of historical and mythic names related with origin of Azerbaijani people like Qazan, Qambejan, Baybejan, Aruz, Akarak, Sakarak, Amran, Bughaj, Korkut, Absag, Ozan and etc. It is shown in the article that creativity of the scholar disproves antiscientific character of theses about “Azerbaijanis and Turks have come to Caucasus late and are not indigenous population”.

Daxilolma tarixi: İlkin variant 25.10.2018
Son variant 17.12.2018

**UOT 82.091**

# MUSTAFA ÇƏMƏNLİNİN “ÖLÜM MƏLƏYİ” ƏSƏRİNDƏ QADIN OBRAZLARI

**BABAYEVA AYNURƏ NİZAMİ qızı**
*Sumqayıt Dövlət Universiteti, Folklorşünaslıq ETL, baş laborant*
Femida278@mail.ru

***Açar sözlər:*** *ədəbiyyat, Mustafa Çəmənli, qadın, tarix, problem*

Ədəbiyyat mahiyyətinə görə müxtəlif sahələr (incəsənət, tarix, psixologiya, fəlsəfə və s.) arasında bir körpü rolunu oynayır. Birləşdirmə, əlaqələndirmə gücünə malik təbliğ edən və informasiya verən ədəbiyyat tariximiz, həyat tərzimiz, gələcəyimiz, əldə etdiklərimiz və itirdiklərimiz, gümanımız və inamımızı əks etdirir. Əsas qəhrəmanı insan olan ədəbiyyat bütün vasitələrlə həyatın dərkini öyrənməyə, həm də öyrətməyə çalışır. Beləcə, ədəbiyyat öz obrazlar sistemi, sujeti, ideyası, qoyduğu konflikt və s. ilə birgə cəmiyyətin güzgüsünə çevrilir. Buna görə də hər zaman yazıçı və şairlər ədalətlilik prinsipini qorumalıdırlar. Yazıçı və şairlərin mənsub olduqları milliyyət, tarix, cəmiyyət, din onların düşüncəsinə, yaradıcılıqlarına güclü təsir edir. Bu təsirin nəticəsini biz ideya, xarakter, konflikt, forma və məzmun seçimində görürük. Məsələn, ədəbiyyatda qadınların rolu və yeri hər bir xalqın, cəmiyyətin daxilində gedən proseslərlə bağlı dəyişir. Əgər Avropa ədəbiyyatında XVIII əsrdən başlayaraq qadınlar dinamik bir obraza çevrilməyə başlayırsa, Şərqdə qadının passivlikdən dinamikliyə doğru inkişafını XX əsrdə müşahidə edirik. Həmin dövrün ictimai-siyasi dəyişiklikləri xalqın dünyagörüşünə, yaşam tərzinə təsir edir və maarifçilik meylləri güclənir. Xalqın və cəmiyyətin yeni sosial-siyasi mahiyyəti qadına olan münasibəti də dəyişir. Bu hadisələr zəminində ədəbiyyatda da fərdiləşdirmə və tipikləşdirmə prinsipi ilə qruplaşdırılan qadın xarakterlərinin çoxalmasını müşahidə edirik. Nəticədə, daxilən və zahirən gözəl olan ənənəvi qadın obrazları dərin mürəkkəb xarakterlərə çevrilir. Deməli, qadının cəmiyyətdə və ədəbiyyatda arxa planda qalmasının səbəbi, Otto Veyninger vurğuladığı kimi, zəka geriliyi yox, cəmiyyətdəki mentalitet, bərabərsizlik, savadsızlıqdır.

Özündən əvvəlki obrazyaratma üsullarından bəhrələnən Mustafa Çəmənli də əsərlərində maraqlı insan surətləri yarada bilmişdir. Onun əsərləri dilinin, obrazlarının rəngarəngliyi ilə seçilir. Yazıçı tarixiliyə, milli kökə bağlılığı ilə diqqəti çəkir. Onun Səfəvilər xanədanının I Şah Təhmasib və II İsmayılın dövrünü əhatə edən “Ölüm mələyi” tarixi romanında yaratdığı qadın obrazlarının daxili dünyası səciyyəvi hadisələr fonunda açılır. Yaşadıqları tarixi mühit qəhrəmanların şəxsiyyətini formalaşdıran vasitə kimi təqdim olunur.

Lermantovun gözəl bir sözü var: “Bir qəlbin tarixi bir xalqın tarixi qədər zəngindir”. Həqiqətən də, insanın iç dünyasını bədii formada ifadə etmək üçün yazıçının da bu hissləri duyması, təxəyyülünün güclü olması vacibdir. M.Çəmənlinin “Ölüm mələyi” əsəri də bu keyfiyyəti özündə əks etdirir.

Mustafa Çəmənli yaratdığı obrazlar vasitəsilə dövrün hakimiyyət və şəxsiyyət, şəxsi maraqlar və əxlaqi borc, atalar və oğullar problemlərini əks etdirməyə çalışmışdır. Burada kişilərlə çiyin-çiyinə dura bilən qadın obrazları nəzəri xüsusilə cəlb edir. Müəllif tarixdən qaynaqlanan yüksək təbəqənin qadın nümayəndələrinin: əsərin aparıcı obrazlarından olan I Şah Təhmasibin qızı Pərixan bəyim, sadə qadın xoşbəxtliyini simvolizə edən şahbanu Sultanbəyim, Gövhər bəyim (Şah Təhmasibin qızı), xislətində kin-hikkə yetişdirən Məhdi-Ülya, II İsmayılın ilk hərəmi Səkinə sultanın və b. cəmiyyətdəki yerini, idarəetməyə (pərdəarxası belə olsa da) təsirini incəliklə təsvir

edə bilmişdir. Müəllif onları sosial, etik, milli, mənəvi, psixoloji mahiyyətli mürəkkəb bir kompleks kimi qəbul edir və təhlil obyekti kimi təqdim edir.

Şah I Təhmasibin hərəmxanasının şahbanusu Sultanbəyim əsərdə sevgi, qayğı, sədaqət və mərhəmət mücəssiməsi kimi təqdim edilib. Şah öz ilk hərəmi olan bu qadına ağlına, ədalətinə, həlimliyinə görə xüsusi sevgi bəsləyir. Sultanbəyim Tanrıya və ərinə pərəstiş edir, dövlət işlərinə müdaxilə etmir, həyat yoldaşını hər zaman anlamağa və dəstəkləməyə çalışır, şahın ürəyinə, ağlına nüfuz etməyi bacarır, sevgisi ilə şahın qəlbini qəddarlaşmağa qoymur, ədalət və mərhəmət tərəzisini nizamda saxlamağa kömək edir. Ümumiyyətlə, Sultanbəyim düşünən və müdriklik yolunda ucalmağa doğru gedən qadındır.

Süjet boyu inkişaf edən hadisələr onun həm gücünü, həm də gücsüzlüyünü göstərir:

"- Qəddarlıq heç zaman örnək ola bilməz. Sənin xəbərin varmı, mən qətlə yetirdiyin şahzadələrin analarının gözlərinin içinə düz baxa bilmirəm?

- Çox nahaq, ana, sənin onların yanında heç bir suçun yoxdur.

- Var! Səni dünyaya mən gətirməmişəmmi? Belə çıxır ki, qəlbində mərhəmət hissi daşımayan bir qatil yetişdirmişəm. Mən öz övladımı şah paltarında görmək istəyirəm, cəllad qiyafəsində yox" [2, s.242].

Oğlunun qəddar əməlləri ədalətli və mərhəmətli ananı qorxudur. O, əli qana batmış oğlunu xilas etmək istəsə də, bacarmır. Gücsüzlüyünü qəbul edən ananın övladının günahlarını bağışlanması üçün Quma – müqəddəslərin ziyarətinə gedişi onun narahatçılığını əks etdirmək, "Taxt-tacını qan üstündə qurma, axırı yaxşı olmaz" fikrinin təsdiqi vasitəsinə çevrilir.

Əsərin aparıcı qadın obrazlarından biri də Pərixandır. Mürəkkəb xarakterə malik bu qız I Şah Təhmasibin sevimli qız övladıdır. Dəyər verdiyi, hörmət bəslədiyi bacısının adını daşıyan qızının ağlı, dərrakəsi onu valeh edir. Qızına güvənən şah onunla söhbət etməyi sevir, hətta dövlət işlərində belə onunla məsləhətləşir.

Hakimiyyət ehtirası Pərixanı həqiqət axtarışlarından uzaqlaşdırır, onun mənəvi yüksəlişə gedən yoluna sədd çəkir. Bəzi məqamlarda insana elə gəlir ki, Pərixan qəlbində sanki iki insan yaşadır: biri sevgi və qayğı dolu, musiqi, şeiriyyat və təbiətdən duyğulanan, ətrafa xoş ovqat yayan qızcığaz, digəri isə şahmat oyunçusu kimi soyuqqanlı, sərt, ruhən dayanıqlı, qərarlı bir qadın. Hakimiyyətdən uzaq düşə bilmə qorxusu onu daha sərt və qərarlı olmağa təkan verir. O, 19 il həbsdə yatmış qardaşı II İsmayılı taxta çıxartmağı planlaşdırır, Pərixan məhbusu şah etməklə onun çiyninə minnət qoymasını və bir borc olaraq özünün dövlət işlərindən uzaqlaşdırılmamasını təmin etmək istəyir.

Pərixan öz eqosuna, zəkasına həddən artıq aludə və çılğın bir xarakterdir. Buna görə də verdiyi qərarların törədə biləcəyi nəticələr haqqında dərindən düşünə bilmir. "Şamxal sultan hərəmxana bağçasının açarlarını əlində görəndə gözləri parıldadı. Pərixan bəyim dayısının gözlərindəki bu parıltıdan diksindi. O, Heydər mirzənin öldürülməsini istəmirdi, sadəcə, onu şahlıq taxtına layiq görmürdü." [2, s.132] – bu parçadan görürük ki, o, hər gün ünsiyyətdə olduğu rəhimdil, ədalətli, əməlisaleh, mehriban Heydərin aqibəti haqqında heç fikirləşməyib. Heydərin ölüm anını izləməli olan Pərixanın içindəki ağrını müəllif bütün çalarları ilə ifadə edə bilmişdir. Bütün bu hakimiyyət davasının, qardaş qırğının səbəbini isə Pərixan çoxnikahlılıqda görür. Ona elə gəlir ki, övladlar bir ata və bir anaya məxsus olarlarsa, qardaş məhəbbəti daha da güclü olar, ədavətə yer qalmaz.

Bizə elə gəlir ki, müəllif öz fikrini: "Bəlanın bir çoxu çoxnikahlılıqdadır. Bir də bizim kişilər qadının necə gözəgörünməz bir qüvvə olduğunu görmürlər. Sən nə yollasa onu alıb gərdək dalına sala bilərsən, bədəninə, bağışla məni, sahib çıxa bilərsən, amma ürəyindəkilərə, beynindən keçənlərə sahib ola bilməzsən" – Pərixanın vasitəsilə verməyə çalışıb. Müəllif hətta "Xallı gürzə" tarixi romanında da Pənahəli xanın oğlunun ikinci dəfə evləndirməsini, qanını ermənininin qanı ilə calamasını böyük problemlərin başlanğıcı kimi dəyərləndirir.

Pərixanın peşmançılığını əks etdirən epizodlar qəhrəmanın daxili dünyasını, onun ziddiyyətli xarakterini açmaq vasitəsinə çevrilir.

Xalqın, dövlətin rifahı üçün azad olunan "ədalətli şah"ın əvəzinə Pərixan sarayda, küçələrdə "ölüm mələyi"nin əməllərini kənardan izləməli olur. "Ölüm mələyi" dayana bilmədikcə, günahsız qətllərin ağrısını duymaq Pərixanı bir daha qətl törətməyə, qardaş qatili olmağa sürükləyir.

Səhvlər, günahlar ona başa salır ki, hətta dövlət uğrunda belə hər bir kəs insanlığı, mərhəməti, ədaləti unutmamalı, insani dəyərlərlə yaşamalıdır. Düşünülməmiş (Heydər mirzə) və düşünülmüş (İsmayıl mirzə) qətllər, qərəz, haqsızlıq psixoloji cəhətdən onu sarsıdır. Çəkdiyi ağrılar, əzablar bədii obrazın mənəvi-əxlaqi inkişafına, onun xarakter səviyyəsinə yüksəlməsinə zəmin yaradır. Sonda Pərixan mənəvi inkişafa doğru gedə biləcək ruhi vəziyyətə yüksəlir. Ağrıdan keçib tövbə yolunu tutmaq, qəzəb və nifrət dolu həyatı tərk etmək artıq onun qəlbi üçün bir qurtuluşa çevrilir.

Xarakter tipinə görə Pərixan adət-ənənələrə, o dövrün həyat tərzi ilə qarşı-qarşıya duran yeni baxışı təcəssüm etdirir.

Məhdi-Ülya obrazı ilə əsərin əvvəlində Heydər mirzənin tərəfkeşlərinin söhbəti əsnasında tanış oluruq. Bu söhbətdən görürük ki, Məhəmməd bəyin (Şah I Təhmasibin ilk övladı) həyat yoldaşı olan Xeyrənnisə sultanı çox tədbirli və dilavər qadın kimi tanıyır və hətta ondan bir az da çəkinirlər. Məhdi-Ülyanın qayınanası söz-söhbəti sevməyən Sultanbəyim şaha onu necə xarakterizə edirsə, Xeyrənnisənin hakimiyyəti idarə etməsinə razı olmur. Şahın Kor Şahəli bəy Rumlu (şahın qulağı) ilə söhbəti əsasında obrazın daxili dünyasının, onun narahatçılığının gizli məqamları açılır. Hadisələrin inkişafı boyu şahın, İsmayıl mirzənin ölümü ilə Məhdi-Ülyanın hakimiyyət ehtirasının alovlandığının şahidi oluruq. Hakimiyyətin gücünü hiss edən qadın qərarverici qüvvəyə çevrilir. Qarşısına keçən hər bir maneəni dəf etməyə hazır Məhdi-Ülya hətta İsmayıl mirzənin 1 yaşına çatmamış körpə oğlunu öldürtdürür. Bu zərif məxluqun, ananın hər zaman hakimiyyətdə qalmaq, övladlarının təhlükəsizliyini qorumaq üçün törətdiyi qəddarlıqlar əsər boyu səciyyəvi epizodlar vasitəsi ilə öz əksini tapır.

Bütün qərarları özü verən fars-tacik mənşəli ali divanın vəkili olan Məhdi-Ülyanın qızılbaşları hakimiyyətdən uzaqlaşdırma siyasətinin bədii əksi də lazımi səviyyədədir.

Sonda müəllif Məhdi-Ülyanın məhz Pərixanın evində boğularaq öldürülməsini təsvir edir. O, bununla göstərmək istəyir ki, insanın etdiyi hər bir əməl bumeranq kimi özünə qayıdır.

Əsərin maraqlı surətlərindən biri də Gövhərbəyimdir. Ögey bacısı Pərixandan fərqli olaraq o, həyat yoldaşı, ana qismətilə ilə razılaşır və bunu Tanrının gözəl payı kimi qəbul edir. Ailə ocağının qoruyucusu olan bu mehriban, həssas, qayğıkeş, sadiq qadın hər bir kişinin baş ucalığı və arzusudur. Yüksək mənəviyyatı, elmə, musiqiyə, şeiriyyətə, xəttatlığa xüsusi marağı ilə diqqəti cəlb edir. Onun ruhunun öz yaşamından həzz aldığını, rahatlıq tapdığını görürük. Müəllif də elə bu keyfiyyətlərinə görə Gövhərbəyimi ideal qadın tipi kimi xarakterizə edir.

Eyni zamanda yazıçı Gövhərbəyimin əri tərəfindən sevildiyi və dəyər verildiyini xüsusilə nəzərə çatdırmağa çalışır. O, mərifət və kamal sahibi İbrahim mirzənin Gövhərbəyimlə sevgi və qayğı dolu münasibətlərini səciyyəvi detallarla təsvir etməyi bacarır, təknikahlılığı ailənin bütövlüyü və möhkəmliyində yolunda vacib amil sayan qəhrəmanlara haqq qazandırır.

Hakimiyyət qurbanı olan İbrahim mirzənin qətlindən sonra mənən və ruhən sınan Gövhərbəyimin məhvini, gücsüzlüyünü görürük. Onun ölümü bizə İlhamdan sonra yaşamamaq qərarını verən Fərizəni xatırladır. Bir daha aydın olur ki, tarix Mustafa Çəmənli üçün müasirliyi təqdimetmə vasitəsidir.

Bir xarakter kimi Gövhərbəyim və Sultanbəyim arasında xarakter oxşarlığı hiss olunur. Lakin Gövhərbəyimin qəlb rahatlığını Sultanbəyimdə görmürük. Müəllif bu obrazlar vasitəsilə təknikahlılıq və çoxnikahlılıq arasındakı fərqi göstərməyə çalışır.

Əsərdəki bəzi personajların həyat və fəaliyyəti epizodik təsir bağışlasa da, əsas qəhrəmanların daxili dünyasının açılmasında onların da müəyyən dərəcədə rolu var. Belə surətlərə misal olaraq Bakı qalasının müdafiəsinə qalxan hakim qadını, Heydər Mirzənin anası, gürcü qızı, Pərixanın anasını misal göstərmək olar. Müəllif bir tərəfdə vətəni, şərəfi uğrunda canından keçməyə hazır olan qadını, digər tərəfdə şəxsi istəkləri uğrunda yalançılıq, ikili oyun oynayan qadınları qarşı-qarşıya qoyur və onları müqayisə predmeti kimi göstərir.

Əsərdə təsvir olunan qadınlar vasitəsilə müəllif milliyyətçilik probleminə toxunur. Məsələn: Pərixan, Məhinbanu, Bakı hakiminin öz xalqının, vətənininin rifahı düşündürürsə, qeyri millətdən olan gürcü, fars qızlarının əksini etdiyini görürük. Buradan belə bir nəticə hasil olur ki, müəllif gələcək nəsli maneələr, qarşıdurmalar yaradan seçimlərdən çəkindirmək istəyir.

Mustafa Çəmənli dövlət xanədanının qadınlarının timsalında həmin dövrün mənəviyyatı, məişəti, təfəkkürünü göstərməyə çalışır. O, qadın obrazlarını təsvir etməklə, idarəçilikdə belə onların təsir gücünün böyük olduğunu nəzərə çatdırır. Bu obrazları mənəvi cəhətdən güclü və zəif, müsbət və mənfi xarakterlərə ayıraraq onların içindəki mübarizəni, sevgini, düşüncəni, inkişafı, enişi görsətməyə çalışır. Tarixi faktlardan, şəxsiyyətlərdən istifadə edərək hadisələrin birtərəfli baş vermədiyini, hər bir addımın arxasında gizlənən bir sıra psixoloji, mənəvi və maddi səbəblərin olduğunu, insanın izah olunması çətin xüsusiyyətlərini onun dünyasında baş verən özünəməxsus proseslərlə səciyyələndirir. Əsər ümumilikdə hakimiyyət hərisliyini tənqid edir. Müəllif bu obrazlar vasitəsilə ictimai, sosial, tarixi həqiqəti təqdim etməyə çalışır. Yuxarıdakı təhlildən sonra belə nəticəyə gəlmək olar ki, qadının mənən zəngin, ağıllı, elmli, dünyagörüşlü olması onun mənsub olduğu dövlətin və xalqın inkişafının təminatıdır. Çünki məhz qadınlar ailənin müdafiəçisi, gələcək nəslə tərbiyə verəndir. Bu səbəblərdən qadın bir fərd və şəxsiyyət kimi formalaşmalıdır.

## ƏDƏBİYYAT


1. https://525.az/site/?name=xeber&news_id=84446#gsc.tab=0
2. Çəmənli M. Ölüm mələyi. Bakı: MHS-poliqraf, 2012, 296 s.
3. Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1972, 280 s.
4. Yusifoğlu R. Ədəbiyyatşünaslığın əsasları. Bakı: ADPU, 2009, 288 s.



## РЕЗЮМЕ
## ЖЕНСКИЕ ОБРАЗЫ В РОМАНЕ МУСТАФЫ ЧЕМЕНЛИ «АНГЕЛ СМЕРТИ»
***Бабаева А.Н.***

***Ключевые слова:*** *литература, Мустафа Чеменли, женщина, история, проблема*

Мустафа Чеменли в своих работах смог создать интересные характеры, используя приемы создания художественных образов. Его произведения отличаются разнообразием языка и образов. В историческом романе «Ангел смерти» внутренний мир женских образов раскрывается на фоне типичных событий. История здесь представлена как средство формирования личности героев.

Мустафа Чеменли с помощью исторических образов пытается показать проблемы власти и личности, личных интересов и морального долга, отцов и детей той эпохи.



## SUMMARY
## FEMALE CHARACTERS IN THE NOVEL "THE ANGEL OF DEATH" BY MUSTAFA CHEMENLI
***Babayeva A.N.***

***Key words:*** *literature, Mustafa Chemenli, woman, history, problem*

Mustafa Chemenli in his works was able to create interesting characters using methods of creating artistic images. His works differ in the variety of language and images. In the historical novel "The Angel of Death," the inner world of female images reveals against the backdrop of typical events. History is represented here as a means of forming the personality of heroes.

Mustafa Chemenli with the help of historical images tries to show the problems of power and personality, personal interests and moral duty, fathers and sons of that era.



| Daxilolma tarixi: | İlkin variant | 28.10.2018 |
|---|---|---|
| | Son variant | 17.12.2018 |

**UOT141.78**

# POSTMODERN MÜHİTDƏ “İSLAM VƏ DEMOKRATİYA” MÖVZUSU

**SÜLEYMANOV NƏRMAN SALMAN oğlu**
*Bakı Dövlət Universiteti, dosent*
nqocaturk@ mail.ru

***Açar sözlər:*** *postmodernizm, modernizm, İslam, demokratiya, poststrukturalizm, konstruksiya, dekonstruksiya, tarix.*

Müasir dünya siyasi arenasında, rəsmi və yaxud qeyri-rəsmi formada həm müsəlman ölkələrinin, həm də dünyanın aparıcı dövlətlərinin, beynəlxalq siyasi təşkilatların ictimai və siyasi xadimləri, hətta ölkə liderləri, dövlət başçıları səviyyəsində belə İslam və demokratiya mövzusunu müzakirə etməkdədirlər. BMT-nin əsas müzakirə mövzularından olan və “svilizasiyalararası dialoq “ kontekstində dünyanın tanınmış siyasətçilərinin “islam və demokratiya”, “müsəlman ölkələrində demokratik durum”, “demokratik dəyərlərin islamda əks olunması” və yaxud “islamın müasir demokratik mühitə inteqrasiyası” və s. bu kimi məsələlərin həllinə yönəlmiş çıxışlarını bu günlər tez-tez eşitməli oluruq. Son bir neçə onillikdə dünya gündəmini məşğul edən qloballaşma problemi cəmiyyət həyatının maddi sferası ilə yanaşı, mənəvi sferasına da ciddi şəkildə müdaxilə etməkdədir. Onun cəmiyyətlərin mənəvi həyatlarının ən mühafizəkar tərəfi olan dinlə münasibətləri isə olduqca diqqətçəkicidir [1, s.327]. Bu isə özünü daha çox islam dini ilə münasibətdə göstərməkdədir. Qloballaşmanın ayrı-ayrı lokal mədəniyyətlərlə, yerli adət-ənənə, milli mentalitet, milli dəyərlərlə münasibətləri haqqında çox danışılsa da, onun dinlə qarşılıqlı münasibətləri çox vaxt diqqətdən kənarda saxlanılır. Qeyd etmək lazımdır ki, qloballaşmanın adət-ənənələrlə, milli dəyərlərlə, mentalitetlərlə uzlaşması, onları nə vaxtsa əridə bilməsi mümkün görünsə də, dinlə, xüsusən də islam dini ilə bağlı çox ciddi problemlərinin olacağı qaçılmazdır. Sosial bir proses olaraq qloballaşmanın islam dininin teoloji sisteminə və ictimai tərəflərinə təsiri, dinin qloballaşmaya qarşı müqaviməti və birbaşa qlobal bir ünsür olaraq, sosial həyatı yenidənqurma təşəbbüsü məsələsi əsas diqqət yetirilən problemlərdən biridir.

İslamla və qloballaşma arasında münasibətlər, əslində, birmənalı deyil. Başqa sözlə, qloballaşmanın hakim, dinin (istər islam, istərsə də digər dini dünyagörüşləri olsun) isə məhkum olduğu qənaətlər doğru deyil. Digər tərəfdən, qloballaşmanın, xüsusilə, ənənəvi cəmiyyətlərdə əsaslı ziddiyyətlər yaratdığı da doğrudur. Bu isə bir istiqamətli proses hesab edilə bilməz; qloballaşma bir tərəfdən ənənəvi mədəni quruluş və fərdi kimlikləri dəyişdirir, digər tərəfdən də bəzi lokal kimliklərin yenidən formalaşdırılmasına təsir edir. Ümumiyyətlə, din qlobal sistemin inkişafında və ya onun cəmiyyətdən kənarlaşdırılmasında mühüm rol oynamaqdadır. Modernizm və qloballaşmanın islama müsbət və eyni zamanda da mənfi təsirləri olduğu məlumdur. Modernizm öncəsi cəmiyyətlərdə islam iqtisadi, sosial, siyasi və elmi sferaları əhatə edirdisə, modern cəmiyyətlərdə din marginallaşdırılmışdır. Bu sferaların qloballaşması ilə birlikdə islamın sosial sferadakı təsiri zəifləmişdir. Lakin bu proseslərə xristianlığın cavabı fərqli olmuş, öz-özünü funksional alt sistem halına gətirərək bu prosesə müsbət cavab verməyə çalışılmışdır [2, s.82].

Orta çağlardan üzübəri müsəlman ölkələrində dini modernizm prosesi qismən də olsa, həyata keçirilsə də, daha cox da türk-müsəman mədəniyyətində özünü göstərsə də, bu proses başlıca olaraq, 19-cu yüzilliyin sonlarında başlanmışdır. Dini və ictimai-siyasi modernizmin ilk görüntüləri məhz həmin dövrdən oyanmağa başlamışdır. Dini modernizmin iki qolu olmuşdur. Bunlardan biri İslamın əsaslarını danmış bəhailər, digərləri isə C. Əfqani, M. Əbduh, Ə. Ağaoğlu, Ə. Hüseynzadə

kimi dinin əsaslarını danmayaraq, onlara yeni yozum verən, onları çağdaş zamana uyğunlaşdırmaq istəyən filosofların ideyaları daha əhəmiyyətli olmuşdur [3, s.102].

Onlar da katolik modernistləri kimi dinə rasionalizm baxımından yanaşmış, Quranda elmi dəyərlərin daha çox olduğu ideyasından çıxış etmişlər. Onlara görə, müsəlmanların geridə qalmasının səbəbi ilkin İslam dəyərlərindən uzaqlaşmaları olmuşdur. Buna görə də islami tərəqqidə əsas vəzifə o çağların dininə qayıtmaq, gerçək islamı əlavələrdən təmizləmək lazımdır. İslam islahatçıları İslamda ruhaniliyə qarşı çıxış etmiş, siyasi müstəvidə parlamentarizmin və respublikaçılığın tərəfdarı olmuşlar. İslahatçılara görə, dinin təməli yalnız Quranda, onun çağdaş ruhda yozumundadır. Dini yenidənqurmaçılara görə İslam liberalizmə qarşı deyil, onun əsasında azadlıq ideyası durur. İslam çevrəsində dini modernizmlə yanaşı, başqa sahələrdə də yeniləşmə prosesləri gedirdi. Bu proseslər daha çox müsəlman dünyasının başqa mədəniyyətlərlə (xüsusən də, Avropa mədəniyyəti) münasibətlərdə özünü göstərirdi. Çünki bu bölgələr inkişaf etmiş ölkələrlə ayaqlaşmağa məcburdur. Hər şeydən öncə, getdikcə yaşam tərzində dinin və ənənələrin payının azalmasına yönələn yeni mühitin formalaşması görüntüyə gəlməyə başladı [4, s.145].

Bütövlükdə isə, müsəlman dünyasında modernizm və postmodernizm prosesləri özünü yetərincə göstərə bilməmişdir və bu günə gədər də buna doğru olan canatmalar olsa da, onlar dərinləşməmişdir. Bu da bütün sahələrdə müsəlman cəmiyyətlərini dünyanın başqa yerlərinə nisbətən geridə qoyur. Bundan başqa, müsəlman dünyasında modernizmə qarşı etirazlar, dirənişlər çox güclüdür. Buna qarşı milli ənənələr və dini təməlçilər durur.

Qeyd etmək lazımdır ki, postmodernizm aləmdə sonra nə baş verə biləcək məsələləri axtarmaq, gələcək mədəniyyətin yeni mənasını və prinsiplərini müəyyənləşdirmək problemləri ilə də məşğul olur. Postmodernist situasiya özünün və başqalarının mədəni dəyərlərini görmək və onlara malik olmağın yeni təcrübəsini irəli sürür, müxtəlif mədəniyyətlərin inteqrasiyasını stimullaşdırır, dünyaya bir bütöv baxışın yaradılmasına kömək edir, ümumi bəşər mədəniyyətinin formalaşmasına imkan yaradır. Postmodernistlər universal ümumbəşəri dəyərlərin mövcudluğunu təkidlə sübut etməyə çalışırlar. İki növ postmodernizm olduğu göstərilir: konstruktiv və dekonstruktiv postmodernizm. Konstruktiv postmodernizm analitik fəlsəfənin irəli sürdüyü dil oyunları konsepsiyası ilə sıx varislik əlaqəsindədir. Modernizmlə birlikdə törəyən ideologiyaların ən böyük yanlışlığı da onların din əxlaqı olmadan da yaşaya biləcəklərini düşünmələridir. Bu isə həddindən çox böyük yanlışlıqdır. Postmodernizm isə, modernizm tərəfindən söhbət açılan dəyər və hədəflərin anlamsızlığını dərk edən, ancaq bu doğru seçimdən kənara çıxaraq heç bir mütləq dəyər və hədəf tapılmadığı kimi səhv bir nəticəyə gələn bir düşüncədir [5, s.290].

Çağdaş postmodernist fikrin öncüllərindən olan Umberto Eko belə hesab edir ki, postmodernizm modernizmdən fərqli olaraq keçmişdən imtina etmir və onu qəbul edir; əgər bu gün baş verən və yaxud sabah baş verə biləcək hər hansı bir hadisəni dəyişdirmək və hətta ləğv etmək olarsa, keçmişi məhv etmək qeyri-mümkündür… Belə olan halda, keçmişi nəzərə almamaq, onun təsir dairəsindən yan keçmək olmur. Keçmiş daim bizim həyatımıza müdaxilə edir, hisslərimizi və düşüncələrimizi istədiyi kimi dəyişdirir. Onun təcavüzündən yaxa qurtarmaq, onu neytrallaşdırmaqdan ötrü ona uyğunlaşmaq, onu özününküləşdirmək lazımdır. Bu yalnız keçmişi eyni zamanda həm inkar, həm təsdiq etmək, ona həm ciddi, həm də qeyri-ciddi münasibət bəsləmək əsasında mümkündür. Keçmişə münasibət istehza əsasında köklənə bilər. İstehzanın postmodernist fəlsəfi-estetik və bədii fikirdə struktur və münasibət formalaşdıran funksiyası bununla izah olunur [3, s.208]. Postmodernizm mübarizədən imtinadır, böhranla barışıqdır. Postmodernistlər insan konsepsiyasının mahiyyətini səciyyələndirərkən belə hesab edirdilər ki, əgər modernizm "Mən"in müstəsna dəyərə malik olması ideyasını bəyan edirdisə, postmodernizm onun parçalanması fikrini ön plana çəkir [6, s.317].

Qocaman Şərq həmişə böyük şəxsiyyətləri ilə zəngin olmuşdur. Onların hikməti, mühakiməsi və fikir dünyası ilə bir neçə nəslin mənəvi inkişafına təkan vermiş, onların yeni ruhda yetişib formalaşmasına kömək etmişdir. Belə şəxsiyyətlərdən biri də müasirlərin "Böyük bir müsəlman" və

yaxud "Böyük bir şərqli", "Müsəlman dünyasının mümtaz siması" adlandırdığı Şeyx Cəmaləddin Əfqani idi. O, keçən əsrin sonlarında islam dəyərlərini, dünya xalqlarının mənəvi zənginliyini, fəlsəfi irsini, tarixini öyrənən və bütün müsəlman Şərqi üçün çıxış yolları axtarmağa çalışan mütəfəkkirdir. O, Şərq və Qərb mədəniyyətlərini mənimsəmiş və özünün fəlsəfi sistemini müəyyənləşdirmişdir. Şeyx Mustafa Əbdulrəzzaq yazır: "Seyid Cəmaləddinin əzəmətindən və böyüklüyündən danışarkən təkçə bunu demək kifayətdir ki, o, yeni Şərq tarixində insanları azadlığa çağıran birinci şəxs idi və bu yolda şəhid də o olmuşdur". C.Əfqani başqa din xadimlərindən fərqli olaraq tərəqqinin,təkamülün əsasını elmdə görür və deyirdi: "Dünyanın sultanı həmişə elm olmuş, elmdir və elm olaraq qalacaqdır. Hələ heç kəs bu sultanı elm sarayından qova bilməmişdir. Dünyanın həqiqi hökmdarı olan elm ancaq vaxtaşırı paytaxtını dəyişmiş, gah Məşriqdən Məqribə, gah da Məqribdən Məşriqə getmişdir" [7, s.98].

Siyasi mühitdə islamın bir dini dəyər olaraq özəlliyi ondadır ki, islam siyasi mühitdə özünü o qədər də sıxılmış vəziyyətdə hiss etmir, əksinə, o özünü daha öyrəncəli şəkildə göstərə bilir. Çünki islam yarandığı ilk gündən etibarən siyasi arenada olmuş və əldə etdiyi nailiyyətlərin bir qismini də dünya tarixindəki siyasi çevikliyinə, aktivliyinə və bir dini dəyər olaraq siyasət meydanındakı aktuallığını qoruyub yaşatması ilə bağlamaq lazımdır [3, s.51]. İslam dini əsaslara istinad etdiyi qədər də, hər zaman mükəmməl siyasi sistemə malik olmuşdur. İslam hərtərəfli (universal) din olub insan fəaliyyətinin bütün – mənəvi, maddi, fərdi, kollektiv, siyasi və dini tərəflərini özündə birləşdirən sistemdir. Bəli, islam mənəviyyat və ibadət dini olduğu kimi, həm də sosial-siyasi dindir. İslamın siyasi tərəfi onun mənəvi tərəfindən ayrı hesab edilməməlidir. İslamın siyasi formatı konkret şəkildə müəyyənləşdirilməsə də, o, ümumi və universal meyarlarla – ədalət, məşvərət, doğruluq əsasında tənzimlənir. Çünki müsəlmanın hər bir əməli, o cümlədən siyasət Allahın razılığını ummaq üçündür.

Dövlətdə demokratik dəyərlər və yaxud cəmiyyətdə demokratik mühit dedikdə dünyəvi ilə dini olanın sərhədlərini müəyyənləşdirmək o qədər də asan məsələ deyildir. Xüsusən də müsəlman ölkələrin də bu vəziyyəti qiymətləndirmək olduqca mürəkkəb bir prosesdir. Əgər bu mövzuda konkret şəxslər qərar verməyə və yaxud da nəticə çıxarmağa cəhd göstərərlərsə, o zaman onların bütün səyləri uğursuzluğa düçar olacaqdır. Çünki belə bir addım yalnış addımdır, burada yalnız cəmiyyətin kollektiv münasibəti, hadisəyə hansı şəkildə yanaşması ilkin şərtdir və bu yanaşma, münasibət forması hər şeyi həll edə bilər. Ə. Ağaoğluya görə, demokratiya hər cür qabiliyyətlərin inkişafına manesiz və asan sahələr açan fərdi hürriyyət təməli üzərində qərarlaşır. Mütəfəkkir özünün "Dövlət və fərd" kitabında opponentlərini tənqid edərkən göstərir ki, onlar hürriyyətə fərdi cəmiyyətdən ayıran bir amil kimi baxır və bu zəmində təfsir edirlər ki, cahanda hər bir millətə haqq və fərdə də hürr azad millət içində iş və vəzifə vermək idealdır. Bu tezisi tənqid edən Ağaoğlu sübuta yetirir ki, əgər bu fikirlə razılaşsaq, onda sanki klassik demokratiyalar bütün dünya içində millətə haqq verməyirlərmiş. Sanki İngiltərə, Fransa, Amerika, İsveçrə, Skandinaviya və s. demokratik dövlətlər cahan içində millətlərini haqdan məhrum edirlərmiş [7, s.193].

Mövcud dinlər arasında islam yeganə dini dünyagörüşüdür ki, burada demokratiya adına yetərincə ənənələri üzə çıxartmaq mümkündür. İslam normaları müsəlman cəmiyyətlərindən yalnız Allaha dualar etmək, Ona inam münasibətini tələb etmir, həm də insanın əhatəsindəki münasibətdə olduğu insanlara münasibətləri də tənzimləyir və islamın bir üstünlüyü də ondadır ki, dinindən, dilindən, irqindən asılı olmayaraq Allahın yaratmış olduğu hər bir kəsə, hətta hər bir canlıya belə məhz Allahın yaratmış olduğu kimi münasibət bəsləsin və ya rəftar etsin. Müasir demokratiya da ilk olaraq hər bir cəmiyyət üzvündən bu dəyərə tapınmağı tövsiyə edir. Fərq yalnız bundadır ki, demokratiya bu yaşam qaydalarını tövsiyə edir, islam isə tələb edir, yəni demokratik mühitin formalaşmasında islam daha çox israrlıdır.

İslamda demokratik dəyərlərin fərqli xüsusiyyətlərindən biri də budur ki, o müsəlman cəmiyyətlərindən fərdi məsuliyyətlə yanaşı, kollektiv yaşamı tələb edir. "Xeyriyyəçiliyin" təbliği buna ən gözəl nümunədir. Xeyriyyəçiliyin özünəməxsusluğundan biri də onun məcburi deyil,

könüllülük şəraitində həyata keçirilməsidir. Sosial münasibətlərin qüvvətləndirilməsində bu ənənənin çox böyük rolu vardır. Bu cəmiyyətdə sosial məsuliyyətin mövcudluğundan xəbər verir. Prinsip etibarilə islam hər şeydən əvvəl pozitiv məzmuna malik olmuşdur. Və islam ənənələri heç vaxt demokratik prinsiplərə zidd durumunda olmamış, onun tərəfindən demokratik institutlarla heç bir halda münasibətlər münaqişə həddinə qaldırılmamış, əgər belə bir hal müşahidə edilibsə bu ayrı-ayrı subyektlərin süni şəkildə yaratmış olduqları məqamlarda görüntüyə gəlmişdir. Demokratiyanın əsas prinsipləri müasir demokratik cəmiyyətlərdən (dövlətlərdən) öncə İslamda qurulmuşdu. Sünnə müsəlman cəmiyyətlərinin hər hansı bir probleminin həllində və yaxud hər hansə bir məsələnin müzakirəsi zamanı son olaraq çıxarılacaq qərarlarda "ümumi icma rəyi" kontekstində nəzərdən keçirilmişdir. Məhz bu mexanizm "ictimai"nin (çoxluğun) qərarlarına hörmətin bariz nümunəsidir. Bugünkü "azad seçkilər" anlayışı həmin islam prinsiplərindən soraq verir və demokratiya modelini özündə əks etdirir [3, s.87].

**Nəticə.** Demokratiya ilə İslamı müqayisə edərkən onu qeyd etmək olar ki, demokratiya daim formasını dəyişən və inkişaf edən bir sistemdir, İslam isə davamlı olaraq güclü sistem təqdim edən və zəngin dünyagörüşə malik məntiqli bir dindir. Baxmayaraq ki, onun əsas ehkamları islama inanan müəyyən etnik və mədəni mühitlərin mövcudluğunda mütləq həqiqət kimi istənilən ictimai-siyasi sistemlərdə dəyişməz qalır. Lakin bu o demək deyildir ki, İslam demokratik dəyərlərə mane olan donmuş ehkamdır. XXI yüzilliyin başlanğıcında qlobal miqyasın gözlənilməz dəyişiklikləri İslam dünyagörüşünə, bütövlükdə ideya-siyasi mühitinə yeni yanaşmalar tələb edir ki, bu da müasir dünyanın həll etmək istədiyi əsas məsələlərdən biridir.

Öz mütərəqqi xarakteri ilə fərqlənən islam dini, müsəlman etnoslarını depressiyadan çıxardı, siyasi qarşıdurmalara son qoydu, böyük yürüşlərə sövq edərək, sürətli mədəni tərəqqiyə təkan verdi. Bu dövr tarixi yaddaşımıza ən möhtəşəm dövrlərdən biri kimi həkk olunmuşdur. Məqalədə qeyd olunur ki, elmi din olan islam dini gerçəkliyin hadisələrinə metodoloji münasibət baxımından elmi konsepsiyalarla da çox zaman çulğalaşır, əməkdaşlıq və tərəfdaşlıq prinsiplərini rəhbər tutaraq həlli qeyri-mümkün olan bir sıra mürəkkəb problemlərin mahiyyətini aydınlaşdırmağa nail olmuşdur. Bu tədqiqat işində nə qədər mürəkkəb olsa da, "İslam və demokratiya mövzusu" müasirliyin yeni fəlsəfi yanaşma tərzi olaraq elmi-nəzəri aspekdə araşdırılmışdır.

Məqalədən fəlsəfə tarixi, din tarixi ilə məşğul olan mütəxəssislər, ali məktəblərin bakalavr və magistr pilləsində təhsil alan tələbələr istifadə edə bilərlər. Təqdim olunan məqalədən fəlsəfə tarixinə və din tarixinə dair dərslik, dərs vəsaitləri və proqramların hazırlanmasında elmi mənbə kimi istifadə oluna bilər.

## ƏDƏBİYYAT

1. Деррида, Ж. Письмо и различие / Пер. с фр. Д. Кралечкина. М.: Академический проект, 2007, 495 с.
2. Делёз Ж., Гваттари Ф. Анти-Эдип / Пер. с фр. и послесл. Д. Кралечкина, науч. ред. В.Кузнецов. Екатеринбург: У-Фактория, 2007, 672 с.
3. Qocatürk N. İslam mədəniyyətində sufizm. Bakı: Elm və təhsil, 2010, 152 s.
4. Ильин И. Постструктурализм, деконструктивизм, постмодернизм. М.: Интрада, 1996, 252 с.
5. Фуко М. Слова и вещи. Археология гуманитарных наук / Пер. с фр. В. П. Визгина и Н. С. Автономовой. СПб.: A-cad, 1994, 408 с.
6. Эко У. Отсутствующая структура. М.: ТОО ТК Петрополис , 1998, 432 с
7. Qurbanov Ş. Cəmaləddin Əfqani və türk dünyası. Bakı: Azərnəşr, 1996, 220 s.

**РЕЗЮМЕ**
**ТЕМА ИСЛАМА И ДЕМОКРАТИИ В УСЛОВИЯХ ПОСТМОДЕРНА**
***Сулейманов Н.С.***

***Ключевые слова:*** *постмодернизм, модернизм, ислам, демократия, постструктурализм, конструкция, деконструкция, история.*

Постмодернизм относится к культурно-интеллектуальному феномену. Первый феномен связан с отказом от «фундаментализма», а именно, от научной философии, подтверждающей происхождение знаний на основе сопровождающих его фактов. Второй феномен связан с расщеплением всех знаний, вкусов и идей, и подразумевает интерес не к универсальным, а к локальным секторам. Третий феномен связан с вытеснением книги со стороны телевидения, и с переходом от слова к образу, от логики к представлению. Многие исследователи постмодернизма полагают, что эта тенденция впервые появилась в области художественной культуры и впоследствии распространилась на другие области искусства. Постмодернистские идеи, призывавшие к отказу от трансцендентальных идеалов к демократизации культуры и свержению высших ценностей, в свое время привлекли создателей модернистского искусства и стимулировали поиски новых ходов в художественном творчестве. По мнению одного из создателей постмодернизма М. Хайдеггера, падение высших ценностей произошло в результате возникновения разрушительных слепых страстей и мании обновления. Эта ситуация возникла в связи с необходимостью избавить мир от переходного состояния.

**SUMMARY**
**THE TOPIC OF ISLAM AND DEMOCRACY IN POSTMODERN ENVIRONMENT**
***Suleymanov N.S.***

***Key words:*** *postmodernism, modernism, Islam, democracy, post-structuralism, construction, deconstruction, history.*

Postmodernism is a cultural and intellectual phenomenon. Firstly, the phenomenon is connected with the rejection of “fundamentalism”, i.e. the scientific philosophy which confirms that the knowledge derives from the facts that accompany it. Secondly, the phenomenon is related to the separation of all knowledge, tastes, and ideas, and implies the interest to non-universal, but rather local areas. Thirdly, the phenomenon is connected with the replacement of the book by the TV, and transition from word to image, from logic to performance. Many postmodernism researchers suggest that this tendency has occurred for the first time in the area of artistic culture, and has further spread into other areas of art. Postmodernist ideas which were calling to refuse the transcedental ideals, democratization of culture and the overthrow of the highest values, at the time attracted the creators of modern art and stimulated the search for new courses in art.According to one of the founders of postmodernism, M. Heidegger, the fall of the highest values occurred as a result of the ravages of blind passions and delusions of renovation. This situation has arisen due to the need to rid the world of the transition state.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 14.09.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 94/99(09)**

# TÜRK XALQLARININ MƏDƏNİYYƏTİ (1946-1960-cı illər)

[1]**MƏHƏRRƏMOVA SONA SABƏDDİN qızı**
[2]**MƏMMƏDOV ƏNVƏR FƏTTAH oğlu**
*Sumqayıt Dövlət Universiteti, 1,2-dosent*
ttm.17@mail.ru

***Açar sözlər:*** *türk xalqları, mədəniyyət, müharibədən sonra, inkişaf, elm-təhsil*

Dünya xalqlarının mədəniyyəti tarixən bir-birindən təcriddə deyil, əksinə qarşılıqlı təsir dairəsində inkişaf etmiş, yüksək mənəvi dəyərlər qazanmışdır. Şərti də olsa, dünya mədəniyyətinin iki qütbü kimi səciyyələndirilən Şərq və Qərb mədəniyyətləri bir-birinə bağlılıq və təsir nəticəsində müasir sivil mərhələyə yetişə bilmişdir. Hər bir xalqın mədəniyyəti həmin xalqın yaşadığı ərazi, bölgə, mühit və s. amillərlə bağlı olsa da, onun dünya mədəniyyətinin inkişaf xətti ilə əlaqə və yaxınlığı şəksizdir. Türk xalqlarının mədəniyyəti də bu mənada dünya mədəniyyəti və ədəbiyyatının ayrıca qolu və mərhələsi olmaqla yanaşı, həm də əsas tərkib hissəsidir.

Türklər dünyanın qədim və qüdrətli xalqlarındandır. Türklər öz tarix və mədəniyyətlərinin qədimliyi, zənginliyi baxımından dünya xalqları arasında böyüklüyünü, aparıcılığını tam şəkildə təsdiqləyə bilmişlər. Türklərin təxminən dörd min il bundan əvvəl Altay-Sayan dağları boyunca yaşamaları tarixi fakt kimi təsdiqlənmişdir. Lakin türklərin tarixinin daha əvvəllərə aid olduğu şəksizdir. Türklərin 2800 il siyasi təşkilatlanma, 2700 il ədəbiyyat, 2500 il yazı tarixinə malik olmaları bu fikrin həqiqiliyinə tam əminlik yaradır.

1941-1945-ci illər müharibəsi SSRİ-də 1710 şəhər və 70 min kəndin dağılması ilə nəticələnmişdi. Bu zaman çoxlu məktəb, kitabxana, teatr, klub və mədəniyyət mərkəzləri dağıdılmışdır. Müharibə mədəniyyət işçiləri üçün də sınaq dövrü olmuşdu. Müharibə mədəniyyətin inkişafını ləngitsə də, onun bəzi istiqamətlərinin, xüsusilə elm sahəsinin müharibənin tələblərinə uyğun olaraq yenidən qurulmasına səbəb olmuşdu.

Müharibədən sonrakı illərdə Sovet rəhbərliyi tərəfindən mədəniyyətin ayrı-ayrı sahələrini əhatə edən geniş tədbirlərni sistemi hazırlanaraq həyata keçirilmişdir. Bu zaman türk xalqlarının mədəni həyatında baş vermiş mühüm hadisələrdən elmin müxtəlif sahələrinin inkişafı məqsədi ilə həyata keçirilmiş tədbirləri qeyd etmək lazımdır. Bu istiqamətdə türk respublikalarında müstəqil Elmlər Akademiyalarının və onların nəzdinə elmi-tədqiqat institutlarının yaradılması tədbiri xüsusilə qeyd olunmalıdır. Belə ki, 1946-cı ilin mayında Qazaxıstan Elmlər Akademiyası açılır. K.İ.Satpayev onun ilk prezidenti olur. Artıq 1950-ci ilin sonuna kimi akademiyanın nəzdində 19 elmi-təqiqat institutu fəaliyyət göstərirdi [7, s.214]. 1957-ci ilin oktyabrın 4-də Qazaxıstan ərazisindəki Baykonur kosmodromundan yerin orbitinə ilk süni peykin çıxarılması bu illərdə elm sahəsində əldə olunmuş ən böyük uğur idi.

Tatarıstanda ayrı-ayrı elm sahələrinin inkişafı 1945-ci ildə SSRİ Elmlər Akaemiyasının Kazan filialının açılması ilə bilavasitə bağlıdır. Nəticədə, 1950-1960-cı illərdə respublikada bir-sıra elmi tədqiqat institutlarının Kazan filialları açılır. Onların içərisində S.İ.Vavilov adına Leninqrad Optik İnstitutunun, Moskva Texnologiya və İstehsalat Elmi-Tədqiqat İnstitutunun, Sintetik-Kauçuk İnstitutunun, Kino-Foto İnstitutunun Kazan şəhərində açılmış filiallarını göstərmək olar. Artıq 1965-ci ildə respublikadakı 51 elmi-tədqiqat müəssisəsində 3,7 min elmi işçi çalışırdı. 1951-65-ci illərdə tatar əhalisi arasında elmi işçilərin sayı 65% artmışdı [9, s.277].

1940-cı ildə təşkil olunmuş SSRİ Elmlər Akademiyasının Türkmənistan filialının bazası əsasında 1951-ci ildə Türkmənistan Elmlər Akademiyası təşkil olunur. Akademiyanın elmi-tədqiqat institutlarında 1950-ci ildə 656 elmi işçi çalışırdısa, 1955-ci ildə onların sayı 1178 nəfərə çatır ki, onlardan 32-i elmlər doktoru, 294-ü elmlər namizədi idi [5, s.467-468].

1954-cü ilin avqustun 17-də təşkil olunmuş SSRİ Elmlər Akademiyasının Qırğızıstan filialı Qırğızıstan SSR Elmlər Akademiyasına çevrilir [13, s.20]. Qeyd etmək lazımdır ki, Özbəkistan Elmlər Akademiyası hələ müharibə illərində - 1943-cü ildə təşkil olunmuşdu.

Müharibədən sonrakı illərdə SSRİ-də təhsilin inkişafı məqsədilə həyata keçirilmiş tədbirlər ittifaq miqyasında, o cümlədən də türk respublikalarında təhsil sahəsində müsbət dəyişikliklərə səbəb olur.

XX əsrin 50-ci illərin sonu-60-cı illərin əvvəllərində Qazaxıstanda təhsil sahəsində həyata keçirilirmiş islahatlarla əvvəlki 7 və 10 illik təhsilin əvəzində məcburi 8 illik təhsil sistemi tətbiq olunur. Səkkiz iliik məcburi təhsildən sonra məzunlar 3 il təhsilini davam etdirməklə eyni zamanda kənd təsərrüfatında, ya da zavodlarda işləməli və yaxud da istehsalatda çalışmaqla orta politexnik məktəblərində oxumalı idilər. Qazaxıstanda təhsil sahəsində aparılan islahatlar 1963-cü ildə başa çatır [13, s.323].

Qazaxıstanda ali təhsilin inkişafında həmin müəssisələrin fəaliyyətinə rəhbərlik etmək məqsədilə 1959-cu ildə təşkil olunmuş Dövlət Komitəsinin xüsusi rolu olmuşdur. Nəticədə, respublikada ali təhsil müəssisələrinin sayı artaraq 60-cı illərin sonlarına doğru onların sayı 26-ya çatmışdı [3, s.97].

İttifaq miqyasında təhsil sistemində həyata keçirilən islahata əsasən Tatarıstanda da 50-ci illərin sonlarından etibarən əvvəlki 7 və 10 illik təhsilin əvəzinə, məcburi 8 illik təhsil sistemi tətbiq olunurdu. Nəticədə, muxtar respublikada artıq 1960-61-ci tədris ilində 114, 1964-65-ci tədris ilində isə 279 orta təhsil müəssisəsi var idi ki, həmin məktəblərdə 202, 6 min şagird təhsil alırdı [9, s.273].

Müharibədən sonrakı dövrdə Tatarıstanda xüsusi ixtisaslaşmış məktəblər şəbəkəsi genişlənir. 1960-cı ildə Kazan Dövlət Konservatoriyasının nəzdində musiqi məktəbi açılır. İri neft yataqlarının aşkar olunması ilə bağlı olaraq bu sahə üzrə mütəxəssislərə ehtiyacın yaranması səbəbindən Almetyevsk və Leninoqorskda İ.M.Qubkin adına Moskva Neft İnstitutunun təlim-tədris mərkəzləri və Başqırd MSSR-in Neft texnikumunun gecə şöbəsi açılır [6, s.211-213].

Mövcud ali təhsil müəssisələrində yeni fakultələrin açılması ilə ali təhsil şəbəkəsinin genişlənməsi baş verirdi. Artıq 1950-ci illərin sonlarında Tatarıstan MSSR hər 10 min nəfərə düşən tələbənin sayına görə dünyanın AFR, Fransa kimi qabaqcıl kapitalist ölkələrini geridə qoysa da (AFR-də hər 10 min nəfərə 24, Fransada 34 tələbə düşürdüsə, Tatarıstanda bu rəqəm 113-ə bərabər idi), onların yalnız 30%-i tatarlar təşkil edirdi. Yalnız 1960-cı illərdən başlayaraq ali məktəblərdə tatar tələbələrin sayı artmağa başlayır [9, s.275].

Müharibədən sonrakı illərdə Özbəkistanda təhsilin durumu ilə bağlı qeyd etmək lazımdır ki, 1950-51-ci illərdə respublikanın təkcə ali məktəblərində 42 min tələbə təhsil alırdı [10, s.50].

Qırğızıstanda 1949-1950-ci illərdə 7 illik, 1957-1958-ci illərdə isə 10 illik məcburi orta təhsil tətbiq olunmuşdu. 1952-ci illərdə respublikadakı 1627 ibtidai 7 illik və orta məktəblərdə 315 min şagird təhsil alırdı. 29 fəhlə gənclər, 176 kənd gənclər məktəbində və 94 xüsusi siniflərdə isə 15 min nəfər təhsil alırdı. Həmin ildə fəaliyyət göstərən 159 uşaq bağçasında 6,4 min uşaq var idi. Müharibə illərində valideyinləri həlak olmuş 6 min uşaq üçün 44 uşaq bağçası açılmışdı. Həmin ildə respublikada 3 sənət, 1 dəmiryol, 1 dağ sənaye məktəbi fəaliyyət göstərirdi. 28 orta ixtisas məktəbində ayrı-ayrı sahələr üzrə mütəxəssislər hazırlanırdı.

Bəhs olunan dövrdə Qırğızıstanda ali təhsil şəbəkəsinin genişləndirilməsi istiqamətində də müəyyən işlər görülmüşdü. Respublikada 50-ci illərin ikinci yarısından etibarən Frunze Politexnik institutu (1954), Bədən Tərbiyəsi və İdman İnstitutu (1955), B.Beyşenaliyev adına Qırğızıstan Dövlət İncəsənət İntitutu açılır [8, s.198-199].

Türkmənistanda 1950-51-ci illərdə məcburi 7 illik təhsilə keçid başa çatdırılır. 1955-1956-cı illərdə respublikada artıq 1184 məktəb var idi ki, onlardan 312-i ibtidai, 608-i yeddi illik, 264-ü orta təhsil məktəbi idi. Bu məktəblərdə 13295 müəllim dərs deməklə 224721 şagird təhsil alırdı. Bundan əlavə həmin illərdə buradakı 94 fəhlə və kəndli gənclər məktəblərində 7237 nəfər təhsil alırdı [5, s.466].

1950-ci ildə Aşqabadda M.Qorki adına Türkmənistan Dövlət Universiteti açılır, sonrakı illərdə 3 pedaqoji institut, kənd təsərrüfatı və tibb institutları fəaliyyətə başlamışdı [5, s.467-468].

Müharibədən sonrakı dövr türk xalqlarının ədəbiyyatının inkişafında yeni mərhələnin başlanması ilə xarakterikdir. Həmin vaxtı sovet adamlarının müharibə illərindəki fədakarlığı, qələbənin əldə olunmasındakı rolu, eləcə də zəhmətkeşlərin sosializm quruculuğu sahəsindəki qəhrəmanlığının tərənnümü ədəbi yaradıcılıqda başlıca mövzularını təşkil edirdi.

Həmin vaxtı qazax ədəbiyyatının bir-sıra parlaq əsərləri meydana gəlir. S.Mukanovun "Sırdərya", Q.Mustafinin "Milyonçu". İ.Şuxov və T.Jarkovanın yaradıcılığı bu dövrdə parlayır. Qazax ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan M.Auzzov 1947-ci ildə "Abay" romanının ikinci kitabını başa çatdırır. Onun bu kitabı 1949-cu ildə SSRİ Dövlət Mükafatına, 1959-cu ildə isə Lenin mükafatına layiq görülür [7, s.214].

Ədəbiyyat sahəsində bir sıra qazax ədibləri də yüksək dövlət mükafatlarına layiq görülürlər. Onlardan Nurpeisovun "Qan və tər" və J.Moldaqaliyevin əsərinin ali dövlət mükafatlarına layiq görülməsini qeyd etmək olar. Qazax ədiblərindən İ.Esenberlin, A.Alimjanovun, S.Markovun, D.Sneqinin, M.Simaşkonun, istedadlı şairlərdən Q.Kayırbekovun, S.Maulenovun, A.Tajibayevin, K.Mırzaliyevin və başqalarının yaradıcılığı bu dövrə təsadüf edir [13, s.325].

Bu dövrdə tatar ədiblərindən İ.Qazinin "Unudulmaz illər" A.Yenikinin "Sağ olun yoldaşlar", F.Hüsninin "Ulduzlar üzərində məhəbbət", T.Tuxvatullinanın "Mənim həmkəndlim Nəbi", S.Battalın "Yol boyu" əsərləri meydana gəlmişdi. Q.Bəşirovun kollektivləşməyə həsr olunmuş "Namus" romanı 1951-ci ildə Stalin Dövlət mükafatına layiq görülmüşdü [6, s.282].

Müharibədən sonrakı illərdə özbək ədəbiyyatı və incəsənəti yeni inkişaf yoluna qədəm qoyur. 50-ci illər özbək ədəbiyyatının inkişafında A.Muxtar, X.Qulam, M.İsmaili, N.Səfərov, Mirmöhsün, S.Əhməd, R.Feyzi, S.Zunnunovun xüsusi xidmətləri olmuşur. Həmin vaxtı meydana gələn ədəbi nümunələrdən A.Kaxxarın "Müəllim", "Səmimi məhəbbət", M.İsmayıllının "Uluqbəyin xəzinəsi", X.Qulamın "Novruz" kimi romanlarını qeyd etmək olar [11, s.51].

Bu dövr türkmən ədəbiyyatının görkəmli nümayəndələrinin sırasında əsərlərində sovet xalqlarının dostluğunu tərənnüm edən X.İsmayılovun "İnadkar", "İki oğul atası" (1947) B.Kerbabayevin "Ağ qızıl ölkəsindən Aysoltan" (1949), A.Kauşutovun "Kopetdağın ətəklərində" (1951) romanları, B.Seytakovun "Moskvanın işıqları", "Müasirlər", K.Qurbansatovun adlarını çəkmək olar. A.Kekilov, Ç.Aşırov, P.Nurberdiyev, R.Səidov, K.Seytiyev, Ata-Atacanov, M.Səidov, K.Qurbannəfəsov, A.Xaidov kimi türkmən ədəbiyyatının nümayəndələrinin də yaradıcılığı müharibədən sonrakı ilk onilliklərə təsadüf edir. Q.Muxtarovun "Allanın ailəsi", "Murqabanın sahillərində" (1948), S.Seytliyevın "Cahan", onun Q.Muxtarovla birlikdə yazdığı "Çobanın oğlu" (1950), K.Kaqrliyevin "Başlıq" pyeslərində sovet adamlarının yaradıcı əməyindən bəhs olunurdu [1, s.470].

Müharibədən sonrakı dövr qırğız ədəbiyyatının görkəmli nümayəndələri Ç.Aytmatov, şairlərdən S.Yarəliyev, S.Jusuyev, R.Rıskulov, T.Kojomberdıyev, J.Mamıtov, B.Sarnoqoyev, O.Sultanov və b. idilər [8, 206].

Krım tatar ədəbiyyatının nümayəndələri həmin illərdə sürgün həyatı yaşadıqlarına görə Özbəkistan və Qazaxıstanda yaşayıb-yaratmaq məcburiyyətində qalmışdılar. Onlardan Krım tatar ədəbiyyatşünası, publisisti Ə.A.Şəmizadə Özbəkistanın əməkdar mədəniyyət xadimi idi. 1965-ci ildə o, "Qaval" pyesini yazmışdır. Krım tatarlarının nümayəndəsi şair, ictimai xadim Şamil Ələddin dünyanın bir çox dillərinə tərcümə olunmuş 70-dən yuxarı əsərin müəllifidir.

Bəhs olunan dövrdə mədəniyyət, xüsusilə də ədəbiyyat üzərində xüsusi ideoloji senzuranın olduğunu da qeyd etmək lazımdır. Bir-çox türk ziyalıları millətçilikdə, "sosializmə zərərli baxışlar"a malik olmaqda ittiham edilərək təqib və təzyiqlərə məruz qalmışdılar ki, bu da mədəniyyətə özünün mənfi təsirini göstərməyə bilməzdi.

Bu dövrdə qazax tarixçi-alimi E.Bekmexanova qarşı saxta iş açılmışdı. 1943-cü ildə "Qazaxıstan SSR-in tarixi", 1947-ci ildə isə "Qazaxıstan XIX əsrin 20-40-cı illərində" əsərlərini yazmış tarixçi-alim millətçilikdə və sosializmə zərərli baxışlara malik olmaqda ittiham edilərək 25 illiyə həbsə məhkum olunmuş, yalnız 1953-cü ildə Stalinin ölümündən sonra o Qazaxıstana qayıda bilmişdi. Həmin vaxtı qazax alimlərindən A.Jubanov, X.Jumaliyev, B.Süleymenov, yazıçılardan Y.O.Dombrovski də təqib və təzyiqlərə məruz qalmış, K.İ.Satpayev, M.O.Auzzov isə təqiblər səbəbindən respublikanı tərk etmək məcburiyyətində qalmışdılar [7, s.214-215].

Müharibədən sonrakı dövr ədəbiyyatla yanaşı müsiqinin də inkişaf dövrüdür. 50-60-cı illər qazax musiqisinin inkişafından bəhs edərkən ilk növbədə həmin vaxtı respublikada fəaliyyət göstərən Abay adına Opera və Balet teatrı, Dövlət Filarmoniyası, Xor kapellası, Kurmanqazı adına Akademik xalq alətləri orkestrı, rəqs və mahnı ansamblı, Simfonik orkestr, "Qulder" estrada ansamblının adlarını çəkmək lazımdır. Qazax müğənnilərindən SSRİ xalq artistləri B.Tülenqenova, R.Baqlanova, R.Jamanova, E.Serkebayevin, musiqiçilərdən Nakipbəyova bacıları, A.Musaxodjayeva, Q.Qədirbəyova, dirijor T.Mınbayev və başqalarının adlarını xüsusilə qeyd etmək lazımdır. Opera və balet sahəsində K.Kujamyarov və N.Tlendiyevin "Qızıl dağlar", S.Muxamedjanovun "Aysulu" operaları, Q.Jubanovoyun "Ağ quş haqqında əfsanə" və "Xirosima" baletlərini göstərmək olar [13, s.325]. Müharibədən sonrakı dövr tatar incəsənətinin yeni nümayəndələri meydana gəlir. E.Bəkirin "Altın tarak", "Tukay", X.Valiullinin "Samat" romansları bu dövr tatar incəsənətinin nümunələridir [6, s.221].

Türkmənistanın musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan bəstəkarlardan 1950-ci ildə təsdiq olunmuş Türkmənistan SSR-in himninin müsiqisinin müəllifi V.Muxatovu, A.Quliyevi, S.N.Vasilenkonu, B.S.Şexteri və başqalarını göstərmək olar [5, s.473-474].

Türk xalqlarının kino və teatr sahəsi ilə bağlı da xeyli işlər görülmüşdü. XX əsrin 50-60-cı illərində Qazaxıstanda Qazax və Rus Dram teatrları, Uyqur müsiqili komediya teatrı, Koreya musiqili dram teatrı, kukla teatrı, Jambul, Karaqanda, Arkalık, Qızıl-Orda, Taldı-Kurqan, Petropavlovsk, Uralsk, Çimkent, Semipalatinsk, Selinoqrad, Ust Kamenoqorsk və başqa yerlərdə əyalət qazax və rus teatrları fəaliyyət göstərirdi. Respublikada K.Bayseitov, A.Moldabekov, A.Umirzakov, A.Aşimov, T.Jalıbayev və başqa məhşur səhnə ustaları var idi. Bu illər kinematoqrafiyanın çiçəklənməsi dövrü idi. Qazaxıstan SSR-də 1955-1979-cu illərdə 70-dən artıq film çəkilmişi. Onlardan Ş.Aymanovun "Bizim əziz həkimimiz", A.Karpovun "Ana haqqına nağıl" filmlərini göstyərmək olar [13, s.311]. 1961-ci ildən etibarən Tatarıstan Muxtar Respublikasında fəaliyyət göstərən kinoxronika studiyası ildə 15 bədii filmi tatar dilinə çevirir, 6 sənədli film istehsal edir, 36 jurnal buraxırdı [2, s.128].

Özbək səhnə ustalarından A.Hidoyatova, Ş.Burxanova, S.Kabulova, A.Xojayeva, Tamara xanım, N.Rəhimova bu dövrdə fəaliyyət göstərmişdilər [11, s.51].

Bu dövr türkmən mədəniyyətinin ən gözəl nümunələri arasında İ.İ.Çerinkonun "İgidlər" (1946), Y.P.Daneşvarın, A.Quliyevin, E.M.Adamovanın rəsm sənət əsərlərini qeyd etmək olar [1, s.211].

XX əsrin 40-50-ci illərində Türkmənistanda "Sovet Türkmənistanı" (1947), "Uzaq gəlin" (1948-ci ildə çəkilmiş bu film 1949-cu ildə Stalin mükafatına layiq görülmüşdü), "Çobanın oğlu" (1954), "Qoca Aşırın hiyləsi" (1955) filmləri çəkilmişdi [5, s.473-474].

1958-ci ildə Moskvada keçirilmiş Qırğız mədəniyyəti və ədəbiyyatının ikinci dekadasının nəticələrinə əsasən Qırğız opera və balet teatrına Akademik teatr dərəcəsinin, Qırğız Dövlət Dram teatrının Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunması, qırğız sənət ustalarından N.Rıskulova, B.Beyşenəliyevaya və S.Kiyizbayevaya SSRİ xalq artisti fəxri adının verilməsi respublikada teatr sənətinin inkişaf səviyyəsindən xəbər verir [12, s. 311].

1943-cü ildə təşkil olunmuş Qırğız xroniki film studiyası 1956-cı ildə sənədli-bədii film studiyasına çevrilməklə 1961-cı ildən etibarən Qırğızfilm kinostudiyası adlanmağa başlayır. Bu studiyanın ilk filmləri "Səltənət" (1955), "Mənim səhvim" (1957) olmuşdur. Burada Ç.Aytmatovun əsərləri əsasında 1961-ci ildə "Aşırım", 1962-ci ildə "Znoy", 1965-ci ildə isə "İlk müəllim" filmləri çəkilmişdir [12, s.314].

Həmin vaxtı Qırğızıstanda 61 mədəniyyət evi, 63 şəhər klubu, 525 kənd klubu, 470 oxu zalı, 1000-dən yuxarı kitabxana fəaliyyət göstərirdi. Frunzedəki N.Q.Çernışevski adına dövlət kitabxanasının fondunda 520 mindən artıq kitab saxlanılırdı. 1952-ci ildə respublikada 5 mərkəzi, 10 əyalət, 72 şəhər və rayon qəzeti nəşr olunurdu. Onlardan 54-ü qırğız, 1-i özbək, 17-i rus dilində çıxırdı [13, s.20]. Qırğızıstanda 1949-cu ildə Oş tarix muzeyi, 1957-ci ildə Prjevalsk muzeyi, 1960-cı ildə Prjevalsk Diyarşünaslıq muzeyi açılır.

Müharibədən sonrakı dövrdə Türkmənistanda yetim uşaqlar üçün 24 uşaq evi açılmışdı ki, burada 2076 uşaq var idi. Respublikada kor və lal, eləcə də sağlamlığı zəif olan uşaqlar üçün xüsusi

məktəb fəaliyyət göstərirdi. Burada B.M.Molotov adına respublka pioner sarayı, respublikanın rayon və vilayətlərində 51 pioner evi, 12 uşaq idman, 6 uşaq texniki məktəbi var idi. 1955-ci ildə respublikada 3615,7 min kitab fondu olan 1181 kitabxana fəaliyyət göstərirdi. Buradakı 37 xüsusi ixtisas məktəblərində 12460 nəfər oxuyurdu [5, s.466].

Aparılmış araşdırmadan belə bir nəticəyə gəlmək olar ki, 1946-1960-cı illərdə türk xalqlarının mədəniyyətinin ayrı-ayrı sahələrində nəzərə çarpacaq dərəcədə inkişaf baş vermişdi. Doğrudur, 1946-1960-cı illərdə meydana gələn əsərlərdə daha çox xalqlar dostluğu, zəhmətkeşlərin sosializm quruculuğu istiqamətindəki qəhrəmanlıqları vəsf olunur və bu mədəniyyətin inkişafı mövcud ideoloji yanaşma ilə çərçivələnmişdi. Məqalədəki faktiki materialdan Türk xalqları tarixinin araşdırılan dövrü ilə bağlı tədqiqatlar zamanı, mühazirə materiallarının hazırlanmasında və s. istifadə edilə bilər.

## ƏDƏBİYYAT


1. Антология Туркменской поэззии. М.: Гослитиздат, 1949, 470 с.
2. Арсланов М.Г. Татарское режиссерское искусство (1941 – 1956 гг.). Казань: ИЯЛИ, 1996, 224 с.
3. Артыкбаев Ж.О. История Казахстана (90 вопросов и ответов). Астана: Алтын китап, 2004, 159 с.
4. Ахмедов Э., Саидаминова 3. Республика Узбекистан. Краткий справочник. Ташкент: Узбекистон, 1998.
5. Большая советская энциклопедия. Т. 42. М., 1950.
6. Искусство Татарстана: пути становления / сост. Д.К. Валеева. Казань: ИЯЛИ АН РТ, 1985, 165 с.
7. История Казахстана. Алматы: Алматыкитап баспасы, 2011, 312 с.
8. История Отечества. Бишкек: Учкун, 2009. 344 с.
9. История Татарстана и татарского народа. 1917–2013 гг., Казань, 2014.
10. История Узбекистана. Ташкент: Университет, 2004.
11. Абраров С.А. История Узбекистана: Учебное пособие. Часть II. Ташкент: ГТУ, 2007, 108 с.
12. Кыргызстан за 40 лет Советской власти. Сб. статей. Фрунзе, 1957.
13. Кузембайулы А., Абиль Е. История Казахстана: Учебник для вузов. 8-е изд. Костанай: Костанайский региональный институт исторических исследований, 2006. 350 с.
14. Материалы по истории и истории науки и культуры народов Средней Азии / Под ред. П.Г. Булгакова, У.И. Каримова. Ташкент: Фан, 1991, 337с.



**РЕЗЮМЕ**

**КУЛЬТУРА ТЮРКСКИХ НАРОДОВ (1946-1960-е годы)**

***Магеррамова С.С., Маммадов А.Ф.***

***Ключевые слова:*** *тюркские народы, культура, послевоенный, развитие, научно-образовательный*

В течение исследуемого периода культура тюркских народов развивалась в соответствии с советской идеологией. Так, были созданы новые образцы культуры тюркских народов, сформирована новая социальная прослойка из образованной и интеллектуальной интеллигенции.



**SUMMARY**

**THE CULTURE OF THE TURKISH PEOPLE (1946-1960)**

***Maharramova S.S., Mammadov A.F.***

***Key words:*** *Turkish people, culture, after war, development, science-education*

The culture of the Turkish people developed according to Soviet ideology during the exploring period. So that, new samples of culture were created, a new educated and intellectual layer of intelligentsia of the Turkish people was formed.



Daxilolma tarixi: İlkin variant 05.12.2018
Son variant 17.12.2018

UOT 177.9

# AZƏRBAYCAN TOLERANT VƏ MULTİKULTURAL ƏNƏNƏLƏR ÖLKƏSİ KİMİ

[1]QULİYEV ƏDALƏT FİRİDUN oğlu
[2]SƏMƏDOV YAQUB ABBASQULU oğlu
*1-Azərbaycan Dövlət Pedaqoji Universiteti, baş müəllim,*
*2-Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ağcabədi filialı, dosent*
quliyevedalet62@gmail.com

***Açar sözlər***: *milli mənsubiyyət, etnomədəni, multikultural, dəyərlər, dözümlülük, etnoqrafik, mədəni bərabərlik*

Xalqımızda yüksək, ülvi və humanist mənəvi dəyərlərin olması ölkəmizin tolerant və multikultural ənənələr məkanı kimi formalaşmasına səbəb olmuşdur. Azərbaycan müxtəlif xalqların və etnik birliklərin yaşadığı bir məkandır. Tarixən ölkəmizdə müxtəlif xalqlar və etnik birliklər heç bir təzyiqə məruz qalmadan sərbəst yaşamış, fəaliyyət göstərmiş, hal-hazırda bu ənənəyə yenə də davam edirlər. Həmçinin tarix boyu müxtəlif dinə etiqad edənlər də tolerant şəkildə öz dini ayinlərini icra etmişlər, yenə də icra edirlər. Ölkəmizdə müxtəlif dinə sitayiş edənlər üçün heç bir maneə yaradılmamışdır. Əksinə, müxtəlif dinə aid yeni ibadət evləri tikilmiş, qədim dövrlərə aid olan ibadət yerlərində isə yenidənqurma və bərpa işləri aparılmışdır. Multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilib. Bununla bağlı "Bərabərlik hüququ" (maddə 25, bənd 3), "Milli mənsubiyyət hüququ" (maddə 44, bəndlər 1,2) və başqa maddələri göstərmək olar.

Tarix boyu ölkəmizdə islam, xristian, yəhudilik, zərdüstlük, hinduizm dininə məxsus insanlar birgə sülh və əmin-amanlıq şəraitində yaşayıblar və bu gün də həmin ənənə uğurla davam etdirilir.

Qeyd etmək lazımdır ki, ilk dəfə olaraq 1971-ci ildə Kanada öz daxilindəki etnomədəni müxtəlifliyi qorumaq və uğurla idarə etmək məqsədilə rəsmi şəkildə alternativ bir siyasi xətt elan etdi. Kanada rəsmən "multikulturalizm" siyasətini dövlət siyasəti elan edərək bununla bağlı hüquqi bazanı formalaşdırmağa başladı. Daha sonralar isə Qərb dövlətləri də bu uğurlu siyasət modelini öz ölkələrinə tətbiq etməyə başladılar, lakin bu siyasəti qoruyub saxlamaq üçün qanunvericilik bazası təkmilləşdirilməli və multikulturalizm siyasətinin hüquqi bazası yaradılmalı idi. Buna uyğun olaraq, 1988-ci ildə Kanadada "Multikulturalizm qanunu" qəbul edildi. Azərbaycan Respublikası ərazisində isə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi siyasət nəticəsində mədəni müxtəlifliyini qorumaq üçün milli azlıqlar və dini qruplarla bağlı çoxlu sayda normativ hüquqi aktlar qəbul olundu. Lakin multikulturalizm fəlsəfəsinin əsaslandığı 7 mühim prinsip olmadan etnik müxtəlifliyi multikulturalizm adlandırmaq qeyri-mümkündür. Bu prinsiplər aşağıdakılardır:

1. Etno-mədəni müxtəlifliyin mövcudluğu prinsipi: Bu prinsip bir dövlətin daxilində müxtəlif mədəniyyətin daşıyıcıları olan milli azlıqların və eyni zamanda müxtəlif dini konfessiyaların mövcudluğu mənasını verir. Multikulturalizm siyasətini həyata keçirən dövlətlər bu cür müxtəlifliyi özünə qarşı təhlükə kimi görmür, əksinə, cəmiyyətin zənginliyi kimi qəbul edərək həmin xalqların öz mədəniyyətlərini qorumaları üçün dəstək göstərir.

2. Mədəni indentiklik hüququ: Bu prinsip hər bir kəsin və ya qrupun öz mədəni identikliyini və ya xarakterini qoruyub saxlamaq hüququ olduğunu qeyd edir. Ancaq unutmaq lazım deyil ki, bu, vəzifə yox, sadəcə hüquqdur. Heç bir kəs məcburi şəkildə bir qrupa daxil edilə bilməz və ya hər hansısa bir mədəni qrupa üzvlüyünə görə alçaldıla bilməz.

3. Mədəni bərabərlik və qarşılıqlı dözümlülük prinsipi: Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, bütün etnomədəni qruplar bərabərdir və yalnız qarşılıqlı hörmət və dözümlülük şəraitində

mövcud ola bilər. Etnik mənşə identikliyi vətəndaşlıq identikliyindən sonra gəlməlidir. Beləliklə, iyerarxik ikili identiklik mövcud olur. Buna ən gözəl nümunə kimi Azərbaycan və ya Kanadanı misal göstərmək olar. Bütün milli azlıqlar ilk öncə azərbaycanlıdır, daha sonra ləzgi, avar, tatdır və s.

4. Etnomədəni qruplararası əlaqə prinsipi: Hər bir etnomədəni və dini qrup və ya onun hər bir nümayəndəsi digər qruplarla və ya nümayəndələri ilə təhlükəsiz və sərbəst ünsiyyət qura bilməlidir. Eyni cəmiyyətdə mövcud olan hər bir kəs digər qruplara qarşı açıq fikirli olmalıdır.

5. Bərabər imkanlara sahib olmaq hüququ: Azərbaycan multikulturalizminin ən mühüm özəlliklərindən biri də onun sosial-liberal ikili təbiətə malik olmaqla, ikili fundamental hüququ özündə birləşdirməsidir. Liberal hüquq olan mədəni müxtəliflik hüququnun sosial hüquq olan bərabər imkanlara sahib olma hüququna əsaslanması Azərbaycan cəmiyyətindəki müxtəlifliyi qorumağa və icmalararası sosial ədalətsizliyi aradan qaldırmağa yönəlmişdir.

6. Siyasi idarə prinsipinin mövcudluğu: Multikulturalizm və ya multikultural cəmiyyət özü təkbaşına inkişaf edə bilməz. Bunun üçün siyasi idarəetmə və dövlət dəstəyinin mövcudluğu mütləqdir.

7. Müxtəliflikdə mövcud olan təklik prinsipi: Hər bir milli azlıq və ya etnik qrup öz mədəniyyətinin yalnız ümumi mədəniyyətə ziyan vurmayan hissəsini qoruya bilər. Bəzən bu prinsipə mədəniyyətin selektiv qorunması deyilir [1].

Azərbaycan xalqı birgə yaşayış təcrübəsi və həyat tərzi ilə sübut edir ki, multikulturalizm yaşayır və onun gələcəyi vardır. Bu gün Azərbaycan, doğurdan da, etnoqrafik rəngarəngliyi ilə seçilir. Onun ərazisində türklərlə bərabər, dağ yəhudiləri, tatlar, talışlar, kürdlər, malakanlar, ingiloylar, saxurlar, avarlar, ləzgilər, xınalıqlılar, buduqlular, qrızlar kimi etnik qruplar yaşayır. Həmin etnik qrupların nümayəndələri özlərini azərbaycanlı saysalar da, hər bir qrup özünəməxsus fərqli mədəniyyətin elementlərini qoruyub saxlamışdır. Bu mədəniyyət məişət həyatında, sənətkarlıqda, mətbəxdə və müxtəlif mərasimlərdə öz əksini tapmaqdadır. Rus alim D.B.Donqureyin yazdığı kimi: “mədəniyyət millətin əbədiyaşarlılığının unkal kodu, mentallığı, müstəqilliyi, digər mədəniyyətlərə olan etnoqrafiyasıdır” [3. s.136-137].

Multikulturalizm prosesi zamanı müxtəlif xalqların milli adət-ənənələri birlikdə qarşılıqlı mübadilə şəraitində mövcud olur. Ölkəmizdə yaşayan müxtəlif milli azlıqlara məxsus adət-ənənələr multikultural dəyərlərə söykənməklə uğurlu mədəniyyət siyasəti tərəfindən tənzimlənir. Ulu öndər 1993-cü il 10 oktyabr andiçmə mərasimindəki çıxışında demişdir ki, “Azərbaycan çoxmillətli respublikadır. Bu respublikanın səciyyəvi cəhətidir və bunun böyük tarixi vardır. Respublikamızın bu ictimai siyasi mənzərəsi ilə biz fəxr edirik. Respublikamızda bütün vətəndaşlar dini və milli mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malikdirlər və bundan sonra da bütün vətəndaşların bərabər hüquqla Azərbaycan Respublikasının ictimai siyasi həyatında iştirak etməsi üçün imkanlar yaradılacaqdır”. Ölkəmizdə multikulturalizm artıq alternativ olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının baza nümunəsidir [2].

Ölkəmizdə yeni nəslin azərbaycançılıq ruhunda tərbiyə alması da diqqət mərkəzindədir. Bu baxımdan qədim tarixi keçmişə malik olan milli-mənəvi dəyərlərimizin təbliğ edilməsi də mühüm aktuallıq kəsb edir. Azərbaycançılıq ideyasında polietnik zənginlik, humanist və tolerantlıq dəyərlər ehtiva olunmuşdur. Qədim dövrlərdən başlayaraq Azərbaycan xalqının adət-ənənələri, milli-mənəvi dəyərləri, polietnik zənginliyi özündə cəmləşdirib yaşadan azərbaycançılıq ideyası təşəkkül tapmışdır. Əsrlər boyu Azərbaycan tolerantlıq nümunəsi göstərmişdir. Milli və dini dözümlülük Azərbaycanda hal-hazırda yüksək səviyyədədir. Bütün bu cəhətlər isə zaman-zaman azərbaycançılıq məfkurəsinin əsasını təşkil etmişdir. Azərbaycançılıq ideyasının əsasında Azərbaycan türklərinin ölkə daxilində digər etnik qruplara tolerantlıq münasibəti və sülh, əmin-amanlıq içində yaşamaq istəyi dayanır. Tolerantlıq artıq xalqın milli identikliyinin bir nüansına çevrilmişdir [4]. Xalqımızın ümummilli lideri Heydər Əliyevin söylədiyi, “Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam” ifadəsi də bu gün hər bir ləyaqətli ölkə vətəndaşının həyat düsturuna çevrilib.

BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Azərbaycanda keçirilməsi də (2016-cı il 25-27 aprel) ölkədə multikultural və tolerant mühitin olmasının ən mühim göstəricisidir. Digər tərəfdən Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi Azərbaycanın tolerant və multikultural bir ölkə olmasının ən mühüm göstəricilərindəndir. Heydər Əliyev Fondunun Prenzidenti, Respublikanın Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın da bu sahədən xidmətləri misilsizdir. Hazırda Azərbaycanın 28 nüfuzlu ali təhsil ocaqlarında Azərbaycan multikulturalizmi tədris edilir.

Beləliklə, multikulturalizm yeni bir anlayış olsa da multikultural dəyərlərinin olduqca qədimdir və Azərbaycan bu sahədə çox böyük nailiyyətlərə imza atmışdır.

## ƏDƏBİYYAT


1. Zeylanov M. Multikulturalizm siyasətinin prinsipləri və Azərbaycan, "Respublika" qəz., 10 iyun, 2016
2. Multikultural yazılı abidələrin əlyazmaların tədqiqi məsələlərinə dair elmi-nəzəri Respublika konfransının materialları. Bakı, oktyabr, 2016-cı il.
3. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı : Gənclik, 2017, 204 s.
4. Cəbrayılova G. Multikulturalizm – milli özünüdərk amili // Mədəniyyət, problemlər və perspektivlər. Doktorant və Gənc tədqiqatçıların IX Beynəlxalq Elmi Konfransının Materialları. Bakı, 2014.


## РЕЗЮМЕ
## АЗЕРБАЙДЖАН КАК СТРАНА ТРАДИЦИЙ ТОЛЕРАНТНОСТИ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА

***Кулиев А.Ф., Самедов Я.А***

***Ключевые слова:*** *национальное меньшинство, этно-культура, мультикультуральные, ценности, терпение, этнографический, культурное единство.*

Азербайджан является многонациональной, гостеприимной страной. Здесь, испокон веков, живущие бок о бок народы, всегда чувствовали себя комфортно. Всё это происходило от того, что они всегда чувствовали к себе толерантное отношение, никогда не подвергались давлению и поэтому не теряли собственной культуры. Сегодня в нашей стране представители других наций и народностей имеют право получать образование на своем языке, молиться, соответственно канонам своей религии, не сталкиваясь с неродным отношением к себе, спокойно дают советы и предложения в различных областях жизни. В различные периоды для представителей иных религий были отведены и отводятся специальные места для богослужения в церквях и синагогах, где они исполняют свои религиозные обряды.

## SUMMARY
## AZERBAIJAN AS A COUNTRY OF TRADITIONS OF TOLERANCE AND MULTICULTURALISM

***Quliyev A.F, Samadov Y.A***

***Key words:*** *national minority, ethno-cultural, multicultural, values, patience, ethnographic, cultural unity.*

Azerbaijan is a multinational hospitable region. Peoples, communities historically living here felt free and wealth and prosperity. Because they always felt a tolerant attitude towards themselves, lived and live without restriction and continued the existence of their culture. Today, representatives of different nationalities obtain education in their own language, profess their religion, give their merits in various areas without facing a non-native attitude.

In different periods there were functioned and continue to function the places of confession-churches, and synagogues for people of non-Islamic faith.


| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 12.10.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 930.255**

# XALQ TƏBABƏTİNDƏN SƏHİYYƏ SİSTEMİNƏ (XIX əsrin ortaları-XX əsrin əvvəlləri, Bərdə şəhərinin arxiv materialları əsasında)

**ASLANOV SEYMUR CƏNNƏT oğlu**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, doktorant*
*seymur.aslanov.86@list.ru*

***Açar sözlər***: *Bərdə, səhiyyə, həkim, müalicə, xalq təbabəti*

Etnoqrafiyada xalq təbabəti və səhiyyə məsələləri daim aktual problemlərdən biri olub. İnsanların sağlamlığının qorunmasında xalq təbabətindən və ya müasir tibbi metodlardan istifadə olunması daha məqsədəuyğun olardı? Bu sual müasir dövrdə də tədqiqatçıların müzakirə obyektidir. Azərbaycanlılar xalq təbabətindən geniş istifadə etmişlər. Bu məsələyə aid bir sıra əsərlər yazılmışdır. Məqalədə bu problemə toxunulmasında əsas məqsəd isə XIX əsrin ortalarında-XX əsrin əvvəllərində çöl etnoqrafik materialları və həmin dövrün statistk materialları əsasında Bərdə şəhərində səhiyyənin vəziyyətini araşdırmaqdır.

XIX əsrdə Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, əhalinin sayının artması və şəhərlərin inkişaf etməsinə baxmayaraq, peşəkar həkim kadrları azlıq təşkil edir, əhaliyə ixtisaslı səhiyyə xidməti, demək olar ki, göstərilmirdi. Əhalinin böyük əksəriyyəti yenə də xalq təbabətinə üstünlük verir, ucuz başa gələn vasitələrlə özünümüalicə üsullarından istifadə edirdi [1, s.289-290].

Etnoqrafik ədəbiyyat materiallarından məlum olur ki, XIX əsrdə Cavanşir qəzasının tərkibində olan Bərdə kəndində də (müasir Bərdə şəhəri) elmi əsası olmayan müalicə metodları və yoluxucu xəstəliklər yayılmışdı: "95 yaşlı Kərbəlayı Firudin Baxşəli oğlu nəql edir ki, inqilaba qədər Bərdənin əhalisi tibbi yardımdan məhrum olduqları üçün xəstələnir və ölürdülər. Səhiyyə işlərinin zəif inkişaf etməsi üzündən əhali arasında ağır yoluxucu xəstəliklər geniş yayılmışdı, mədə-bağırsaq, malyariya, revmatizm və s. xəstəliklər camaatın səhhətini tez-tez pozur, bir tərəfdən də çiçək epidemiyası əhaliyə aman vermirdi. Xəstəxana, aptek və həkim nə olduğunu bilmirdik. Xəstəliyə tutulanlar özlərini otlar, meyvələrlə, nar, heyva qabıqlarını, xüsusilə itburnu çiçəyini qaynadıb içməklə, zirincdən, zoğaldan hazırlanmış mürəbbələrdən isə, yeri gəldikcə soyuqdəymə xəstəliklərini müalicə etmək məqsədilə istifadə edərdilər" [10, s.126].

1847-ci ildə Qafqaz ölkəsinin inzibati idarəsi tərəfindən Cənubi Qafqazda tibb personalının ştatı haqqında əsasnamə imzalandı. Əsasnamədə hər qəzada bir həkim, iki feldşer və bir mama vəzifəsinin olması nəzərdə tutulurdu. XIX əsrin 70-ci illərinin axırlarından isə kənd əhalisinə tibbi yardımın təşkil edilməsi məqsədi ilə yeni əsasnamə layihəsinin hazırlanması işinə başlanıldı. Nəhayət, 18 fevral 1880-ci ildə “Cənubi Qafqaz ölkəsinin quberniyalarında kənd həkim sahələrinin təşkil edilməsi haqqında” Dövlət Şurasının əsasnaməsi qüvvəyə mindi [9, s.38].

Əsasnamədə hər qəzada 4 çarpayıdan ibarət (ikisi kişi və ikisi qadın üçün) qəbul otağı, ambulatoriya və aptek açılması, stasionar şöbədə xəstələrə ilkin yardımın göstərilməsi, lazım gəldikdə isə xəstəxanaya köçürülməsi, kənd həkim məntəqələrində bir həkim, iki feldşer və bir mamanın işləməsi, aptek müdiri vəzifəsinin xəstəxana həkiminin göstərişi ilə feldşerlərdən birinə həvalə olunması nəzərdə tutulurdu. Ştat cədvəlində hər bir qəzaya ayrılan birdəfəlik xərc aşağıdakı kimi hesablanırdı: qəbul otağının tikilməsinə 350 rubl; aptekin açılmasına 350 rubl; qəbul otağına, feldşer və mamalara cərrahi alətlərin alınmasına 90 rubl.

Ambulatoriya təyin edilmiş saatlarda xəstələri hər gün, fövqəladə hadisələr zamanı isə günün bütün vaxtlarında qəbul etməli idi. Xəstələr həkimin resepti əsasında apteklərdən pulsuz dərmanlarla təchiz olunmalı idilər.

Əsasnamədə Qafqaz canişininə kənd həkim məntəqəsini təşkil etmək səlahiyyəti də verilirdi. Bu əsasnamə 4 ildən sonra - 27 fevral 1884-cü ildə təsdiq edildi. Həmin vaxtdan Cavanşir qəzasında qəbul otaqları fəaliyyət göstərməyə başladı. Lakin bir neçə ildən sonra qəzalarda açılan qəbul otaqlarının əhalinin ehtiyacını kifayət qədər ödəməməsi, əhalinin böyük hissəsinin tibbi yardımdan kənarda qalmasını nəzərə alan çar hökuməti Cənubi Qafqazda kənd həkim məntəqələrinin təkmilləşdirilməsi haqqında Dövlət Şurasının fikri ilə razılaşaraq 8 mart 1904-cü ildə 605 №-li yeni əsasnamə təsdiq etdi. Bu əsasnamə 1880-ci il əsasnaməsindən bir qədər fərqlənirdi. Belə ki, yeni əsasnamədə hər qəzada iki kənd həkim məntəqəsi, hər məntəqədə 6 çarpayılıq kənd xəstəxanası (əvvəlki 4 çarpayı əvəzinə), otaqların sayının artırılması, xəstəxanada ambulatoriya, aptek, kişi və qadın palatalarından əlavə, əməliyyat və vanna otaqlarının da ayrılması, hər sahədə xəstəxana ilə yanaşı, feldşer məntəqəsinin, qəbul otağının, onun nəzdində aptekin, feldşerlər və xidmətçilər üçün otaqların təşkil edilməsi, beləliklə, hər qəzada dörd müalicə idarəsi: iki xəstəxana və iki feldşer məntəqəsinin yaradılması, stasionar şöbədə nəinki əvvəllərdə olduğu kimi xəstələrə ilkin yardımın göstərilməsi, habelə müalicə olunması nəzərdə tutulurdu. Bu dəyişiklik qəzalarda tibbi xadmətin inkişafına müsbət təsirini göstərdi.

Xəstəxana çarpayılardan xroniki və ruhi xəstələrdən başqa, bütün xəstələr istifadə edirdilər. Stasionarda, eləcə də feldşer məntəqələrində ambulator qəbulu və dərmanlar pulsuz buraxılırdı. Bu dəyişikliklərə baxmayaraq, XIX əsrdə Azərbaycanda əhaliyə göstərilən tibbi yardım yarıtmaz olaraq qalırdı. Belə ki, Yelizavetpol quberniyasının Cavanşir qəzasının payına 1 həkim, 2 feldşer düşürdü ki, onlar da əsasən ədliyyə tibb-ekspertiza ilə məşğul olurdular [6, s.79-80].

Arxiv materiallarından Azərbaycanda XX əsrin əvvəllərində də səhiyyənin vəziyyətinin qənaətbəxş olmadığı məlum olur. 1904-cü ildə Cavanşir qəzasında vəba epidemiyası yayılmışdı. Vəba əleyhinə tədbirləri gücləndirmək məqsədi ilə qəzanın Bərdə kəndində həkim-sanitar məntəqələri təşkil edilmişdi. 1910-cu ilə aid dövlət qeydiyyatında N.P.Avitsinin Bərdə kəndinin feldşer məntəqəsinin müdiri vəzifəsində işləməsi göstərilir[12, s.7].

1913-cü ildə Bərdə kənd xəstəxanasının həkimi Kələntərovun quberniya səhiyyə şöbəsinə göndərdiyi şikayət məktubunda Tarıverdiyevin Bərdə pambıqtəmizləmə zavodunda elektrikdən istıfadə olunduğu halda, qonşu xəstəxanada qaranlığın hökm sürməsi göstərilirdi [2, v.2-3].

1913-cü ilə aid arxiv materiallarında Bərdə kənd xəstəxanasının baş feldşeri işləyən Ayrapet Osipovun xəstələrə laqeyd münasibəti ucundan ölüm hallarının **çoxalması,** hətta burada "Osipovun yanına sağ gedən sayrı gəlir", "Osipov Əzrayılı əvəz edib" kimi məsəllərin geniş yayılması kimi məlumatlar da diqqəti cəlb edir [5, v.145].

XX əsrin əvvəllərində tibbi statistikanın lazımi səviyyədə aparılmaması bir çox xəstəliklər haqqında dəqiq rəqəmlər söyləməyə imkan vermir. Lakin bir neçə materialdan aydın olur ki, o zamanlar müraciət edən xəstələrin arasında vərəm, traxoma, dəri-zöhrəvi və s. yoluxucu xəstəliklərə tutulanların sayı az deyildi.

Yuxarıda göstərildiyi kimi, qəza həkimlərinin vəzifəsi əsasən məhkəmə ekspertizası və tibbi-polis fəaliyyəti ilə məşğul olmaqdan ibarət idi (məhkəmə-tibb müayinəsi, meyityarma və s.). “Qafqaz mülki idarələrində müasir tibbi şöbələrin vəziyyətinin xülasəsi” adlı bir məqalədə göstərilirdi ki: “Qəza həkimləri başlıca olaraq məhkəmə təbabəti və başqa müayinə, meyityarma və ekspertiza ilə məşğul olurlar” [8, s.40].

1914-cü ilə aid olan sənəddə Bərdə kənd xəstəxanasının mamaçasının erməni əsilli Qayane Sergeyevna Maqakyan olması, onun nəzarətsizlikdən istıfadə edərək müsəlman qadınlarının övladlarını qəsdən öldürməsi, yarıtmaz əməlinə görə dəfələrlə töhmət alması haqqında qeydlər vardır [3, v.3].

Mənbələrdə 1917-ci ildə Bərdə kənd əhalisinin əksəriyyətinin vərəm xəstəliyinə tutulduğu, bu xəstəliyin əsasən pambıq zavodunun fəhlələri arasında yayılması qeyd olunur. Vərəm xəstəliyinin yayılmasının əsas səbəblərindən biri də aclıq idi. Bu xəstəlik ağır iş şəraitində işləyən pambıqtəmizləmə zavodunun fəhlələri arasında xüsusilə geniş yayılmışdı. Fəhlələrin qida rasionu, demək olar ki, heçə bərabər idi. Bundan narahat olan hökumət ciddi tədbirlər görməyin zəruri olduğunu başa düşür və bu vəziyyətdən çıxış yolu axtarırdı. Bu üzdən qəza rəisi zavodun sahibi Tarıverdiyevə ciddi xəbərdarlıq etmişdi.

1917-ci il avqustun 23-də Şuşa şəhər sakini Balaca ağa Haqverdiyev Yelizavetpol [Gəncə] quberniyası səhiyyə şöbəsinə ərizə ilə müraciət edərək, Bərdə kəndində aptek açmağa icazə istəmişdi [4, v.1].

Arxiv sənədlərindən məlum olur ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəzalarda 33 xəstəxana fəaliyyət göstərmiş və onların ştatları 1 nəfər həkimdən, 2 feldşer, 1 mamaça və çiçəyə qarşı peyvənd edən 1 işçidən ibarət olmaqla, mövcud kənd xəstəxanalarının və feldşer məntəqələrinin başlıca vəzifəsi yoluxucu xəstəliklərə tutulmuş xəstələrin hospitallaşdırılması, xəstəlik ocaqlarının zərərsizləşdirilməsi idi. Həmin dövrdə respublika əhalisinin hər 75 min nəfərinə cəmi 1 ixtisaslı həkim düşürdü. Xalq Cümhuriyyəti Parlamenti vəziyyəti nəzərə alaraq 1920-ci ildə kənd xəstəxanalarının şəbəkəsini genişləndirmək və 35 yeni xəstəxana, 56 feldşer məntəqəsi təşkil etmək barədə qərar qəbul etmişdi. Bu məqsədlə büdcədən 43 milyon 321 min 950 manat vəsait ayrılmış, Bakı quberniyasında 19 xəstəxana, 27 feldşer məntəqəsi, Gəncə quberniyasında 15 xəstəxana, 34 feldşer məntəqəsi, Zaqatalada 1 xəstəxana, 2 feldşer məntəqəsi açılması qərara alınmışdı. Tibb müəssisələrinin dərman preparatları ilə müntəzəm təmin edilməsi üçün Səhiyyə nazirliyinin əczaçılıq şöbəsi dərman preparatlarının alınmasını öz əlində cəmləşdirmişdi. Həmçinin Cavanşir qəzasının Bərdə və Tərtər kəndlərində xəstəxanalar, Vəng və Kəlbəcər kəndlərində həkim məntəqələri təşkil olunmuşdu [7].

Azərbaycanda sovet hakimiyyəti bərqərar olduqdan sonra - 1920-ci il oktyabrın 17-də Bərdə inqilab komitəsinin dekreti ilə bölgədə ilk Səhiyyə şöbəsi yaradıldı. Bu ağır illərdə əhaliyə tibbi yardımın təşkili və səhiyyənin inkişaf etdirilməsi işi Qarabağda inqilabi hərəkatın iştirakçısı olmuş N. İbrahimova tapşırılmışdı. 1920-ci ildən başlayaraq Bərdədə yeni səhiyyə müəssisələrinin açılmasına diqqət artırıldı.

1930-cu illərdən etibarən respublikada tibb müəssisələrinin tikintisi geniş vüsət aldı. Xalqın maddi və mədəni səviyyəsinin yüksəlməsi, əmək və məişət şəraitinin yaxşılaşması, geniş müalicə-profilaktika müəssisələri şəbəkəsinin yaradılması, zəhmətkeşlərə ixtisaslı pulsuz yardım göstərilməsi nəticəsində əhalinin sağlamlığının qorunması işində xeyli irəliləyiş əldə edildi. Səhiyyənin daha da təkmilləşdirilməsi, tibb elminin inkişafı, geniş sanitariya-gigiyena tədbirlərinin həyata keçirilməsi nəticəsində respublikada bir çox xəstəliklərin, o cümlədən yoluxucu taun, vəba, çiçək, səpgili yatalaq, malyariya, sifilisin tam müalicəsi və aradan qaldırılmasına nail olunmuş, traxoma, qarın yatalağı, difteriya və başqa yoluxucu xəstəliklərin sayı xeyli azalmışdır.

Respublikanın hər yerində olduğu kimi, Bərdə şəhərində və kəndlərində dispanserlər, qadın və uşaq məsləhətxanaları, doğum evləri, uşaq bağçaları və körpələr evləri, tibb-səhiyyə müəssisələri açıldı [11, s.126].

## ƏDƏBİYYAT

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2007, 567 s.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), fond 61, siyahı 1, saxlama vahidi 601.
3. ARDTA, f. 61, s. 1, s. v. 631, vərəq 3.
4. ARDTA, f. 61, s. 1, s., vərəq 869.
5. ARDTA, f. 61, s. 1, s. v. 1659, vərəq 145.
6. Həsənov V.S Təbabət mövhumatın, xurafatın və dinin əleyhinədir. Bakı: 1964.
7. http://medicina.az/milli-sehiyye-tarixi-cumhuriyyetin-ilk-tibb-ordusu)

8. Qafqaz mülki idarələrində xidmət edən həkimlərin birinci qurultayının əsərləri: I cild. 2-ci buraxılış. Tiflis, 1914.
9. Rusiya imperiyasının qanunlarının bütün toplusu. II toplu, 7-55, II şöbə, əlavə SPb.: 1884.
10. Salehov Ş.M. Azərbaycan kolxozçu kəndlilərinin mədəni həyatının bəzi məsələləri (Bərdə rayonunun materialları əsasında) // Azərbaycan Etnoqrafik Məcmuəsi. IV buraxılış. Bakı: Elm, 1981.
11. Salehov Ş.M. Azərbaycan kolxozçu kəndlilərinin mədəni həyatının bəzi məsələləri // (Bərdə rayonunun materialları əsasında) // Azərbaycan Etnoqrafik məcmuəsi, IV buraxılış. Bakı: Elm, 1981.
12. Памятная книжка Елисаветпольской губернии на 1910 год, Елисаветпольский Губернский Статистический Комитет, 1910.

**РЕЗЮМЕ**

**ОТ НАРОДНОЙ МЕДИЦИНЫ ДО СИСТЕМЫ ЗДРАВООХРАНЕНИЯ**

**(середина XIX - начала XX века, на основе архивных материалов г.Барда)**

***Асланов С.Дж.***

***Ключевые слова**: Барда, здравоохранение, врач, лечение.*

В статье нашли свое отражение такие важные и актуальные вопросы, как переход из народной медицины в систему народного здравоохранения в Барде. Для исследования темы автор обратился к архивным материалам, этнографическим сборникам и прочим источникам. В результате исследования были получены важные сведения о состоянии здравоохранения в селе Барда Джаванширской провинции.

**SUMMARY**

**FROM TRADITIONAL MEDICINE TO THE HEALTH CARE SYSTEM**

**(mid XIX-early XX century, based on archival materials of Barda city)**

***Aslanov S.J.***

***Key words**: Barda, Health care, physician, therapy, traditional medicine.*

The important and actual issues as a transition from traditional medicine to public health system in Barda have been explained in the article. It has been referred to the archive materials, ethnographic journals and other sources for the research of the subject. As a result of the research, the important results have been obtained in particular about the condition of the health in Barda village of Javanshir province.

Daxilolma tarixi: İlkin variant 03.10.2018
Son variant 17.12.2018

**UOT 336.714**

# MÜƏSSİSƏNİN DAXİLİ MALİYYƏ İNFRASTRUKTURUNUN FORMALAŞMASI MEXANİZMİ

**[1]HÜSEYNOVA MƏLAHƏT SOLTAN qızı**
**[2]TAĞIYEVA AİDƏ VALEH qızı**
*Sumqayıt Dövlət Universiteti,1-dosent, 2-böyük laborant*
aidatagiyeva02@gmail.com

***Açar sözlər:*** *maliyyə, müəssisə, infrastruktur, planlaşdırma, nəzarət, təhlil*

Bazar münasibətləri şəraitində hər bir təsərrüfat subyekti istehsal-təsərrüfat fəaliyyətini həyata keçirmək üçün özünün daxili maliyyə infrastrukturunu formalaşdırır. Daxili maliyyə infrastrukturunun əsas məqsədi müəssisənin maliyyə sabitliyinin təmin edilməsinə və möhkəmləndirilməsinə, onun ödənilmə qabiliyyətinin yüksəldilməsinə əlverişli şərait yaratmaqdır. Odur ki, hər bir müəssisə səmərəli fəaliyyətinin təşkili üçün daxili maliyyə infrastrukturunu formalaşdırmalıdır. Çünki hər bir müəssisənin normal və səmərəli fəaliyyət göstərməsi onun daxili maliyyə infrastrukturunun formalaşmasından çox asılıdır.

Müasir dövrdə iqtisad elmləri qarşısında bir sıra həlli vacib olan problemlər durur ki, həmin problemlərdən ən əsasları məhsulların tədavül kanallarında ləngimədən təkrar istehsalın növbəti mərhələsinə daha tez keçidinin təmin etməkdən, məhsul istehsalçılarının məhsullarının keyfiyyətinin yaxşılaşdırılmasından, məhsul çeşidinin artırılmasından, istehlakçı sifarişlərinə dolğun cavab vermək baxımından əlavə vaxt qazanmasından, ayrı-ayrı mərhələlərdə çəkilən maddi məsrəflərin azaldılmasından ibarətdir. Bazar iqtisadiyyatı yolu ilə inkişaf edən ölkələrin təcrübəsi göstərir ki, yuxarıda sadalanan problemlərin aradan qaldırılması və qeyd olunan məsələlərin həlli məhz daxili maliyyə infrastrukturlarının səmərəli formalaşdırılması və idarə edilməsindən asılıdır. Bazar münasibətləri sisteminin mürəkkəbliyi, məhsulların bölgüsü prosesinə keyfiyyətcə yüksək tələbkarlıq, çevik istehsal sistemlərinin yaradılması, məhsulların daşınması, saxlanması, zəruri ehtiyatların yaradılması və onlara nəzarət, tədarük prosesinin planlaşdırılması və təşkili mexanizmi, servis xidməti və s. maliyyə infrastrukturunun səmərəli formalaşdırılması və idarə edilməsini zəruri edən ən mühüm amillərdir.

Qeyd edək ki, müəssisədə maliyyə fəaliyyətinin idarə edilməsi bu məqsədlə yaradılan infrastrukturlar tərəfindən həyata keçirilir. Həmin infrastrukturlara maliyyə direktoru və ya maliyyə üzrə vitse prezident rəhbərlik edir. Bu infrastruktura daxil olan bölmələr pul vəsaitlərinin, qısamüddətli maliyyə qoyuluşlarının idarə edilməsi, maliyyə təhlili, kredit siyasəti, investisiya fəaliyyəti, proqnozlaşdırma və planlaşdırma, vergitutma və bütövlükdə müəssisənin mühasibat hesabatının tərtibatı ilə məşğul olurlar [3, s.86].

Daxili maliyyə infrastrukturunun formalaşması istehsal prosesinin normal gedişinə maneçilik törədən bu və ya digər hadisənin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edir. Belə fəal infrastrukturun formalaşması yüksək kompleks mexanikləşdirilmə və avtomatlaşdırılmış istehsal şəraitində xüsusilə zəruridir.

Daxili maliyyə infrastrukturlarının fəaliyyəti genişləndikcə müəssisənin formalaşmasında və inkişafında nəzərə çarpacaq dərəcədə irəliləyiş baş verir. Belə ki, müəssisənin müxtəlif bölmələri arasında vasitəçilik edən daxili maliyyə infrastrukturunun subyektləri iqtisadi resursların dövriyyəsinin başa çatdırılmasında apancı rol oynayır, kommersiya uğurlarının əldə edilməsinə kömək edir, maliyyə-kredit resurslarının təmərküzləşməsinə və bu resursların müəssisənin daha səmərəli və yüksək ödənilmə qabiliyyətli sahələrinə yönəldilməsinə şərait yaradır.

Daxili maliyyə infrastrukturu təsərrüfat fəaliyyətinin idarə olunması mexanizminin tərkib hissəsi olmaqla təşkilatın digər istehsal və sosial infrastrukturları ilə sıx əlaqədardır. Belə ki, mühasibatlıqda qurulmuş birbaşa əlaqələr nəticəsində onlardan istehsal və satış planları, debitor və kreditorların siyahısı, işçilərə ödənilən əmək haqqı barədə və digər sənədlər əldə olunur. Daxili maliyyə infrastrukturu isə öz növbəsində mühasibatlığı maliyyə planları ilə və onların icrasına dair analitik hesabatlarla təmin edir. Gəlirləri proqnozlaşdırmaq və operativ maliyyə planlarını tərtib etmək üçün maliyyə infrastrukturu məhsul satışına dair rəqəmləri, mal dövriyyəsini maliyyə resursları ilə təmin etmək üçün xərc smetasını marketinq şöbəsindən alır. Marketinq əməliyyatlarının daha gəlirli olması məqsədilə maliyyə infrastrukturu hər bir müqavilənin qiyməti müəyyən edilərkən güzəştlər sistemini təsdiq edir, satış və marketinq məsələlərini təhlil edir və beləliklə, iri əqdlərin bağlanmasına şərait yaratmış olur.

Müəssisələrdə maliyyə-təsərrüfat fəaliyyətinə nəzarət edilməsinə xüsusi diqqət yetirilməlidir, çünki onun səmərəli qurulmasından müəssisənin maliyyə nəticələri çox asılıdır. Müəssisənin daxili maliyyə infrastrukturu biznes-planın icrasına, eləcə də xüsusi və borc kapitallarının təyinatı üzrə istifadəsinə daim nəzarət edirlər. Nəzarət-təhlil funksiyasının həyata keçirilməsində maliyyə işçilərinə mühasibatlıq çox böyük kömək göstərir, bununla da smetaların tərtib edilməsinin dürüstlüyü, kapital xərclərinin ödənilməsi haqq-hesabı yoxlanılır, bütün hesabat növləri təhlil edilir, maliyyə və plan intizamına əməl olunması prosesinə nəzarət edilir [2, səh.193].

Müəssisələrin daxili maliyyə infrastrukturu öz funksiyalarını və onların qarşılıqlı əlaqəsini daha əhatəli, daha səmərəli reallaşmasına zəmin yaratmalıdır. Hər şeydən əvvəl müəssisənin idarə edilməsinin maliyyə mexanizmi vasitəsilə onların zəruri pul vəsaitləri ilə təmin olunmasına nail olunur. Bu halda ən başlıca şərt odur ki, müəssisələrin pul vəsaitlərinin mənbəyi onların əldə etdikləri gəlir olsun və bu gəlir hesabına bütün xərclər ödənilsin. Əgər əlavə pul vəsaitinə ehtiyac duyulursa, onda kreditdən istifadə etmək olar. Odur ki, müəssisənin daxili maliyyə infrastruktur bölmələrinin kredit təşkilatları ilə münasibətlərinin formalaşması prosesi baş verir [1, səh.266].

Təsərrüfat subyektlərinin maliyyə fəaliyyətinin təşkil edilməsində maliyyə planlaşdırılması mühüm yer tutur. Maliyyə planlaşdırılması zamanı hər bir təşkilat öz maliyyə durumunu ətraflı qiymətləndirir, maliyyə ehtiyatlarının artırılması imkanlarını müəyyən edir və onlardan daha səmərəli istifadə edilməsi istiqamətlərini seçir. Planlaşdırma sahəsində daxili maliyyə infrastrukturu aşağıdakı məsələlərin həllini təmin edir:

- lazım olan hesablamalar əlavə edilməklə maliyyə-kredit planları layihələrinin işlənilməsi;
- xüsusi dövriyyə kapitalına olan tələbatın müəyyən edilməsi;
- təsərrüfat fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin üzə çıxarılması;
- kapital qoyuluşları planının işlənib hazırlanması;
- biznes-plan işlənməsində və icrasında yaxından iştirak etmək;
- banka təqdim etmək üçün kassa planlarının tərtib edilməsi;
- məhsul satışı planlarının hazırlanmasında iştirak və illər, rüblər üzrə balans mənfəətinin proqnoz məbləğinin, həmçinin rentabellik göstəricilərinin müəyyən edilməsi.

Operativ iş sahəsində daxili maliyyə infrastrukturu çoxsaylı məsələlər həll edir. Bunların sırasında ən başlıcaları aşağıdakılardır:

- müəyyən edilmiş vaxtlarda büdcəyə və büdcədən kənar fondlara olan borcların, bank ssudaları üzrə faizlərin, alınmış əmtəə-material qiymətliləri, xidmət və iş üçün mal göndərənlərin hesablarının ödənilməsi, işçilərin əmək haqqlarının ödənilməsi və digər kassa əməliyyatlarının aparılması;
- istehsal xərclərinin maliyyələşdirilməsinin təmin edilməsi;
- müqavilə şərtlərinə uyğun olaraq kreditlərin sənədləşdirilməsi;
- məhsul satışı, satışdan əldə edilən mənfəət və digər maliyyə göstəriciləri barədə gündəlik operativ uçotun aparılması;

- vəsaitlərin daxil olmasına və maliyyə planının digər göstəricilərinin icrasına dair arayışların hazırlanması.

İstehsal-kommersiya təşkilatında nəzarət-təhlil işinə xüsusi diqqət yetirilməlidir, çünki onun səmərəli qurulmasından müəssisənin maliyyə nəticələri çox asılıdır. Daxili maliyyə infrastrukturu maliyyə, kassa, kredit, mənfəət və rentabellik planlarının icrasına, eləcə də xüsusi və borc kapitallarının təyinatı üzrə istifadəsinə daim nəzarət edir. Nəzarət-təhlil işinin həyata keçirilməsində maliyyə xidmətinə mühasibatlıq çox böyük kömək göstərməklə, smetaların tərtib edilməsinin dürüstlüyü, kapital xərclərinin ödənilməsi haqq-hesabı yoxlanılır, bütün hesabat növləri təhlil edilir, maliyyə və plan intizamına əməl olunması prosesinə nəzarət edilir.

Məlumat üçün qeyd edək ki, hər bir müəssisə istehsal-ticarət fəaliyyəti prosesində məhsul satan və malalan təşkilatlarla birgə əməkdaşlıq üzrə tərəfdaşları ilə qarşılıqlı təmasda olur, ittifaq və assosiasiyalarda üzv kimi iştirak edir, təsisçi kimi nizamnamə kapitalının formalaşmasına öz payını verir, bank və büdcə təşkilatları ilə, büdcədənkənar fondlarla və sair təşkilatlarla təssərrüfat əlaqələrinə girir. Bu çoxşaxəli maliyyə-təsərrüfat əlaqələrinin əsasını pul və pulun hərəkəti təşkil edir. Pulun hərəkəti vastəsilə həm satıcının, həm də alıcının maraqları qarşılıqlı şəkildə təmin olunur və hər bir müəssisənin əldə etdiyi gəlir hesabına xüsusi pul fondlarının yaradılmasına iqtisadi zəmin yaranır. Bütün bunlar müəssisənin daxili maliyyə xidmətinin formalaşdırılmasının ilkin şərtləridir [4, s.529].

Nəticə olaraq deyə bilərik ki, bütövlükdə, müəssisələrin daxili maliyyə infrastrukturunun formalaşması pul fondlarının formalaşdırılması və istifadəsinə əsaslanır. Bu fondlar vasitəsilə maliyyə-təssərrüfat fəaliyyətinin, eləcə də geniş təkrar istehsalın zəruri pul vəsaiti ilə təminatı, elmi-texniki tərəqqinin maliyyələşdirilməsi, yeni texnika və texnologiyanın mənimsənilməsi, tətbiqi, iqtisadi həvəsləndirmə tədbirlərinin həyata keçirilməsi baş verir.

Müəssisədə nəinki ən az xərclə daha çox məhsul istehsal edilməsində, həmçinin, istehsal vaxtı və tsiklinin, istehsal tullantılarının və zay məhsulların miqdarının xeyli azaldılmasında, növbədaxili və növbələrarası boşdayanma hallarının minimuma endirilməsində, yaxud da tamamilə aradan qaldırılmasında, istehsal aparatından və elmi-texniki potensialdan daha dolğun istifadə olunmasında daxili maliyyə infrastrukturunun düzgün təşkil edilməsi müstəsna rol oynayar. Bütün bunlar isə son nəticədə əmək məhsuldarlığı artımında, məhsulun keyfiyyətinin yüksəldilməsində və maya dəyərinin aşağı salınmasında öz əksini tapar. Qeyd edilənlər bütövlükdə istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas amillərindəndir.

Məqalədə müəssisədə daxili maliyyə infrastrukturunun formalaşmasının ilkin şərtləri araşdırılmış, bu tip infrastrukturların səmərəli təşkili ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür. Məqalədə irəli sürülən təklif və tövsiyələrin reallaşdırılması sahibkarlıq subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin təşkilində mühüm rol oynaya bilər.

## ƏDƏBİYYAT

1. Abbasov A.B., Abbasov S.A. Maliyyə biznesi. Dərslik. Bakı: İqtisad Universiteti, 2014, 356 s.
2. Əlibəyov N.V. Təsərrüfat subyektlərinin səmərəli fəaliyyətinin iqtisadi mexanizmi. Bakı: MBM, 2014, 404 s.
3. İsayev A.S. Maddi istehsalda fəaliyyət göstərən təsirlər, yaxud texniki-iqtisadi inkişafın yeni tələbləri. Bakı: Azərnəşr, 2009. 512 s.
4. Mahmudov İ.M., Zeynalov T.S., İsmayılov N.M. İqtisadi təhlil. Bakı: İqtisad Universiteti, 2010, 810 s.

**РЕЗЮМЕ**
**МЕХАНИЗМ ФОРМИРОВАНИЯ ВНУТРЕННЕЙ ФИНАНСОВОЙ ИНФРАСТРУКТУРЫ ПРЕДПРИЯТИЯ**
***Гусейнова М.С., Тагиева А.В.***

***Ключевые слова:*** *финансы, предприятие, инфраструктура, планирование, контроль, анализ*
В статье исследованы цели и возможности формирования внутренней финансовой инфраструктуры предприятия. Этот процесс рассмотрен как один из факторов повышения эффективности производства. Также комментируются такие вопросы внутренней финансовой инфраструктуры, как планирование, оперативная, контрольно-аналитическая работа.

**SUMMARY**
**MECHANISM OF FORMATION OF INTERNAL FINANCIAL INFRASTRUCTURE OF THE ENTERPRISE**
***Huseynova M.S., Taghiyeva A.V.***

***Key words*:** *finance, enterprise, infrastructure, planning, control, analysis*
The article examines the purpose and position of the formation of the internal financial infrastructure of the enterprise. This process is considered as one of the factors for increasing production efficiency. Also commented on such issues of domestic financial infrastructure as planning, operational, control and analytical work.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 17.10.2018 |
| | Son variant | 17.12.2018 |

**УДК 33.012**

# ЭКОНОМИЧЕСКАЯ ОЦЕНКА СПОСОБНОСТИ РАЗВИТИЯ МЕТАЛЛУРГИЧЕСКИХ ПРЕДПРИЯТИЙ

**[1]АМИРОВ ИМРАН БАЛАМИРЗА оглу**
**[2]ПИРВЕРДИЕВА САБИНА АЛВЫЗ гызы**
*Сумгаитский государственный университет, 1,2-ст. преподаватель*
*imran_amirov@mail.ru*

***Ключевые слова:*** *металлургия, промышленность, предприятия, развитие, инвестиция, прирост, выпускаемая продукция, основные фонды.*

Для нормального урегулирования экономической деятельности и оценки способности развития металлургических предприятий используются нижеследующие показатели:

- объем среднегодового изменения выпуска продукции хозяйствующих субъектов (ΔY);
- среднегодовое изменение направленных инвестиционных вложений на основные фонды (Δİ) и т.д.

Зависимость инвестиционных изменений, направленных на основные фонды металлургических предприятий от производства выпускаемых продукций на этих же предприятиях определяется следующим линейным уравнением:

$$\Delta \dot{I} = (a_0 + a_1 \Delta Y)$$

В этом уравнении Δİ – изменения направленных инвестиций на основные фонды; ΔY– изменения выпускаемых продукций в хозяйствующих субъектах; коэффициент $a_1$ – показатель акселерации α; $a_0$ – предел инвестиционных изменений направленные на основные фонды от производственных побочных источников вне производства в среднем расчете. Показатель акселерации, как коэффициент, показывает прирост инвестиций, направленных на экономику в текущем периоде за счет формирования увеличения доли выпускаемой продукции в предыдущем периоде. Эту зависимость можно выразить так

$$\alpha_t = [\Delta \dot{I}_t/(\Delta Y_{(t-1)} - \Delta Y_{(t-2)})]$$

В этом выражении $\Delta Y_{(t-1)}$ – прирост объема выпускаемой продукций в экономике страны (t-1) периода; $\Delta Y_{(t-2)}$ – увеличение объема выпускаемой продукций в экономике страны в периоде (t-2); $\Delta \dot{I}_t$ – увеличение инвестиций, направленных на экономику страны в текущем периоде t [1, с.393].

В вышеуказанной зависимости оценка показателя акселерации α ограничивается в интервале [–1≤a≤1]. Обозначение показателя акселерации в интервале [0<a≤1] показывает увеличение какой доли выпуска продукции направлено на прирост инвестиций. Значение показателя акселерации в интервале [–1<a<0] показывает потенциальную возможность, направленную на увеличение инвестиций в основные фонды за счет прироста выпускаемой продукции, но показывает, что эти средства не направлены на прирост инвестиций. По этой причине происходит снижение направляемых инвестиций на основные фонды. Значение показателя акселерации α=0 выражает не изменение направляемых инвестиций на основные фонды за счет увеличения выпускаемой продукций в хозяйствующих субъектах, то есть Δİ=0. В этом случае можно считать, что изменения направленных инвестиций на основные фонды предприятия формируются за счет побочных финансовых источников от производства продукций.

Для оценки инвестиционных вложений на основные фонды за счет увеличения производства продукции металлургических предприятий за 2008-2016 гг. используем данные приведенные в таблице 1 [2, с.469].

При исследовании зависимости изменения направленных инвестиций на основные фонды на металлургических предприятиях Δİ от изменений выпускаемой продукции ΔY

учитывается временной фактор. С целью развития экономических отраслей за счет прироста произведенной продукции в текущем году инвестиции на увеличение основных фондов, как правило, направляются на следующий год. В результате, с развитием в текущем t-ом году прироста направляемых инвестиций $\Delta\dot{I}_t$ на основные фонды, создается за счет прироста выпускаемой продукций $\Delta Y_{t-1}$ предыдущем (t-1) году.

***Таблица 1.***

*Общий выпуск продукции и инвестиционные вложения на основной капитал в металлургических предприятий на период 2008÷2016 гг.*

| Показатели | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 1. Инвестиции на основной капитал млн.ман. | 30,04 | 19,7 | 21,5 | 100 | 54,4 | 51 | 2,3 | 5,2 | 1,3 |
| 2.Объем промышленной продукции(работ, услуг), текущими ценами на соответствующие года, млн.ман. | 348,9 | 88,8 | 135,2 | 195,6 | 347,1 | 305,2 | 281,2 | 212,6 | 287,6 |

***Источник***: Составлена на основе данных Государственного Статистического Комитета Азербайджанской Республики [2, с.469]

В связи с вышеуказанным, зависимость изменения инвестиции, связанной с развитием t-ом году и направленной на основные фонды в t-1 году от изменения выпускаемой продукции, выражается в форме линейного уравнения:

$$\Delta\dot{I}_t=(a_0+ a_1\cdot\Delta Y_{(t-1)})$$

В этой зависимости $\Delta\dot{I}_t$ – прирост инвестиций, направленных на увеличение основных производственных фондов в t-ом году; $\Delta Y_{(t-1)}$ прирост объемов выпускаемой продукций в году t-1; $a_1$ – показатель акселерации. Показатель акселерации $a_1$ показывает количество направленных инвестиций на основные фонды за счет увеличения объема выпускаемой продукций в прошлом (t-1)-ом периоде [3, с.9].

В линейном уравнении коэффициенты $a_0$ и $a_1$ определяется

$$\begin{cases} a_0\cdot n + a_1\cdot\Sigma(\Delta Y) = \Sigma(\Delta\dot{I}) \\ a_0\cdot\Sigma(\Delta\dot{I}) + a_1\cdot\Sigma(\Delta Y)^2 = \Sigma(\Delta\dot{I}\Delta Y) \end{cases}$$

с решением системными уравнениями.

***Таблица 2***

*Показатели оценки способности независимого развития металлургических предприятий на период 2008÷2016 гг.*

| № | Годы | $\Delta\dot{I}_t$ | $\Delta Y_{(t-1)}$ | Показатели расчета | | |
|---|---|---|---|---|---|---|
| | n=7 | Y | X | $x^2$ | $X_y$ | $\Delta\dot{I}_{t}$=-2,48954-0,05012 $\Delta Y_{t-1}$ |
| *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* |
| 1 | 2010 | 1,8 | 260,1 | 3,24 | 468,18 | -15,525752 |
| 2 | 2011 | 78,5 | -46,4 | 6162,3 | -3642,4 | -0,163972 |
| 3 | 2012 | -45,6 | -60,4 | 2079,4 | 2754,2 | 0,537708 |
| 4 | 2013 | -3,4 | 151,5 | 11,56 | 515,1 | 5,10364 |
| 5 | 2014 | -48,7 | 24 | 2371,7 | -1168,8 | -3,69242 |
| 6 | 2015 | 2,9 | 68,6 | 8,41 | 198,94 | -5,927772 |
| 7 | 2016 | -3,9 | -75 | 15,21 | 292,5 | 1,26946 |
| 8 | Σ | -18,4 | 19,4 | 10652 | -582,24 | -18,399108 |

***Источник:*** расчеты произведены на основе данных Государственного статистического комитета Азербайджанской Республики

Коэффициенты $a_0$, $a_1$ в системном уравнении определяется посредством программы Матчап методом Крамера. С этой целью в линейном уравнении вычисляется $\Delta$ главный детерминант и детерминанты $\Delta_0$, $\Delta_1$, связанные с коэффициентами $a_0$ и $a_1$. Коэффициенты определяются посредством деления дополнительных детерминантов на главный детерминант:

$$a_0 = \frac{\Delta_0}{\Delta};\ a_1 = \frac{\Delta_1}{\Delta}$$

В линейном уравнении точность угаданных значений коэффициентов $a_0$ и $a_1$ проверяется с помощью постановки на месте оценки в первое уравнение в системе уравнений.

На металлургических предприятиях в 2010÷2016-ые годы инвестиционные вложения на основные фонды за счет увеличения выпус-каемой продукции оцениваются в нижеследующей последовательности.

На основе данных таблицы 2 составлены нижеследующие системы уравнений:

$$7\ a_0 + 19{,}4\ a_1 = -18{,}4$$
$$19{,}4\ a_0 + 10652\ a_1 = -582{,}2$$

При решении системы уравнений определены коэффициенты $a_0$ и $a_1$

$$\Delta = \begin{vmatrix} 7 & 19{,}4 \\ 19{,}4 & 10652 \end{vmatrix} = 74187{,}64 \qquad \Delta_0 = \begin{vmatrix} -18{,}4 & 19{,}4 \\ -582{,}7 & 10652 \end{vmatrix} = -184693$$

$$\Delta_1 = \begin{vmatrix} 7 & -18{,}4 \\ 19{,}4 & -582{,}2 \end{vmatrix} = -37184{,}44,$$

$$a_0=\Delta_0/\Delta=-2{,}48954;\ a_1=\Delta_1/\Delta=-0{,}05012$$

В зависимости от показателя акселерации $\alpha$ ограничивается в интервале [ $-1\leq\alpha\leq 1$]. Оценка показателя акселерации в интервале $0< \alpha \leq1$ показывает, какая доля увеличения выпускаемой продукции направлена на прирост инвестиций. А оценка показателя акселерации в интервале $-1<\alpha<0$ показывает потенциальные возможности прироста инвестиций на основные фонды за счет увеличения выпускаемой продукций. Но это показывает не направленность средств на прирост инвестиций. По этой же причине происходит снижение инвестиций на основные фонды, и это проверяется с помощью уравнений:

$$7\ a_0+ 19{,}4\ a_1= -18{,}4$$
$$7\cdot(-2{,}48954)-4{,}1\cdot(-0{,}05012)= -18{,}3992$$

Среднее квадратичное отклонение $s=(\Delta \dot{I}_t- \Delta \dot{I})=(18{,}4-18{,}399108)=0{,}000892$. Точность расчетов 0,999 или 99,9 % [4, с.101].

Таким образом, в Азербайджане за период 2010÷2016 гг. в металлургической промышленности увеличение инвестиций можно выразить за счет прироста продукции так:

$$\Delta \dot{I}_t = -2{,}488954-0{,}05012\ \Delta Y_{t-1}$$

В полученном уравнении показатель акселерации $\alpha_1=-0{,}05012$. На основе этого индекса считается что, в исследуемом периоде предприятия металлургической промышленности обладают способностью самостоятельного развития. А получение отрицательной оценки коэффициента $\alpha_0$ ($\alpha_0<0$) показывает, что направление инвестиций на этот период в этой отрасли сопровождается уменьшениям инвестиций.

## ЛИТЕРАТУРА

1. Гаджизалов Я.И., Каримова Е.Р., Гусейнова Л.Н. Эконометрика: теория и практика. Уточненное 3-е изд. Учебник. Баку: Экономический университет, 2013, 520 с.
2. Статистические Показатели Азербайджана 2017. Statistical Year book of Azerbaijan 2017, Баку, 2017, 812 с.
3. Стрикалов А.И., Печенежская И.А. Экономико-математические методы и модели: Пособие к решению задач, Ростов-на-Дону: Феникс, 2008, 89 с.
4. Гасанли Я.Г. Введение в эконометрику. Учебник. Баку, 2008, 236 с.
5. www.stat.gov.az (дата обращения 23.08.18)

## XÜLASƏ
## METALLURGİYA MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFETMƏ QABİLİYYƏTİNİN İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

***Əmirov İ.B., Pirverdiyeva S.A.***

***Açar sözlər:*** *metallurgiya, sənaye, müəssisə, inkişaf, investisiya, artım, buraxılan məhsul, əsas fondlar.*

Hazırlanan məqalənin əsas məqsədi metallurgiya sənayesinin inkişafı və onların əsas fondlarına istiqamətləndirilən investisiyalar arasında asılılıqların tədqiq edilməsindən ibarətdir. Burada həmçinin 2008-2016-cı illərdəki dövrlər üzrə metallurgiya müəssisələrinin müstəqil inkişafetmə qabiliyyəti qiymətləndirilmişdir.

Aparılan tədqiqatın nəticəsində riyazi metodlara istinad edilərək Azərbaycanın metallurgiya müəssisələrinin müstəqil inkişafetmə qabiliyyətinə malik olması əsaslandırılmışdır.

## SUMMARY
## ECONOMIC EVALUATION OF DEVELOPMENT OF METALLURGICAL ENTERPRISES

***Amirov I.B., Pirverdiyeva S.A.***

***Key words***: *metallurgy, industry, enterprise, development, investment, growth, output, fixed assets*

The main purpose of the article is to study the relationship between the development of the metallurgical industry and directed investment in their fixed assets. The ability of independent development of metallurgical enterprises for the period of 2008-2016 was also assessed.

As a result of the conducted researches, the ability of independent development of the metallurgical enterprises of Azerbaijan is proved on the basis of mathematical methods

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 19.10.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 330.35**

# İQTİSADİ ARTIMIN DÖVLƏT TƏNZİMLƏNMƏSİ

**ABBASOVA SEVDA İSMAYIL qızı**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), müəllim*
*sevda.abbasova@unec.edu.az*

***Açar sözlər:*** *iqtisadi artım, keyfiyyət, geriləmə, inkişaf, diversifikasiya*

Bəzən müxtəlif mənbələrdə iqtisadi artım və iqtisadi inkişafın bir-birlərinin əvəzinə istifadə edildiyi görünür. Məqalənin məqsədi – bu iki anlayışın nə qədər bir-birinə yaxın və bir-biriylə iç-içə olsa da, aralarında kəskin fərqlərin olduğu haqqında, təbii ki, iqtisadi elmə əsaslanaraq bilgi və fikirlərin bölüşdürülməsidir.

Öncə "artım" və "inkişaf" anlayışlarının iqtisadi tərəfini sonraya saxlayıb sırf bu anlayışların ümumi izahını vermək istərdim. Artım və inkişaf terminləri və bunlara yaxın məsələn: tərəqqi, irəliləyiş kimi bəzi terminlər də çox vaxt bir-biri ilə qarışdırılaraq və ya bir-birinin yerinə istifadə edilir. Artım sadə dillə desək mövcud olanın kantitativ ölçü baxımından artması, genişlənməsi, çoxalması, böyüməsi mənasındadır. Məsələn, bir uşağın və ya ağacın boyunun artması, böyüməsi buna sadə bir misaldır. Artım olaraq isə var olan miqdarın artması sayca çoxalmasıdır. Bu böyümə və ya artımda keyfiyyət prinsipi diqqətə alınmır. Məsələn uşaq böyüməklə, boyunun artması ilə eyni zamanda inkişaf da etməlidir [1, s.48].

İnkişaf sadəcə boy artımı ilə deyil, digər orqanların da inkişafı ilə baş verməlidir. Eyni zamanda inkişaf sadəcə fiziki ölçülərlə deyil, zehnin inkişafı ilə də ölçülməlidir. Bir ağacın da boy atıb, qol budaqlanması meyvə ağacı olsa və bar verməsə sadəcə bir böyümədir, bir boy artımıdır, inkişaf deyil. İnkişaf isə termin olaraq daha kalitatif-keyfiyyət yönlü böyümə, irəliləmək, tərəqqidir. Bir uşağın sadəcə boy atması deyil, zehni və digər organlarla birlikdə böyüməsi, inkişafıdır. Eyni zamanda inkişaf sadəcə böyüyüb həddi buluğa çatma və ya yaşa dolma ilə tamamlanmır, bundan sonra da böyümə dursa da inkişaf gedir. İnkişaf insanın öz üzərində işləməsi ilə daimi xarakter alır. İndi bu qısa və sadə izahatdan sonra iqtisadi artımla iqtisadi inkişafın fərqləri haqqında da bilgi və fikirlərimizi bölüşmək istərdim. İqtisadi ədəbiyyatda bu anlayışlar haqqında 3 əsas fərqli baxış mövcuddur. Birinci baxışa görə iqtisadi artım bir ölkənin ölçüləbilən iqtisadi amillərinin müəyyən müqayisə edilən dövr içində kəmiyyət baxımından dəyişməsidir. Ölkənin ümumdaxili məhsul həcminin artması həm iqtisadi böyümə və həm də iqtisadi inkişaf kimi nəzərdə tutulur. Burada iqtisadi artımla birgə əhalinin də artımı nəzərə alınır. Artım ölçülə bilən xüsusiyyətdə olduğu üçün mənfi (azalma, daralma) və ya müsbət (artım) kimi nəticəsi ola bilər. Məsələn: iqtisadiyyatda müxtəlif ölçülə bilən xüsusiyyətlər və göstəricilər: ÜDM, işlə təminat, ixracda, idxalda artım, əhali artımı və s. Bu ölçülər müəyyən dövrə aid hesablanır və müəyyən bir dövrlə də müqayisə edilir. Buna görə də burda həm riyazi olaraq artım, həm də azalma baş verə bilər [2, s.139].

Ancaq həm ÜDM-nin həm də əhali sayının artması eyni zamanda baş verməyə bilər. Bu baxışın əksikliyini təngid edən ikinci baxışa görə iqtisadi inkişaf isə daha çox fərdi bazda kalitatif-keyfiyyət baxımından müqayisəsi aparılan bir anlayışdır. Yuxarıda misal çəkdiyimiz ÜDM – iqtisadi artım, ÜDM/əhali sayı (adam başına düşən ümumi daxili məhsul) isə iqtisadi inkişaf göstəricisi bu baxımdan qəbul edilir. Ancaq, eyni zamanda bu görüşdə həm ÜDM-də, həm də əhalidəki dəyişmələr də nəzərə alınır və buna görə mütləq və nisbi dəyişmələrlə də bu nisbət hesablanır. Təbii ki, bu iki amildən birində olan dəyişmə adambaşına gəlirdə də dəyişməyə səbəb olacaqdır. Əgər, adambaşına düşən gəlirdə dəyişmə olmazsa yəni "0" olarsa bu durum iqtisadiyyatda stagnation-durğunluq, dəyişmə mənfi-azalma yönümündə olarsa, reqression-

geriləmə, müsbət-artım yönümündə olarsa, pozitiv dəyər olarsa development-inkişaf kimi qəbul edilir. Burada bir önəmli məsələni də qeyd etməyi lazım bilirəm. Üçüncü bir görüş isə bu haqqında ümumiyyətlə, ilk ikisindən fərqli olaraq sadəcə kantitativ-kəmiyyət göstərgələrindən yola çıxmaqla deyil, ümumiyyətlə iqtisadiyyatın strukturunda və müxtəlif sahələrdə baş verən irəliləyişin iqtisadi inkişafın göstəriciləri olaraq qəbul edir. Bu baxışın əsasını fransız iqtisadçısı Franchois Perroux qoymuşdur. Ona görə, iqtisadi artım real milli gəlirin müəyyən bir dövr içində düzənli dəyişməsidir. Bu adambaşına düşən ÜDM ilə də ölçülə bilər. İqtisadi inkişaf isə daha çox iqtisadiyyatın müxtəlif sahələrində və bütövlükdə struktural bazada olan dəyişikliklər, inkişafdır. Yuxarıdakı izahat nəticəsində qeyd edə bilərik ki, iqtisadi inkişaf iqtisadi artımdan daha geniş anlayışdır. Özündə həm kəmiyyət, həm də keyfiyyət baxımından dəyişiklikləri, inkişafı birləşdirir. İqtisadi inkişaf sadəcə müəyyən dövr ərzində əldə edilən ümumdaxili məhsulun artması demək deyil bu artımın iqtisadiyyatda və əhalinin rəfah səviyyəsindəki müsbət dəyişikliklərə təsirindən də ibarətdir. Ümumiyyətlə iqtisadi inkişaf davamlılıq xarakterdə olub, ən yaxşı iqtisadi strukturun əldə edilməsidir. İqtisadi inkişaf məqsədli iqtisadi siyasət aparılarsa, iqtisadi artım bu struktur dəyişiklərində əhəmiyyətli rol oynayar. İqtisadi artıma şərait yaradan dövlətin daxili siyasətinin istiqamətlərindən biri də mülkiyyət hüquqlarının qorunması və iqtisadi sabitliyin möhkəmləndirilməsidir. Bazar şəraitində əmtəə milyonlarla işçinin və çoxlu firmaların mürəkkəb qarşılıqlı əlaqələrinin nəticəsidir. Məsələn, əldə etdiyiniz avtomobilə avtomobil dilerlərinin, istehsalçı zavodların, polad tökmə, filiz emal edən və bir çox digər kompaniyaların əməyinin nəticələri daxildir. Müxtəlif firmaların müəyyən növ məhsul buraxılışı üzrə ixtisaslaşması istehsal amillərindən maksimal səmərəli istifadəyə nail olmağa imkan verir. Yüksək iqtisadi göstəricilərə nail olmaq üçün həm ayrı-ayrı firmalar, həm də istehsalçılar və istehlakçılar arasındakı münasibətlərin tənzimləmə mexanizminin yaradılması zəruridir. Bazar iqtisadiyyatında belə tənzimləyici kimi istehsal və istehlakın balansına nail olmağa imkan verən bazar qiymətləri çıxış edirlər. Bazar iqtisadiyyatının normal fəaliyyətinin mühüm şərti mülkiyyət hüquqlarına hörmət olunması və qorunmasıdır. Mülkiyyət hüquqları altında insanların malik olduqları resurslara azad sərəncam vermək imkanı başa düşülür. Məsələn, dağ mədən kompaniyası filizin satışından gələn gəlirləri əldə edəcəyinə əmin olmasa çətin ki, onun hasilatına başlasın. Bu səbəbdən də bazar iqtisadiyyatında mülkiyyət hüquqlarını qoruyan qanunlar mühüm rol oynayırlar. Cinayət hüququ bizi əmlakımıza birbaşa qəsd edilməsindən qoruyur, mülki hüquq isə satıcılar və alıcılar arasındakı əlaqələri tənzimləyir.Yüksək inkişaf etmiş ölkələrin sakinləri bütün mülkiyyət hüquqlarından tam həcmdə istifadə edirlər, lakin bu hüquqların yoxluğu ciddi problem olan bir çox ölkələr mövcuddur. Bir çox ölkələrdə məhkəmə sistemi pis qurumuşdur, tez-tez müqavilələrin şərtlərinə əməl olunmaması və cəzasız qalmış dolandırıcılıq hallarına rast gəlinir. Hökumətin mülkiyyət hüquqlarını təkcə qorumadığı deyil, hətta əksinə onları həyasızcasına pozduğu hallar məlumdur. Bəzi ölkələrdə biznes fəaliyyətinin müvəffəqiyyətlə aparılması üçün yüksək mənsəbli dövlət məmurlarına böyük məbləğdə rüşvət vermək zəruridir. Korrupsiya bazar mexanizmlərinin normal fəaliyyətinə, daxili əmanətlərin stimullaşdırılmasına, xarici investisiyaların cəlb olunmasına mane olur. Mülkiyyətçilərin hüquqlarına daxili siyasi qeyri-sabitlik də təhlükə törədir, xüsusilə inqilab və dövlət çevrilişləri adi hala çevrilən yerlərdə. Əgər yeni inqilabi hökumət şəxsi kompaniyaları mülkiyyətlərindən asanlıqla məhrum edirsə, hansı ki, belə hallar kommunist çevrilişləri zamanı tez-tez baş verir, əhalinin əmanətlərə, investisiyalara və öz işini açmağa stimulları itir. Buna görə də özü özlüyündə sadəcə inqilab təhlükəsi belə həyat səviyyəsinin artımına maneçilik törədir Beləliklə, iqtisadi çiçəklənmə qismən dövlətdə bərqərar olmuş daxili siyasi şərtlərdən asılıdır [3, s.54].

Yüksək səmərəli məhkəmə sistemini, korrupsiyasız hökuməti və dayanıqlı konstitusiya intizamı olan ölkələr həmişə qanunlara əməl olunmayan, məmurların rüşvət aldığı və daimi inqilab, yaxud çevrilişlər təhlükəsi olan ölkələrə nisbətən daha yüksək həyat səviyyəsinə malik olacaqlar. Bir çox kasıb ölkələr daha sürətli iqtisadi artıma qapalı qapı siyasətinin köməyi ilə nail olmağa çalışırdılar.

Bu siyasətin məqsədi ətraf aləmlə işgüzar əlaqələrin eyni zamanlı məhdudlaşdırılması ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsidir,ona görə ki, çox vaxt daxili istehsalçıların xarici əmtəələrin rəqabətindən qorunma tədbirlərinə ehtiyacları var. Milli istehsalçıların zəifliyini əks etdirən belə dəlillər xaricilərə ümumi inamsızlıq hissləri ilə birlikdə çox vaxt iqtisadi cəhətdən geridə qalmış dövlətlərin hökumətlərini yüksək gömrük hədləri qoymağa və ticarətin məhdudlaşdırılmasının digər tədbirlərini tətbiq etməyə məcbur edir. Lakin bu gün iqtisadçıların əksəriyyəti belə bir nəticəyə gəlmişlər ki, zəif inkişaf etmiş ölkələrin dünya təsərrüfatına inteqrasiyasına yönəldilmiş açıq qapı siyasəti özünü daha effektiv təqdim etmişdir. Müəyyən mənada ticarət xüsusi texnoloji prosesdir. Belə ki, buğdanı ixrac edib, poladı idxal edən ölkə faktiki olaraq bir əmtəənin digərinə çevrilməsinin yeni texnologiyasını icad edir. Buna görə də beynəlxalq ticarətə maneələri ləğv edən ölkələr özləri üçün yeni istehsal texnologiyalarının tətbiqi zamanında olduğu kimi iqtisadi artım üçün zəmin yaradır. Qapalı qapı siyasətinin mənfi nəticələri zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının çox da böyük olmayan ölçülərini nəzərə aldıqda daha da aydın görünür. Belə ki, məsələn, Argentinanın ÜDM-u təqribən Filadel-fiyanın məcmu məhsulunun həcminə bərabərdir. Bu şəhərin hakimiyyət orqanlarının sakinlərin ABŞ-nın digər əhalisi ilə ticarət etməsini qadağan etdiyi situasiyanı təsəvvür edin. Ticarətdən əldə olunan gəlirlərdən istifadə etmək imkanlarından məhrum olunmuş Filadelfiya təkcə istehlak malları deyil, istehsal vasitələri də istehsal etmək məcburiyyətində qalacaq. Şəhərin əhalisinin həyat səviyyəsi dərhal düşəcək və azalmağa davam edəcəkdir. Belə bir vəziyyət XX əsrin böyük hissəsi boyunca qapalı qapı iqtisadi siyasətini həyata keçirən Argentinada da müşahidə olunurdu. Digər tərəfdən azad ticarətə yönəlmiş Cənubi Koreya, Sinqapur və Tayvan kimi ölkələr iqtisadi artımın yüksək göstəricilərinə nail olmuşdurlar. Xarici ticarətin həcmi təkcə dövlətin siyasətindən deyil, coğrafi mövqedən də asılı ola bilər. Belə ki, dənizə çıxışı olan ölkələr qitənin daxilində yerləşən ölkələrə nisbətən öz ticarətlərini daha aktiv inkişaf etdirirlər. Təsadüfi deyil ki, dünyanın bir çox böyük şəhərləri məsələn, Nyu-York, San-Fransisko, yaxud Hon-Konq dənizlərin və okeanların sahillərində yerləşirlər. Hər tərəfdən quru ilə əhatə olunmuş ölkələr isə xarici iqtisadi əlaqələrin qurulması və saxlanılmasında çətinliklər hiss edirlər və çox vaxt da məhz bu səbəbdən onların əhalisinin həyat səviyyəsi qonşu ölkələrinkindən aşağı olur.Əmək məhsuldarlığı və həyat səviyyəsi göstəriciləri qismən əhalinin artım sürətindən asılı olur. Aydındır ki, ölkə əhalisinin sayı onun əmək resurslarını müəyyən edir. Təəccüblü deyil ki, çoxlu əhalisi olan ölkələrdə məsələn, ABŞ və Yaponiya, Lüksemburq və Niderlandda olduğundan daha yüksək ÜDM-a malikdirlər. Lakin ÜDM-un səviyyəsi öz-özlüyündə iqtisadi rifahın obyektiv meyarı ola bilməz. Həyat səviyyəsinin müəyyən olunması üçün əhalinin adambaşına düşən ÜDM-u yəni, bir nəfərə düşən istehsal olunmuş əmtəə və xidmətlərin dəyərini bilmək daha vacibdir. Əhalinin artımı adambaşına düşən ÜDM-un göstəricisinə necə təsir göstərir? Aydındır ki, azalma istiqamətində, ona görə ki, işləyənlərin sayı artdıqda digər istehsal amillərinin bir nəfərə düşən payı aşağı düşür. Xüsusilə, əhalinin sürətli artımı zamanı hər işləyənin böyük istehsal vasitələri kəmiyyəti ilə təmin olunması çox problemli olur. Bir fəhləyə düşən kapitalın miqdarının aşağı göstəricisi onun əmək məhsuldarlığının uyğun səviyyəsini və deməli, əhalinin adam başına düşən ÜDM-nun aşağı səviyyəsini müəyyən edir. İnsan kapitalındakı dəyişikliklərin təhlili zamanı problem daha aydın üzə çıxır. Belə ki, əhalinin artım sürəti yüksək olan ölkələrdə məktəb yaşlı uşaqlar çoxdur, bu da təhsil sistemi üçün əhəmiyyətli çətinliklər yaradır. Buna görə də təəccüblü deyil ki, belə ölkələrdə məktəblərdə əldə olunan biliklərin səviyyəsi çox da yüksək deyil. Müxtəlif ölkələrin əhalisinin artım sürəti göstəriciləri müxtəlifdir. Belə ki, Qərbi Avropanın yüksək inkişaf etmiş ölkələrində və ABŞ-da son on illiklər ərzində əhali ildə təxminən 1 % artmışdır: bu göstəricinin gələcəkdə aşağı düşməsi gözlənilir. Afrikanın bir çox yoxsul ölkələrində isə əksinə, əhali ildə 3% artır. Belə sürətin saxlanılması şəraitində əhali hər 23 ildən bir 2 qat artacaq. Ümumi rəyə əsasən, inkişaf etməkdə olan ölkələrin əhalisinin artım sürətinin azalması onların həyat səviyyəsinin yüksəldilməsi yollarından biridir.

Bəzi ölkələrdə bu məqsədə ailədə uşaqların sayını məhdudlaşdıran qanunların köməyi ilə nail olunur. Məsələn, Çində evli cütlərə yalnız bir uşağa malik olmağa icazə verilir, bu qaydanın pozulması isə ciddi cərimələnir. Daha liberal ölkələrdə bu problem kontraseptiv vasitələrin geniş tətbiq olunması yolu ilə həll olunur. Nəhayət, doğum sayının azaldılması yollarından biri də stimulların insanların hərəkətlərini müəyyən etməsini iddia edən Ekonomiksin on qaydasından birinin tətbiqindən ibarətdir. Digər hərəkətlər kimi uşağın doğulması əldən çıxarılmış imkanlarla bağlıdır. Əgər alternativ məsrəflər yüksəkdirsə insanlar kiçik ailələrə üstünlük verirlər. Xüsusilə, təhsil əldə etmək və karyera qurmaq imkanına malik olan qadın özü üçün evdən kənarda heç bir perspektiv görməyən qadına nisbətən daha az uşağının olmasına üstünlük verəcək. Beləliklə, faktiki olaraq cinslərin bərabərliyinin təmin olunmasına yönəldilmiş siyasət zəif inkişaf etmiş ölkələrə əhalinin artım sürətini azaltmağa kömək edəcək. Kəşflərin əksəriyyəti fərdi tədqiqat firmaları və ayrı-ayrı istedadlı şəxslər tərəfindən olunsa da cəmiyyətdə həmişə onların səylərini stimullaşdıran maraq mövcuddur. Geniş mənada biliklər özündə ictimai sərvəti əks etdirirlər: bir insanın kəşfi ümumi biliklər «xəzinəsinə» daxil olur və hər kəsin ixtiyarına verilir. Belə ki, hökumət ictimai rifahın təmin olunması üzrə öz öhdəliklərinə əsasən müdafiə məsələləri ilə məşğul olduğu üçün o, yeni texnologiyalar sahəsində kəşfləri və tədqiqatları həvəsləndirir. Uzun müddət ərzində ABŞ hökuməti texniki biliklərin yaradılması və yayılmasında mühüm rol oynamışdır. Hələ 100 il bundan əvvəl o, kənd təsərrüfatı sahəsində tədqiqatları maliyyələşdirirdi və fermerləri torpaqları səmərəli istifadə etməyi öyrədirdi. Son on illiklərdə hökumət NASA tərəfindən aparılan aerokosmik tədqiqatlara böyük dəstək verirdi, bunun nəticəsində Amerika aviasiya və kosmik texnika istehsalçıları arasında qabaqcıl mövqe tutur. Hökumət Milli Elm Fondu və Milli Sağlamlıq İnstitutu tərəfindən bölüşdürülən qrant sistemləri vasitəsilə, eləcə də qabaqcıl tədqiqatlarda iştirak edən firmalara vergi güzəştlərinin tətbiq olunması yolu ilə elmin inkişafını həvəsləndirir.İxtiraçı fəaliyyətinin himayə edilməsinin digər istiqaməti patent sisteminin qorunması və təkmilləşdirilməsidir. Məsələn, ayrıca ixtiraçı, yaxud firma doğrudan da orijinal olan yeni məhsul yaradırsa dövlət ona patent almaq imkanını təqdim edir.

Patentləşdirilmiş məhsulun istehsalçısı müəyyən müddət ərzində onun hazırlanması üzrə müstəsna hüquqa malik olur. Əslində patent ictimai sərvətə çevrilmiş ideyadan şəxsi gəlir əldə etməyə imkan verən kəşfə ixtiraçının mülkiyyət hüququnu özündə özündə əks etdirir. Belə yolla patent sistemi yaradıcı fikrin inkişafı üçün maddi stimul yaradır.Bu işdə biz müxtəlif ölkələrin əhalilərinin həyat səviyyəsini müəyyən edən amilləri və hökumətin iqtisadi artıma yönəldilmiş siyasətinin əhəmiyyətini nəzərdən keçirdik. Bu işdə deyilənlərin əksəriyyəti İqtisadi nəzəriyyənin on prinsipindən biri: ölkənin həyat səviyyəsi onun iqtisadiyyatının əmtəə və xidmətləri istehsal etmək qabiliyyətindən asılıdır prinsipi ilə ümumiləşdirilir. Milli rifahın yüksəldilməsinə can atan dövlət xadimləri istehsal amilləri yığımının yüksək sürətlərini həvəsləndirməklə və onların ən səmərəli istifadəsinə təminat verməklə iqtisadi artım üçün şərait yaratmalıdırlar.Alimlər iqtisadi yüksəlişin təmin olunmasında dövlətin roluna dair müxtəlif baxışların tərəfdarıdırlar [5, s.35]. Lakin, onların hamısı onda həmfikirdirlər ki, onun əsas funksiyası mülkiyyət hüquqlarının təminatçısı olmaq və siyasi sabitliyin qorunmasıdır. Texniki tərəqqi baxımından daha mühüm olan ayrı-ayrı sənaye sahələrinə subsidiyaların verilməsi və planlaşdırılmasının zəruriliyi barədə məsələ daha mübahisəli görünür. Buna baxmayaraq bu problemlər müasir iqtisadiyyat üçün mühüm olaraq qalırlar. Siyasətçilərin iqtisadi artımın determinantlarının nə dərəcədə yaxşı dərk etməsindən gələcək nəsillərin həyatı çox asılıdır. İnkişafın əsas məqsədi insanlara uzun, sağlam və yaradıcı həyatlarından zövq almaları üçün əlverişli mühitin yaradılmasından ibarətdir. İnsan inkişafı bu baxımdan insanların seçim imkanlarının artırılması prosesidir. Aydındır ki, insan inkişafı ilə iqtisadi artım arasında qarşılıqlı əlaqənin mövcud olmasına baxmayaraq, bu rabitə öz-özünə yaranmır və iqtisadiyyatın strukturu, gəlirlərin bölgüsü, həyata keçirilən siyasət tədbirləri kimi bir sıra amillərdən asılıdır. Həmçinin, insan inkişafının yüksək səviyyəsi insanların imkanlarının genişlənməsi, nəticədə onların yaradıcılığı və məhsuldarlığı sayəsində iqtisadiyyata təsir göstərir.

İnsanların daha yaxşı qidalanması, təhsili və sağlamlığı yüksək əmək məhsuldarlığı, təkmilləşdirilmiş texnologiya və yüksək ixrac vasitəsilə iqtisadi artıma öz töhfəsini verir.

Ənənəvi iqtisadi artım modellərindən fərqli olaraq, yeni iqtisadi artım nəzəriyyələrində təhsil, öyrənmə, tədqiqat və inkişaf etdirmə fəaliyyətlərinin təsiri nəzərə alınaraq texnoloji tərəqqi endogen amil kimi qəbul edilir və insan kapitalı modelin mərkəzində yer alır. İqtisadi artım insan inkişafının davamlı yaxşılaşması üçün zəruri resursları təmin edir. Digər tərəfdən, əmək resurslarının keyfiyyətinin yaxşılaşması iqtisadi artım baxımından mühüm əhəmiyyət kəsb edir. Qısamüddətli dövrdə iqtisadi artım mövcud resurslardan daha səmərəli istifadə olunmaqla təmin edilə bilər. Uzun müddətli dövrdə isə iqtisadi artıma mövcud istehsal amillərinin kəmiyyət artımının təmin edilməsi, keyfiyyətinin yüksəldilməsi və ya hər iki vəziyyətin eyni zamanda reallaşması ilə nail oluna bilər. Bununla yanaşı, qısamüddətli iqtisadi artım iqtisadiyyatda cari dövrdə əvvəlki dövrlə müqayisədə əmtəə və xidmətlərin istehsalındakı artımı, uzunmüddətli iqtisadi artım isə ÜDM-dəki dəyişmələrin fundamental meyillərini ifadə edir. Bir sıra ölkələrdə hər nəfərə düşən ÜDM-in həcminin yüksək olmasına baxmayaraq, yaşayış keyfiyyətinin aşağı olması iqtisadi artımın iqtisadi inkişafla dəstəklənmədiyini ortaya qoyur. Rifah anlayışı, fərdlərin layiqli gəlir səviyyəsinə sahib olduğu, fizioloji tələbatları ilə yanaşı sosial və mədəni ehtiyaclarının da ödəndiyi inkişaf etmiş cəmiyyəti, buna müvafiq olaraq, rifah dövləti də ictimai mənafeyi ön planda tutan, bazar iqtisadiyyatına əsaslanan bir anlayışı təmsil edir. Həyat standartları insanların gəlir səviyyəsi, yığımları, istehlak xərcləri içərisində qeyri-ərzaq mallarının xüsusi çəkisi, səhiyyə xidmətlərindən istifadə səviyyəsi və s. kimi olduqca müxtəlif amillərlə birbaşa əlaqəlidir. Bu baxımdan həyat standartları ölçülərkən ayrı-ayrı məqsədlər ön plana çıxır. Məqsədlərin müxtəlifliyi araşdırılan indikatorların və istifadə edilən alətlərin də sayının artmasına səbəb olmuşdur. Bəşər tarixinin hər mərhələsində mövcud olan yoxsulluq, sadəcə iqtisadi deyil, sosial və əxlaqi xüsusiyyətləri ilə birlikdə kompleks problemdir. Əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi ilə bağlı müxtəlif yanaşmaların olması səbəbindən yoxsulluq anlayışının tərifi də yoxsulluq səviyyəsinin hansı metodoloji yanaşma ilə ölçülməsinə görə dəyişir.

Yoxsulluq səviyyəsinin ölçülməsində ən yeni yanaşma olan Çox amilli yoxsulluq indeksi fərdlərlə bağlı səhiyyə, təhsil və yaşayış standartı üzrə bir sıra çatışmazlıqları nəzərə alır. Yoxsulluq səviyyəsinin azaldılması istiqamətində həyata keçirilən siyasətlərin effektivliyi yoxsulluğun səbəblərinin düzgün diaqnozundan birbaşa asılıdır. Yoxsulluğun səbəblərindən biri iqtisadi resursların məhdud olmasıdır. Lakin mövcud olan resursların qeyri-bərabər bölgüsü yoxsulluğun daha əhəmiyyətli səbəbi kimi qəbul edilir. Bu baxımdan, yoxsulluq problemi ilə mübarizədə mövcud istehsal səviyyəsinin yüksəldilməsinə paralel olaraq, artan gəlirlərin ədalətli bölgüsü də xüsusi əhəmiyyət daşıyır.Ümumilikdə isə, ölkənin spesifik şərtləri nəzərə alınmaqla bərabərsizliyi törədən amillər düzgün təhlil edilməli, yalnız bundan sonra hansı tədbirlərin həyata keçirilməsinə və ya keçirilməməsinə qərar verilməlidir. Azərbaycanda Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində müvafiq siyasət tədbirləri həyata keçirilmiş və mühüm nəticələr əldə olunmuşdur. İllər üzrə müşahidə edilən yüksək iqtisadi artım fonunda yoxsulluq səviyyəsinin kəskin şəkildə ixtisarı mümkün olmuşdur. Bu nailiyyətlər əlaqədar beynəlxalq hesabatlarda da öz əksini tapmışdır. Qarşıda duran əsas vəzifə ölkə iqtisadiyyatının diversifikasiyasına nail olmaq, hazırkı investisiyaya əsaslanan ölkə iqtisadiyyatının ümumi amillər üzrə məhsuldarlığındakı artım sayəsində tədricən artan məhsuldarlığa əsaslanan iqtisadiyyata transformasiya etməkdən ibarətdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Bankı. Pul siyasəti icmalı. Yanvar-iyun 2011. Bakı, 2011, 48 s.
2. Azərbaycanın Milli Hesabları // Statistik toplu. Bakı, 2006, 2007, 2008, 2009, 2010. Bakı: Azərbaycan DSK-nın buraxılışı. s.139
3. Azərbaycanın statistik göstəriciləri 2006, 2010. Azərbaycan Dövlət Statistika Komitəsi, Bakı: Səda, 54 s.

4. Azərbaycanın statistik göstəriciləri 2015. Bakı: Səda, 2015.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər), 11 fevral 2004-cü il, s.35.
6. Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı üzrə Dövlət Proqramı (2005-2015-ci illər). 14 fevral 2005-ci il.
7. Allahverdiyev Ə. Bazar iqtisadiyyatının təşəkkülü prosesində makroiqtisadi dinamik və struktur dəyişikliklərin tənzimlənməsi problemləri. Bakı: Elm, 2001.

**РЕЗЮМЕ**
**ГОСУДАРСТВЕННОЕ РЕГУЛИРОВАНИЕ ЭКОНОМИЧЕСКОГО РОСТА**
***Аббасова С.И.***

***Ключевые слова:*** *экономический рост, качество, регрессионный спад, развитие, диверсификация.*

В статье отмечается, что общий рост ВВП в стране может быть показателем экономического роста и экономического развития населения. Экономика имеет различные измеримые характеристики: ВВП, занятость, экспорт, импорт, рост населения. Эти цифры рассчитаны на определенный период и сравниваются с конкретным периодом.

**SUMMARY**
**STATE REGULATION OF ECONOMIC GROWTH**
***Abbasova S.I.***

***Key words:*** *economic growth, quality, decline, development, diversification*.

The article notes that the overall GDP growth in the country can be an indicator of economic growth and economic development of the population. The economy has different measurable characteristics: GDP, employment, exports, imports, population growth. These figures are calculated for a certain period and compared with a specific period.

Daxilolma tarixi: İlkin variant 18.09.2018
Son variant 17.12.2018

**UOT 33.012.44**

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA AQROPARKLARIN YARADILMA XÜSUSİYYƏTLƏRİ

**MİRZƏYEV RUSLAN ZAHİD oğlu**
*Lənkəran Dövlət Universiteti, doktorant*
ruslan.mirzeyev01@mail.ru

***Açar sözlər:*** *aqropark, aqlomerasiya, dayanıqlı inkişaf, ekoloji istehsal, ərzaq təhlükəsizliyi, loqistika, meqapolis, nəqliyyat dəhlizi, innovasiya, sənaye ekologiyası*

Sürətli urbanizasiya prosesi hal-hazırda dünyanı cənginə almışdır. BMT hesablamalarına görə, şəhər əhalisi 2050-ci ildə 70%-dək artacaqdır. Qloballaşma və ümumdünya ictimai şəbəkəsinin meydana gəlməsi urbanizasiyalaşmanın səbəb və nəticəsidir [2].

Hal-hazırda bütün dünyada k/t-ı istehsalı, sənaye xammalı ilə təminat, ilkin emal və sənaye emalı da daxil olmaqla zəncirvari xarakter daşıyır. K/t təkcə şəhər ətraflarında deyil, yerli səviyyələrdə də açıq çıxış edir. Niderland kimi urbanizasiyalaşmış bir ölkədə k/t sahələri ölkə ərazisinin 2/3-ni təşkil edir. Artıq bu cür istehsal, meqapolislərin tələbatını ödəmək iqtidarında olmur.

Mövcud vəziyyət fonunda, “K/t sistemi dünya əhalisini doyura biləcəkmi?” – sualı ortaya çıxır. Şəhərlərdə əhali çoxluğu, böyük mülk və alıcılıq qabiliyyətinin olmasını xarakterizə edir. Bu baxımdan hazırda dünyada aqroparkların urbanizasiya şəraitində davamlı inkişafa nail olmaq qabiliyyətində olması qeyd olunur.

Aqropark müəyyən ərazi və ətraflarda aqrar təsərrüfatla əlaqəli cəmlənmiş fəaliyyət və funksiyaları ifadə edir. Aqroparklar, yüksək bilik və texnologiyalara əsaslanan yüksək məhsuldarlıqlı məhsul istehsalı, bitki və heyvan mənşəli məhsulların sənaye emalını özündə birləşdirir. Burada tullantıların səmərəli istifadəsi və emalı su, qaz və yanacağa olan tələbatın kəskin azalmasına gətirib çıxarır. Aqroparklara, aqrar sektora sənaye ekologiyasının tətbiqi kimi də baxmaq olar [10, s.144-152]. Aqroparklar qlobal şəbəkədə fəaliyyət göstərən k/t planlaşdırmasının nəticəsidir və təkcə k/t sahəsi ilə əlaqəli deyil, həmçinin əlaqədar tərəflər arasında innovasiyadır. Aqroparkların əsas məqsədi planet, insan və mənfəət məqsədlərini bir nöqtədə birləşdirməkdir [8].

Aqropark, onun fiziki aktivlərindən daha genişdir. O, ümumi əmlakla birlikdə yerləşdirilmiş funksional istehsal və aqrobiznes xidməti, həmçinin, adətən, parkla eyni ərazidə yerləşən mərkəzləşdirilmiş idarə olunan ixtisaslaşdırılmış bölmənin (dövlət, dövlət-özəl, özəl) olmasını tələb edir [6].

Parkın yerləşməsi bir neçə amildən asılıdır:

- Sənaye parkı üçün torpaq sahələrinin mövcudluğu;
- Onun əsas fəaliyyətinin xarakteri;
- Şlüz (gateway) infrastrukturuna giriş;
- Digər parametrlər: yaxşı təbii sərvət, müvəffəqiyyətli istehsal və başqa proseslər üçün lazım olan utilitlərin mövcudluğu [6].

Yaxın onillikdə Azərbaycanın qarşısında duran əsas məsələlərdən biri qeyri-neft sektorunun aparıcı bölməsi hesab olunan aqrar-sənaye sektorunun inkişafını təmin etməkdir. İqtisadiyyata və aqrar sferaya innovasiyaların tətbiqi və modernləşdirmənin aparılması ən əsas prinsiplərdəndir. Bu məqsədlə aqrar sektorun innovativ meyarlara uyğun qurulması, aqroparkların (aqrotexnopak) yaradılması əsas hədəflərdən hesab olunur. Cənab Prezident ölkədə aqrar sektorun inkişafı,

modernləşdirilməsi və ərzaq təhlükəsizliyinin təmin olunması istiqamətində - aqroparkların yaradılması təklifini irəli sürmüşdür. Aqroparkların yaradılması ölkəmiz üçün yeni bir mexanizmdir [1].

Ölkədə regionların sosial-iqtisadi inkişafı Azərbaycan Respublikası Prezidenti tərəfindən 11 fevral 2004-cü ildə "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004-2008-ci illər)" və 14 aprel 2009-cu ildə "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafi Dövlət proqramı" qəbul edilmişdir. Aparılan işlərə baxmayaraq, regionların sosial-iqtisadi inkişaf səviyyəsinin hələ də geri qalması bu istiqamətdə tədqiqat işlərinin aparılmasını zəruri edir [9, s.6].

Artıq respublikanın ayrı-ayrı regionlarında müxtəlifprofilli aqroparklar yaradılmışdır və yaxın gələcəkdə əksəriyyəti bitkiçilik olmaqla, bitkiçilik və heyvandarlıq yönümlü aqroparkların sayının 43-ə çatdırılması nəzərdə tutulur. Yaradılacaq aqroparklar 10 minə yaxın əhalinin işlə təmin olunmasına imkan verəcəkdir [11].

Respublikanın cənub-şərqində yerləşən Lənkəran-Astara iqtisadi rayonuna, 6 inzibati rayon: Cəlilabad, Masallı, Lənkəran, Astara, Lerik və Yardımlı inzibati rayonları daxildir. Lənkaran-Astara iqtisadi rayonu cənubdan və qərbdən İran, şərqdən Xəzər dənizi, şimaldan və şimal-şərqdən Aran iqtisadi rayonu ilə həmsərhəddir. Lənkəran-Astara iqtisadi rayonu ölkə iqtisadiyyatında ən geniş bazar potensialına malikdir. Rusiya, İran və Hindistanı birləşdirən şimal-cənub dəhlizi də iqtisadi rayonunun ərazisindən keçir.

İqtisadi rayonun əhalisinin böyük hissəsi (2009-cu ilin yanvarın 1-nə 75,2 faizi) kənd yerlərində yaşadığından kənd təsərrüfatı sahəsi əhalinin sosial-iqtisadi həyatında mühüm yer tutur. Regionun ümumi məhsulunda kənd təsərüfatının payı 2008-ci ildə 50,1 faizə bərabər olmuşdur. İndiyədək iqtisadi rayonda yaradılan yeganə aqropark, heyvandarlıq və bitkiçilik istiqamətli "Günəşli-Aqro" MMC aqroparkıdır [9, s.30].

Astara, Cəlilabad, Masallı və Lənkəran rayonlarında kənd təsərrüfatı istehsalında bitkiçilik əhəmiyyətli şəkildə üstünlük təşkil edir. Lerik və Yardımlı rayonlarının iqtisadiyyatının əsasını isə heyvandarlıq təşkil edir.

Regionda tütün istehsalı isə 2007-ci ildən dayandırılmışdır. Üzüm istehsalı, xüsusilə Cəlilabad rayonunda inkişaf etdirilir. Dənli və dənli istehsal həcminin 7,7 faizini təşkil edir. Son illərdə regionda dən üçün qarğıdalı əkin sahəsi 4,3 dəfə artmışdır. 2017-ci ildə 526 hektarda çəltik əkilib, 1815 ton məhsul istehsal olunub, 4,4 milyon manat gəlir əldə edilib.

***Cədvəl.***

*Lənkəran-Astara iqtisadi rayonunun kənd təsərrüfatı bitkiləri üzrə əkin sahəsinin bölgüsü (hektar)*

| | **2004** | **2005** | **2006** | **2007** | **2008** |
|---|---|---|---|---|---|
| K/t bitkilərinin əkin sahəsi | 102538 | 102430 | 102395 | 94931 | 111206 |

Region üçün pambıq əkin sahələri xaraterik olmasa da, 2005-ci ildən Cəlilabad rayonunda az da olsa, pambıq əkilir (2008-ci ildə 20 ha) [12].

Regionda son ildə çay plantasiyasından 16 min tondan çox yaşıl çay yarpağından 4,2 min ton quru çay istehsal olunub ki, bu da respublikada o dövrdə çaya olan tələbatın 50 faizini təşkil edib [11].

İqtisadi rayonun tərəvəz və bostan məhsulları istehsalının böyük əksəriyyəti Masallı və Astara rayonlarının payına düşür. Belə ki, 2008-ci ildə regionda istehsal olunan bostan məhsullarının 86,7 faizi bu iki rayonun payına düşmüşüdür.

Meyvəçiliyin inkişafı üçün potensial imkanlar mövcuddur. Bağlarının əksəriyyəti sitrus meyvələri olmaqla, 65,6 faizi Astara və Lənkəran rayonlarının payına düşür [11].

İqtisadi rayonun əhalisi çayçılığın  və digər yerli xarakteli k/t məhsullarının istehsalı və məhsul yığımı sahəsində ənənələrə malikdirlər. Rayonun əlverişli təbii-iqlim şəraiti, heyvandarlığın inkişafı üçün də geniş imkanlar yaradır. Son illərin statistik məlumatlarına görə, regionda mal-qaranın ümumi sayının 51,7 faizi Cəlilabad və Masallı rayonlarının payına düşmüşdür [13].

İstənilən regionunun sosial-iqtisadi inkişafında sənaye mühüm yer tutur. Çünki sənayenin inkişaf etdirilməsi və onun sahə strukturunun təkmilləşdirilməsi məşğulluq probleminin həllinə kömək edir, əhalinin sənaye məhsularına olan tələbatı ödənilir, regionlararası və regiondaxili iqtisadi əlaqələr, o cümlədən xarici iqtisadi əlaqələr təkmilləşir və son nəticədə əhalinin həyat səviyyəsinin yüksəldilməsinə nail olunur.

İqtisadi rayonda k/t sahəsi üzrə, xüsusən onun çayçılıq, sitrusçuluq və tərəvəzçilik üzrə zəngin ənənələrə malik olması, ilk növbədə, məhz bu istiqamətlər üzrə aqroparkların təşkil olunmasını zəruri edir. İqtisadi rayonda aqropark kimi təsərrüfat-ərazi təşkili formasının yaradılması ilk öncə zəngin resurs potensialını mövcudluğuna söykənir. Sənaye parklarının (texnopark, aqropark) yaradılması zamanı zəruri olan şərtlərdən biri də sənayenin ixtisaslı kadrlara olan tələbatının ödənilməsidir.

Dünya təcrübəsində, aqroparkların layihələndirilməsinin aşağıdakı növləri vardır:

1. Delta Park (şəhər ərazilərində sənaye mülkiyyətində salınmış, sənaye emalının intensiv sektorları ilə bağlı olmayan kombinasiyanı təşkil edir).
2. Aqro-ixtisaslaşmış park (əczaçılıq preparatları, kosmetika, bioloji qablaşdırma və ekoloji təmiz yarımfabrikatlar kimi dənəvər məhsullarının ixtisaslaşdırılmış məhsullara sənaye emalını təmin edir).
3. Yaşıl park (kənd ərazilərində heyvandarlıq, bitkiçilik torpaq fondlarını və mərkəzləşdirilmiş sənaye emalını özündə birləşdirir).
4. Kənd parkı (donuz, ev quşları və mal-qaranın saxlandığı, bitki və tərəvəzlərin isə şəhər yaxınlığındakı topoqrafik aqrar sahələrdə becərildiyi məkan klasterləşməsidir).

Fikrimizcə, bu modellərdən “Yaşıl park” və “Kənd parkı” tipli aqroparkların iqtisadi rayonda yaradılması daha məqsədəuyğun olardı. Çünki şəhərətrafı mərkəzləşdirilmiş sənaye emalını özündə birləşdirməklə, xammal və yarımfabrikat nəqletmələrini ixtisara salır, bitki və heyvan məhsullarının topoqrafik aqrar sahələrdə becərildiyi məkan klasterləşməsi yaradır. Burada enerji istehsalı, biokütlə emalı, tullantıların təkrar emalını həyata keçirməklə ekoloji istehsalı yaratmaq mümkündür.

Elmtutumlu sənayenin formalaşması dünya təcrübəsində olduğu kimi, gələcəkdə universitet-aqropark-texnopark əlaqəli kampusların inkişafına yol aça, regionun iqtisadiyyatının və rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə, həmçinin turizm potensialının artmasına və artıq qərb ölkələrində ənənəvi turizm sahəsi sayılan aqroekoturizmin respublikada inkişafına şərait yarada bilər.

Əhalinin ərzaqla təmin olunması və k/t məhsullarına əlavə edilmiş dəyərlə tələbatın artması gələcək perspektivdə iqtisadi artım, ərzaq təhlükəsizliyi, yoxsulluqla mübarizə kontekstində aqrar sənayenin inkişafına diqqətin artırılması üçün stimuldur. İş yerlərinin və dəyərin artırılması nöqteyi-nəzərindən, aqrar sənayeçilər qeyd olunanlar sayəsində yüksək multiplikativ effekt əldə edirlər. Lənkəran-Astara iqtisadi rayonunun nəqliyyat dəhlizi, bazar, işçi qüvvəsi, loqistika və digər lazımı tələbatlar baxımından heç bir tərəddüdlü vəziyyəti qeyd olunmur. Ona görə də gələcək perspektivdə dayanıqlı inkişafa nail olmaq, ərzaq təhlükəsizliyinin qarşısını almaq, əhalinin məşğulluq problemini həll etmək, regionun rəqabətqabiliyyətliliyini yüksəltmək, iqtisadi dayanıqlılığa və kənd təsərrüfatının yenidən dirçəldilməsinə nail olmaqdan ötrü iqtisadi rayonda yeni formalı aqroparkların yaradılması sürətləndirilməli, pilot layihələrin tədqiqat işləri davam etdirilməlidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Yekun hesabat. 2014.
2. Castells M. (2000). *The information age: Economy, society and culture. Volume 1: the rise of the network society*. Blackwell, Oxford, UK).
3. Deichmann, U., Kaiser, K., Lall, S.V. & Shalizi, Z. 2005. *Agglomeration, transport and regional development in Indonesia*. World Bank Policy Research Working Paper 3477. Washington, DC, World Bank.

4. De Wilt, J.G., Van Oosten, H.J. & Sterrenberg, L. 2000. *Agroproduction parks: perspectives and dilemmas*. The Hague, the Netherlands.
5. Hutchison, R. 2010. *Encyclopedia of Urban Studies*. Thousand Oaks, California, United States of America, SAGE Publications, Inc. Available at: http://dx.doi.org/10.4135/9781412971973
6. Lowe, E. 2001. *Eco-Industrial Park Handbook for Asian Development Countries*. Oakland, California, United States of America, Indigo Development.
7. Park, R.E. & Burgess, E.W. 1925. *The City*.
8. P.Smeets, M.Mansfeld, C.Zhang, R.O.Loohuis, 2007
9. Regional iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri (Lənkəran iqtisadi rayonu timsalında). Bakı, 2009.
10. Frosch R.A. and Gallopoulos N.E. The concept of industrial ecology was first used in industrial areas belonging to the chemical industry, whereby means were sought to use waste material from one production process as raw material for another. 1989. Strategies for manufacturing. *Scientific American* 261: pp.144-152.
11. http://www.president.az/
12. http://www.economy.gov.az/
13. http://ier.az/az/



## РЕЗЮМЕ
## ОСОБЕННОСТИ СОЗДАНИЯ АГРОПАРКОВ В ЛЕНКОРАНЬ-АСТАРИНСКОМ ЭКОНОМИЧЕСКОМ РАЙОНЕ

***Мирзоев Р.З.***

***Ключевые слова:*** *агропарк, агломерация, устойчивое развитие, экологическое производство, продовольственная безопасность, логистика, мегаполис, транспортный коридор, инновации, промышленная экология.*

Создание агропарков подразумевает развитие сельского хозяйства, аграрной промышленности, переработки, предпринимательского потенциала и предприятий, решений в области продовольственной безопасности. Внедрение передовых технологий и организация научного производства способствуют росту экономики региона.



## SUMMARY
## FEATURES OF THE ORGANIZATION OF AGROPARKS IN LENKORAN-ASTARA ECONOMIC REGION

***Mirzayev R.Z.***

***Key words:*** *agropark, agglomeration, sustainable development, ecological production, food security, logistics, metropolis, transport corridor, innovation, industrial ecology.*

The creation of agroparks includes the development of agriculture, agrarian industry, processing, development of entrepreneurial potential and decisions in the field of food security. The introduction of advanced technologies and the organization of scientific production contribute to the growth of the region's economy



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 01.10.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 33.012**

# AQRAR SFERADA İNNOVASİYALARIN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN ƏSASLARI

**[1]KÖÇƏRLİ HİCRAN RAFİQ qızı**
**[2]SEYİDOVA SƏMİRƏ RASİM qızı**
*Sumqayıt Dövlət Universiteti, 1- baş müəllim, 2- assistent*
*Semire Seyidova @ gmail.ru.*

***Açar sözlər:*** *innovasiya, kənd təsərrüfatı, innovasiya siyasəti, texnoloji risklər, istehsal prosesi.*

İnnovasiya fəaliyyəti müəyyən səmərəyə nail olmağı nəzərdə tutur. Bu səmərə onun cəmiyyət üçün faydalılığı və ətraf mühitə təsiri baxımından qiymətləndirilməlidir.

İnnovasiyanın mənimsənilməsinin səmərəliliyi mürəkkəb iqtisadi kateqoriya olub, təsərrüfat və sosial səmərəni, ekoloji gərginliyin azalmasını təmin edən prosesi, elmi-texniki və istehsal fəaliyyətinin nəticələrini özündə əks etdirir.

Kənd təsərrüfatı istehsalını, elmi təminat sisteminin, o cümlədən innovasiyanın mənimsənilməsi altsisteminin səmərəliliyi qarşılıqlı əlaqəli, qarşılıqlı asılı və qarşılıqlı təsirdə olan innovasiya prosesi amillərinin mürəkkəb məcmusu ilə müəyyən edilir. İqtisad elmi innovasiyaların mənimsənilməsinin səmərəliliyini qiymətləndirmək üçün hələ kifayət qədər etibarlı və universal metodlar yaratmamışdır. Bu sahənin elmi-texniki potensialı kifayət qədər şərti mənada - aqrar elmlə və əməkdaşların elmi təminatı ilə məşğul olanların sayına elm-tətbiq tədbirləri üçün sərf edilmiş maliyyə vəsaitlərini innovasiya layihələrinə investisiya qoyuluşlarının artımına əsasən təyin edilir. Elmi-texniki sahənin fəaliyyətinin nəticələri bu sahədə istehsal olunmuş və istehsala tətbiq edilmiş elmi məhsulların sayına, kənd təsərrüfatı məhsullarının istehsal xərclərinə və əhalinin ərzaq məhsulları ilə təminatı dərəcəsinə əsasən qiymətləndirilir. İnformasiya resurslarının qiymətləndirilməsi üçün innovasiya fəaliyyətinin ümumi həcmində informasiya təminatı üçün xərclərin xüsusi çəkisi informasiya bölmələrinin işçilərinin sayı, informasiya işləri üçün istifadə edilən avadanlıqların dəyəri və gücü kimi göstəricilərlə yanaşı, mütəxəssislərin və ekspertlərin subyektiv rəyi və başqa dolayı göstəricilərdən də istifadə edilə bilər. Səmərənin hər hansı konkret qiymətini, səmərəliliyin vahid meyarını seçmək kifayət qədər problemli məsələ hesab edilir. Hətta kənd təsərrüfatında ümumi məhsulun artımı, sahə üzrə ümumi iqtisadi göstəricilər kimi ümumiləşdirici meyarlar da elm amilinin istehsala təsirinin səmərəliliyini əks etdirən vahid meyar ola bilməz və indiyə qədər bu cür sistemlərin səmərəliliyinin təyin edilməsi metodikası barədə vahid fikir yoxdur. Belə hesab edilir ki, kənd təsərrüfatInda elmi texniki dəyişikliklərin səmərəliliyini qiymətləndirmək üçün bir neçə meyardan istifadə edilməsi məqsədəuyğun olar. Hər biri ayrılıqda nəzərdən keçirilə biləcək bu meyarlar konkret və ya kompleks innovasiya dəyişikliyinin məqsəd və vəzifələrini əks etdirməklə ayrı-ayrı kəmiyyətlər və göstəricilər vasitəsilə ifadə edilə bilər (şəkil).

Məhsul istehsalının, müəssisənin, sahənin təsərrüfat fəaliyyətinin səmərəliliyi istehsal xərclərinə nisbətən daha yüksək nəticə əldə edilməsini nəzərdə tutan səmərənin mövcud olması ilə xarakterizə edilən çoxamilli iqtisadi kateqoriyadır. Səmərəlilik təsərrüfatçılıq subyektlərinin fəaliyyətinin təbii, təşkilati, iqtisadi və sosial şəraitinin qarşılıqlı təsirini özündə əks etdirir və bu təsirin, prosesin və ya iqtisadi amilin səmərəli olmasını nəzərdə tutur.

Müasir kənd təsərrüfatı istehsal texnologiyaları ekoloji təhlükəsizliyi təmin etməklə nəzərdə tutulan məhsuldarlığa və iqtisadi səmərəliliyə nail olmaq məqsədi ilə istehsal prosesinin idarə edilməsinə yönəlmiş texnoloji əməliyyatların kompleksidir.

Kənd təsərrüfatı istehsalında yaranmış iqtisadi vəziyyət onun elmi-texniki təchizatının yeniləşdirilməsi probleminin əhəmiyyətini artırmış və səmərəlilik kateqoriyasının bazar oriyentasiyası mövqeyindən yenidən dərk edilməsinə obyektiv zərurət yaratmışdır. Kənd təsərrüfatı istehsalının xüsusiyyətləri, onun təbii, texnoloji və sosial-iqtisadi mahiyyətinin mürəkkəbliyi texnoloji, iqtisadi, sosial və ekoloji səmərəliliyinin fərqləndirilməsini nəzərdə tutur.




***Şəkil.** Kənd təsərrüfatında elmi-texniki inkişafın səmərəliliyinin əsas meyarları*

Texnoloji səmərəlilik mövcud resurslardan istifadə dərəcəsini nəzərdə tutur. Bazar münasibətləri şəraitində ən əhəmiyyətli olmasına şübhə qalmayan iqtisadi səmərəlilik istehsal münasibətlərinin reallaşdırılması dərəcəsi kimi başa düşülür. İqtisadi səmərəlilik müəyyən səmərə əldə edilməsi, istehsaldan alınan gəlirin istehsal xərclərindən geniş təkrar istehsalın baş verməsinə imkan verəcək dərəcədə çox olması ilə ifadə olunur. Bazar iqtisadiyyatı şəraitində xalis iqtisadi səmərəlilik kateqoriyasına istehsal edilən məhsula tələbatı da aid etmək lazımdır, bu isə öz növbəsində məhsulun rəqabət qabiliyyətindən (onun vaxtında istehsal edilməsindən, qiymətindən və keyfiyyətindən) asılıdır. İqtisadi səmərəliliyə istehsal, kommersiya, maliyyə və institutsional baxımdan yanaşmaq lazımdır. Sosial səmərəlilik həyat şəraitinin, sosial inkişaf dərəcəsinin yaxşılaşmasını nəzərdə tutur. Ekoloji səmərəlilik istehsalın məhsuldarlığını artırmaqla ekoloji şəraitin qorunub saxlanılması (yaxşılaşdırılması), əhalinin ekoloji baxımdan təhlükəsiz qida məhsulları ilə təmin edilməsi kimi nəzərdən keçirilir.

Kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi, əkinçiliyin məhsuldarlığının artırılması cəhdləri, əlavə gəlir əldə etmək arzusu yanacaq və sürtkü materialları şək- lində enerji məsrəflərinin artmasından, mexanikləşdirmə vasitələrindən, gübrələrdən istifadə edilməsindən, torpağın münbitliyinin tükənməsindən, çirklənmədən və bunun nəticəsi olaraq ekoloji sistemin bərpası üçün çəkilən məsrəflərdən asılıdır. Ayrı-ayrı göstəricilər məsrəflərin məqsədəuyğunluğu və onların alınan məhsula ekvivalentliyi barədə vahid mənzərə yaranmasını təmin edə bilmir.

Nəzərə almaq lazımdır ki, sərbəst bazar sistemi şəraitində alınmış məhsulların qiymətləri və məsrəf elementləri sabit deyildir və buna görə daim tədqiqat aparılması tələb olunur.

Bununla əlaqədar istehsalın səmərəliliyinin qiymətləndirilməsi üçün dəyişikliklərə az məruz qalan metodika işlənib hazırlanması zəruridir, başqa sözlə desək, elmi tədqiqat və təcrübi - konstruktor işlərinin nəticələrindən yeni texnika və texnologiyalardan, avadanlıq, preparatlar və digər inno- vasiya məhsullarından istifadə olunmasının səmərəliliyinin qiymətləndirilməsi metodologiyasına da düzəlişlər edilməsi zəruridir.

Kənd təsərrüfatında innovasiyanın mənimsənilməsinin səmərəliliyini qiymətləndirmək üçün natural və dəyər göstəriciləri ilə səciyyəvi olan texnoloji; iqtisadi (maya dəyəri, rentabellik); sosial (əməkhaqqının artması, mexanikləşdir mə səviyyəsi); ekoloji (çirklənmə dərəcəsi) və energetik məsrəfləri əks etdirən energetik göstəricilər kompleksinin tətbiq edilməsi məqsədəuyğundur.

## ƏDƏBİYYAT


1. Qasımov Ə. Aqrar - sənaye müəssisələrinin iqtisadiyyatı və idarə edilməsi. Bakı: Nurlan, 2005, 354 s.
2. Məmmədov C. Aqrar bölmədə maddi-texniki təminat və xidmət işinin təşkili. Bakı: Əbilov, Zeynalov və oğulları, 2004, 530 s.



**РЕЗЮМЕ**

**ОСНОВЫ ОЦЕНКИ ЭФФЕКТИВНОСТИ ИННОВАЦИЙ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ**

***Кочарли Х.Р., Сеидова С.Р.***

***Ключевые слова:*** *инновации, сельское хозяйство, инновационная политика, технологические риски, производственный процесс.*

Развитие аграрного сектора как крупнейшей отрасли экономики служит существенной задачей в деле устранения зависимости азербайджанской экономики от нефтяного сектора. Для развития аграрной отрасли Азербайджанской Республики необходима ее переориентация на развитие инновационной направленности.



**SUMMARY**

**THE BASIS OF EVALUATING THE EFFECTIVENESS OF INNOVATION IN AGRARIAN SPHERE**

***Kocharli H.R., Seyidova S.R.***

***Key words:*** *innovation, agriculture, innovation policy, technological risks, the manufacturing process.*

The development of the agricultural sector as the largest sector of the economy is an essential task in removing dependence of Azerbaijani economy on the oil sector. For the development of the agrarian sector of the Azerbaijan Republic is needed reorientation of the industry in the development of innovative orientation.



| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 02.10.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 330.33.01**

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ İNKİŞAFI STRATEJİ YOL XƏRİTƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ KONTEKSTİNDƏ

**ŞÜKÜROVA ESMİRA HƏSƏN QIZI**
*Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci, müəllim*
*tural.hesenzade.93@mail.ru*

***Açar sözlər**: valyuta ehtiyatı, sosial-iqtisadi inkişaf, dövlət proqramları, insan kapitalı, Strateji Yol Xəritələri*

Hər bir dövlətin əsas vəzifəsi daxili təsərrüfat əlaqələrinin möhkəmləndirilməsi və daxili bazarın inkişafı əsasında sosial-iqtisadi inkişafda irəliləyişlər əldə etmələri, milli inkişaf maraqlarının və beynəlxalq əmək bölgüsündən faydanın əldə olunması imkanlarının ahəngdarlığından ibarət olmalıdır. Azərbaycanda dövlətin qarşısına qoyduğu əsas hədəf olaraq əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, yoxsulluq və işsizlik səviyyəsinin aşağı salınması kimi məsələlər məhz birbaşa iqtisadiyyatın davamlı inkişaf göstəricisi ilə sıx bağlıdır. Strateji Yol Xəritələri qlobal çağırışlar, müasir dünyada gedən ziddiyyətli iqtisadi proseslər fonunda dövlətin iqtisadi potensialının güclənməsində, onun rəqabət qabiliyyətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir. Strateji Yol Xəritələrində nəzərdə tutulmuş tədbirlərin uğurla icra edilməsi isə dövlətin bu istiqamətdə sistemli, məqsədyönlü fəaliyyətindən asılıdır və bu istiqamətdə müşahidə edilən cəhdlər diqqətəlayiqdir .

Son illər ərzində Azərbaycanda bir sıra sosial-iqtisadi əhəmiyyətli dövlət proqramlarının qəbulunu da müsbət qiymətləndirmək olar. Dövlət Proqramlarının reallaşdırılması nəticəsində Azərbaycanın valyuta ehtiyatlarının həcmində artım müşahidə edilmiş, neft gəlirlərinin düzgün idarəedilməsi nəticəsində qeyri-neft sektoru və infrastruktur inkişaf etdirilmiş, əhalinin sosial rifah halı, məşğulluq səviyyəsi yüksəlmişdir. Belə ki, 2011-ci ildə ölkənin valyuta ehtiyatları 10481,5 milyon ABŞ dolları müəyyən edilmişdirsə, 2014-cü ildə (neft qiymətlərinin kəskin düşməsi dövrünə qədər) 15193,4 mln ABŞ dolları təşkil etmişdir. Dövlət proqramlarında nəzərdə tutulan regional və ümumi xarakterli iqtisadi-sosial tədbirlər nəticəsində ölkədə yoxsulluq səviyyəsi 2014-cü ildə 5,0%-ə enmiş, işsizlik səviyyəsi 4,9 % təşkil etmişdir. 2014-cü ildən başlayaraq Neftin qiymətinin kəskin enməsi nəticəsində ölkəmizdə büdcə kəsirinin nisbətən artması, maliyyə-bank sektorunda qeyri-sabit proseslər baş vermişdir. Azərbaycanın valyuta ehtiyatları 2014-cü ildə 15193,4 mln ABŞ dollarından 30.12.2016 tarixi üçün 3974,4 mln dollara qədər azalmışdır. Lakin bu tarixdən başlayaraq valyuta ehtiyatlarının həcmində nisbətən artım müşahidə edilmiş və 01.01.2018 tarixinə 5381,2 mln dollara çatmışdır [2].

Ümumiyyətlə maliyyə böhranlarının Azərbaycan iqtisadiyyatına əsas təsir kanalları kimi aşağıdakılar xüsusi qeyd oluna bilər:

1. Neft, qaz və digər yanacaq növləri üzrə ixrac məhsullarının qiymətinin dünya bazarında azalması nəticəsində ticarət saldosunda mənfi göstəricinin meydana çıxması. Ölkədə ixracın 90%-dən, büdcə gəlirlərinin isə 60%-dən çoxu neft sektoru hesabına formalasır. Belə ki, Azərbaycan Respublikasının Mərkəzi Bankının hesablamalarına görə, neftin qiymətinin hər 1% azalması qeyri-neft ÜDM-ni 0.13% azaldır, büdcə xərclərinin hər 1% azalması isə ÜDM-i 0.3% azaldır.

2. Beynəlxalq maliyyə bazarında likvidlik çatışmazlığı və ya banklararası kredit böhranı nəticəsində xarici maliyyə mənbələrinə çıxış imkanlarının məhdudlaşması.

3. Kənardan ölkəyə daxil olan pul gəlirlərinin azalması. Xüsusilə Rusiyadan gələn pul baratların azalması istehlak dinamikasına mənfi təsir göstərir. Baratların hər 1% azalması qeyri-neft ÜDM-in 0.06% azalmasında özünü göstərir.

4. ABŞ və Avropa Birliyi ölkələrində baş vermiş resessiya nəticəsində qlobal tələbin azalması ilə qeyri-xammal ixracının azalması [3, s.17].

Bütün bu proseslər fonunda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində də qeyd edildiyi kimi, Azərbaycanın qlobal çağırışlar fonunda yeni iqtisadi modeli iqtisadiyyatın strukturunda dəyər gətirən sektorların önə çıxarılmasına əsaslanmaqla ticarət sektorunun inkişaf etdirilməsi, hasilata əsaslanmış iqtisadiyyatdan emala əsaslanmış istehsala keçidin təmin edilməsi, dəyər gətirən bazarlara çıxışın təmin edilməsini nəzərdə tutur. Qeyd olunan məsələlər maliyyə-bank sektorunun sağlamlaşdırılması, sahibkarlığın inkişafına yönəlmiş stimullaşdırıcı və hüquqi tədbirlər ilə uzlaşdırılaraq iqtisadiyyatda balanslaşdırıcı mahiyyət kəsb etmişdir. Strateji yol xəritəsində milli iqtisadiyyatın inkişafı üzrə 4 əsas hədəf və 11 sektor üzrə strateji yol xəritələrinin işlənib hazırlanması həyata keçirilmişdir [1, s.5].

Sənəddə müəyyən edilmiş ilk strateji hədəfi maliyyə sisteminin dayanıqlığını təmin edəcək etibarlı fiskal və monetar siyasətin həyata keçirilməsi, bununla da milli valyutanın üzən məzənnəyə keçidinin təmin edilməsi ilə bağlıdır. Azərbaycanın əsas ticarət tərəfdaşı olan region ölkələrində milli valyutanın devalvasiyası və "üzən məzənnəyə" keçidin reallaşması Azərbaycanın xarici ticarət münasibətlərində disbalansın meydana çıxmasına, ölkəyə investisiya cəlb edilməsinə mənfi təsir göstərirdi. Milli valyutanın kursunun sabit saxlanılması bilavasitə ehtiyat valyutalarının xərclənməsinə gətirib çıxardırdı. Bu səbəbdən 2015-ci ildə 2 dəfə devalvasiya və manatın "üzən məzənnəyə" keçidi barədə qərar qəbul olundu. Bu qərar ölkənin manevr imkanlarını genişləndirməklə sosial sahədə əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində tədbirlər görmək üçün imkanlar yaratdı.

Milli iqtisadiyyat perspektivində ikinci hədəf səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin özəlləşdirilmə proqramına cəlb edilməklə iqtisadi səmərəliliyinin təmin edilməsi, rəqabət qabiliyyətinin gücləndirilməsi ilə iqtisadi dinamikliyin təmin edilməsindən ibarət olmuşdur.

Strateji Yol Xəritələrinin üçüncü hədəfi insan kapitalının inkişafı ilə bağlıdır ki, bununla əmək bazarının inkişafının milli iqtisadiyyatın davamlı inkişafına xidmət etməsi hədəflənmişdir. Azərbaycanın son illər neft gəlirlərindən əldə etdiyi valyuta ehtiyatlarını insan kapitalının inkişafına yönəltməsi artıq sosial-iqtisadi inkişafın yeni mərhələsini xarakterizə edir. Dövlət insan kapitalını inkişaf etdirməsi yolu ilə iqtisadiyyatın strukturunda xüsusi ixtisaslaşma yaradaraq strateji inkişaf perspektivlərini təmin etməyə nail olur.

Nəhayət, dördüncü hədəf ölkə biznes, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını nəzərdə tutur. İqtisadiyyatda antiböhran tədbirlərinin əsas hədəflərindən biri məhz ölkədə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləməkdən ibarət olmuşdur. Neft qiymətlərinin aşağı düşdüyü dövrdə ölkədə sahibkarlığın inkişafına dəstək verilməsi üçün ayrılan maliyyə yardımları əlverişli biznes mühiti yaratmaqla yanaşı, sahibkarları böhrandan ziyansız ötüşməsinə imkan yaratmışdır.

Strateji Yol Xəritələrinin icrasının nəticəsi olaraq 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına nəzər saldıqda görürük ki, ölkəmizdə 221 min yeni iş yeri yaradılmışdır ki, bunun da 177 mini daimi iş yeridir. 2016-cı illə müqayisədə qeyri-neft sektorunun məhsulunun 2,5% artması, kənd təsərrüfatı istehsalının 4,1% artması müşahidə edilmişdir. Dünya İqtisadi Forumunun beynəlxalq rəqabətqabiliyyətliliyi üzrə reytinqinin və indeksinin təhlili göstərir ki, son illərdə Azərbaycanda yaradılmış elmi-texniki, maliyyə, kadr potensialı, institusional və normativ iqtisadi baza ölkəmizin yerini beynəlxalq rəqabət reytinqində yerinin xeyli yüksəltməsini təmin etmişdir. Belə ki, 2017-ci il üzrə Dünya İqtisadi Forumunun rəqabət qabiliyyəti üzrə reytinqində Azərbaycan 2016-cı ilə nisbətən iki pillə yüksələrək 35-ci yeri tutmuşdur. Bu, Azərbaycanda sosial-iqtisadi inkişafla bağlı qabaqcıl

dünya təcrübəsinə və milli reallıqlara əsaslanaraq aparılan səmərəli, iqtisadi islahatların və reallaşdırılan Strateji Yol Xəritələrinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir [4].

Bütün bunlardan göründüyü kimi, ölkəmizin gələcək sosial-iqtisadi inkişafı üzrə nəzərdə tutulmuş hədəflərin reallaşdırılmasında Strateji Yol Xəritələri əhəmiyyətli rola malik olmaqla, Azərbaycan Respublikasının sosial-iqtisadi sabitliyinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amilə çevrilir.

Strateji Yol Xəritələri üzrə bütün hədəflərin reallaşdırılması ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərəcəkdir. Həmin hədəflər səmərəli və yüksək rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması baxımından da əhəmiyyətlidir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi” haqqında 1897 nömrəli Sərəncamı. Bakı, 16 mart, 2016. 111 s.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Bakı, 2018, 808 s.
3. Зейналов З.В. Антикризисная политика в банковской сфере: Турция, Российская Федерация и Азербайджан (сравнительный анализ) // Экономика и управление. 2010, №9. с.3-25.
4. https://economy.gov.az

**РЕЗЮМЕ**

**СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ АЗЕРБАЙДЖАНА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ В КОНТЕКСТЕ ОСНОВНЫХ НАПРАВЛЕНИЙ СТРАТЕГИЧЕСКИХ ДОРОЖНЫХ КАРТ**

***Шукюрова Э.Г.***

***Ключевые слова:*** *валютные резервы, социально-экономическое развитие, государственные программы, человеческий капитал, Стратегические дорожные карты*

В статье рассмотрены направления влияния экономического кризиса на экономику Азербайджана. Исследовано влияние Стратегических дорожных карт на уменьшение последствий экономического кризиса. Раскрыты цели Стратегических дорожных карт социально-экономического развития страны.

**SUMMARY**

**SOCIAL AND ECONOMIC DEVELOPMENT OF AZERBAIJAN IN MODERN CONDITIONS IN THE CONTEXT OF THE MAIN DIRECTIONS OF STRATEGIC ROAD MAPS**

***Shukurova E.H.***

***Key words:*** *currency reserves, social and economic development, government programs, human capital, Strategic Road Maps*

The article considers the directions of the influence of the economic crisis on the economy of Azerbaijan. The influence of the Strategic Road Maps on reducing the effects of the economic crisis has been studied. The goals of the Strategic Road Maps of the social and economic development of the country are disclosed.

Daxilolma tarixi: İlkin variant 30.10.2018
Son variant 17.12.2018

**UOT 159.98**

# RƏQƏMSAL SİMVOLLARLA ÜNSİYYƏTİN PSİXOLOJİ TƏHLİLİ

**KƏRİMOVA MƏLƏK FERUZ qızı**
*Xəzər Universiteti,*
*Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru*
mkerimova@khazar.org

***Açar sözlər:*** *rəqəmsal simvollar,ünsiyyət,psixoloji təhlil*

Bəşər tarixinə baxdığımız zaman insan dünyaya gəldiyi gündən etibarən müxtəlif vasitələrlə özünü ifadə etməyə çalışmışdır. Çox qədim insanlar piktoqramlar vasitəsi ilə gil üzərində yazılar yazaraq bunu müasir dövrə qədər çatdırmağa nail oldular. İnsan sosial varlıq olaraq ünsiyyətsiz yaşaya bilməz. Qloballaşma, ünsiyyət və informasiya texnologiyaları anlayışları bir-biri ilə sıx əlaqədardır.Müasir dövrdə sosial ünsiyyət ehtiyacı məhz informasiya texnologiyalarının sayəsində daha da artmışdır. İnternet və texnologiyanın həyatımıza daxil olması nəinki yaşam tərzimizi, eyni zamanda düşüncə tərzimizə də öz təsirini göstərmişdir. Artıq buna bağlı olaraq cəmiyyətlə, digər insanlarla ünsiyyət şəklimiz də dəyişmişdir. 1990-cı illərdə bəzi insanlar tərəfindən istifadə edilən kompyuterler bu illər ərzində evlərə daxil olmağa və populyarlaşmağa başladı. İnternet kəsildiyində həyatı təsəvvür etmək çətinləşmişdir. Demək olar ki, hər evdə artıq kompyuter istifadə edilir. İnsanların texnologiyaya sürətli ayaq uydurmaları, texnologiyanı həyatlarının mərkəzinə qoymaları, öz kimlik, sosial yaşamlarını yenidən qurmaları bəzən qorxuducu görünməkdədir. Buna qarşılıq dünyanın ümumi mənzərəsinə baxıldığı zaman texnologiyadan istifadə etməkdən imtina etmək və ya bu inkişafa ayaq uydurmaq üçün cəhd etməmək imkansız kimi görünməkdədir. Bəşər tarixinin bu yeni mərhələsində texnologiyada yaşanan sıçrayış müsbət tərəfləri ilə yanaşı, mənfiləri də bərabərində gətirmişdir.

Artıq media texnologiyaları cəmiyyətdə insanların necə düşünəcəyi, hiss edəcəyi və hərəkət edəcəyinə necə təsir etdiyini, cəmiyyətin formalaşdığını qeyd edilir. İnsanın yaşadığı vəziyyəti çox qavraya bilmədiyini və əslində, “həssas bir türmədə” yaşadığını qeyd edir. Yeni texnoloji vasitələr bizləri də yenidən formalaşdırır. Artıq 60-70 yaşlarındakı şəxslər də bu texnologiyalar ilə çətin olsa da, üzləşmək və öyrənmək məcburiyyətində qalırlar.

Texnoloji reallıq sayəsində məsələn Skype vasitəsi ilə fiziki olaraq o mühitdə olmasaq da, kompyuter və internet bağlantısı sayəsində zaman və məkan sərhədlərini aşaraq ünsiyyət qura bilirik. Artıq rəqəmsal kodlama nəticəsində qrafiklərin,hərəkətli görüntülərin, səslərin, şəkillərin, məkanların və mətnlərin üzərində rahatlıqla işləyə bilir və dəyişdirə bilirik. Real görüntümüz belə bizi narahat etdiyi zaman arzuladığımız üz ya da bədən formasını müxtəlif internet proqramları vasitəsilə yenidən hazırlaya bilirik. Beləcə, texnologiyanı formalaşdırarkən texnoloji vasitələrimiz də bizi formalaşdırır. Xəyali yaratdığımız yeni obrazlarımızın reallığına inanmaq istəyirik. Texnologiyalar ünsiyyət tərzimizi də dəyişib. “İnteraktiv ünsiyyət” anlayışı mədəniyyətlərə daxil olmuşdur. Bu isə “rəqəmsal mədəniyyət və dünya” anlayışını ortaya qoyur. Bilik, görüntü və səslər artıq rəqəmsal məlumat xarakteri daşıyır. Real olmayan bir mühitdə simulyasyon halı kimi aktivləşmişdir. Günümüzdə artıq rəqəmsal məlumatla tanışlığın yaşı aşağı çəkilmişdir. 2–3 yaşlı yeni dil açan uşaqların belə çox rahatlıqla yeni texnologiyaları istifadə etdiyi müşahidə edilir. Dil sərhədlərinin aşıldığı və vizual simvolların istifadə edildiyi yeni cəmiyyət,yeni mədəniyyət tərzini də bərabərində gətirir. İnsanları yeni rəqəmsal vizual cəmiyyətin üzvü kimi çıxış etməyə nə vadar edir? İnsanların sosial və psixoloji mənbəli ehtiyacları var. Texnologiya və internet də insanların ehtiyaclarını qarşılamada əsas vasitələrdən biridir. Sosial və psixoloji ehtiyacları ödəmək məqsədi

ilə bir araya gələn insanların öz adlarını, cinsiyyətlərini, haralı olduqlarını gizlədərək yaratdıqları "ideal mənlik və kimlikləri" ilə başqa bir xəyali insanla tanış olaraq ünsiyyət qururlar. Beləcə, toxunmatik cəmiyyət ortaya çıxmaqdadır. Toxunmatik cəmiyyət daima informasiya ehtiyacı hiss edən şəxsiyyətlərin yetişməsinə də şərait yaradır. Belə ki, insanların arzu, ehtiyac, ünsiyyət ehtiyaclarını qarşılayan informasiya texnologiyaları digər tərəfdən də onları canlı ünsiyyətdən uzaqlaşdırmaqdadır.

Bəşər tarixinin bu yeni mərhələsində texnologiyada yaşanan sıçrayış müsbət tərəfləri ilə yanaşı, mənfiləri də bərabərində gətirmişdir.İnsanların texnologiyaya sürətli ayaq uydurmaları, texnologiyanı həyatlarının mərkəzinə qoymaları, öz kimlik, sosial yaşamlarını yenidən qurmaları bəzən qorxuducu görünməkdədir. Zeybək, "in" və "out" sözlərindən istifadə edərək müasir dövrdə ünsiyyət tərzini qarşılaşdırır. Ona görə, artıq insanlar üz-üzə ünsiyyət qurmaq yerinə, virtual ünsiyyəti seçirlər. Emosional ünsiyyətin yerini virtual mühitdə sosial paylaşımlar əvəz edir. Real mənliklərdən daha çox virtual mənliklər formalaşır. Üz-üzə, göz-gözə ünsiyyət yerini müxtəlif emojilərdən istifadə edərək qurulan ünsiyyətə buraxıb.

Azərbaycan dilçisi, professor Veysəlliyə görə (2010), semiotika bütün kommunikasiya formalarının əsasında kodlar olan məlumatın göndərilməsi ilə məşğul olur, yəni dilin işlənməsinin və istənilən aktı artıq mövcud səriştəyə əsaslanır. Ona görə kod isə qabaqcadan razılaşma əsasında müəyyən edilmiş işarələr sistemidir ki, onun köməkliyi ilə informasiya təqdim olunur, mənbədən təyinat yerinə çatdırılır. Ünsiyyət öz ifadə tərzini dəyişməkdədir. Artıq insanlar duyğularını yazmaq yerinə, sosial şəbəkələrdə istifadə edilən simvollar-emojilər vasitəsilə qısa yolla duyğularını paylaşmaq yolunu seçirlər.

Müasir dövrdə watsapp və sosial şəbəkədə istifadə edilən emosiyaları, müxtəlif situasiyaları əks etdirən şəkillər artıq ünsiyyətin bir parçasına çevrilmişdir. Xüsusən insan hisslərini əks etdirən "smaylik"lərin global olaraq bütün dünyada istifadəsi diqqəti çəkməkdədir. Belə ki, eyni dili danışmayan iki insan ünsiyyətdə çətinlik çəksə belə, emosiya ya da situasiyanı əks etdirən işarələrin, demək olar ki, bütün insanlar tərəfindən anlaşıldığı görülür. Bu insanın hissləri əksetdirmə xüsusiyyətlərinin bənzər olması ilə sıx əlaqədardır. İnsanın sevindiyi zaman xoşbəxt üz ifadəsi xalqlara görə dəyişməməkdədir. Beləliklə, hər hansı mövzuya razılığını bildirən ya da dostunun facebookda yazdığı şərhə müsbət münasibət bildirən şəxs bunu müxtəlif emojilerlə dəstəkləməkdədir. Emojilər qabaqcadan cəmiyyətdə razılaşdırılaraq qəbul edilmiş işarələr sistemi kimi bütün yazılı informasiyaların ötürülməsi və qəbul edilməsi üçün rəqəmsal koddur.

1999-cu ildə Yaponiyalı Shigetaka Kurita tərəfindən emojilər yaradıldı. Əslində emojilər NTT DoCoMo, Au və SoftBank yapon mobil operatorları üçün hazırlanmışdır və qısa müddət ərzində populyarlaşmağa başladı. Emojilerin bu qədər yayılması səbəblərindən biri də insan hiss və duyğularının ortaq olmasıdır. Emojilərin xalqlar arasında hər kəsin başa düşəcəyi ortaq bir dil olduğunu desək yanılmarıq. Shigetaka Kurita, 1990-cı illərdə Yaponiya NTT Docomo adlı mobil telefon şəbəkəsinin dizayneri kimi şirkət üçün yeni işarələr emojilər yaratdı. (Blagdon, 2013).

Cotap tərəfindən min Amerikan işçi üzərində aparılan tədqiqata əsasən peşəkar ünsiyyətdə Amerika işçilərinin 76%-i üçün bu işarə pis xəbər ola bilər (": (").

Emosional ifadə kimi: 64% xoşbəxt üz, 16% baş barmaqları, 3% ürək, 3% sürpriz üz, 3% göz vuran üzü, 2% baş barmaq aşağı, 1% qəzəbli üz emojilərini daha çox istifadə etməkdədirlər. Müxtəlif ölkələrin istifadə etdiyi emojilər aşağıda göstərilir (Freevectormaps.com saytından götürülüb).

Müasir dövrdə insanların həyat tərzi, yaşama baxış tərzi dəyişmişdir. Təxminən əlli il bundan əvvəl uzaq məsafədə olan yaxın insanlar bir-biri ilə ünsiyyət qurmaq üçün məktub, telegrafdan istifadə edirdilər və bunun üçün uzun müddət gözləyirdilərsə, hal-hazırda belə ünsiyyətin qurulması saniyələr aparmaqdadır. Beləliklə, simvollarla qurulan ünsiyyətdə diqqət çəkici məqamlar aşağıdakı kimi ifadə edilə bilər.




1.Zaman anlayışının insan həyatındakı əhəmiyyəti nəzərə alınsa, qısa yolla fikir və duyğunun ötürülməsi zəruri hal kimi qəbul edilməlidir. Bu bir növ duyğu və düşüncənin yazılması üçün sərf edilən vaxta qənaət kimi də qiymətləndirilə bilər.

2. Ünsiyyət üz üzə olmadığı üçün, duyğuların ifadəsi yalnız simvolik emojilərlə ötürülməkdədir. Bu zaman isə insanın real mənliyinin, o an yaşadığı hisslərin nə qədər gerçək olduğunu təxmin etmək çətinləşməkdədir.

3. Cambridge Universitetinin apardığı bir tədqiqata görə, iş həyatında emojiləri istifadə edənlər etməyənlərə görə daha güclü və diqqət çəkici tiplərdir. Bu səbəblə artıq sadəcə sözlərdən ibarət dümdüz yazışmalar ciddi və soyuq hesab edilməkdədir.

Bir başqa ifadə ilə, rəqəmsal cəmiyyətlə yaşamaqdan uzaqlaşa bilməyəcəyimiz kimi, rəqəmsal mədəniyyətin insanlar arası münasibətə, ünsiyyətə təsirlərinə qarşı həssaslığımız artırmalı və üz-üzə qurulan,səmimi münasibətlərin, emojilərlə ifadə edilən duyğulardan daha real və önəmli olduğu ifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. Blagdon, J. (2013, March 4). How emoji conquered the world. The Verge. Retrieved from http://www.theverge. com/2013/3/4/3966140/how-emoji-conquered-the-world
2. Davis, Mark, and Peter Edberg. 2015. "Unicode Emoji." Technical Report
3. F.Y.Veyselli, Semiotika, Studia Philologica,IV.Mütercim, 2010, 334s.
4. Galloway, A. (2006). Gaming: Essays on algorithmic culture. Minneapolis: University of Minnesota Press.

5. Hochschild, A. R. (2012). The managed heart: Commercialization of human feeling. Berkeley: University of California Press. (Original work published 1979)
6. https://yeniletisim.wordpress.com/2017/03/20/ulkelere-gore-en-fazla-kullanilan-emojiler/
7. Черникова В.Е. Антропологическое измерение коммуникации в условиях информатизации общества // Контекст и рефлексия: философия о мире и человеке. 2016. № 3. С. 50-59.

**РЕЗЮМЕ**
**ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЦИФРОВОЙ КОММУНИКАЦИИ**
***Керимова М.Ф.***

***Ключевые слова***: *цифровые символы, общение, психологический анализ*

Интернет-коммуникация изменила нашу систему общения. Сегодня стало нормой общение при помощи символов, особенно интернет-поколением через социальные медиа. Символы в основном используются для выражения эмоций и психологических аспектов субъективных чувств.

В данной статье рассмотрены отдельные символы, которые обычно используются в социальных медиа, проанализированы на предмет их субъективной и психологической значимости в семантике и коммуникации.

**SUMMARY**
**PSYCHOLOGICAL ANALYSIS OF COMMUNICATION WITH DIGITAL SYMBOLS**
***Karimova M. F.***

***Key words:*** *digital symbols, communication, psychological analysis*

Internet communication has changed our communication system. Today it is not a fad but has become the norm to communicate with symbols, especially the internet generation through social media. Symbols are basically used to express emotions and psychological aspects of subjective feelings.

This article focuses on selected symbols which are generally used in social media and analyzed for their subjective and psychological importance in semantics and communication.

Daxilolma tarixi: İlkin variant 11.09.2018
Son variant 17.12.2018

**UOT 37.013.3**

# ŞAGİRDLƏRDƏ MÜQAYİSƏETMƏ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

**HƏSƏNOVA XALİDƏ SİDQƏLİ qızı**
**ƏLİYEVA AYNURƏ RUSLAN qızı**
*Sumqayıt Dövlət Universiteti, 1-dosent, 2- assistent*
*abdullayev_ayxan@list.ru*

***Açar sözlər**: oxşarlıq, müqayisə, priyom, vərdiş, təlim, forma, tədqiqat.*

Orta məktəbdə apardığımız araşdırmalar əsasında məlum olmuşdur ki, riyaziyyat təlimində müqayisə priyomunun formalaşdırılması kortəbii və məqsədyönlü şəkildə formalaşır. Şagirdlər müəllimin rəhbərliyi altında obyektləri oxşarlıq əlamətləri üzrə, bu və ya digər əlamətlər üzrə eyni zamanda müqayisə edirlər. Lakin bu zaman priyomun mahiyyətinə, onun əməliyyat tərkibinə lazımı diqqət yetirilmirsə, onda hətta dərslərini uğurla oxuyan şagirdlərdə anlayışların oxşar və fərqləndirici əlamətlərini tam şəkildə deyə bilmirlər. Müqayisənin planını, sxemini görə bilmirlər [4,5]. İstənilən ümumtədris bacarıqları və vərdişlərinə uğurla yiyələnmək üçün şagirdlərin aşağıdakı əməliyyatlar sisteminə yiyələnməsini təmin etmək zəruridir:

–uyğun bacarıq və vərdişlərə yiyələnməsini tələb edən məsələlərin qəbulu;

–vərdişlərə, fəaliyyət motivlərinə yiyələnməyin zəruriliyinin dərk olunması;

–bu vərdişlərə yiyələnmək üçün zəruri olan vərdişlərin məzmunu, ardıcıllığı və əməllərin xarakteri, əməliyyatların mənimsənilməsi;

–vərdişlərin möhkəmlənməsi üçün praktik əməllər, əməliyyatlar və çalışmaların yerinə yetirilməsi;

–vərdişlərə yiyələnmə dərəcəsinə cari özünənəzarət;

–vərdişlərin möhkəmlənməsi üzrə korrektə edici əməliyyatlar;

–tipik situasiyalarda bilik və bacarıqların tətbiq;

–qeyri-standart situasiyalarda bilik və bacarıqların tətbiqi;

–gündəlik praktik fəaliyyətdə onun istifadə edilməsi yolu ilə vərdişlərin dərinləşməsi və daha da avtomatlaşması.

Müəllimlər üçün göstərilən bu əməliyyatlar zənciri istənilən ümumtədris bacarığının, xüsusi halda müqayisə priyomunun formalaşması üzrə metodik fəaliyyət sxemi kimi özünü göstərir. Adətən, müəllim müqayisə bacarığının formalaşdırılmasına başladıqda əvvəlcə şagirdlərin bu priyom haqqında nələri bildiyini yoxlayır, müqayisədə hansı səhvlərə yol verir, yəni müxtəlif şagirdlərdə həmin bacarıqların formalaşdırılma səviyyəsi necədir, onlar müqayisə priyomunun mahiyyətini onun əməliyyat tərkibini, tətbiqi məqsədlərini necə başa düşürlər. Şagirdlərə aşağıdakı kimi suallar verməklə müqayisəyə aid söhbət və ya yazı işi aparmaq olar:

1. Müqayisə nədir? Müqayisə edin dedikdə nə başa düşülür?
2. Nə üçün müqayisə aparırlar?
3. Müqayisədə əməllər ardıcıllığı necədir?

Aparılan araşdırma əsasında məlum oldu ki, aşağıdakı kimi praktik idrak tapşırıqları da şagirdlərin müqayisəetmə bacarıqlarına yiyələnmə səviyyəsini aşmağa kömək edir. Məsələn:

a) paralel, köçürmə və simmetriyanın xassələrini müqayisə edin.

b) $a>1$ və ya $0<a<1$ daxil olduqda üstlü funksiyanın xassələrini müqayisə edin.

c) iki məsələnin həlli və ya iki teoremin isbatı üsullarını müqayisə edin.

Bu zaman müəllim tərəfindən hər hansı müdaxilə edilməməlidir.

Göstərilən suallara cavablarını təhlil edərkən bir çox şagirdlərin yalnız tam müqayisə apara bilmədiklərinə deyil, həm də onların praktik biliklərinin səthi olduğuna inandıq. Belə ki, bəzi onuncu sinif şagirdləri düz və düzbucaqlı paralelepipedin tərifini doğru dediklərinə baxmayaraq, məsələ həll etdikdə bu anlayışlar arasında mühüm fərqləri başa düşmədiklərinə görə bir anlayışı digəri ilə qarışdırmışlar. Bir çox 9-cu sinif şagirdləri müqayisədə əməliyyat ardıcıllığını göstərə bilməmiş, biliklərin mənimsənilməsində müqayisənin əhəmiyyətini başa düşməmişlər. Ümumiyyətlə, yuxarı siniflərdə belə müqayisəyə aid tapşırıqlar şagirdlər üçün çətin və adət olunmayandır.

V.F.Palamarçuk müqayisə priyomuna yiyələnməyin beş səviyyəsini göstərmişdir [1,2]. Müqayisə priyomuna yiyələnmənin ən aşağı səviyyəsi – şagird obyektlərin xassələrini onları müqayisə etmədən ardıcıl təsvir edir. Müşahidələr və təcrübə göstərmişdir ki, altı, yeddi və doqquzuncu siniflərin bəzi şagirdlərinə verilən suallara oxşar cavablar vermişlər: bərabəryanlı və bərabərtərəfli üçbucaqları, romb və paraleloqramı müqayisə etmək tapşırığı alaraq belə şagirdlər hər bir xassələrini ayrılıqda göstərərək burada dayanmışlar. Buradan belə nəticə çıxarmaq olar ki, şagirdin sinifdən-sinfə keçməsi ilə müqayisə bacarığı öz-özünə formalaşmır.

Müqayisə bacarığına yiyələnmənin ikinci priyomu – şagird əlamətlər sistemindən istifadə edərək əvvəlcə bir anlayışın xassələrini, sonra isə digərinin xassələrini sadalayır.

Cavabın nümunəsi: Bərabəryanlı üçbucağın iki tərəfi, bərabərtərəfli üçbucağın isə üç tərəfi bərabərdir. Bərabəryanlı üçbucaqda iki, bərabərtərəfli üçbucaqda isə üç bucaq bərabərdir. Bərabəryanlı üçbucaqda oturacağa çəkilən median həm tənbölən həm də hündürlükdür. Bərabərtərəfli üçbucaqda isə medianların hər biri bu xassələrə malikdir. Bərabəryanlı üçbucaqda medianlar, hündürlüklər, tənbölənlər uyğun olaraq bir nöqtədə kəsişir, bərabərtərəfli üçbucaqda da eyni qayda ilə olur, lakin bərabəryanlı üçbucaqda bu üç nöqtə üst-üstə düşmür, bərabərtərəfli üçbucaqda isə üst-üstə düşür. Birinci halda daxilə və xaricə çəkilmiş çevrələrin mərkəzləri üst-üstə düşmür, ikinci halda isə üst-üstə düşür. Bərabəryanlı üçbucaqda yalnız medianlar kəsişdikdə təpədən başlayaraq 2:1 nisbətində bölünürlər [3], bərabərtərəfli üçbucaqda isə tənbölənlər və hündürlüklər də bu nisbətdə bölünür (tipik səhv ondan ibarətdir ki, şagirdlər bərabəryanlı üçbucaqda da tənbölən və hündürlüklərin kəsişmə nöqtəsində həmin nisbətdə bölündüyünü hesab edirlər).

Tədqiqatın gedişində aydın olmuşdur ki, əlamətlərin seçilməsi üzrə belə müqayisəni yalnız ayrı- ayrı şagirdlər müstəqil şəkildə apara bilmiş, bəzi siniflərdə isə heç bir şəxs yerinə yetirməmişdir. Burada yalnız müqayisə bacarığı deyil, həm də materialı dərindən bilmək, sistemləşdirmə bacarığı, xassələrin şərhi ardıcıllığının dəyişdirilməsi tələb olunur. Müəllim anlayışların ayrı-ayrı xassələrinə aid ardıcıl proyeksiyalanıb digər anlayışın xassələrini şagirdlər birincinin xassələrinə uyğun müstəqil söylədikdə nəticələr daha yaxşı olmuşdur.

Cədvəlin bir tərəfi örtülür və şagirdlər bu hissədə təsvir olunan üçbucağın xassələrini danışırlar.

Müqayisə priyomuna yiyələnməyin üçüncü yolu: şagirdlər obyektlərin yalnız ortaq xassələrini, yalnız fərqli xassələrini və ya tam olmayaraq həm bu, həm də digər xassələrini deyirlər.

Cavabın nümunəsi: paraleloqram və düzbucaqlı – dördbucaqlılardır, onların diaqonalları kəsişir və kəsişmə nöqtəsində yarıya bölünür, qarşı tərəfləri bərabərdir, düzbucaqlının bütün bucaqları bərabərdir və paraleloqramın cüt-cüt bucaqları bərabərdir.

Cavabda həm ortaq, həm də fərqləndirici xassələr deyilməmişdir. Şagirdlərin cavablarında sistem yoxdur, onlar gah ortaq, gah da fərqləndirici xassələri sadalamış, bəzi xassələri isə sadalamamışlar. Bu səviyyə əksər 9 və 10-cu sinif şagirdlərinə aiddir.

Müqayisə priyomunu mənimsəmənin dördüncü səviyyəsi: şagird bütün ümumi xassələri, bütün fərqləndirici xassələri deyir, müqayisənin məqsədini göstərir, nəticələr çıxarır, mühüm əlamətləri müqayisə edir (tam müqayisə).

***Cədvəl 1.***

| Bərabəryanlı üçbucağın xassələri | Bərabərtərəfli üçbucağın xassələri |
|---|---|
| 1. İki tərəfi bərabərdir<br>2. Oturacağa bitişik bucaqlar bərabərdir<br>3. Oturacağa çəkilən median həm tənbölən, həm də hündürlükdür.<br>4. Təpədən hesab etməklə medianlar kəsişmə nöqtəsi ilə 2:1 nisbətində bölünürlər.<br>5. Median, tənbölən, hündürlüklərin kəsişmə nöqtələri üst-üstə düşmürlər.<br>6. Daxilə və xaricə çəkilmiş çevrələrin mərkəzləri üst-üstə düşmür. | 1. Üç tərəfi bərabərdir<br>2. Üç bucağı bərabərdir<br>3. Bütün medianlar həm də tənbölən və hündürlüklərdir.<br>4. Təpədən hesab etməklə medianlar, tənbölənlər və hündürlüklər kəsişmə nöqtəsilə 2:1 nisbətində bölünürlər.<br>5. Median, tənbölən, hündürlüklərin kəsişmə nöqtələri üst-üstə düşür.<br>6. Daxilə və xaricə çəkilmiş çevrələrin mərkəzləri üst-üstə düşür. |

"Çoxüzlülər" mövzusu üzrə 10 – cu sinifdə prizma və piramidanın xassələrinin müqayisəsinə aid tapşırıqların yerinə yetirilməsində cavabın nümunəsi aşağıdakı şəkildədir.

Ortaq xassələr: çoxüzlüdürlər, üzləri müstəvi çoxbucaqlılardır, hər bir tilin ətrafında yalnız ikiüzlü bucaqlardır, yan səthlərini üzlərin sahələrinin cəmini tapırlar, üçbucaqlı prizma və piramidadan başqa diaqonal kəsikləri vardır. Düzgün prizmalar və piramidalar var. Bu iki anlayışın hər birində iki mühüm əlamət vardır. Həmin əlamətlərdən biri ortaqdır – oturacaqda düzgün çoxbucaqlı yerləşir, prizma və piramidada müxtəlif kəsiklər çəkmək olur. Ümumi halda onları izlər metodu ilə qurmaq olar. Fərqli xassələr cədvəl 2 də göstərilmişdir.

***Cədvəl 2.***

| Prizma | Piramida |
|---|---|
| 1. Yan üzləri – paraleloqramlardır<br>2. İki üzü bərabər, paralel yerləşən çoxbucaqlılardır.<br>3. Bir oturacağın istənilən nöq-təsindən digər oturacağın müstəvisinə hündürlük çəkmək olar.<br>4. Üçbucaqlıdan başqa prizmanın diaqonalları var.<br>5. Hər bir təpədə üç müstəvi bucağı birləşir.<br>6. $V = S_{ot} \cdot H$<br>7. $S_{yan} = P_{kəs} \cdot l$<br>l – yan til<br>$P_{kəs}$ perpendikulyar kəsiyin perimetridir. | 1. Yan üzləri ortaq təpəli üçbucaq-lardır.<br>2. Bir üzü çoxbucaqlıdır.<br>3. Piramidanın təpə nöqtəsindən oturacaq müstəvisinə hündürlük çəkilir<br>4. Piramidanın diaqonalları yoxdur.<br>5. Piramidanın təpəsində n müstəvi birləşə bilər.<br>6. $V_p = \frac{1}{3} S_{ot} \cdot H$<br>7. $S_{yan} = \frac{1}{2} P_{ot} \cdot l$<br>l − apofem<br>$P_{ot}$ oturacağın perimetri |

Nəticələr: prizma və piramidanın bir sıra ortaq və fərqli xassələri ona görə vardır ki, həm prizma, həm də piramida çoxüzlülərdir. Onların fərqli xassələri də vardır, fərqliliyin səbəbi bu anlayışların növ əlamətlərinin fərqli olmasıdır.

Müqayisənin məqsədi öyrənilən anlayışların daha dərindən dərk edilməsi, prizmalar və piramidaların xassələrinin fərqləndirici, materialın rasional öyrənilməsi, təkrar biliklərin sistemləşməsi, mühüm əlaqələrin müəyyən edilməsidir.

Müəllim əgər bu priyomu məqsədyönlü ifadə etməsə, onda müşahidə və təcrübələrimizin göstərdiyi kimi, belə müqayisəni onuncu siniflərin heç bir şagirdi müstəqil olaraq yerinə yetirə bilməyəcəkdir.

Müqayisə priyomuna yiyələnmənin beşinci səviyyəsi dördüncüdən onunla fərqlənir ki, şagird bu səviyyədə yalnız düzgün müqayisə etməyi deyil, həm də onu digər tədris fənlərinin öyrənilməsində tətbiq etməyi bacarır, yəni onun əqli fəaliyyətində müqayisə ümumiləşmiş priyoma çevrilir. Praktikada müqayisənin həndəsədən cəbrə köçürülməsi müşahidə olunmuşdur.

Priyomun kortəbii formalaşmasında belə köçürməni yalnız ayrı-ayrı şagirdlər reallaşdırır. Konkret sinfin şəraitini bilərək, müəllim ona çalışır ki, müqayisə motivasiyası şagirdlərə aydın olsun, onlarda formalaşan priyoma maraq oyatsın. İşi müxtəlif şəkildə təşkil etmək olar. Məsələn: şagirdlərin diqqətini bəzi səhvlərə yolverilmə səbəblərinə yönəltmək olar. Funksiyanın ekstremumları anlayışını parçada onun ən böyük və ən kiçik qiymətləri ilə eyniləşdirmək $2^x > 3, \left(\frac{1}{2}\right)^x > 3$ bərabərsizliklərini səhv həll etmək, obyektlərin xassələrini qarşı qoya bilməmək, mühüm fərqləri aydınlaşdırmağı bacarmamağın səbəbləri, söhbət zamanı qanunauyğunluğun axtarılması üçün müqayisənin əhəmiyyətini açmaq, konkret misallarda (məsələn, üçbucağın bucaqları cəminin ölçülmələri nəticələrini müqayisə etmək və nəticə çıxarmağı, a-nın müxtəlif qiymətlərində y = ax düz xəttinin koordinat sistemində vəziyyətlərinin dəyişilmələrini izləyərək onları müqayisə etmək və nəticə çıxarmağı təklif etmək olar) onun əhəmiyyətini göstərmək, müqayisə zamanı materialın daha yaxşı yadda qaldığını aydınlaşdırmaq olar.

## ƏDƏBİYYAT


1. Adıgözəlov A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Dərs vəsaiti. Bakı: ADPU, 2015, 230 s.
2. İbrahimov F.A. Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi metodikası. Bakı: Mütərcim, 2014, 201 s.
3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Çaşıoğlu, 2002, 512 s.
4. Колягин Ю.М. Методика преподавания математики в средней школе. М.: Прсвещение, 1977, 480 с.
5. Əliyev R.İ. Psixologiya Bakı: ADPU, 2008, 120 s.


## РЕЗЮМЕ
## МЕТОДЫ РАЗВИТИЯ НАВЫКОВ СРАВНЕНИЯ У ШКОЛЬНИКОВ

***Гасанова Х.С., Алиева А.Р.***

***Ключевые слова:*** *подобие, сравнение, прием, навык, обучение, форма, исследование.*

В статье рассматриваются пути формирования осознанного усвоения сравнительного приёма при обучении математике. В процессе этого в старших классах были проведены некоторые эксперименты. Были исследованы формы сравнительного приёма и показано усвоение учениками навыков сравнения.

## SUMMARY
## DEVELOPMENT METHODS OF COMPARISON SKILLS AT STUDENTS

***Hasanova X.S., Aliyeva A.R.***

***Key words:*** *similarity, comparison, method, habit, training, form, research.*

In the article the ways of formation and comprehension of the method of comparison in math are investigated. In this field some experiences have been done over senior classes. The forms of the methods of comparison are investigated and the acquisition of comparison by students are shown.


| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 11.09.2018 |
| | Son variant | 17.12.2018 |

**UOT 373.3**

# MƏSƏLƏ HƏLLİ VASİTƏSİLƏ İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İDRAK FƏALLIĞININ ARTIRILMASI YOLLARI

**HEYDƏROVA MƏFTUN NİZAMİ qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
*meftun.heyderova.82@mail.ru*

***Açar sözlər:*** *təhsil islahatları, təhsildə keyfiyyət, riyaziyyat təlimi, riyaziyyatın tədrisi prosesi, riyazi çalışmalar, idrak fəallığı.*

Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir.

Təhsil sisteminin təkmilləşdirilməsi, təhsildə keyfiyyət məsələsi vacib və aktual problemlərdəndir. Bu problemlərin həlli üçün şəxsiyyətyönümlü təhsil sisteminin yaradılması məqsədilə təhsilin mühüm komponentlərindən olan məzmun islahatları həyata keçirilir. Orta məktəblərinin ibtidai siniflərində tədris edilən fənlərin, o cümlədən riyaziyyat fənninin tədrisinin müasir dövrün tələblərinə uyğun qurulması üçün məktəb sistemində bir sıra dəyişikliklər edilmişdir. Aparılan təhsil islahatları, o cümlədən ibtidai siniflərdə fənn kurikulumlarının tətbiq edilməsi müəllimlərdə bir sıra çətinliklər yaratsa da, şagirdlərin fəallığının təmin edilməsinə, idrak fəallığının artırılmasına, təfəkkür xüsusiyyətlərinin, yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətinin yüksəldilməsinə şərait yaradır.

Riyaziyyat təlimini məsələsiz təsəvvür etmək mümkün deyil. Riyaziyyat təlimində verilən biliklər müxtəlif metodlarla şərh olunur və müvafiq çalışmalar vasitəsilə möhkəmləndirilir. Riyazi məsələlər şagirdi düşünməyə, axtarışlar aparmağa, mülahizələr söyləməyə, öz fikirlərini əsaslandırmağa sövq edən ən səmərəli didaktik vasitələrdən biridir. Eyni zamanda məsələ həlli təlimdə fənlərarası əlaqələrin reallaşdırılmasına geniş imkanlar yaradır, riyazi bilikləri həyatla, praktika ilə, istehsal prosesləri ilə əlaqələndirməyə imkan verir.

Riyaziyyatın tədrisi prosesinin məsələ həlli vasitəsilə qurulması şagirdlərdə bir sıra mühüm qabiliyyətlərə malik şəxsiyyətin formalaşmasına imkan yaradır. Məsələ həlli vasitəsilə şagirdlərin şəxsiyyət kimi formalaşmasını həyata keçirmək o zaman mümkündür ki, məqsədyönlü məsələlər tipi seçilsin. İbtidai sinif şagirdlərinin idrak fəallığının artırılması dedikdə hamıya məlum olan və şagirdə məlum olmayanı müstəqil şəkildə əldə etməsi başa düşülür. Bu proses idraki məsələlərin həllində, həll üsulunun düşünüb tapılmasında, məsələnin həll edilməsində özünü göstərir. Bu tip məsələlər konkret təlim materialının şüurlu mənimsənilməsinə xidmət edir, həm də şagirdlərin təfəkkür fəaliyyətinin fəallaşdırılması yolu ilə riyazi təlimin inkişafetdirici funksiyasının reallaşdırılmasını təmin edir.

Təlim materiallarının müstəqil surətdə mənimsənilməsini təmin edən, idrak fəallığının artırılmasına yönəlmiş məqsədyönlü şəkildə seçilmiş idraki məsələlər sisteminin və onların həllinin öyrədilməsi metodikasının işlənib hazırlanması riyaziyyat təlimində şagirdlərin idrak fəallığını artırar, eyni zamanda ümumi və riyazi inkişaf səviyyəsini yüksəldər.

Lakin məktəb təcrübəsinin təhlili və müşahidələr şagirdlərdə məsələ həll etmək bacarıqları və vərdişlərinin kifayət qədər formalaşmadığını göstərir. Təlim prosesində riyazi məsələlərin həlli vasitəsilə şagirdlərin idrak fəallığının artırılması probleminə kifayət qədər diqqət yetirilmir.

Təhsil islahatının tələblərinin yerinə yetirilməsində, ilk növbədə, müəllim özü dəyişməli, təlimin yeni texnologiyalarını bilməli, proqram və dərsliklərdən, fənn kurikulumunun tələblərindən

irəli gələn dəyişiklikləri tətbiq etməyi bacarmalıdır. Yeni metodlardan istifadə zamanı müəllim şagirdlərin idrak fəallığının artırılmasına, müstəqil düşünmə qabiliyyətinin inkişafına nail olur.

Öyrətmə, bilik, bacarıq və vərdişlərə səmərəli şəkildə yiyələnmə əlverişli təlim metodlarının seçilməsindən çox asılıdır. Öyrənənlərdə dərin elmi məlumatlara yiyələnmə, yaradıcılıq qabiliyyətlərinin inkişafı, müstəqil işləmə bacarığı, başqaları ilə birgə çalışma qabiliyyətləri məhz düzgün seçilmiş təlim üsulları vasitəsilə həyata keçirilir.

İstənilən elmin, o cümlədən fənlərin tədris metodikasının metodoloji əsasını idrak nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyə idraka, dialektik inkişaf prosesi kimi baxır. Şəxsiyyətə yönəlmiş təlim prinsipinə uyğun olaraq təlim prosesi yalnız şagirdin tədqiqatçı mövqeyinə, onun idrak maraqlarına əsaslananda səmərəli olur. Riyaziyyat təlimininində həm problem situasiyadan, həm də riyazi məsələlərdən istifadə deyilən fikirləri tamamlayır. Hər tədqiqat isə ilk növbədə problemin qoyulmasından başlanır. Qeyd edək ki, problemi riyazi məsələ vasitəsilə də qoymaq olar. Məsələ həlli prosesində fəaliyyətin məqsədi onun müəyyən nəticəyə istiqamətli olmasıdır. Məhz məqsəd vasitəsilə əməllər seçilir, məsələnin həllinə şərait yaradılır.

Problemli vəziyyət–məsələnin həllində ziddiyyətlərin, müxtəlif nöqteyi-nəzərlərin və variantların mövcudluğunu ehtiva edən vəziyyətdir.

Aşağıdakı xüsusiyyətləri nəzərə almaqla problemli vəziyyətin yaradılması və tətbiqi mümkündür:

1. Diqqəti cəlb edən və maraqlı məsələlər;
2. Tədqiqat aparmaq üçün mümkün olan riyazi məsələlər;
3. Şagirdlərin imkanlarına müvafiq (onun inkişaf səviyyəsinə uyğun gələn, lakin asan olmayan) riyazi məsələlər;
4. Şagirdə öz bacarığını həyata keçirməyə imkan verən riyazi məsələlər.

Şagirdlərin idrak fəallığının artırılmasında riyazi məsələlərin həlli müstəsna əhəmiyyət kəsb edir. Bu gün məktəbin qarşısında duran əsas vəzifə şagirdlərin elmi biliklərə yiyələnməsini təmin etməkdən ibarətdir. Yeni biliklərin əldə edilməsinə tələbatın əsaslı şəkildə yaradılması şagirdlərin idrak fəallığının artırılmasına şərait yaradır. İdrak fəaliyyətini aktivləşdirmək üçün müxtəlif təlim tiplərinin tədqiq etmək, şagirdlərdə maraq oyadaraq tərbiyə etmək, biliyə tələbat oyatmaq və s. səmərəli nəticələr verər. Hətta təlimdə müstəqil işlərin tətbiqi, təlimin həyatla əlaqələndirilməsi və s. məsələlərə üstünlük vermək daha məqsədəuyğun olar.

İdrak- şagirdin yeni bilik əldə etməsi prosesi, əvvəllər məlum olmayanın kəşfi deməkdir. İdrakın mühüm nailiyyətləri şagirdin həmin prosesdə fəal rolu ilə əldə edilir. İbtidai siniflərin riyaziyyat təlimində məsələ həlli zamanı şagirdlərdə ayrı-ayrı psixi proseslərin inkişaf səviyyəsini, riyazi bilik, bacarıq və vərdişlərini tədqiq etmək problem kimi qarşıya qoyula bilər.

İdrak fəallığının artırılması dedikdə-şagirdlərin təlimə aktiv münasibətlərinin elə təzahür forması, elə fəaliyyəti nəzərə alınır ki, orada şagird könüllü olaraq bütün qüvvə və qabiliyyətlərini səfərbər edir, böyük məsuliyyət hissi ilə və intensiv surətdə işləməklə verilən təlim tapşırıqlarını müəyyən edilən vaxt ərzində yerinə yetirir. Pedaqoqlar idrak fəallığının üç səviyyəsini qeyd edirlər:

- ilk səviyyəsi reproduktiv-təqlidedici, yəni tapşırıqları təqlid etməklə icra etmək fəallığıdır;
- ikinci səviyyəsi axtarıcı–icraedici fəallıqdır ki, nisbətən yüksək dərəcədə müstəqil fəaliyyət göstərməsində təzahür edir;

Nəhayət, üçüncü səviyyə-yaradıcı fəallıq hesab edilir ki, bu onun ali səviyyəsi olmaqla şagirdin özünün qarşısına vəzifə qoyması və onu yerinə yetirmək üçün orijinal yollar axtarıb müəyyən etməsi ilə səciyyələnir.

Y.M.Kolyagin yazır: "...Bu gün məktəbin vəzifəsi yalnız gəncləri müasir bilik və bacarıqlarla silahlandırmaq deyil, həm də onları gələcəkdə ardıcıl olaraq yeni biliklər əldə etməyə hazırlamaqdır."

Riyaziyyat təliminin səmərəli metodunu bütövlükdə vasitələrin, üsul və fənlərin əlaqəli birliyində (əyani-induktiv, deduktiv və s.) axtarmaq lazımdır. Bizim dövr üçün xarakterik olan problemli təlimin rolunun güclənməsində məsələ həlli aparıcı rol oynayır.

Məsələ həlli vasitəsilə dərsin təşkilini aşağıdakı metodik sxem üzrə qurmaq olar:

1. a) şagirdlərdə verilmiş məsələyə maraq oyatmaq;
   b) verilmiş məsələnin məqsədyönlülüyünü motivləşdirmək;
2. Həll olunan məsələnin sadə məsələlərə ayrılması və həll edilməsi;
3. Məsələni xarakterizə edən şərtin öyrənilməsi.
4. Məsələnin həlli prosesi:

a) məsələnin ayrı-ayrı hissələrinin və bütövlükdə müzakirəsi;

b) məsələnin çətinlik dərəcəsinin, onun xüsusi məsələlərə ayrılması imkanlarının və həll ardıcıllığının müəyyənləşdirilməsi;

c) əsas məsələnin sistemə salınması, məsələni həll etmək üçün zəruri məlumatların toplanması, həmin məlumatlardan həll prosesində istifadə edilməsi.

5. Məsələnin həllinin araşdırılması və alınan nəticənin müzakirəsi.
6. Həll edilmiş məsələnin konkretləşdirmə və ümumiləşdirmə imkanlarının öyrənilməsi.
7. Məsələnin həllinin öyrənilməsi, daha səmərəli həll qaydalarının axtarılması.
8. Alınmış həllin doğruluğunun yoxlanılması.
9. Görülmüş işlərin nəticələndirilməsi və əsas işin müəyyən edilməsi.

Belə qənaətə gəlmək olar ki, məsələ həlli təkcə qazanılan nəzəri biliklərin möhkəmləndirilməsi ilə bitmir, həmçinin şagirdlərin idrak fəallığının artırılmasına kömək edir. Məsələni həll etmək elə şagird fəallığını artırmaq deməkdir. Kiçikyaşlı məktəblilərin məsələ həllində qarşılaşdıqları çətinliklər birbaşa onların təfəkkür xüsusiyyətləri ilə bağlıdır. Uşaqlar bu çətinlikləri aradan qaldıra bilərlər, lakin onların təfəkkürü kifayət qədər mücərrədlik keyfiyyətinə malik deyil. Bu cür proseslər psixoloqlarda fikir ayrılıqlarına səbəb olmuşdur.

Deməli, ibtidai siniflərin riyaziyyat təlimində şagirdlərə təklif olunan məsələlər onların maraq dairəsində olmalıdır. Çünki həll olunan məsələ şagirddə riyaziyyat fənninə maraq yaratmalıdır. Belə olduqda idrak fəallığının artırılmasına nail olmaq olar.

Digər tərəfdən riyazi məsələlərin həlli prosesində idrak fəallığını artırmaq üçün kifayət qədər vasitə və metodlar vardır. Bunlardan biri də şagirdlərin müstəqil işidir. Müstəqil işlərin təşkilində və həyata keçrilməsində riyazi məsələlərin həlli əvəzedilməzdir.

Riyaziyyat təlimində ibtidai sinif müəllimi tərəfindən hər bir məsələ həll olunarkən problemli vəziyyət yaradılmalıdır. Bu məqsədlə müəllim məsələdəki ziddiyyətləri qabarda bilər. Müxtəlif baxışların və variantların toqquşmasından yaranan vəziyyət əsasında sual qoyaraq şagirdləri düşünməyə hazırlamaq mümkündür. İkinci vacib cəhət dialoq və əməkdaşlıq şəraitinin yaradılması ilə bağlıdır. Təcrübə göstərir ki, müxtəlif vəziyyətlərin, görüşlərin müqayisəli təhlili məhz dialoq və əməkdaşlıq şəraitində aparılarsa, problemin ən effektiv həllinə nail olmaq mümkündür. Üçüncü cəhət şagirdin və müəllimin funksiyası, rolu ilə bağlıdır. Çalışmaq lazımdır ki, şagird tədqiqatçı, müəllim bələdçi kimi çıxış etsin. Şagird və müəllim göstərilən rollarda çıxış etdikdə, şagird məsələni müstəqil tədqiqat yolu ilə həll edir, müəllim isə yalnız bələdçi kimi, ən zəruri hallarda məsələyə müdaxilə edir.

Müəllimin əsas funksiyası fasilitasiya (əlverişli şərait yaratmaq) olmalıdır. Fasilitasiya bir proses kimi yönəldici, köməkçi sualların effektli tətbiqinin köməyi ilə diskussiyaların təşkili və şagirdlərin fəallaşdırılması prosesindən ibarətdir.

Vacib elementlərdən biri də psixoloji dəstək–hörmət və etibar əsasında prosesin təşkil olunmasıdır. Təlimin psixoloji mühitinin hörmət və etibar əsasında qurulması şagirdlərdəki inamsızlıq hissini aradan qaldırmaqla bərabər, ən zəif şagirdin belə yaradıcı prosesə qoşulmasına təkan verir. Çünki müəllim hər bir şagirdə hörmət və ehtiramla yanaşaraq şagirdlərdə belə bir inam yaradır ki, onun işi yaradıcı bir işdir. Bu zaman şagird uğursuzluq qorxusu, səhv fikir söyləyəcəyinə

görə tənbeh edilmək, aşağı qiymət almaq təhlükəsindən uzaqlaşır və özünə inam hissi ilə bütün dərs boyu çalışır. Deməli, əgər şagird 45 dəqiqə müddətində müstəqil olaraq yeni materialı öyrənirsə, bu idrak fəallığının artırılması hesabına baş verir.

İbtidai siniflərin riyaziyyat təlimində həll olunan riyazi məsələlərin həlli aşağıdakı üç əsas şərti ödəməlidir:
a) müəllim tərəfindən riyazi məsələlərin hazırlanıb şagirdlərə verilməsi;
b) məsələnin şərtinə uyğun problem-situasiya yaratmaqla məsələnin həllinin müəyyənləşdirilməsi;
c) verilmiş məsələnin şagirdlərin müstəqil yerinə yetirmələrinə şərait yaratmaq.

Standart olmayan məsələlərdən də istifadə etmək olar. Bu məsələlərlə həm problem situasiya yaratmaq olar, həm də şagirdlərin idrak fəallığını artırmaq. Deyilənləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- yeni materialın qavranılmasını təmin edən məsələlər;
- idrak fəallığının artırılmasını təmin edən məsələlər;
- bilik, bacarıq və vərdişlərin təkmilləşdirilməsini təmin edən məsələlər;
- kombinə edilmiş məsələlər.

Məqsədəuyğun seçilmiş riyazi məsələlər yeni anlayışların formalaşdırılmasını və təlimin həyatla əlaqləndirilməsini təmin edir. Riyazi məsələlərin həlli vasitəsilə şagirdlər həyatda zəruri olan praktik bacarıq və vərdişlərə yiyələnirlər.

İbtidai məktəbin riyaziyyat təlimi bir problem kimi metodist-riyaziyyatçıları, pedaqoqları, psixoloqları və bu sahədə iş aparan tədqiqatçıları daim düşündürmüşdür. Ona görə də ibtidai siniflərdə məsələ həlli təlimi riyaziyyatın yaradıcı, müəyyən qədər çətinliyi olan bir qolu olduğundan pedaqogika və psixologiyada məsələlərə adi qaydada təfəkkürün inkişafı, biliklərin mənimsənilməsi üçün vacib bir təlim vasitəsi kimi baxılır.

Məsələ-elə bir anlayışdır ki, ona konkret tərif verilmir. Geniş mənada hər hansı bir işi yerinə yetirmək, həll etmək mənasında işlədilir. İbtidai məktəbin riyaziyyat təlimində şagirdlərin idrak fəallığını artırmaq məqsədilə onlara riyazi bilikləri aşılamaq üçün tədris "məsələsindən" və ya "didaktik məsələdən" istifadə olunur. "Məsələ" dedikdə-kəmiyyətlər arasındakı asılılıqlara və kəmiyyətlərin verilmiş qiymətlərinə əsasən, məchul qiymətini tapmaq tələbi başa düşülür.

İbtidai siniflərdə riyazi məsələlərin həlli vasitəsilə nəzəri materialın mənimsənilməsində təfəkkür ilə idrakın qarşılıqlı əlaqəsi həlledici əhəmiyyətə malikdir. Belə ki, məsələ həlli zamanı yaddaşdan istifadə etmədən müsbət nəticələrə nail olmaq mümkün deyil. Ona görə də müəllim müvafiq əməliyyatları aparmaq üçün zəruri olan biliyin formalaşmasına birinci dərəcəli iş kimi baxmalıdır.

Belə nəticəyə gəlmək olar ki, ibtidai sinif şagirdlərinə məsələnin həlli yollarını öyrədən zaman, ilk növbədə, onlara, məsələnin analizini düzgün aparmaq bacarığını və məsələnin strukturunu təyin etmək qabiliyyətini aşılamaq lazımdır. Həll olunan riyaziyyat məsələlərinin şagird təfəkkürünə təsiri böyükdür. Məsələ həllinin tipologiyasını geniş şəkildə işləyib tətbiq etməklə yüksək nəticələr əldə etmək olar.

## ƏDƏBİYYAT


1. Abbasov N.R. Riyaziyyatın ibtidai kursunun təlimi prosesində şagirdlərin ümumi inkişaf səviyyəsinin yüksəldilməsi. Bakı, 2004, 158 s.
2. Adıgözəlov A.S., Həsənova X.S. Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası. Bakı: ADPU-nun nəşri, 2011, 305 s.
3. Ağayarov M.H. Şagirdlərin riyazi yaradıcılığının inkişaf etdirilməsi. // Fizika, riyaziyyat və informatika tədrisi. 2002, №1, s. 12-15.
4. Колягин Ю.М. Задачи в обучении математике / Обучение математике через задачи и обучение решению задач. II ч. М.: Просвещение, 1977, 144 с.

**РЕЗЮМЕ**
**ПУТИ ПОВЫШЕНИЯ ПОЗНАВАТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧЕНИКОВ НАЧАЛЬНЫХ КЛАССОВ С ПОМОЩЬЮ РЕШЕНИЯ ЗАДАЧ**
***Гейдарова М.Н.***

***Ключевые слова:*** *реформы образования, качество образования, обучение математике, процесс преподавания математики, математические упражнения, познавательная активность.*

В начальных классах имеются широкие возможности для расширения познавательной деятельности учащихся с помощью математических задач. Применение систем задач, направленных на повышение познавательной деятельности учеников, дают возможность использовать развивающую роль начального курса математики, а также способствуют повышению интереса к данному предмету.

**SUMMARY**
**METHODS OF INCREASING COGNITIVE ACTIVITY OF STUDENTS OF INITIAL CLASSES WITH THE HELP OF SOLVING PROBLEMS**
***Heydarova M.N.***

***Key words:*** *educational reforms, the quality in education, the teaching of mathematics, the teaching process of mathematics, mathematical exercises, cognitive activity.*

In the initial classes there are ample opportunities to expand cognitive activity with the help of mathematical problems. The application of systems of tasks aimed at improving the cognitive activity of students makes it possible to implement the developing role of the initial course of mathematics, and also causes a rise in interest in this subject and a serious increase in the formation of the line of activity and the results of learning activity.

Daxilolma tarixi: İlkin variant 12.09.2018
Son variant 17.12.2018

**UOT 37.626.9**

# FƏNLƏRARASI ƏLAQƏNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İNFORMATİKA FƏNNİNİN ROLU

**BAYRAMOVA NÖVRƏSTƏ SİDQƏLİ qızı**
*Sumqayıt Dövlət Universiteti, assistent*
abdullayev_ayxan@list.ru

***Açar sözlər:*** *fənlərarası inteqrasiya, proqram, dərslik, ənənəvi təhsil, müasir təhsil.*

Sistematik fənlərarası əlaqənin təsiri altında müxtəlif fənlərin təlim materialları əsasında vahid strukturun tələbi ilə bacarıqlar formalaşır və bu da fənlərarası xarakter kəsb edir. Bir neçə fənnin ortaq suallar və anlayışlar əsasında əlaqəsi fənlərarası əlaqədir.

Konkret hərəkətlərin qarşılıqlı əlaqəsinin təmin edilməsi və ümumiləşdi-rilməsini özündə ehtiva edən ümumfənn bacarıqlarının inkişafında fənlərarası əlaqədən istifadənin rolu danılmazdır. Fənlərarası əlaqə şagirdlərin ümumi fənlər üzrə bacarıqlarının ardıcıl inkişafının effektiv metodudur. Bu və ya digər tapşırıqların yerinə yetirilməsi zamanı şagird fəaliyyətinin planlaşdırılması: məqsədin irəli sürülməsi, onu əldə etmək üçün yol və metodların müəyyən edilməsi, məlumatların toplanması, nəticələrin qiymətləndirilməsi, korrektə işləri – bütün bunlar ümumi fənlər üzrə bacarıqların məcmusudur.

Ümumi fəaliyyətin konkretləşdirilməsi bu və ya başqa fənnin materialına, formalaşmış praktik bacarıqlara və tapşırıqların özəlliyinə uyğun olaraq həyata keçirilir. Praktik fəaliyyətin təşkili və planlaşdırılmasını həyata keçirərkən tələb olunan ümumi bacarığa malik olmaq ona görə lazımdır ki, şagirdləri ictimai əhəmiyyət kəsb edən istehsalat əməyinə cəlb etmək, onlarda həyat üçün minimum bacarıqları inkişaf etdirmək mümkün olsun.

Məsələn, VII-IX siniflərdə riyaziyyat kursunun ardıcıllıqla verilməsi fizika fənninin öyrənilməsinə hazırlığı təmin edir. Tutaq ki, bərabərsürətli hərəkət haqqında məlumat öyrənərkən xətti funksiya (VII sinif) haqqında məlumatlardan istifadə edilir. Yaxud elektrik bəhsini öyrənərkən düz və tərs mütənasiblikdən (VI sinif) istifadə olunur. Tənliklərin, bərabərsizliklərin həlli zamanı kalkulyatordan istifadə edilməsi şagirdlərdə informatika kursunun və hesablama texnikasının əsas anlayışları (alqoritm, proqram və s.) haqqında xeyli təsəvvür yaratmış olur. Hazırda istifadə olunan Cəbr kursu və analizin başlanğıcı (X sinif) riyazi metodların nə qədər universal xarakter daşıdığını bildirir, tətbiqi vəzifələrin yerinə yetirilməsi üçün əsas mərhələləri müəyyən edir. Bu da məhz kompüterlə işləmək üçün vacib olan məsələdir.

Bundan başqa, VII-XI siniflərdə həndəsə məzmun xəttinin aksiomatik şəkildə qurulması şagirdlərin fizika, kimya, biologiya fənlərindən öyrənəcəyi istənilən elmi nəzəriyyənin məntiqi şəkildə qurulmasında baza rolunu oynayır. Həndəsə məzmun xətti üzrə öyrənilən biliklər informatika, rəsmxət, astronomiya, əməyin texnologiyası və fizika fənlərində geniş tətbiq edilir. Məsələn, mexanika bəhsini öyrənmək üçün vektor və koordinat metodlarını bilmək lazımdır, yaxud optikanı öyrənmək üçün fəzada simmetriyanın xüsusiyyətlərini bilmək gərəkdir. Riyaziyyat dərslərində fərdi kompüterin tətbiqi, vizual tədqiqatlar, riyazi təcrübə və canlı "şəkillər" (məsələn, daxilə çəkilmiş düzgün çoxbucaqlının tədricən dairəyə yaxınlaşma prosesini təsvir etmək) yaratmaq üçün məqsədəuyğundur.

O cümlədən informatikanın rəsmxət, fizika və riyaziyyatla əlaqəsi şagirdlərin müasir konstruktor və texniki fəaliyyət üçün lazım olan politexniki bilik və bacarıqlarını inkişaf etdirir. Müəllim təlimin müasir dövrdə praktik istiqamə-tinin güclənməsini, onun əməklə əlaqəsini nəzərə alıb, çalışmalıdır ki, fənlərarası əlaqədən istifadə edib şagirdlərin bütün elmləri əhatə edən ümumi

təsəvvürünü genişləndirsin. Belə bacarıqlar bir–biri ilə əlaqəsi olan fənlərə aid biliklərin tətbiq olunduğu fəaliyyət növünə uyğundur [1].

Qeyd edim ki, nəyi öyrətmək və necə öyrətmək hər zaman pedaqogikanın araşdırdığı aktual problem olmuşdur. Bu nöqteyi-nəzərdən proqram və dərsliklərin tarixinə qısa nəzər salmağı vacib bilirəm. Fikrimcə, məhz "bacarıqlar" anlayışına müxtəlif təhsil aspektindən yanaşma dünyanın mənzərəsində ciddi dəyişikliklər yaratmışdır. Bu yanaşmalardan biri arxada qalmış sovet təhsili ilə bağlıdır. Vaxtilə bacarıqların bir deklorativ bəyanat olduğunu hamı yaxşı bilirdi. Bunun nəticəsidir ki, indi keçmiş sovet respublikaları, əsasən, resurslar hesabına yaşayır və texnologiyaların tətbiqində qərb ölkələrindən xeyli geri qalır. Bütün bunlar ənənəvi təhsillə müasir təhsilin fərqləri fonunda baş verir. Aşağıdakı cədvəldə ənənəvi təhsillə müasir təhsilin fərqləri göstərilmişdir [2].

| | |
|---|---|
| Təlimin hərəkətverici qüvvələri: təhdidlər, əmrlər, cəzalar, qiymətlər, başqaları ilə yarışmalar. | Təlimin hərəkətverici qüvvələri: sevinc, yaradıcılıq, öz inkişafını, təkmilləşdiyni hiss etmə, biliklərin genişləndirilməsi, özünəinam. |
| Dərsdə işləmə üsulları: izah, təkrar, çalışmalar, əzbər öyrənmək, nümunə üzrə hərəkət. | İş üsulları: müasir fəaliyyət, evrestik müsahibə, axtarış, dərs-disput, şagirdlə müəllim arasında humanist münasibətin formalaşması |
| Ənənəvi dərsin təşkili: frontal işin dominantlığı şəraitində hissələrə bölünmə, yeni materialı mənimsətmək üçün hazırlıq sual-cavabı, onu ümumiləşdirmək, dərketmə səviyyələrini aydınlaşdırmaq (problem suallar), möhkəmləndirmə. | Müasir dərsin təşkili: suallara cavab axtarışı, həyati (praktik və elmi) məsələlərin həlli, fərdi və qrup şəklində işin üstünlük təşkil etməsi, bu zaman dərsin mərhələlərinin birində kollektivin ümumi məqsədini ifadə etmək üçün fasiləsiz frontal metoddan istifadə. |
| Müəllimin rolu: bütün hakimiyyət onundur, hər şeyi yalnız o bilir, şagirdin taleyi müəllimin əlindədir, onunla mübahisə etmək olmaz və s. | Müəllim köməkçidir, böyük dostdur, məsləhətçidir, əməkdaşdır, şagirdlə birlikdə həqiqət axtarandır, şagirdlərin kamil yetişməsinə kömək edir. |
| Müəllimin ilk vəzifəsi: informasiyanı elə səviyyədə çatdırır ki, o, şagirdin beynində tez və möhkəm qalsın, uzun müddət saxlanılsın. Şagirdlərin borcu isə informasiyanı öz yaddaşında möhkəm saxlamaq və müəllim soruşan zaman onu realizə etməkdir. Məqsəd müəllim tərəfindən biliyin qiymətləndirilməsini təmin etməkdir. | Müəllimin ilk vəzifəsi: şagirdləri idraki və praktik məsələlərin həlli prosesinə cəlb etmək üçün təşkil etmək və hazırlamaqdır. Şagirdlərin vəzifəsi kollektiv əməkdə iştirak etmək, daim özünü və ətraf mühiti təkmilləşdirməkdir. |
| Təlimin son nəticəsi: şagirdlərin bilik, bacarıq və vərdişlərinin sorğu və imtahanla müəyyən olunmuş proqramlaşdırılmış standartalara uyğunluğu. Bu uyğunluq nümunələrlə eynilik təşkil edir. | Müasir məktəbdə təlimin son nəticəsi: şagirdin əldə etdiyi bilikləri yeni situasiyaya uyğun tətbiq etmək bacarığı, özünü dərk etmək və biliyini təkmilləşdirmək bacarığı, yaradıcılıq cəhdləri, peşə ustalığına malik olmaq. |

Bu cədvəl aydın göstərir ki, ənənəvi təlimlə müasir təlimin fərqləri hansı səviyyədədir. Bu bacarıqlar təbiət-riyaziyyat elmlərinin hesabat-ölçü, hesablama, qrafik, eksperimental konstruktor və tətbiqi sahələri üçün çox önəmlidir. Praktik bacarıqlar onunla xarakterizə olunur ki, müxtəlif yenilik və ya çətinlik dərəcələrində işlək olsun, problemin aradan qaldırılmasını təmin etsin. Ümumfənn bacarıqları (bir sıra fənlər vasitəsilə əldə edilmiş biliklərdən istifadə etməklə hər hansı bir tapşırığın öhdəsindən gəlmək) yalnız fənlərarası əlaqələr vasitəsilə mənimsədilə bilər. Bu zaman müxtəlif fənləri tədris edən müəllimlər bacarıqların ümumi strukturundan çıxış edərək şagirdlərdən eyni bilik və bacarıq tələb edir. Ona görə də pedaqoqlar öz şagirdlərinə tapşırıqlar verərkən onların yaradıcılıq qabiliyyətini inkişaf etdirmək üçün uyğun işlər tapşırmalıdır.

Riyaziyyat fənni üzrə proqramlarda perspektiv fənlərarası əlaqələr qeyd edilib. Bu, informatikadan hesablama vərdişlərini öyrənərkən çox zəruridir. Kompüterlə işləmək vərdişləri riyaziyyatdan hesablamaya aid məsələləri yerinə yetirmək, faiz hesablamaq, bir neçə ədədin orta

hesabi qiymətini tapmaq və funksiyaların qrafiklərini qurmaq üçün dəyərli imkandır. Riyaziyyatdan düsturlarla iş zamanı əldə edilən vərdişlər informatika fənni üzrə proqramlaşdırma zamanı lazımdır. "Mathcad" proqramı ilə iş zamanı isə diferensial hesablamaların elementlərinə ehtiyac hiss olunur. Həndəsə məzmun xətti üzrə öyrənilən fiqurlar və onların əlamətləri rəsmxət fənnindən praktik işlər zamanı geniş tətbiq edilir. Eyni zamanda əməyin texnologiyası və rəsmxət fənnindən ölçmə, nişanlama zamanı əldə olunan bacarıqlar həndəsə məzmun xəttinin öyrədilməsində istifadə edilir. Fənlərarası praktik bacarıqların formalaşdırılması üçün kompleks tapşırıqların yerinə yetirilməsi önəmli rol oynayır. Lakin dərsliklərin hazırlanmasında bu məsələlər kifayət qədər nəzərə alınmamışdır.

Riyaziyyat dərsliklərində (xüsusilə 5-6-cı siniflərdə) müəlliflər müxtəlif praktik işlərin, bir çox fənlərin yaxın mövzular üzrə bacarıq və vərdişlərin yaranmasını nəzərə almamış, yalnız müstəqil, yoxlama, imtahan xarakterli məsələlərdən istifadə etmişlər.

Şagirdlərin praktik bacarıqlarını formalaşdıran ayrıca tədris mövzuları və kurslar üzərində işləyərkən müəllimlərin metodik işini stimullaşdırmağın da əhəmiyyəti az deyil. Bu cəhdlər təlimin inkişafedici və tərbiyəvi effektini yüksəldir, şagirdlərin peşə istiqamətlərinin müəyyən edilməsində onlara yardımçı olur. Müəllim ilk növbədə çalışmalıdır ki, onun şagirdləri başa düşsün ki, ümumi fənlər üzrə biliklər ayrı-ayrı praktik işlərin və əmək fəaliyyətinin yerinə yetirilməsində nə qədər vacibdir. Bu praktik işlərin, layihələrin hazırlanması riyaziyyat fənn proqramlarında və dərsliklərində heç nəzərə alınmamış, informatika fənn dərsliklərində isə (8-ci sinifdə) nəzərə alınmışdır. Halbuki zamanın tələbi daha çox bu xarakterli praktik işlərin yerinə yetirilməsindədir [3].

Nəzərə almaq lazımdır ki, bir sıra ölkələrdə məktəblərin yuxarı siniflərindəki təhsil sistemi ikisəviyyəlidir, yəni təlim fənləri ya baza, ya da profil fənn kimi öyrənilə bilər. Yuxarı sinif şagirdlərinin profil sistemli təhsili üç tip fənləri əhatə edir: baza ümumtəhsil fənləri, profil ümumtəhsil fənləri və elektiv (seçmə) tədris fənləri. Müxtəlif tədris fənlərinin seçilməsi imkan verir ki, təlim-tərbiyə prosesini şagirdlərin marağı əsasında qurmaq mümkün olsun. Bununla da, təhsilin diferensiasiyasını təmin etmək imkanı yaradılmış olur.

Tədris fənləri dinamik bir anlayışdır, o, ölkənin ictimai-siyasi quruluşundan asılıdır. Azərbaycanda informatika və İKT-nin hazırkı və gələcək rolunu qədərincə qiymətləndirdikləri üçün onu ümumtəhsil məktəblərinin bütün siniflərində tədris etməyə qərar vermişlər. Bu, o deməkdir ki, informatika və İKT baza səviyyəsində öyrənilir. İlboyu hər sinifdə saatların miqdarı dərs ilini təşkil edən həftələrin miqdarına uyğundur. İnsanın fəaliyyət sahəsi kimi informatikanın spesifikası ondan ibarətdir ki, o, özünün metod, texnologiya və vasitələri ilə insan fəaliyyətinin digər sahələrinin mənimsənilməsi və praktik tətbiqində ciddi rol oynayır. Ona görə də əvvəldə qeyd etdiyimiz kimi, informatika və İKT-dən həm də nəticə kimi istifadə edilir [1].

Məlumdur ki, dövlət təhsil standartları təhsil sahəsində sınanmış beynəlxalq meyarlar və ümumbəşəri dəyərlər əsasında hazırlanır. İnformatika sahəsində təhsil standartlarına əsasən minimum tələblər aşağıdakılardan ibarətdir:

- informasiya və kommunikasiya texnologiyalarının müasir cəmiyyətdə rolunu və əhəmiyyətini şərh edir;
- gündəlik həyatda və məişətdə lazım olan məsələləri kalkulyator rejimində həll edir;
- kompüterdə istifadə olunan əməliyyat sistemini tənzimləyir;
- mətn redaktorunda sadə olmayan mətnləri yığır və formatlaşdırır, mətnə müxtəlif yaddaşlardan şəkillər daxil edir;
- qrafik redaktorda müəyyən çətinlik dərəcəsinə malik şəkillər hazırlayır, şəklin atributlarını dəyişdirir, onları müvafiq mətnlərə daxil edir;
- obyektin xassələrini, parametrlərini və mühitini təyin edir, obyektlər sistemini təsnif edir;
- obyektin informasiya modelini qurur və onun təbii modelini təsvir edir;
- informasiyanın xassələrini, kodlaşdırılmasını, qəbul edilməsi və ötürülməsini nümunələr əsasında izah edir;
- şəbəkə növləri vasitəsilə məlumatları axtarır, toplayır, sistemləşdirir və onlardan

məqsədyönlü istifadə edir;
- müxtəlif təqdimatlar hazırlayır və nümayiş etdirir;
- elektron cədvəllərdən istifadə etməklə yeni sənədlər tərtib edir;
- müxtəlif şəbəkə növlərindən, şəbəkənin işini təmin edən proqram təminatından istifadə edir, sadə ”Web” səhifələr yaradır [2].

Yuxarıda sadaladığımız fəaliyyət növləri “informativ” kompetensiyalar adı ilə məlumdur və müasir təhsil sistemində əsas kompetensiyalardan sayılır. Buna görə də yuxarı siniflərdə müxtəlif fənləri öyrənərkən informasiya texnologiyalarından geniş istifadə edilir.

İnformatikanın məqsəd və vəzifələri, onun müasir dünyada və əsas təhsil kompetensiyalarının formalaşmasında rolu göstərir ki, onun mütləq öyrənilməsinə ehtiyac var. İnsan həyatında informasiyanın dominant rolunu nəzərə alıb gənclərimizə bu fənn vasitəsilə günün ən aktual məsələlərini öyrətməliyik. Bu, gəncləri yeni, informasiyalaşmış əmək həyatına öyrədir. Həmin əmək şəraitində informasiya texnologiyalarından geniş istifadə edilir. Ona görə də, informatika fənninin ümumtəhsil məktəblərinin bütün siniflərində məcburi kurs kimi tədris edilməsi rasional seçimdir. Bir halda ki, istənilən vətəndaş informasiyaya aid problemlərlə üzləşmək məcburiyyətində qalacaq, deməli, o həm də bu fənni məcburi şəkildə öyrənməlidir.

İnformatikanın riyaziyyatla əlaqəsi, əsasən, məsələlər formasındadır. Lakin bu, elə təsəvvür yaratmamalıdır ki, I sinifdə informatika kursundan fənlərarası əlaqə yaratmaq mümkün deyil. Düzdür, dərsə ilk dəfə gələn şagird riyazi məsələlərin nə olduğunu bilmir. Lakin I sinifdə informatika fənni üzrə mövzular birbaşa riyaziyyatla əlaqəlidir. Dərsliyin ikinci mövzular bölməsindəki (“əşyalar arasında münasibət”) dediklərimizə əyani sübutdur: eynidir-fərqlidir, böyükdür-kiçikdir, uzundur-qısadır, uzaqdır-yaxındır, ağırdır-yüngüldür, azdır-çoxdur və s. bütün bunlar göstərir ki, lap aşağı siniflərdə nəinki informatika ilə riyaziyyatın əlaqəsi mövcuddur, hətta elə mövzular var ki, onu bu və ya digər fənnə aid etməkdə çətinlik çəkirik. Bu fikirləri əsaslandırmaq üçün 2-ci bölmənin “Mühakimələr” yarımbölümünə də müraciət etmək olar. Burada da sırf riyazi anlayışlara rast gəlirik: doğrudur-doğru deyil, mümkündür-mümkün deyil.

5 və 6-cı sinfin dərsliklərində digər dərsliklərdən fərqli olaraq, fənlərarası inteqrasiya cədvəlləri verilmişdir. Bu cədvəllərdə tədris olunan mövzularla birlikdə informatikaya aid mövzuların əlaqədə olduğu fənlərin adı və alt standartları verilmişdir [4, 5].

“Alqoritmləşdirmə” və “Proqramlaşdırma” mövzuları üzrə müxtəlif riyazi məsələlərin həlli vacib rol oynayır. Bununla belə, şagirdlərə informatikanın əhəmiyyəti, onun metodlarının riyaziyyata tətbiqi nümayiş etdirilir. Lakin VIII sinif üzrə fənlərarası inteqrasiyaya nəzər salsaq, görərik ki, burada proqramlaşdırma bölməsinin heç riyaziyyatla inteqrasiyası yoxdur [6].

Dərsliklərdə mövzulardan asılı olaraq fənlərarası əlaqəni müəlliflər eyni səviyyədə təmin edə bilməmişlər. Bu, həm də hər bir müəllifin fərdi seçimi ilə bağlıdır. Onların bəzisi mövzuları təqdim etmək üçün fənlərarası əlaqəyə daha çox yer vermişlər. V sinifdə [4] “İnformasiyanın kodlaşdırılması” mövzusunu təqdim edərkən müəllif “Sual və tapşırıqlar” bölümündə belə bir sualla müraciət edir: riyazi ifadələri yazarkən hansı işarələrdən istifadə edirsiniz? Digər bir misal. İnformasiya modelinin növləri haqqında danışarkən şagirdlərə belə bir sualla müraciət edilir: riyaziyyat və təsviri incəsənət dərslərində hansı informasiya modellərini qurmusunuz? İnformasiyanı ölçmək olarmı?

Sistemləşdirmənin əsasları şagirdlərə imkan verir ki, riyaziyyat fənnindən məsələləri həll edə bilsin, bununla da öz həllinin düzgünlüyünü yoxlaya bilsin, birtipli geniş hesablamalarda kompüterin məhsuldar imkanlarından istifadə edə bilsin. Mətn və qrafik redaktorların və prosessorların öyrənilməsi, saytların yaradılması, təqdimatların hazırlanması – bütün bunlar təkcə informatikadan tədris materiallarının öyrənilməsi vasitəsilə deyil, həm də digər fənlərdən öyrənilən materialların köməyi ilə baş verir. Formalaşdırma və modelləşdirmə universal sahələr olduğu üçün onları müxtəlif fənn sahələrində işlənən məsələlər vasitəsilə öyrənmək məqsədəmüvafiqdir.

Əgər məsələlərin həlli və məzmunu başqa fənlər üzrə biliklərin olmasını tələb edirsə, deməli, informatikadan qazanılan bacarıqlar sırf tətbiqi xarakter daşıyır. Buradan da belə nəticə hasil olur

ki, fənlərarası əlaqə tətbiqi xarakter daşıyır. İnformatikanın tətbiqi xarakterinin başlıca vəzifəsi informatlaşan cəmiyyətdə şagirdləri peşə üçün hazırlamaqdır. Müasir mütəxəssis informatikanın metodlarından istifadə etməyi bacarmalı, konkret məsələni həll edərkən bu metodların içərisindən ən uyğun gələnini seçməlidir. Buradan da orta məktəbdə fənlərarası əlaqə xarakterli metoddan istifadəyə zərurət yaranır. Əlbəttə, bu zaman yuxarı sinif şagirdlərinin peşə seçimində onların fərdi maraqlarını nəzərə almaq lazımdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası təhsil sisteminin informatlaşdırılması proqramı. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin saytı. http://edu.gov.az/az/page/83/599
2. Azərbaycan Respublikası ümümtəhsil məktəbləri üçün riyaziyyat və informatika fənni üzrə təhsil proqramı (kurikulumu): Bakı, 2013, 121 s.
3. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 280 s.
4. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: ümumtəhsil məktəblərinin 5-ci sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2012, 96 s.
5. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: ümumtəhsil məktəblərinin 6-ci sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2013, 112 s.
6. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: ümumtəhsil məktəblərinin 8-ci sinifləri üçün dərslik. Bakı: Bakınəşr, 2008, 128 s.

## РЕЗЮМЕ
## РОЛЬ ПРЕДМЕТА ИНФОРМАТИКИ В СОЗДАНИИ МЕЖДИСЦИПЛИНАРНЫХ СВЯЗЕЙ

***Байрамова Н.С.***

***Ключевые слова:*** *междисциплинарная интеграция, программное обеспечение, учебник, традиционное образование, современное образование.*

Для развития минимальных жизненных навыков, учащиеся должны обладать необходимыми знаниями и умениями. С целью расширения общего кругозора учеников, педагог должен уметь связать свой предмет с другими дисциплинами. Учитывая доминирующую роль информации в нашей жизни, необходимо с помощью предмета «Информатика» обучать молодёжь решению различных актуальных задач. Современный молодой специалист должен уметь не только использовать различные методы информатики при решении конкретных задач, но и уметь применять наиболее приемлемые из этих методов.

## SUMMARY
## THE ROLE OF THE SUBJECT INFORMATICS IN THE CREATION OF INTERDISCIPLINARY CONNECTIONS

***Bayramova N.S.***

***Keywords:*** *interdisciplinary integration, software, textbook, traditional education, modern education.*

To develop minimum life skills, students must have general knowledge and skills. In order to broaden the general outlook of the students, the teacher should be able to connect his subject with all disciplines. Considering the dominant role of information in our lives, it is necessary, with the help of the subject "Informatics", to teach young people to solve various urgent problems. A modern young specialist should be able to use various methods of computer science, as well as in solving specific problems, be able to apply the most acceptable methods.

| | | |
|---|---|---|
| Daxilolma tarixi: | İlkin variant | 12.09.2018 |
| | Son variant | 17.12.2018 |

## MÜNDƏRİCAT ∗ СОДЕРЖАНИЕ ∗ CONTENTS


**Dilçilik**

1. *Мамедов Р.С.* К вопросу о фонологической ориентированности артикуляционных классификаций звуков (на материале вокализма азербайджанского языка) 4
2. *Eminli B.İ.* Kişi və qadın nitqinə gender yanaşma 9
3. *Рзаева Г.Д.* Эволюция семантики наречий в русском литературном языке XVIII-XIX вв. 12
4. *İbayev N.A.* Zəlimxan Yaqubun əsərlərində atalar sözləri və məsəllər 15

**Ədəbiyyatşünaslıq**

5. *Bayramov A.Ə.* Mikayil Müşfiqin yaradıcılığında folklor motivləri 18
6. *Abuzərli A.R.* Hüseyn İbrahimov yaradıcılığı akademik İsa Həbibbəylinin tədqiqatlarında 22
7. *Cümənov D.A., Hüseynova A.S.* "Kitabi-Dədə Qorqud" mövzusu Mirəli Seyidovun yaradıcılığında 27
8. *Babayeva A.N.* Mustafa Çəmənlinin "Ölüm mələyi" əsərində qadın obrazları 33

**Tarix**

9. *Süleymanov N.S.* Postmodern mühitdə "İslam və demokratiya" mövzusu 37
10. *Məhərrəmova S.S., Məmmədov Ə.F.* Türk xalqlarının mədəniyyəti (1946-1960-cı illər) 42
11. *Quliyev Ə.F., Səmədov Y.A.* Azərbaycan tolerant və multikultural ənənələr ölkəsi kimi 47
12. *Aslanov S.C.* Xalq təbabətindən səhiyyə sisteminə (XIX əsrin ortaları-XX əsrin əvvəlləri, Bərdə şəhərinin arxiv materialları əsasında) 50

**İqtisadiyyat**

13. *Hüseynova M.S., Tağıyeva A.V.* Müəssisənin daxili maliyyə infrastrukturunun formalaşması mexanizmi 54
14. *Амиров И.Б., Пирвердиева С.А.* Экономическая оценка способности развития металлургических предприятий 58
15. *Abbasova S.İ.* İqtisadi artımın dövlət tənzimlənməsi 62
16. *Mirzəyev R.Z.* Lənkəran-Astara iqtisadi rayonunda aqroparkların yaradılma xüsusiyyətləri 68
17. *Köçərli H.R., Seyidova S.R.* Aqrar sferada innovasiyaların səmərəliliyinin qiymətləndirilməsinin əsasları 72
18. *Şükürova E.H.* Müasir dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafı Strateji Yol Xəritələrinin əsas istiqamətləri kontekstində 75

**Pedaqogika, psixologiya, metodika**

19. *Kərimova M.F.* Rəqəmsal simvollarla ünsiyyətin psixoloji təhlili 78
20. *Həsənova X.S., Əliyeva A.R.* Şagirdlərdə müqayisəetmə bacarıqlarının inkişaf etdirilməsi yolları 82
21. *Heydərova M.N.* Məsələ həlli vasitəsilə ibtidai sinif şagirdlərinin idrak fəalliğının artırılması yolları 86
22. *Bayramova N.S.* Fənlərarası əlaqənin həyata keçirilməsində informatika fənninin rolu 91

Kompüter yığımı *S.Şahverdiyeva*
Texniki redaktor *E.Həsrətova*
Dil dəstəyi *Linqvistik mərkəz*

Çapa imzalanmışdır: 17.12.2018-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 23,18 ş.ç.v.
Sifariş . Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.
-------------------------------------------------------
Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

**Müxbir ünvan:**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70

**Web: www.sdu.edu.az**
**E-mail: sdu.elmixeberler@mail.ru**